Azərbaycan Araşdırmaları Vəqfi

**NƏSİB NƏSİBZADƏ**

# AZƏRBAYCAN XARİCİ SİYASƏTİ

**(1918-1920)**

**"Ay-Ulduz" nəşriyyatı**
**Bakı - 1996**

**RƏYÇİIƏR**

Dərgah QÜDRƏTOV - tarix elmləri doktoru, professor
Süleyman ƏLİYARLI - tarix elmləri doktoru, professor
Mövsüm ƏLİYEV - müstəqil tədqiqatçı
Həmid ƏLİYEV - tarix elmləri doktoru, professor
Rizvan ZEYNALOV - tarix elmləri doktoru, professor
Mahmud İSMAYIL - tarix elmləri doktoru, professor,
Azərbaycan EA-nın müxbir üzvü
Elmira MURADƏLİYEVA - tarix elmləri doktoru, professor
Tadeuş SVYATAXOVSKİ - professor. (ABŞ)
Şövkət TAĞIYEVA - tarix elmləri doktoru, professor
Cəmil HƏSƏNOV - tarix elmləri doktoru, professor

Nəsibzadə N.L.
Azərbaycanın xarici siyasəti (1918-1920-ci).
Bakı, Ay-Ulduz, 1996, 304 səh.

Monoqrafiyanın tədqiqat obyekti Azərbaycan Demokratik Respublikasının xarici siyasətinin əsas istiqamətləridir. Fevral inqilabından sonra Azərbaycanda yaranmış siyasi vəziyyət, Azərbaycan nümayəndələri ilə Osmanlı nümayəndələri arasında danışıqlar, iki ölkə arasında hərbi, siyasi, mədəni və b. sahələrdəki əməkdaşlıq araşdırılır. Mudros sülhündən sonra yaranmış yeni şəraitdə Azərbaycan diplomatiyacının Antanta ölkələri və onların nümayəndələri ilə işi diqqət mərkəzinə çəkilib. Gürcüstan, Ermənistan, Cənub Qərbi Qafqaz Respublikası, Dağıstan va İranla çətinliklə qurulan münasibətlərə böyük yer verilib. Azərbaycan nümayəndə heyətinin Paris sülh konfransında iştirakına xüsusi hissə həsr edilmişdir. Azərbaycanın dövlət müstəqilliyinin itirilməsində müxtəlif xarici qüvvələrin iştirakı da geniş araşdırılır. Əsərə əhalinin milli tərkibi haqqında statistik cədvəllər və xəritələr əlavə edilmişdir. Kitab bütün təbəqələrdən olan oxucular üçün nəzərdə tutulmuşdur.

H 0802000000001 96
049

Müəllifin redaktəsində nəşr olunur.
© Ay-Ulduz nəşriyyatı, 1996

## İÇİNDƏKİLƏR

**NƏŞRİYYATDAN**

GİRİŞ

**Birinci fəsil**

MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN TƏŞƏKKÜLÜ VƏ OSMANLI İMPERİYASI
§1.Fevral inqilabından sonra Azərbaycanda siyasi vəziyyət və Osmanlı nümayəndələri ilə təmaslar
§2.İstiqlal bəyannaməsi və Azərbaycan diplomatiyacının ilk addımları
§3. Hərbi sahədə Azərbaycan Osmanlı əməkdaşlığı

**İkinci fəsil**

AZƏRBAYCANIN ANTANTA ÖLKƏLƏRİ İLƏ ƏLAQƏLƏRİNİN YARANMASI
§1. Bakının Müttəfiqlər tərəfindən işğalı və ona müqavimət
§2. İtaliya mandatı məsələsi

**Üçüncü fəsil**

AZƏRBAYCANIN QONŞU ÖLKƏLƏRLƏ MÜNASİBƏTLƏRİ
§1. Azərbaycan Gürcüstan münasibətləri və Borçalı məsələsi
§2. Azərbaycan Ermənistan münasibətləri və Qarabağ məsələsi
§3. Cənub Qərbi Qafqaz Respublikası ilə əlaqələr və Naxçıvan məsələsi
§4. Azərbaycan Dağıstan münasibətləri və Denikin töhlükəsi
§5. Azərbaycan İran münasibətləri

**Dördüncü fəsil**

AZƏRBAYCAN İSTİQLALININ TANINMASI VƏ İTİRİLMƏSİ
§1. Azərbaycan nümayəndə heyətinin Paris sülh konfransında iştirakı
§2. Azərbaycan Rusiya münasibətləri və Aprel işğalı

NƏTİCƏ
ƏLAVƏLƏR

## NƏŞRİYYATDAN

*Hörmətli oxucular!*

Qarşınızdakı bu kitab müstəqil "Ay-Ulduz" nəşriyyatının ilkin qaranquşudur.

Azərbaycan Mətbuat və İnformasiya Nazirliyi kollegiyacının 29 fevral 1996 - cı il tarixli qərarı ilə yaradılmış "Ay-Ulduz" pedaqoji yönəlişli nəşriyyatdır və ölgəmizin ən müxtəlif təhsil ocaqları üçün ən müxtəlif elm sahələri üzrə əsərlər nəşr etməyi göz önünə alıb. Doğrudur, "Maarif" və "Öyrətmən" kimi təcrübəli dövlət nəşriyyatları ali və orta məktəblərimizin gərəkli ədəbiyyata ehtiyacını əsasən ödəməyə çalışır, ancaq təlim və tədrislə bağlı zəruri əsərlərin kəskin qıtlığı hələ güclü duyulmaqdadır. "Ay-Ulduz" nəşriyyatı xüsusən özəl ali məktəblərlə əməkdaşlığa üstünlük versə də orta məktəbi də unutmamağa çalışacaq.

"AY-Ulduz" Azərbaycan tarixinin indiyədək öyrənilməmiş, yaxud çox ötəri öyrənilmiş çağlarına dair əsərlərin nəşrinin özünun başlıca vəzifələrindən sayır. Bizə çox xoşdur ki, elə ilk nəşr məhsulumuz da çağdaş dövrümuzün qaranlıq güşələrini işıqlandıran əsərdir, onun müəllifi isə ölgəmizdə Azərbaycan Cumhuriyyəti (1918-1920-ci) haqqında ilk kitabı (Bakı, Elm, 1990) yazmış, Azərbaycan Respublikasının İranda ilk fövqəladə və səlahiyyətli səfiri olmuş (19921994) istedadlı alim və siyasi xadim Nəsib Nəsibzadədir. Ayağı sayalı olsun!

Fursətdən yararlanıb ölgəmizin alimlərini bizimlə yaxından əməkdaşlığa çağırırıq.

Allah-taala həzrətləri hər bir işdə yardımçınız ola. Amin!

***Ədalət TAHİRZADƏ,***
***Direktor***
***1 avqust 1996- cı il***

# GİRİŞ

Son zamanlar tariximizin 1918-1920-ci illər dövrunə böyük maraq var. Bu maraq bir tərəfdən təhrif edilmiş keçmişimiz haqqında obyektiv məlumat almaq istəyindən yaranırsa, digər tərəfdən, Azərbaycanın düşdüyü çətinliklərdən çıxış yolu tapmaq üçün həmin dövrün tarixi təcrübəsindən faydalanmaq arzusundan irəli gəlir.

1918-1920-ci illər Azərbaycan xalqının öz müqəddəratını özünün təyin etməyə qadir olduqunu sübut etməyə cəhd göstərdiyi, dünyanın bir sıra böyük dövlətlərinin Azərbaycan istiqlalını tanıdığı, türk dünyasında və islam aləmində ilk demokratik respublika yaratdığı, siyasi, iqtisadi və hər cür ictimai fəaliyyət üçün ölkədə tam azad şəraitin bərqərar olduğu, Zaqafqaziyanın şərqi və cənubunun Azərbaycan torpaqları elan edildiyi, bu torpaqların bütövlüyü uğrunda mübarizə aparıldığı, iqtisadi və hərbi cəhətdən Azərbaycanın güclü dövlətə çevrilməsi məqsədilə böyük işlərin nözərdə tutulduğu, bu yolda bir sıra ciddi əməli addımların atıldığı, milli mədəniyyətin inkişafının dövlətin əsas vəzifələrindən biri elan edildiyi və nəhayət, Azərbaycanın ikinci dəfə işğala məruz qaldığı bir dövrdür. Azərbaycan parlamenti 1991-ci ilin 30 avqust tarixli Bəyannaməsi və oktyabrın 18-də qəbul etdiyi Azərbaycan Respublikasının dövlət müstəqilliyi altında Konstitusiya aktı ilə onillərlə aparılan rəsmi təbliğatın həqiqətlərdən uzaq olduğunu göstərdi. Konstitusiya aktında deyilir: 1920-ci il 2728 apreldə RSFSR beynəlxalq hüquq normalarını kobudcasına pözaraq, müharibə elan etmədən öz silahlı qüvvələrinin hissələrini Azərbaycana yeritdi, suveren Azərbaycan Respublikasının ərazisini işğal etdi, qanuni seçilmiş hakimiyyət orqanlarını zorakılıqla devirdi və Azərbaycan xalqının çox böyük qurbanlar bahasına qazandığı müstəqilliyinə son qoydu (36, 19.12.1991).

Tarixi ədalət bərpa edildi. Azərbaycan yenidən öz dövlət müstəqilliyini əldə etdi. Lakin böyük xarici siyasət ənənəsinə malik olmayan Azərbaycan Respublikasının öz varlığının və gələcəyinin təmin edilməsi üçün digər mühüm sahələrlə yanaşı, xarici siyasətin də konseptual məsələlərinin dərindən işlənib hazırlanması tələb olunur. Müasir Azərbaycan siyasi fikrinin 1918-1920-cisi illər təcrübəsinə böyük ehtiyacı var və bu təcrübə xarici siyasətin planlaşdırılması sahəsində əvəzsiz materiallar verir. Vaxtilə M.Ə.Rəsulzadə tarixi təcrübənin nəzərə alınmasının vacibliyi haqqında yazırdı: Bir millətin yeni nəsli əskisinə nəzərən, daha az kültürlü və daha az təcrübəli olursa, o millətin varlığı və istiqbalı təhlükəyə məruz qala bilir (45a, N 12,1953). Şübhəsiz, keçən 70 ildə dünya xeyli dəyişib. Lakin Azərbaycan üçün dəyişməyən bir sıra amillər yenə də qalır: Azərbaycanın mürəkkəb geosiyasi vəziyyəti,

illərcə davam edən Qarabağ problemi, Azərbaycanın müstəqil və qüdrətli dövlət olmasını istəməyən xarici qüvvələr, ən əhəmiyyətlisi, keçmiş metropoliyada Azərbaycanı təkrar müstəmləkəsinə çevirməyə çalışan qüvvələr yenə də fəaliyyətdədir. O zaman 1920-ci ilin aprelində Azərbaycan istiqlalını qorumaq niyə mümkün olmadı böyük sualı bu gün Azərbaycan siyasi fikrini narahat edən məsələlər sırasındadır. Etiraf edək ki, bu sualın məqbul cavabını əldə etmək üçün hələ çox mübahisə və fikir mübadiləsi lazımdır və Azərbaycan öz dövlət müstəqilliyinin dönməzliyini təxmin edənə qədər bu sual öz aktuallığını saxlayacaq.

Azərbaycan Demokratik Respublikasının (ADR) xarici siyasətinin araşdırılmasında məqsəd Azərbaycan tarixşünaslığında 1918-1920-ci illərə aid boşluğu doldurmaq, təhrif edilmiş bu dövr tariximizin obyektiv elmi konsepsiyasını yaratmaqdır. Bu böyük məqsədin gerçəkləşməsi üçün müəllif hesab etmişdir ki, aşağıdakı vəzifələr yerinə yetirilməlidir:

Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsinin beynəlxalq diplomatik zəminləri müəyyən edilməli; 1918-ci ilin əvvəllərində Qafqaz regionunda qüvvələr nisbəti və konkret siyasi durum aydınlaşdırılmalı;

ADR rəhbərliyinin xarici siyasət konsepsiyası və Azərbaycan hökumətinin yeritdiyi xarici siyasətin üstün istiqamətləri araşdırılmalı;

Azərbaycanın Osmanlı imperiyası ilə münasibətlərinin ümumi istiqamətləri izah edilməli və səciyyələndirilməli, Osmanlı Ordusunun Azərbaycana gəlişi və Bakının azad edilməsinə obyektiv qiymət verilməli;

Azərbaycan Respublikasının birinci dünya müharibəsinin qurtarmasından sonra düşdüyü vəziyyət və yeni şəraitdə onun diplomatik fəaliyyəti tədqiq edilməli;

Azərbaycanın qonşu Gürcüstanla münasibətləri, sərhədləri, iqtisadi, hərbi sahələrdə əməkdaşlığı araşdırılmalı;

Azərbaycanın qonşu Ermənistanla mübahisəli məsələləri, o sümlədən onları törədən səbəblər izah edilməli, bu ölkə ilə iki il ərzində özünü göstərmiş daimi münaqişənin nəticələri müəyyənləşdirilməli;

Cənub Qərbi Qafqaz Respublikasının yaranmasının etnik-siyasi kökləri araşdırılmalı, Azərbaycanın bu dövlət qurumuna münasibəti göstərilməli;

Azərbaycan hökumətinin qonşu Dağıstana Azərbaycanın təhlükəsizliyi baxımından verdiyi önəm, Şimali Qafqazla Azərbaycan Respublikası arasında yaranmış birbaşa əlaqələr araşdırılmalı, bu əlaqələrdə general Denikinin oynadığı rol müəyyən edilməli;

Azərbaycanın digər qonşusu İranla qarşılıqlı münasibətləri, bu münasibətlərə təsir edən amillər müəyyən edilməli;

Azərbaycanın dövlət müstəqilliyinin tanınması yolunda Azərbaycan hökumətinin fəaliyyəti, o dövrdə dünyanın əsas dövlətlərinin yeni yaranmış dövlətlər məsələsinə münasibəti və yürutdükləri strateji xətt araşdırılmalı;

Sovet Rusiyasının Azərbaycanın müstəqilliyinə münasibəti, Bakı nefti və digər amillərin sovet Rusiyasının Azərbaycana munasibətdə yeritdiyi siyasətdə oynadığı rol izah edilməli;

1920-ci ilin aprel siyasi böhranını şərtləndirən daxili amillər müəyyənləşdirilməli, dövlət müstəqilliyinin itirilməsində xarici amillərin rolu araşdırılmalıdır.

Müəllif hesab edir ki, tədqiqatın əsas vəzifələrindən biri də mövcud şərtlərdə Azərbaycanın müstəqilliyini qorumağın mümkün olub-olmadığını müəyyən etməkdir. Eyni zamanda etnik sərhədlər daxilində Azərbaycan torpaqlarının ərazi bütovlüyü, bu sıradan Borçalı, Zaqatala, Qarabağ Zəngəzur, Naxçıvan, Cənub-Qərbi Qafqaz problemlərinin meydana çıxması və sovetləşmə örəfəsində bu problemlər sahəsində mövcud vəziyyət tədqiqatçının diqqət mərkəzində olmuşdur.

Tədqiq olunan mövzunun ayrı-ayrı istiqamətləri haqqında çox yazılmış, çox deyilmişdir. XX əsr Azərbaycan tarixinin son dərəcə əhəmiyyətli bu dövrünün əsas hadisələri, ilk növbədə 28 May və 27 Aprel mövzusunda yüzlərlə yazı var. Bu əsərlərin böyük əksəriyyəti siyasi ideoloji yazılar olmuş, siyasi qüvvələrin məqsəd və maraqlarını əks etdirmişdir. Əlbəttə, mövzu haqqında elmi obyektivliyə dayanan bitərəf tədqiqatlar da yox deyil. Bununla belə, onu da təəssüflə əlavə edək ki, Azərbaycan Respublikasının 1918-1920-ci illərdə xarici siyasətini kompleks şəkildə, bütün istiqamətləri ilə tədqiq edən elmi əsər yazılmamışdır.

Bu mövzuya həsr edilmiş əsərlər bir sıra hallarda bir-birinə daban-dabana zidd olmuş, əslində mövzu haqqında bir-birini təkzib edən iki (milli-demokratik və kosmopolit-kommunist) konsepsiya ilk baxışdan diqqəti cəlb edir.

Birinci konsepsiyanı əks etdirən tədqiqatlar hələ ADR dövründə aparılmışdır. Azərbaycanın siyasi ictimai xadimləri bəzi xarici siyasət məsələlərini əhatə edən əsərlər yazmış, ölkə daxilində və ölkədən xaricdə yaymışlar. Bu baxımdan Ə.M.Topçubaşovun (Topçubaşının), M.Ə.Rəsulzadənin, A.Ziyadxanın, R.Vəkiləvun, S.Hacıbəylinin, Y.V.Çəmənzəminlinin əsərləri qiymətli mənbələr olmaqla yanaşı, tarixşünaslıq baxımından da maraqlıdır.

Ə.M.Topçubaşovun “Azərbaycanın təşəkkülü” əsəri Osmanlı oxucusu üçün nəzərdə tutulmuş, bu dövrdə Osmanlı ictimai-siyasi fikrində Azərbaycan haqqında məlumata olan ehtiyacın ödənilməsinə xidmət etmişdir (229).

Əsərdə Qafqaz Azərbaycanının coğrafiyası, demoqrafik vəziyyəti haqqında ümumi məlumatlar verilmiş, rus hakimiyyəti dövründə Azərbaycan türklərinə qarşı yeridilən ayrı-seçkilik siyasətinin nəticələri barədə maraqlı fikirlər deyilmişdir.

Mart hadisələrindən (1918) danışan müəllif Azərbaycan türklərinin qardaş Türkiyəyə yardım barədə müraciət etməyə məcbur olmasını dəlillərlə əsaslandırır, Bakını müsəlman Mədinəsi adlandırır və Azərbaycan üçün onun əhəmiyyətini göstərir. Əli Mərdan bəy Rusiyanın Bakı haqqında iddialarına toxunaraq, onun Almaniya ilə Bakı nefti barədə sövdələşməsini pisləyir və qeyd edir ki, hüquqa istinad etməyən və doğru bir hərəkət olmayan böylə bir müamilə... Azərbaycan hökuməti-cümhuriyyəsi tərəfindən qəbulə məzhər olamazdı".

Müəllif Almaniyanın Azərbaycana münasibətdə yeritdiyi siyasəti tənqid edir, Osmanlı imperiyasının müttəfiqindən fərqli siyasət yeritdiyini göstərir. Müəllif qeyd edir: Azərbaycan hökuməti Osmanlı hökumətinin təminati-kamiləsinə məzhər olaraq şuna qənaət hasil etdi ki, Hökuməti Osmaniyyə hər üç cümhuriyyəti azad və hürr, tamamilə müstəqil və qabili həyat görmək arzusunda bulunur. Topçubaşov Türkiyəni Azərbaycanın hamisi hesab edir, bu iki ölkənin bir-birinə ehtiyacı olduğunu bildirir. Onun fikrincə, Azərbaycan hökumətinin xarici siyasətinin əsas məqsədi ölkə istiqlalını xarici dövlətlər tərəfindən tanınmasına nail olmaqdır. Bunun üçün Qafqazda konfederativ dövlətin yaranması zəruri şərt hesab edilir.

M.Ə.Rəsulzadənin kiçik həcmli Azərbaycan təşkilində Müsavat adlı əsərində tədqiq olunan mövzu ilə bağlı maraqlı fikirlər var (252). Müəllif Azərbaycan istiqlalının elan edildiyi tarixi şəraiti xarakterizə etmiş, istiqlal ideyasını daşıyan siyasi qüvvələri və ilhaqçılıq cərəyanını təmsil edənləri müqayisə etmiş, türkçülüklə Azərbaycançılığın bir-birini tamamlayan cərəyanlar olduğunu göstərmişdir.

A. Ziyadxanın əsasən Avropa oxucuları üçün nəzərdə tutulmuş kitabı tarixşünaslıq baxımından qiymətli əsərlərdəndir (237). Burada Mart hadisələri, Osmanlı hərbi hissələrinin Azərbaycana dəvəti, birinci dünya müharibəsinin yegünu kimi Müttəfiq qoşunlarının Bakıya daxil olması, Azərbaycan Milli Şurasının ABŞ prezidenti V.Vilsona müraciəti və bu dövr tariximizin digər səhifələrinə aid qiymətli məlumatlar vardır.

Əsərdə Yusif Vəzir Çəmənzəminlinin Xarici siyasətimiz başlığı altınla 1919-1920-ci illərdə Azərbaycan qəzetində çap etdirdiyi məqalələrindən geniş istifadə edilmişdir (260). Bu məqalələr dövrün siyasi fikrinin bu və ya digər köklü xarici siyasət problemlərinə münasibətini göstərmək baxımından əhəmiyyətlidir. Müəllif bu silsilədən 11 məqalə yazmışdır. İlk məqalə "Qüvvəli istiqlal" adlanır. Burada muəllif çar Rusiyasında yaşamış "məhkum millətlərin

rus millətinə alışmaqdan çəkindiklərini, geridə qalmış rus idarəçiliyinin məhkum millətləri həmişə qaranlıqda saxlamağa çalışdığını və "bunun üçün məhkumlar ilə hakim arasında daimi bir uçurum olduğunu göstərmiş, Azərbaycan istiqlalı fikrinin tarixi əsaslara söykəndiyini bildirmişdir.

"Beynəlmiləl" əlaqə adlı məqaləsində müəllif beynəlxalq huququn meydana çıxması və əhəmiyyəti barədə danışır, hesab edir ki, Azərbaycanda işlədilən qanunlar beynəlxalq hüquqa uyğundur (millətlər, cinslər və siniflər bərabərliyi felən tanındı) və Azərbaycan istiqlalının qorunub saxlanması üçün müsbət rol oynayır. Yusif Vəzir növbəti məqaləsində beynəlxalq münasibətlər sistemində diplomatik nümayəndəliklərin oynadığı roldan bəhs edir və qeyd edir ki, Azərbaycan hökuməti xarici ölkələrdə səfirlik və konsulluq yaratmaq işini surətləndirməlidir. Bu səfirliklərdən ən əhəmiyyətlisi dünya siyasətinin mərkəzlərindən biri olan İstanbul səfirliyimiz olmalıdır. Müəllif xarici siyasətin tərkib hissəsi kimi ictimai fikrə təsir edən fəaliyyətlərin böyük rolunu göstərmək üçün erməni və yunanların təcrübəsindən misallar gətirir. O yazır: ... səsin çıxarmağı bilməyən və bağırmaq bacarmayan millət həmişə əzilər... Biz hamıdan çox bağırmalıyız, özümüzü tanıtmalı, fikrimizi tərvic etməliyiz, bu yoldakı müvəffəqiyətimiz bizə müvəffəqiyyətlər qazandırar.

Yusif Vəzir növbəti məqaləsini Azərbaycanın coğrafi mövqeyinin rus və ingilis siyasətlərinin kəsişmə nöqtəsinə uyğun olduğu və bundan istifadə etmək zərurətinə həsr etmişdir. Onun fikrincə, "ittihadi-islam" və ya türk ittihadı kimi xulyapərvər fikirlər gözümüzün önündə qoca bir Osmanlı dövlətini yıxdı, bizim bütün məqsəd və amalımızın Azərbaycanımız olduğu üçün Azərbaycanın istiqlalı yolunda "kimi bizi tutarsa, biz də ona rəğbət və meyl göstərərik". Mövcud şəraitdə müəllif İngiltərəyə oriyentasiya fikrini müdafiə edir: Bu gün ingilislər Qafqazdan çəkilib, yerinə italyanlar da gəlsə, yenə İngiltərə dostluğundan çəkinməməliyik. Bu millət dünya siyasətində böyük rollar oynayıb və oynayacaqdır.

Sonrakı məqalələr Azərbaycanın İran, Ermənistan, Gürcüstan, Denikin və bolşevik Rusiyası ilə munasibəti haqqındadır. Müəllif hesab edir ki, Azərbaycan bu qonşu dövlətlərlə mehriban qonşuluq munasibətləri qurmağa çalışır, lakin Ermənistan-Rusiya tandemi Azərbaycanın istiqlalı üçün ən təhlükəli amil olaraq qalır. Yusif Vəzir "Bolşevik qorxusu" adlı məqaləsində "bolşevikliyi doğuran səbəbləri təkrar-təkrar təhlil etmək və məhvinə çalışmaq lazımdır" deyir. Bu səbəblər sırasında müəllif torpaq və fəhlə məsələlərinin həllini təxirə salmamağa, ədaləti idarəçiliyin əsas prinsipinə çevirməyə çağırır.

27 Apreldən sonra Azərbaycan siyasi mühacirəti Azərbaycan Demokratik Respublikası mövzusunun işlənib, təbliğ edilməsi sahəsində böyük işlər gördü. Müstəqil Azərbaycan dövlətinin yaranması, onun daxili və xarici siyasəti haqqında yazılmış əsərlərin bu tədqiqatın predmeti üçün əvəzsiz əhəmiyyəti var. M.Ə.Rəsulzadə, Ə.M.Topçubaşov, M.B.Məmmədzadə, M.Y.Mehdizadə, S.Hacıbəyli kimi mühacirət liderləri öz əsərləri və siyasi fəaliyyətləri ilə Azərbaycan məsələsinin Rusiyanın daxili məsələsi deyil, beynəlxalq problem olduğunu göstərmiş, 28 May və Azərbaycan istiqlalı mövzularını, eləcə də 27 Aprelin sosialist inqilabı deyil, əsl işğal aktı olduğunu dünya siyasi və elmi fikrinə çatdırmağa çalışmışlar. Mühacirətdə yazılmış əsərlər bilavasitə xarici siyasətə həsr edilməsə də, müəlliflərin birbaşa iştirakçısı olduqları hadisələrin qaranlıq və mübahisəli məqamlarının aydınlaşdırılmasına imkan verir (324; 326; 430; 327; 467;468; 328; 329; 330; 318; 317; 463).

M. Ə. Rəsulzadə Azərbaycan Respublikasının banilərindən biri olduğu kimi, dövrün də tarixşünaslığını yaradan birinci şəxsdir. Müharisət həyatının ilk illərindən başlayaraq, o, 1918-1920-ci illər tarixi barədə onlarla kitab və məqalə yazmışdır. 27 apreldən sonrakı müharisət dövründə ilk yazdığı “Azərbaycan Cümhuriyyəti: keyfiyyəti təşəkkülü və şimdiki vəziyyəti əsəridir (324). Bu əsərin yazılması zərurətindən bəhs edən müəllif qeyd edir ki, 20-ci illərin əvvəllərində Azərbaycan haqqında Türkiyədə məlumat qıtlığı var idi. Müstəqil Azərbaycanla sovet Azərbaycanı arasında fərqi dərk edən adamlar da az idi. Hətta bolşeviklərin Azərbaycana millət tərəfindən çağırılmış olduqlarına inananlar var, bu azmış kimi bolşevik idarəsində bulunan Azərbaycanı məsud görənlər də yox deyil. Məmməd Əmin bəyin qeyd etdiyi kimi, məlumatsızlıq iki qardaş millət arasında arzuolunmayan anlaşmazlıq və yanlış təsəvvürlərə səbəb olmuşdur. Bu böyük əsərdə Fevral inqilabından sonra Qafqazda gedən proseslər, Azərbaycanda, xüsusən Bakıda mövcud vəziyyət barədə məlumat verilmiş, 1918-ci ilin əvvəllərində bu vəziyyətin Azərbaycanı xarici oriyentasiyasını dəqiq müəyyənləşdirməyə məcbur etdiyi əsaslandırılmışdır. Bakı sovetinin milli məsələyə və Azərbaycanın istiqlalı məsələsinə münasibəti faktlarla izah edilir. Əsərdə Osmanlı nümayəndələri ilə Azərbaycan nümayəndələri arasındakı danışıqlar haqqında müfəssəl məlumatlar var. Nuru paşanın Gəncyə gəlişindən sonra ilk siyasi böhran, onun səbəbləri və nəticələri barədə müəllif maraqlı məlumatlar verir.

Rəsulzadə yazır ki, Mudros barışığının yaratdığı yeni hərbi-siyasi vəziyyət Azərbaycan Milli Şurasını ölkənin elan edilmiş istiqlalını qorumaq və gücləndirmək üçün yeni yollar aramağa məcbur edir. Aydın olur ki, Almaniya və Türkiyənin təslim olduğu Antantaya qarşı hərbi yolla mübarizə aparmaq mümkün deyildi, məsələ diplomatik yolla həll edilməli idi. Azərbaycan hökumətinin Qafqazdakı Antanta nümayəndələri ilə danışıqları, qonşu ölkələrlə

münasibətlərin qurulmasına yönəldilmiş səyləri barədə əsərdə geniş məlumat verilir. Denikin və Lenin Rusiyasının Azərbaycana təcavüzkar niyyətlərdən heç vaxt əl çəkmədiyi göstərilir.

M.Ə.Rəsulzadə bu əsərində Aprel siyasi böhranı və bolşevik istilası ərəfəsində Bakıda gedən proseslər üzərində geniş dayanır. Əsərdə Aprel işğalını gerçəkləşdirən amillər (Qarabağda erməni qiyamı, Rusiyanın hərbi təcavüzü, Osmanlı kommunistləri və ittihadçılarının, xüsusilə Xəlil paşanın səhvləri, Azərbaycan kommunistlərinin ölkənin gələcəyinə zidd hərəkətləri və s.) haqqında qiymətli məlumatlar verilir.

Mühacirətin təsis etdiyi Milli Azərbaycan nəşriyyatının ikinci sayında yenə də M.Ə.Rəsulzadənin "Əsrimizin Siyavuşu" əsəri çap olundu (326). Bu əsər Aprel işğalından az sonra müəllifin gizləndiyi Lahıc qəsəbəsində yazılmışdı. Simvolik-bədii üslubda yazılmış bu əsərdə tədqiq edilən mövzuya da toxunulur. Bu vaxt Türkiyədə Azərbaycandakı hadisələr barədə yaranmış (yaradılmış) yanlış təsəvvürlərdən biri də Azərbaycan Respublikası ilə İran arasında əlaqələr mövzusu idi.

"Əsrimizin Siyavuşu"nun çapı səhv təsəvvürün aradan qalxması üçün çox yerinə düşmüş oldu. Müəllif əhalisinin əksəriyyəti, tarixi ilə türk yurdu olan Azərbaycanla Türkiyə arasında 1918-ci ilin əvvəllərindən etibarən artan əlaqələrdən bəhs edərək yazır ki, Türkiyə, himayəsinə aldığı Azərbaycanı tam vaxtında qurmağa qoşdu. Bakını Azərbaycan qatillərindən təmizləyərək kəndisinə verdi". Lakin "gərsivəzlər" simvolu ilə ümumiləşdirilən istiqlal və demokratiya düşmənləri (aralarında türkiyəlilər də az deyildi) Azərbaycan Respublikasının rəhbərliyi əleyhinə təbliğat aparıb deyirdilər ki, guya Azərbaycanın fikri ayrıdır. İngiltərə, Fransa və Amerika ilə əlaqəsi var. Yanına gizli elçilər gəlir. Turan düşməni ermənilərlə barışırlar. İran ilə anlaşıb birləşirlər. Əcəm siyasəti yeridir. Şiyəliyi irəlilədir. Bu məqsədlə o, İrana heyət göndərmiş, İrandan da bir heyət qəbul etmişdir. Türkiyə kommunistlərinin Azərbaycan istiqlalının itirilməsində oynadığı məşum rol haqqında Rəsulzadə yazırdı: Rusiya ölüm-qalım mücadiləsində olan Türkiyəyə yardıma gedirmiş də ingilis tərəfdarı Azərbaycan hökuməti ona yol vermirmiş, deyə yapdıqları propaqandalarla bolşevik sui-qəsdinin ortaq suçlusu olur, Qafqazın Rusiya tərəfindən təkrar istilasını hazırlayırdılar. Müəllif bu təbliğata qarşı etiraz edir: Halbuki Azərbaycan kəndi qoruyucularından və qurtarıcılarından olan türklərin, kommunist olsalar da kəndi əleyhində sui-qəsd bəsləməyəcəklərinə ümid etmiş, dəniz qüvvələrini, zirehli avtomobil və tren qatarlarını və şəhrin qoruyucu qüvvələrini həp bunlara əmanət etmişdi.

M.Ə.Rəsulzadə 1925-ci ildə İstanbulda nəşr etdirdiyi növbəti İstiqlal məfkurəsi və gənclik adlı əsərində (328) İstiqlal bəyannaməsinin elan edilməsi ərəfəsində regionda vəziyyət, Seym daxilində xarici oriyentasiya məsələsi

üstündə ortaya çıxan ziddiyyətlər haqqında məlumat verir, Baltik ölkələrinin istiqlallarını qorumaq üçün etdikləri fədakarlıqı nümunə gətirərək, Aprel faciəsinin daxili səbəblərini araşdırır.

Rəsulzadənin 1928-ci ildə çıxmış daha iki əsərində də mövzu ilə bağlı maraqlı fikirlər var. "Zaqafqaziya türkləri" əsərində (329) Məmməd Əmin bəy Osmanlı qoşunlarının yardımı, Azərbaycanın ayrı-ayrı ölkələrlə əlaqələri, xüsusilə Dağıstanla munasibətlərindən, eləcə də Aprel böhranı və onun nəticələrindən geniş bəhs edir. "Sovet istilası altında" adlı geniş məqaləsində bir daha Aprel işğalı mövzusuna toxunur (330).

Tədqiqat mövzusunun tarixşünaslığından danışarkən, M. Ə. Rəsulzadənin ömrünün sonlarında yazdığı Çağdaş Azərbaycan tarixi əsərini qeyd etməmək düzgün olmazdı (327). 1950-ci ilin 28 mayında Ankarada oxuduğu geniş məruzəsinin mətnindən ibarət olan bu gözəl əsərdə M.Ə.Rəsulzadə 1918-1920-ci illərin mühüm hadisələrinə toxunur. O göstərir ki, Mart hadisələrində və ondan sonrakı erməni hücumlarının qarşısını almaqda hiss edilən çətinliklərin kögündə əski rus ordusuna müsəlman xalqlarından əsgər yığılmaması dururdu.

Azərbaycan Respublikasının xarici siyasət sahəsində qazandığı uğurları qısaca sadalayandan sonra müəllif Aprel işğalı üzərində geniş dayanır. Səbəblərdən biri kimi ingilis-rus danışıqları vaxtı əldə edilən razılaşma qeyd edilir: ... o zamankı ingilis baş naziri Lloyd Corc Londona gəlmiş sovet ticarət Komissarıı Krasinə kral hökumətinin Qafqaziya işlərinə qarışmadığını bildirmişdi. Bu əsərdə Məmməd Əmin bəy rusların Aprel faciəsi ərəfəsində türkiyəliləri öz məqsədləri naminə aldatdıqlarını bir daha qeyd edir və bolşeviklərin bu oyunlarını şeytan taktikası adlandırır.

Müsavat partiyasının ikinci ideoloqu Mirzə Bala Məmmədzadə də öz əsərlərində dəfələrlə Azərbaycan Respublikasının xarici siyasətinin bu və ya digər məsələlərinə toxunmuşdur. Müharisətə gəldiyi ilk illərdə Mirzə Bala 28 Mayın, İstiqlal bəyannaməsinin təhlilinə həsr etdiyi "Azərbaycan misaği-millisi" əsərini yazır (318). Burada Azərbaycan istiqlal fikrinin tarixi kökləri, müstəqil Azərbaycanın dövrün beynəlxalq münasibətlər sistemindəki yeri və Aprel işğalı mövzusu araşdırılır. Bu mövzular onun 1938-ci ildə Varşavada çap etdirdiyi Milli Azərbaycan hərəkatı adlı əsərində daha geniş tədqiq olunur (317).

Bu böyük və maraqlı əsərdə müəllif Trabzon konfransı haqqında geniş məlumat verir, Zaqafqaziya seymi daxilində müharibəyə münasibət məsələsində ortaya çıxan ziddiyyətlər, sovet Rusiyasının 1918-ci ilin I yarısındakı intriqaları, 17 iyun böhranı üzərində geniş dayanır. Əsərdə Bakının azad olunmasından sonra sovet-alman danışıqları, İstanbulda Azərbaycan nümayəndələrinin görüşləri, ingilislərin Bakını işğalı və onun nəticələri haqqında xeyli faydalı

məlumatlar var. Müəllif 27 Aprel işğalına bir böyük fəsil həsr etmişdir. Azərbaycan-Ermənistan münasibətləri də müəllifin diqqət mərkəzində olmuşdur.

Paris sülh konfransında Azərbaycan nümayəndə heyətinin məsləhətçisi Mir Yaqub Mehdizadənin Qafqaz problemi kitabı Azərbaycan nümayəndələrinin sülh konfransında fəaliyyətini öyrənmək baxımından qiymətli əsər hesab edilə bilər. Konfrans dövründə Antanta dövlətlərinin Azərbaycan məsələsinə münasibəti, Azərbaycanın müstəqilliyinin tanınması və digər mühüm məsələlər kitabda öz əksini tapmışdır (463).

Mövzumuzun ayrı-ayrı məsələlərinə toxunmuş digər muhacirət nümayəndəsi Hüseyn Baykaradır. O, Azərbaycan istiqlal mücadiləsi tarixi kitabında (269) və bir sıra məqalələrində Azərbaycan istiqlalının iqtisadi, mədəni, siyasi köklərini, Azərbaycan xalqının bir millət olaraq meydana çıxdığını tədqiq etmiş, 17 iyun böhranı ("çayın ortasında səltənət və demokrasi uyuşmazlığı"), Azərbaycan dövlətinin beynəlxalq durumu üzərində geniş dayanmışdır. Adı çəkilən kitabında müəllif Azərbaycan səfirliklərinin və səfirlərinin, eləcə də Bakıda olan xarici ölkə nümayəndələrinin siyahısını vermişdir. Kitabda Azərbaycan məsələsinin də müzakirə edildiyi Mustafa Kamal paşa ilə ABŞ nümayəndəsi general Harbord arasındakı görüş də diqqəti cəlb edir. Müəllifin mövzu ilə bağlı yazdığı əsərlərində üzərində ən çox durduğu məsələ Aprel işğalında türkiyəli kommunistlər və ittihadçıların işlədiyi günahdır.

Bu həssas məsələni araşdıran Baykara tədqiqatına yeni materiallar cəlb etmişdir. Hüseyn Baykara yazdığı məqalələrdə bu məsələləri daha genişliyi ilə emosional şəkildə, amma qürurunu pözmadan izah etmişdir (265; 266; 267; 268).

İlk Azərbaycan mühacirlərindən Məmməd Şərif Əfəndizadənin Azərbaycan və inqilabı adlı əsəri üzərində də xüsusi dayanmaq gərəkdir (280). Məmməd Şərifin bu kitabı 1918-1920-ci illər haqqında, daha dəqiq desək, 1920-ci ildə məğlubiyyətimizin səbəblərini araşdırmağa yönəlmiş analitik əsərdir. İlk baxışdan belə qeyri-obyektivliyi nəzərə çarpan müddəaları olmasına baxmayaraq, əsər Azərbaycanın istiqlal faciəsini öyrənmək baxımından diqqəti çəkir. Müəllif çar dövründə Azərbaycanın bütün siyasi varlığını əldən vermiş olduğu üçün dövlət qurusuluğu sahəsində bir sıra səhvlərini qeyd edir və göstərir ki, dövlət idarəçiliyində xeyli yanlış işlər görülmüş, təxminən iki illik vaxt olmasına baxmayaraq, mükəmməl ordu qurulmamış, təsirli əks-kəşfiyyat idarəsi yaradılmamış, ona görə də Rusiya təxribatlarının qarşısı alınmamışdı. Əfəndizadə hesab edir ki, Azərbaycan hökumətinin ön böyük qəbahətlərindən birisi məmləkətə qətiyyən milliyyət hissi soxmayıb, Azərbaycan əhalisini milləti hakimiyyə mövqeyinə qaldırmadığı kimi, digər ünsürlər və bilaxassə ruslara böyük mövqelər verildi".

O, yerliçiliyin siyasi həyatda böyük rol oynadığını da təəssüflə qeyd edir. Əfəndizadənin fikrincə, Azərbaycan hökuməti Türkiyədən dəstə-dəstə ölkəyə gəlmiş zabitlərə sahib durmalı, onların bolşeviklərin təsirinə düşməsinə (bolşeviklər onları ələ almaq üçün böyük vəsait xərcləyirdilər) yol verməməli, bu zabitlərin fəaliyyətini Azərbaycanın lehinə yönəltmək mümkün olmadıqda onlar Azərbaycandan sürgün edilməli idilər; Azərbaycan istiqlalı əleyhinə çalışan türkiyəli ittihadçı və kommunistlərə yumşaq munasibət də düzgün deyildi. Müəllif Xəlil paşa başda olmaqla türkiyəli ittihadçıların səhvləri və xəyanətləri haqqında əsərində inandırıcı faktlar gətirir.

Dağıstanlı mühacirlərdən Şərafəddin Erəlin "Azərbaycan politikaçılarının yanlışları" (281) əsərində Azərbaycan hökumətinin ünvanına bir sıra haqlı iradlar (xüsusilə Dağlılar Respublikası ilə əlaqələrin genişləndirilməsinə lazımi diqqətin verilməməsi) deyilməklə yanaşı, ADR hökuməti, ümumiyyətlə, Azərbaycana qarşı əsassız iddialar (o cümlədən, ərazi) və ittihamlar da çoxdur. Bununla belə, tədqiq edilən mövzunun tarixşünaslığı baxımından diqqəti cəlb edir.

Azərbaycan Respublikasının 1918-1920-ci illərdə xarici siyasətinin bu və ya digər məsələləri ilə bağlı yuxarıda göstərilən əsərlərdən başqa onlarla məqalə və kitabça yazılmışdır (293; 431; 339; 351; 338a; 290; 348; 275; 276; 333; 310; 309; 315; 314; 304; 336; 301; 302 və s).

Xüsusilə 28 May və 27 Aprel hadisələri barədə mühacirətin nəşr etdirdiyi "Yeni Qafqasiya" (19231928), "Azəri-türk" (19281929), "Odlu yurd" (19291931), "Bildiriş" (19311932), "Prometey" (19281939), "İstiqlal" (19321934), "Qurtuluş" (19351939), Müsavat bülleteni (№ № 14), "Azərbaycan" (1952-ci ildən nəşri davam edir) kimi qəzet və jurnallarda mövzu ilə bağlı saysız yazılar çap edilmişdir. Hamısını təhlil etmək, hətta adını belə sadalamaq imkan xaricindədir. Fikrimizcə, bu, ayrıca tədqiqat işinin mövzusu ola bilər.

Azərbaycan Müharisətinin 1918-1920-ci illər xarici siyasətimiz mövzusunda işləyib hazırladığı milli-demokratik konsepsiyanın əsas tezislərini aşağıdakı kimi ümumiləşdirmək olar:

Azərbaycan istiqlalı münasib beynəlxalq şəraitin yaranması ilə yanaşı, millətin siyasi, iqtisadi və mədəni-mənəvi ehtiyacından doğmuş, onillərlə davam edən milli azadlıq hərəkatının məntiqi nəticəsi olmuşdur;

Osmanlı qoşunları Azərbaycanın fiziki varlığını qorumaq üçün dəvət edilmiş, Osmanlı dövləti Azərbaycanın ərazi bütövlüyünün qorunmasında və Azərbaycan dövlətinin təşəkkülündə fövqəladə rol oynamışdır;

Bakının ingilislər tərəfindən işğalı qaçılmaz hadisə olmuş, Antanta ilə münasibətlərin normallaşması Azərbaycan hökumətinin uğurlu diplomatik fəaliyyəti nəticəsində mümkün olmuşdur;

ADR hökumətinin xarici siyasətinin əsas qayəsi İstiqlal bəyannaməsinə və demokratik qüvvələrin proqram sənədlərinə (ilk növbədə Müsavat partiyasının proqramına) uyğun olaraq, Azərbaycan istiqlalının tanınması, ölkənin ərazi bütövlüyünün qorunması, əhalinin təhlükəsizliyinin və ölkənin gələcəyinin təminindən ibarət olmuşdur;

Azərbaycan hökuməti qonşu ölkələrlə münasibətlərində milli maraqların qorunmasına, Qafqazda sülh və əmin-amanlığın bərqərar olmasına çalışmış, erməni və rus təxribatları Qafqaz konfederasiyasının yaranmasına mane olmuş, regionun yenidən Rusiya tərəfindən işğalına gətirib çıxarmışdır;

Azərbaycan istiqlalı və dövlətçiliyi ideyasının axıracan yeganə sədaqətli müdafiəçisi Müsavat partiyası və onun xəttini müdafiə edən demokratik qüvvələr olmuşdur; Azərbaycanın digər siyasi qüvvələri (kommunistlər, sosialistlər, ittihadçılar və b.) dövlət müstəqilliyinin itirilməsində tarix qarşısında məsuliyyət daşıyırlar; 27 Aprel cinayətinin baş tutmasında türkiyəli ittihadçı və kommunistlər də mühüm rol oynamışlar;

ADR hökumətinin fəaliyyətində bir sıra səhvlər olmuşsa da, Azərbaycan istiqlalının və dövlət müstəqilliyinin itirilməsi Rusiyanın birbaşa işğal aktı ilə izah edilir.

Problemin ayrı-ayrı tərəfləri ilə bağlı Türkiyə tarixçiləri də xeyli əsər yazmışlar. Türkiyə tarixşünaslığının 1918-1920-ci illər xarici siyasətimizə münasibəti Azərbaycan Müharisətinin münasibəti ilə üst-üstə düşür. A.N.Kurat, Ş.S.Aydəmir, İ.Qayabalı, S.Tansel, M.Saray, M.K.Ökə, F.Təvətoğlu, T.Sünbül və başqalarının əsərlərində Osmanlı imperiyası və yeni Türkiyənin Qafqaz siyasətinə toxunulmuş, 1918-1920-ci illərdə Azərbaycanda cərəyan etmiş mühüm hadisələr araşdırılmışdır (345; 291; 344; 264; 298; 243).

Kazım Qarabəkir paşanın "İstiqlal hərbimiz" (292) kitabında Milli Mücadilə hərəkatı ilə Azərbaycan Respublikası arasında münasibətlər haqqında əvəzsiz materiallar var və onlar ilkin qaynaq xarakteri daşıyır. Xəlil paşanın "Bitməyən savaş" (286) adlı kitabı da tarixşünaslıq üçün əhəmiyyətlidir. Lakin müəllif burada özünün 27 Aprel işğalındakı rolunu gizlətməyə çalışmış, digər hadisələrin izahında da təhriflərə yol vermişdir. Osmanlı Ordusunun tərkibində Azərbaycana gəlmiş zabitlərin əsərləri xatirə xarakteri daşımasına baxmayaraq, sənədli materiallarla zəngindir (340; 270; 285; 272; 271; 349). Araz türk hökuməti və Cənub Qərbi Qafqaz Respublikasının tarixi haqqında Ə.Ə.Köydəmir, F.Qırzıoğlu, S. Aslanoğlunun əsərləri mövzunun tədqiqi üçün çox faydalı olmuşdur (295: 296; 283; 284; 277).

1918-1920-ci illər xarici siyasətimizin tədqiqində erməni məsələsi ilə bağlı Türkiyədə çap edilmiş əsərlərdən də geniş istifadə edilmişdir (282; 346; 350; 273; 347; 456; 469; 465).

1917-1920-ci illər tariximiz haqqında Qərb rusoloq və sovetoloqlarının əsərlərində tez-tez toxunulmuşdur. E.Karr, U.Allen və R. Muratov, S.Zenkovski, P.Payps, V.Kolarz, İ.Spektor, S.Lençkovski, R.Ullman kimi tarixçilər Oktyabr inqilabı və sovet İttifaqının yaranması mövzularını tədqiq edərkən, təbii olaraq Azərbaycanda gedən prosesləri də bu və ya başqa şəkildə araşdırmalı və Azərbaycanın sovetləşdirilməsi məsələsinə toxunmalı olmuşlar (462; 461; 453; 477; 466; 470; 476; 393). Onların hamısının əsərlərində Aprel hadisələri sovet Rusiyasının işğal aktı kimi qiymətləndirilir.

Qərb tarixçiləri arasında Azərbaycanın 1918-1920-ci illər xarici siyasətinin bu və ya digər tərəflərini ətraflı araşdıranlar F.Kazımzadə, R.Süni, T.Svyataxovski və O.Alştadt olmuşlar. Ümumiyyətlə, obyektiv xarakter daşıyan tədqiqatlarında Qərb sovetoloqları əsasən sovet müəlliflərinin əsərlərindən faydalanmış, yerli arxiv materiallarından istifadə imkanından məhrum olmuşlar. Onların əsərlərindəki bir sıra faktik yanlışlıqlar və səhv nəticələr əsasən bununla izah edilməlidir.

ABŞ alimi F.Kazımzadə 1951si ildə çap edilmiş Cənubi Qafqaz uğrunda mübarizə (19171921) adlı əsərinin (460) girişində yazır ki, “rusca çıxmış əsərlərin hamısında hadisələr birtərəfli qaydada təsvir edilir və qərəzli nəticələr çıxarılır. Bu akademik araşdırmada Fevral inqilabından sonra Qafqazda cərəyan edən hadisələr, burada yaranmış hərbi-siyasi vəziyyət, Trabzon və Batum konfransları geniş tədqiq edilir. Bakıda bolşevik hakimiyyətinin qurulması, Bakı uğrunda mübarizə obyektiv araşdırılır. Qafqazda yaranmış yeni dövlətlər arasında qarşılıqlı münasibətləri də müəllif bitərəf mövqedən, faktlara dayanaraq şərh edir. Xüsusən erməni elementinin Qafqazda qeyri-sabitlik amili olması tədqiqatçının diqqətindən yayınmır.

Erməni mənşəli digər amerikalı tarixçi R.Q.Süninin Bakı kommunasına həsr edilmiş əsəri tarixşünaslıq baxımından maraq doğurur (471). Süni əsasən rusca və ermənisə mənbələrdən istifadə etmişdir, odur ki, tədqiqatın nəticəsində bu amil (üstəlik müəllifin milli mənsubiyyəti) özünü biruzə verir.

Azərbaycanşünas alim Tadeuş Svyataxovski Rusiya Azərbaycanı 1905-1920. Müsəlman cəmiyyətində milli birliyin yaranması adlı əsərində (472) ADR dövrünə tam bir fəsil həsr etmişdir. Bu fəsildə Azərbaycan dövlətinin yaranmasının daxili və xarici zəminləri araşdırılmış, Bakı sovetinin fəaliyyətinə obyektiv qiymət verilmiş, xarici siyasətin əsas istiqamətləri müxtəsər-akademik qaydada şərh edilmişdir. Xarici siyasətin ayrı-ayrı məsələləri ilə bağlı görkəmli Azərbaycanşünas alimlə razı olmadığımız məqamlar tədqiqatın mətnində verilmişdir.

Burada yalnız onu göstərək ki, T.Svyataxovskinin bu və sonrakı əsərləri (473; 474) Azərbaycanşünaslığa dəyərli bir hədiyyədir və kəm-kəsiri müəlifin yerli arxiv materiallarından istifadə edə bilməməsi ilə bağlıdır. Əsərin Aprel böhranı və işğalında iştirak etmiş siyasi qüvvələrin fəaliyyətlərinin araşdırılmasına həsr edilmiş hissəsini xüsusi qeyd etməyi zəruri sayırıq.

Digər ABŞ tarixçisi Odri Alştadtın da 1918-1920-ci illər tariximizin araşdırılmasında və Azərbaycan mövzusunun Qərbin akademik-elmi fikrində populyarlaşdırılmasında diqqətədəyər xidməti vardır. O, Azərbaycan türkləri; Rusiya idarəsi altında hakimiyyət və milliyyət adlı dəyərli əsərinin bir fəslini ADRin yaranması, bu dövrdə görülən işlər və beynəlxalq münasibətlər sistemində Azərbaycan məsələsinin yeri mövzusuna həsr etmişdir (454). Alştadt kitabında ərazi sərhəd məsələlərinə daha çox yer ayırmış, Qarabağ, Zəngəzur və Naxçıvan məsələlərini daha geniş işıqlandırmışdır. Kitab Antanta ölkələrinin Azərbaycan istiqlalına münasibəti haqqında xüsusi bölmədə yeni materialların cəlb edilməsi ilə diqqət çəkir.

1918-1920-ci illərdə dünya siyasətini müəyyən edən ölkələrin dövlət başçıları və diplomatları Mustafa Kamal Atatürgün, D.Lloyd Sorsun, U.Çörçillin, R.Puankarenin, F.Pittinin, Lord Bertinin, Q.Nikolsun, hərbçilərdən E.Lüdendorfun, A.İ.Denikinin, L.Denstervilin və digərlərinin memuarları Azərbaycan hökumətinin diplomatik fəaliyyətini və ayrı-ayrı ölkələrin Azərbaycana münasibətini, Paris sülh konfransının gedişi zamanı yaranmış vəziyyəti araşdırmaq üçün faydalıdır (418; 394; 424; 403; 405; 380; 381; 445; 404; 417; 355).

Azərbaycan sovetləşdirildikdən az sonra "Aprel inqilabı" tezisinə ideoloji-elmi əsas yaratmaq, düşmən təbliğatına qarşı əks-təbliğat təşkil etmək, yeni nəsli sovetləşmənin tələblərinə uyğun olaraq tərbiyə etmək məqsədilə sovet dövlət orqanları 1917-1920-ci illər tarixini araşdırmaq üçün direktiv verdi. Azərbaycanda tarix elmini təşkil etmək üçün mərkəzdən Y. Ratqauzer, A. Rayevski, A. Dubner, A. Steklov, S.Sef kimi mütəxəssislər Bakıya ezam edildilər. Onlar yerli dövlət xadimləri ilə birlikdə 20-ci illərdə Müsavat irsi ilə mübarizəyə yönəlmiş xeyli kitab çap etdirdilər (357; 356; 358; 391; 373a; 366; 328 ;329; 251; 425; 426; 427; 433; 432; 364; 367). Bu əsərlər bir qayda olaraq siyasi təbliğatı xarakter daşıyır, birtərəfli polemika əsasında verilmiş ifşaedici hökmlərlə doludur Buna baxmayaraq sovet diktaturası möhkəmləndikcə 1918-1920-ci illər haqqında ayrı-ayrı faktların oxucuya çatdırılması (ifşaedici tənqidlə belə olsa) böyük günah hesab edilməyə başlandı və bu müəlliflər repressiyaya məruz qaldılar, əsərləri isə qadağan edilmiş kitablar siyahısına salındı.

Uzun müddət bu qorxulu mövzunu araşdırılmasına cürət edən tapılmadı. Yalnız 40-cı illərin sonlarından 1917-1920-ci illər tariximizin araşdırılmasına icazə verildi. Xüsusən sov.İKP XX qurultayından sonra tarix elmində 1917-1920-ci illər dövrünün tədqiqinə qayıtmaq imkanı yarandı. Lakin yenə də bu həssas mövzu Kommunist partiyasının xüsusi nəzarətində idi və ayrı-ayrı mövzuların işlənməsi ideoloji qəlibdən kənara çıxa bilməzdi. Maraqlıdır ki, sovet dövründə ADR-in xarici siyasəti mövzusunda kompleks tədqiqat aparılmamış, bu mövzunun yalnız ayrı-ayrı tərəflərinə toxunulmuşdur.

Y. Tokarjevski, İ. Hüseynov, Z.İbrahimov, P. Əzizbəyova, K. Şahgəldiyev, Ç.Quliyev, Q. Mədətov, M.İsgəndərov, Ə. Sumbatzadə, M. Naydel, Y. Soqomolov, T. Köçərli, X.Əliyev, M.Qazıyev, H. Əzimov, Q. Bayramov və başqalarının əsərləri ilə mövzuya dair kosmopolit kommunist konsepsiya formalaşdı (440; 441; 368; 369; 238; 239; 231; 261; 227; 241; 387; 416; 360; 389; 220; 370; 434; 400 və s. və i. a 1918-1920-ci illər tariximiz, o cümlədən xarici siyasətimiz haqqında sovet tarixşünaslığını milli-demokratik istiqamətdə geniş təhlili prof. Ç. Həsənov tərəfindən verildiyi (257) üçün biz sovet dövrünün hakim kosmopolit kommunist konsepsiyasının tədqiqat mövzusu ilə bağlı əsas tezislərini göstərməyi faydalı hesab edirik. Bu konsepsiyaya görə guya:

- Böyük Oktyabr sosialist inqilabının qələbəsi və proletar diktaturasının qurulması Rusiyada əsaslı inqilabi islahatlar keçirilməsi üçün şərait yaratdı; sovet hökuməti bütün xalqların hüquq bərabərliyini və müxtəlifliyini, onların öz müqəddəratını təyin etmək, hətta ayrılmaq və müstəqil dövlət təşkil etmək hüququnu tanıdı;
- Bakıda Xalq Komissarıları sovetinin şəxsində sovet hakimiyyətinin qurulması Azərbaycan xalqının taleyində çox böyük hadisə idi; bununla barışmayan müsavatçılar Bakıda əksinqilabi qiyam təşkil etdilər;
- İmpsrialist dövlətlərin təhriki ilə gürcü menşevikləri, müsavatçılar və daşnaklar Rusiyadakı sovet hakimiyyətini tanımamaq, özlərinin burjua mülkədar hökumətlərini yaradıb, Zaqafqaziyanı fəhlə-kəndli Rusiyasından ayırmaq qərarına gəldilər;
- müsavatçılar zəifliklərini hiss edib, Osmanlı imperialistləri ilə sövdələşərək, onları Azərbaycan işğala təhrik etdilər, türklər Azərbaycanda tam müstəmləkə rejimi yaradaraq Azərbaycanın sərvətini daşıyıb aparırdılar;
- Bakı sovetinin türk işğalçı qüvvələri tərəfindən ləğv edilməsi irticanın qələbəsi, sovet Rusiyasına qarşı görünməmiş xəyanət idi;

- Mudros barışığına görə, Zaqafqaziyanı Antanta qoşunlarının tutmalı olduğunu eşidən müsavatçılar rahat nəfəs aldılar, çünki xarici ağalarının köməyi olmadan onlar hakimiyyət başında qala bilməzdilər; bu dəfə Azərbaycanda ingilislərin işğal rejimi yarandı; Müsavat hökuməti ingilislər qarşısında lakeylik edirdilər;

- Azərbaycan zəhmətkeşləri sovet Rusiyasına can atır, yerli xan-bəy rejiminə qarşı mübarizə aparır, Müsavat hökumətinin nə xarici, nə də daxili siyasətini qəbul etmirdilər;

- Müsavat hökumətinin xarici siyasəti tam iflasa uğramışdı; onlar ingilis imperialistlərinin razılığı olmadan xarici siyasət sahəsində bir addım belə ata bilməzdilər; ingilislər razılıq vermədikləri üçün Müsavat hökuməti Denikinə qarşı sovet Rusiyasının ittifaq yaratmaq çağırışlarını rədd etdi;

- Müsavat hökuməti daşnaklarla birləşib Zəngəzur, Qarabağ və Naxçıvanda milli qırğınlar təşkil edirdi;

- 1920-ci ilin əvvəllərindən etibarən inqilabi şəraitin yetişdiyini görən yerli kommunistlər zəhmətkeşlər arasında təbliğat təşkilat işini genişləndirir, Azərbaycanı böhrandan çıxarmağa çalışırdılar; aprel ayının 27-də (sonralar 28-də) baş vermiş silahlı üsyan nəticəsində xalqa zidd Müsavat rejimi devrildi və Azərbaycan həqiqi müstəqilliyini sovet hakimiyyəti dövründə əldə etdi...

Əlbəttə, bütün qeyri-obyektivliyinə, qeyri-elmiliyinə, qeyri-milliliyinə və nəhayət, ədalətsiz siyasi dəyərləndirmələrinə baxmayaraq, onlarla kitab, yüzlərlə məqalədən ibarət olan 1918-1920-ci illər üzrə sovet tarixçiliyi irsindən birdəfəlik imtina etmək, onların hamısının üstündən birdəfəlik qara xətt çəkmək çətindir. Bu əsərlərdə xeyli faktik material toplanmış, sovet dövrünün siyasi-ideoloji əhval-ruhiyyəsini əks etdirən fikirlər ümumiləşdirilmişdir. Sovet tarixçiliyinin hazırda on böyük əhəmiyyəti, bizim fikrimizcə, milli ziyalılara öz keçmişini təhrif etməmək yolunu göstərməsidir.

Sovet İttifaqının son illərində kommunist rejiminin dağılması gedişində yaranmış nisbi liberallaşma 1918-1920-ci illər tariximizin bu və ya digər sahələrini obyektiv işıqlandırmaq imkanı verdi. Dövri mətbuatda Azərbaycan Demokratik Respublikasının yaranması, milli-demokratik hökumətin fəaliyyəti, o cümlədən onun xarici siyasəti haqqında xeyli məqalə işıq üzü gördü. M. Əliyevin "Bu barədə ilk dəfə" başlığı altında ADR dövrünün siyasi xadimləri haqqında silsilə məqalələri meydana çıxdı (232235). Bunların ardınca N. Nəsibzadənin, A.Balayevin, N. Yaqublunun, B. Nəcəfovun kitablar çap edildi (246; 243; 240; 250; 414; 221; 255; 228). Bu kitablar 1918-1920-ci illər haqqında hakim təsəvvürlərdən fərqli, milli-demokratik konsepsiyaya uyğun və onun inkişafına yönəlmiş elmi əsərlərdir.

S.Həsənovun 1993-cü ildə çıxmış Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci) adlı əsəri problemin araşdırılması sahəsində yeni mərhələnin başlandığını göstərir. Müəllif arxiv sənədlərinə və mövcud ədəbiyyata əsaslanaraq, Azərbaycan Demokratik Respublikasının beynəlxalq münasibətlər sisteminə daxil olması uğrunda mübarizəyə həsr edilmiş dəyərli bir tədqiqat əsəri yaratmışdır. Bu əsərdə Azərbaycan istiqlalının elan edilməsi ərəfəsində diplomatik çəkişmələr, dünya müharibəsinin son mərhələsində Azərbaycanın müstəqilliyinin qorunması uğrunda diplomatik mübarizə, Azərbaycan nümayəndə heyətinin Paris sülh konfransında iştirakı, Qərb ölkələrinin mandatlığı məsələləri, Paris sülh konfransının Ali Şurası tərəfindən Azərbaycanın istiqlalının tanınması və Aprel böhranı ərəfəsində Azərbaycanın beynəlxalq vəziyyəti geniş tədqiq edilmişdir.

Azərbaycanın dövlət müstəqilliyinin bərpası əski siyasi və ideoloji qəliblərdən azad obyektiv elmi araşdırmalar üçün əlverişli şərait yaratmışdır. Son illərdə çap olunmuş əsərlər göstərir ki, yaxın zamanlarda 1917-1920-ci illər tariximizin həqiqi geniş mənzərəsini bərpa etməyə ümid üçün əsas vardır.

Tədqiqatın hazırlanmasında müxtəlif mənbələrdən istifadə edilmişdir. İlkin mənbələri bir neçə qrupa bölmək olar.

Birinci qrupa hələ ADR dövründə çap edilmiş rəsmi sənədləri aid etmək olar. Bu sənədlər arasında iki dildə çap edilmiş Azərbaycan hökumətinin qərarlarından ibarət sənədlər məcmuələrini, Azərbaycan parlamentinin stenoqramları məcmuəsi, Azərbaycan Respublikası haqqında sorğu kitabı, Azərbaycan Respublikasının yaranmasının birilliyi münasibətilə çap edilmiş rəsmi sənədlər toplusu diqqəti cəlb edir. Dövrün sənədlər məcmuəsi arasında 1919-cu ildə Tiflisdə çap edilmiş Zaqafqaziya və Gürcüstanın xarici siyasəti haqqında sənədlər və materiallar kitabında da tədqiqat mövzusuna aid xeyli rəsmi sənəd vardır və bu sənədlərdən geniş istifadə edilmişdir (4; 6; 7; 13).

Azərbaycan Respublikası sülh nümayəndə heyətinin çap etdirdiyi memorandumlar, bülleten və ayrı-ayrı mövzulara həsr edilmiş kitabçaları da əvəzsiz ilkin mənbə sayılmalıdır (2429). Əsərdə bu sənədlər haqqında bəhs ediləcəyi üçün burada yalnız elmi aktuallığını və dəyərini bu gün də saxlayan bu sənədlərin hamısının cəmləşdirilib sənədlər toplusu şəklində çapının arzu edildiyini göstərməklə kifayətlənək.

1918-1920-ci illər dövri mətbuatı da ilkin mənbə hesab edilməlidir. Əsərdə xüsusən Azərbaycan (hər iki dildə 30; 37) qəzetinin materiallarından geniş istifadə edilmişdir.

İkinsi qrup sənədlər sovet dövründə çap edilmişdir. İlk təşəbbüs A. Rayevski tərəfindən göstərilmiş, Versal sülh konfransında iştirak edən Azərbaycan nümayəndə heyətinin rəhbərinin Bakıya göndərdiyi yeddi geniş hesabat

məktubları tərtibçinin ön sözü ilə birlikdə nəşr edilmişdir (427). Uzun müddət bu mənbə qapalı fondlarda saxlanılmış, tədqiqatçılar və oxucular ondan istifadə edə bilməmişlər. Sovet dövründə çap edilmiş digər sənədlər xüsusi məqsədlə seçilmiş və bir neçə topluda çap edilmişdir (8; 11; 19; 9; 5; 10; 15; 3). Mənfi cəhətlərinə baxmayaraq, onlar 1918-1920-ci illər tariximizin tədqiqində faydalı mənbələr hesab edilməlidir.

Son illərdə Azərbaycan-Ermənistan münaqişəsi, Bakı soveti döründə ermənilərin törətdiyi cinayətlər, o cümlədən Fövqəladə İstintaq Komissiyasının materiallarından bir hissəsi çap edilmişdir. Ə. M. Topçubaşovun İstanbuldakı diplomatik söhbətlərinin mətnlərindən ibarət olan məktubların ayrıca kitab şəklində çapı, eləcə də 1918-1920-ci illərdə Naxçıvanda baş vermiş hadisələr haqqında Mirzə Bağır Əliyevin gündəliyinin və digər materialların çapı dövrün tarixinin mənbəşünaslıq bazasının genişlənməsində müsbət addımlardır (2; 22; 23; 236;1).

Tədqiqat işinin yazılmasında istifadə edilmiş arxiv materiallarının böyük əksəriyyəti nəşr edilməmişdir və ilk dəfə elmi dövriyyəyə gətirilir. Uzun illər boyu 1918-1920-ci illər dövrünə aid sənədlər üzərinə qoyulmuş məhdudiyyətlər bu sənədlərin elmi araşdırmalardan kənarda qalmasına səbəb olmuşdur.

Azərbaycan Demokratik Respublikasının xarici siyasəti ilə bağlı olan sənəd və materiallar Azərbaycan Respublikasının Dövlət Arxivinin (ARDA), eləcə də siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivinin (SPİHA) fondlarında saxlanılır. Tədqiqat işinin mövzusuna aid əsas fond Xarici İşlər Nazirliyinin fondudur (970 saylı fovd). Bundan başqa 894 (Daxili İşlər Nazirliyi), 895 (Azərbaycan parlamenti), 896 (Azərbaycan hökumətinin dəftərxanası), 897 (Azərbaycan Respublikasının Gürcüstandakı diplomatik nümayəndəliyi), 2905 (Azərbaycan Respublikasının İrandakı diplomatik nümayəndəliyi), 1061 (Fövqəladə İstintaq Komissiyası) saylı fondlarda olan çoxsaylı sənəd və materiallardan istifadə edilmişdir.

Bu fondlarda Zaqafqaziya seymindəki müsəlman fraksiyasının, daha sonra isə Azərbaycan Milli Şurasının iclaslarının protokolları, Trabzon və Batum danışıqları haqqında hssabatlar, Azərbaycanın Osmanlı, Gürcüstan, Dağıstan, Ermənistan və İranla imzaladığı rəsmi sənədlər və bu ölkələrlə rəsmi danışıqların protokolları, Azərbaycan nümayəndə heyətinin İstanbuldan və Parisdən göndərdiyi məktublar və başqa sənədlər, diplomatik nümayəndələrin hesabatları kimi qiymətli sənədlər vardır.

Keçmiş partiya tarixi arxivi (siyasi Partiyalar və İctimai hərəkatlar Arxivi) və Milli Təhlükəsizlik Nazirliyinin arxivində də mövzu üçün faydalı sənəd və materiallar saxlanılır.

Mövzu ilə bağlı problemin qoyulması və araşdırılmasında prof. Süleyman Əliyarlının məsləhətləri nəzərə alınmışdır. Müəllif dəyərli məsləhətlərinə görə prof. Əliyarlıya təşəkkürünü bildirir. Müəllif eləcə də tədqiqatın çapa hazırlanmasında ona yardım etmiş Ə.Tahirzadə, X.İbrahimli, S.Mirsahib və s.Səfərova təşəkkür etməyi özünə borc bilir.

# BİRİNCİ FƏSİL

# MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN TƏŞƏKKÜLÜ VƏ OSMANLI İMPERİYASI

## §1.

## FEVRAL İNQİLABINDAN SONRA AZƏRBAYCANDA SİYASİ VƏZİYYƏT VƏ OSMANLI NÜMAYƏNDƏLƏRİ İLƏ TƏMASLAR

Davam edən müharibə və cəbhədəki məğlubiyyətlər, həyat səviyyəsinin aşağı düşməsi və tətil hərəkatı 1917-ci ilin fevralında Rusiyanın paytaxtında dərin siyasi böhran yaratdı. Martın 12-də (köhnə stillə fevralın 27-də) Dövlət Dumasının buraxılmasından sonra Petroqradda üsyan başladı. İmperiyanın idarəsini öz əlinə almış Dövlət Dumasının İcraiyyə Komitəsi yeni hökumət təşkil etdi. Martın 15-də monarx. II Nikolay taxt-taçdan imtina etdi. 300 illik Romanov xanədanı çökdü.

İnqilabın ilk günlərində Dövlət Dumasının Cənubi Qafqazdan olan deputatlarının təşəbbüsü ilə Zaqafqaziyanın idarəsi üzrə xüsusi komitə (Osobıy gəmitet dlya upravleniya Zakavkazya Özakom) yarandı. Özakomun sədri V. A. Xarlamov, üzvləri M. İ. Papaçanov, M. Y. Səfərov, K. Abaşidze və P. N. Pereverzev təyin edildilər. Özakomun yaranması haqqında Müvəqqəti hökumətin qərar və təlimatına uyğun olaraq komitəyə Müvəqqəti hökumət adından və onun hüquqları ilə Cənubi Qafqazda geniş mülki huquqlar verildi (21, s.71). Başqa sözlə, Özakom Müvəqqəti hökumətin burada kollektiv canişini olurdu.

Burjua-demokratik inqilabından cəmiyyətin müxtəlif təbəqələri öz ehtiyaclarının ödənilməsi ümidində idi. Çoxmillətli Rusiyada məzlum xalqlar da milli hüquqlar almaq ümidində idilər.

Özünü Rusiya monarxiyasının hüquqi varisi elan etmiş Müvəqqəti hökumət verdiyi ilk qərarlardan biri ilə milli və dini məhdudiyyətlərin ləğv olunduğunu elan etdi.

Müvəqqəti hökumətin milli proqramının əsasını kadet (xalq azadlığı) partiyasının proqramı təşkil edirdi. Bu partiya Rusiyanın bölünməzliyi prinsipini müdafiə edir, mədəni özünütəyin azadlığı deyilən formul irəli sürürdü. O, yalnız Polşa və Finlandiyanın geniş özünuidarə hüquqlarını tanıyırdı. Digər böyük ümumrusiya partiyası olan eserlərin may ayında olmuş III qurultayında xalqların etnoqrafik yerləşməsi çərçivəsində ərazimilli muxtariyyətə malik federativ demokratik respublika formulu qəbul edildi (21, s.46). Kadet və eserlər kimi menşeviklər də milli məsələnin həllini gələcək Müəssislər Məslisinə həvalə edir, burada milli-mədəni muxtariyyət prinsipini müdafiə edəcəklərini göstərirdilər.

Ən cazibədar şüarlarla çıxış edən bolşeviklər sülh, torpaq kimi şüarlarla yanaşı, öz müqəddəratını təyin etmək hüququnu tanıdıqları yöndə təbliğat aparırdılar. Lakin RSDF(b)P-nin aprel konfransının qətnaməsində bu hüquq (ayrılıb müstəqil dövlət qurmaq) yalnız məzlum millətlərin proletariatına verilməsi şərti ilə qəbul edilir, üstəlik mənalı-mənalı qeyd edilirdi ki, millətlərin sərbəst ayrılması hüququ məsələsini bu və ya başqa vaxtda ayrılmasının məqsədə uyğunluğu məsələsi ilə qətiyyən qarışdırmaq olmaz (21, s.26).

Beləliklə, ümumrusiya miqyaslı sol partiyalar (sağlar qəti şəkildə vahid və bölünməz Rusiya tərəfdarı idilər) məzlum millətlərə. Bəzi məhdud hüquqlar nəzərdə tutur, lakin bunu Müəssislər Məclisinin toplanmasına qədər təxirə salırdılar. Əksəriyyəti eser və menşeviklərdən ibarət olan və Müvəqqəti hökumətə güclü alternativə çevrilən sovetlərin I Ümumrusiya qurultayında (iyun) qəbul edilən qətnamədə göstərilirdi: Qurultay milli məsələlərin Müəssislər Məclisinə

qədər heç kəsdən soruşmadan, Rusiyadan onun ayrı-ayrı hissələrinin ayrılması yolu ilə həlli cəhdlərinin əleyhinə olduğunu bildirir (21, s. 115).

Rusiyanın başqa müstəmləkələrində olduğu kimi Azərbaycanda da xalqlar düşmən çarizmin devrilməsi ictimai-siyasi həyatda böyük canlanma yaratdı. Azərbaycan milli hərəkatı yeni mərhələyə qədəm qoydu. M.Ə.Rəsulzadə yazırdı: "...Qafqasya türklüyü böyük müharibə arifəsində və ixtilali-kəbirin patladığı zamanda pək də hazırlıqsız deyildi. Gərçi vəzayif və məğasidi-milliyyənin əzəmət və müşkülatı ilə mütənasib bir təşkilata daha malik deyil idisə də, artıq siyasi idrakdan məhrum, arzuyi-millisi təəzzüv etməmiş, şəkilsiz bir kütlə halında dahi deyildi. Həyatını ibraz edəcək vasitələrə malik, diri və yaşamaq istəyini hiss etdirəsək ziruh bir vüsud halındaydı. On sənəlik gücük bir fasilə Azərbaycan türklüyünü mütəəddid mətbuata, müxtəlif müəssisələrə, siyasi məhfəllərə, hafi cəmiyyətlərə, zamandan, məkandan anlar münəvvərlərə malik, idrak və şüur sahibi bir cəmiyyət halına qoymuşdu" (324,s.35).

Azərbaycanda yerli dövlət hakimiyyətini bir neçə orqan həyata keçirirdi. On güclü qüvvə Mərkəzi İctimai Təşkilatların İcraiyyə komitələri idi. Ayrı-ayrı şəhərlərdə müsəlman Milli şuraları və başqa milli şuralar (komitələr) yaranırdı. Onlar bələdiyyə idarələri ilə birlikdə şəhərlərin idarəsində böyük rol oynayırdılar. Bakıda başqa şəhərlərdən fərqli olaraq nisbətən güclü sovet var idi.

Azərbaycandakı siyasi qüvvələrə gəldikdə isə ilk növbədə Fevral inqilabından sonra leqal fəaliyyətə keçmiş Müsəlman demokratik partiyası Müsavatı (1911-ci ildə yaranıb, sədri M.Ə.Rəsulzadə) göstərmək lazımdır. Mart ayının sonlarında N.Yusifbəylinin başçılığı altında Gəncədə Türk ədəmi-mərkəziyyət partiyası yaranıb, fəaliyyətini genişləndirməkdə idi. Ə.M.Topçubaşov (Topçubaşı) və Fətəli xan Xoyskinin başçılıq etdikləri Müstəqil demokratik qrup liberal-demokratiyanı təmsil edirdi. RSDFP-nin yerli təşkilatı hümmət də fəaliyyətini bərpa etməklə məşğul idi (sədri N. Nərimanov). Gəncədəki İttihadi-islam partiyası ilə Bakıdakı Rusiyada müsəlmanlıq partiyasının qalıqlarından İttihad partiyası meydana çıxmışdı (İ.Aşurbəyli, Q.Qarabəyov). Bakıda rus partiyaları xristian əhali arasında güclü nüfuza malik idi. Daşnak və başqa erməni partiyalarının yerli erməni icması olan şəhərlərdə özəkləri var idi.

Milli siyasi qüvvələrin Azərbaycanın gələcəyinə münasibəti 1917-ci ilin aprelin 15-20-də Bakıda keçirilən Qafqaz müsəlmanları qurultayında aydın oldu. Burada Azərbaycan, Gürcüstan, Ermənistan və Şimali Qafqaz müsəlmanları siyasi təşkilatlarının nümayəndələri iştirak edirdilər. Qurultayın sədri Ə.M.Topçubaşov idi. Müsavat və Türk ədəmi mərkəziyyət partiyaları müstəqil demokratlarla birlikdə Rusiyanın demokratik federativ respublikaya çevrilməsi və Azərbaycana geniş ərazimilli muxtariyyətin verilməsi haqqında qərar layihəsi ilə çıxış etdilər (93a, v.79,

82; 117, v.Z; 92, 20.04.1917, 21.09.1917; 369, s.206207; 343, s. 6465). Lakin sağda islamçılar (ittihadçılar), solda sosialistlər, bolşeviklər, menşeviklər Rusiyanın ərazi bütövlüyünün qorunmasına tərəfdarlıq edirdilər. Hümmətçi N.Nərimanov Rusiya fəhlə və kəndlilərinin qırmızı bayrağı altında birləşməyə çağırırdı (220,s.29). Uzun və kəskin mübahisələr nəticəsində kompromis qərar qəbul edildi: a) Qafqasya Müsəlman qurultayı milli-siyasi məqsədə aid məsələni müzakirə edərək müsəlman qövmlərinin mənafeyini ən ziyadə təmin edən Rusiya şəkli-idarəsinin məhəlli federasiya əsası üzərinə qurulu cümhuriyyəti-müctəmayi-ənam (demokratik, federativ respublika N.N.) olduğu qəbula qərar verir;

b) islam dinində olan bütün qövmlərin ruhani və mədəni irtibatını nəzərə alaraq Qafqasya Müsəlman qurultayı bütün Rusiya müsəlmanları üçün vəzi-qəvanin səlahiyyətinə malik ümumi bir idarə təşkilini lazım görür (324, s.38; 317, s.80).

Demokratik, federativ Rusiya daxilində millətlərə ərazi-milli muxtariyyət şüarı mayın 1-11də Moskvada keçirilmiş Ümumrusiya Müsəlmanları Qurultayında Azərbaycan demokratiyası tərəfindən müdafiə edildi. M.Ə.Rəsulzadənin təklif etdiyi milli-ərazi federativ əsaslarda demokratik respublika tezisi qurultay tərəfindən qəbul edildi (21, s.294305; 19a, s.933; 288a; 2776, s.270289). Daha sonra qeyri-rus xalqların iyun ayında Kiyevdə toplanmış qurultayında da bu şüar münasib hesab edildi. Burada yaranmış muxtariyyətçilər birliyi adlı təşkilatın sədr müavini Ə.M.Topçubaşov seçildi (317, s.80).

Azərbaycanın siyasi perspektivinə münasibət haqqında fikrin formalaşmasına 1917-ci ilin oktyabrın 26-dan 31-dək Bakıda keçirilmiş Türk ödəmi-mərkəziyyət demokratik partiyası Müsavatın I qurultayının xüsusi rolu oldu. Qurultay Türk ədəmi-mərkəziyyət partiyası ilə Müsavatın birləşmə prosesini başa çatdırdı. Azərbaycanın avanqard siyasi qüvvəsinə çevrilmiş Müsavatın proqramında demokratik, federativ Rusiya tərkibində Azərbaycana geniş ərazi-milli muxtariyyət tələbi təsbit edildi. Türk xalqları arasında federasiyanın yaranması da nəzərdə tutulurdu (74a, v.121; 317, s.8486).

Beləliklə, 1917-ci ilin payızına doğru ən böyük siyasi nüfuza malik olan milli-demokratik qüvvələr milli dövlət (ilk mərhələdə geniş ərazi-milli müxtariyyət formasında) tezisini irəli sürərək, başqa qeyri-rus xalqlarla bir sırada təkamül yolu ilə milli hüquqların əldə edilməsi uğrunda mübarizəyə qoşulmuş, öz ümidlərini Müəssislər Məclisinə bağlamışdılar. İttihadçı və sosialistlər isə bolşevik cəbhəsində unitar dövlət və mədəni muxtariyyət uğrunda mübarizə aparırdılar.

1917-ci il noyabrın 7-də Peterburqda bolşeviklərin hakimiyyəti qeyri-qanuni yolla ələ keçirmələri ölkədə yeni siyasi vəziyyət yaratdı, siyasi proseslər bu hadisə ilə daha da sürətləndi. Rusiyanın hər tərəfini anarxiya bürüdü. Ordu dəstə-dəstə cəbhəni tərk etməyə başladı. Hələ özünü möhkəmləndirməmiş bolşevik hökuməti durmadan direktivlər verir, əsgərlərə sülh, kəndlilərə torpaq, fəhlələrə fabrik zavod vəd edirdi. Rusiyanın məzlum millətlərinə isə 15 noyabr tarixli bəyannamə ilə ayrılıb, ayrıca dövlət təşkil etməyə qədər təyini müqəddərat hüququ verilirdi. Rusiya və Şərqin müsəlman zəhmətkeşləri isə Lenin və Stalinin məşhur müraciətində (3 dekabr) isə istədikləri kimi öz həyatlarını qurmağa dəvət olunurdu (12, s.1415, 3435).

Bolşeviklərin bu sənədləri Cənubi Qafqazdakı milli qüvvələrə əvvəllər müsbət təsir etsə də, hakimiyyəti qeyri-qanuni yolla ələ keçirdikləri üçün yeni sovet hökuməti burada qəbul edilmədi. Maraqlıdır ki, ümumiyyətlə Cənubi Qafqaz, eləcə də Azərbaycan milli qüvvələri psixoloji cəhətdən Rusiyadan hələ qopmamışdı. Noyabrın 24-də Özakomla birlikdə Zaqafqaziyadan olan bütün siyasi qüvvələrin iştirakı ilə Tiflisdə çağırılmış müşavirədə qərara alındı ki, Ümumrusiya Müəssislər Məclisi toplanana qədər Zaqafqaziya özünü müstəqil idarə etməli, seçkilər keçirib, öz nümayəndələrini bu ali qanunverici orqana göndərməlidir. Bir neçə gündən sonra yerli müvəqqəti hökumət Zaqafqaziya Komissarılığı (Zaqafkom) yarandı (13, s.710; 460, s.57). Regiondakı millətləri və əsas siyasi qüvvələri özündə təmsil etdiyinə baxmayaraq, Zaqafkom da sələfi kimi zəif idi və artan anarxiyanın qarşısını almağa qadir deyildi.

Bu zaman Cənubi Qafqazın beynəlxalq vəziyyətində əsaslı dəyişiklər baş verirdi. Noyabr ayında sovet hökuməti almanlara barışıq haqqında müraciət etmiş, dekabrda Brest-Litovsk şəhərində barışıq imzalanmış, sülh danışıqlarına başlamışdı. Elə bu zaman Qafqaz cəbhəsinin komandanı Vəhib paşa barışıq haqqında Zaqafkoma müraciət etdi. Dekabr ayının 18-də Qafqaz Ordusu nümayəndəsi ilə Osmanlı ordusu nümayəndəsi arasında hərbi əməliyyatların dayandırılması haqqında saziş imzalandı (13, s.1123; 298, s.332334). 1918-ci ilin yanvarın ilk günlərində Vəhib paşa geri çəkilən erməni hissələrinin yerli əhaliyə qarşı vəhşiliklərini qeyd edərək sülh bağlamaq təklifi ilə Zaqafkoma yenidən rəsmi müraciət etdi. Lakin Zaqafkom yanvar ayının 18-də açılacaq Ümumrusiya Müəssislər Məclisinin səlahiyyəti olmadan danışıqlara başlamağa hazır olmadığını bildirdi (7, s.4). Lenin elə birinci iclasdan sonra Müəssislər Məclisini dağıdıb, Rusiyada parlamentli demokratiyanın yaranması perspektivinin üstündən xətt çəkmiş oldu. Leninin bu qərarı Cənubi Qafqazda yeni siyasi böhran yaratdı. Qafqaz demokratiyasının taleyini bağladığı Müəssislər Məclisi artıq yox idi, o, artıq öz ümidinə buraxılmışdı və çıxış yolu aramaq məcburiyyətində qalmışdı.

Uzun müzakirələrdən sonra fevralın 25-də Tiflisdə Müəssislər Məclisinə seçilmiş nümayəndələrdən ibarət Zaqafqaziya seymi toplandı. seym, hər şeydən əvvəl Osmanlı imperiyası ilə müharibə problemlərini həll etməli idi. Bu azmış kimi, üç gündən sonra bolşevik hökumətinin Brest-Litovskda Almaniya və Türkiyə ilə imzaladığı müqaviləyə əsasən Ərdəhan, Qars və Batum Türkiyəyə verildi. Lakin seym hökuməti sülh müqaviləsinin bu bəndini tanımadığını bildirib, martın 14-də Osmanlı nümayəndələri ilə Trabzonda rəsmi danışaqlara başladı. Seymin sülh heyəti aşağıdakılardan ibarət idi: A.İ.Çxenkeli (sədr), Q.Abaşidze, M.H.Hacınski, İ.Z.Heydərov, Q.B.Qvazava, R.İ.Kaçaznuni, Q.M.Lasxişvili, M.Y.Mehdiyev. X.Xasməmmədov, A.İ.Xatisov və Ə.Şeyxülislamzadə. Cəmi 43 nəfərdən ibarət olan nümayəndə heyətinə eyni zamanda siyasi, hərbi, maliyyə, ticarət, sənaye müşavirləri, tərcüməçilər, katiblər və b., o cümlədən M.Ə.Rəsulzadə və Ə.Pepinov da daxil idilər (111a, v.12; 13, s.5288; 298, s.467468).

Seym nümayəndə heyətinin qarşısına Türkiyə ilə sülh müqaviləsi imzalamaq, Şərqi Anadolu üçün təyini-müqəddərat hüququ, o cümlədən Türkiyə Ermənistanı üçün türk dövləti daxilində muxtariyyət əldə etmək vəzifəsi qoymuşdu. Bağlanacaq sülh müqaviləsinin əsasında Rusiyanın Türkiyə ilə müharibədən əvvəlki dövlət sərhədinin bərpası durmalı idi (13, s.137; 356, s.17).

Trabzon sahilinə çıxar-çıxmaz gürcü nümayəndələri burada olan almanlarla əlaqə yaradıb, onları danışıqların gedişinə cəlb etmək və osmanlıların ağır sülh şərtləri qarşısında onların köməyindən istifadə etməyə cəhd göstərdilər. Osmanlı nümayəndə heyətinin tərkibində alman hərbi müşaviri Otto fon-Lossovun olmasına baxmayaraq, gürcülər almanlarla birbaşa əlaqə qura bilmədilər (421, s.98).

Martın 13-də Dağıstan nümayəndələri İ.Heydərov və Mustafa bəy Azərbaycan nümayəndəsi M.Mehdiyevlə birlikdə Osmanlı nümayəndə heyətinin başçısı Rauf bəylə gizli görüş keçirdilər. Onlar Osmanlı ordusunun Qafqaza irəliləməsini gözlədiklərini, ingilislərin erməniləri təşkilatlandırdığını, bolşevik nüfuzunun Qafqazda artmasının müsəlmanlar üçün böyük təhlükə olduğunu anlatdılar. M.Mehdiyev sülh müzakirələrinin ancaq indiki Qafqaz hökumətinin özünü rəsmən müstəqil bir hökumət elan etməsi ilə mümkün olacağını dedi (298, s.80).

Rəsmi danışıqlar başlanarkən Osmanlı heyətinin başçısı müzakirələrin müsbət nəticə verməsi məqsədi ilə hər şeydən əvvəl "Qafqaz Cümhuriyyətinin" rəsmi statusunu bəyan etməsini istəmiş, bu dövlətin mahiyyəti, forması, siyasi və inzibati quruluşu, eyni zamanda yeni dövlətin yaranması üçün beynəlxalq hüququn tələb etdiyi şərtləri yerinə yetirməsi haqqında dəqiq bəyannamə tələb etdi. Cənubi Qafqazın beynəlxalq hüquqi vəziyyəti haqqında nümayəndə

heyəti cavab bəyannaməsində öz müstəqilliyi haqqında xarici dövlətlərə bəyan və ratifikasiya edilməməsinə baxmayaraq, Zaqafqaziyanın defakto dövlət olmasını və Brest-Litovsk sülh müqaviləsini tanımadığını bildirdi.

Lakin Osmanlı nümayəndə heyəti 16 mart tarixli bəyannaməsində Brest-Litovsk sülh müqaviləsi imzalanan vaxt Zaqafqaziya özünü Rusiya Federativ Respublikasının tərkib hissəsi hesab etdiyindən, "öz müstəqilliyini tanıtmaq üçün heç bir iş görmədiyindən, dövlət sərhədlərini müəyyən etmədiyindən Qafqaz nümayəndə heyətinin Brest-Litovsk sülhünün Qafqaza aid hissəsini tanımadığı haqqında bəyannaməni qeyri-məqbul hesab etdiyini bildirdi (111a, v.27; 13, s. 116119; 298, s.469470).

Bəyannamələr mübadiləsindən sonra mövqelər tam aydınlaşdı: Osmanlı nümayəndə heyəti Brest-Litovsk sülh müqaviləsi imzalandığı vaxt Qafqazın özünü Rusiyanın tərkib hissəsi hesab etdiyi və hələ də müstəqilliyi haqqında rəsmi bəyannamə vermədiyi üçün müqavilə şərtlərinə uyğun olaraq Qars, Ərdahan və Batum sancaqlarının boşaldılması təqdirində sülh danışıqlarını davam etdirmək niyyətində idi; seymin nümayəndə heyəti ona verilmiş səlahiyyətlər çərçivəsində Osmanlıların tələblərini müzakirə etməyə qadir olmadığından, rəsmi danışıqları süni surətdə uzatmaqla məsələni seymin müzakirəsinə vermək məcburiyyətində qaldı.

Bu arada gürcü və erməni nümayəndələri ayrı-ayrılıqda Osmanlı heyətinin başçısı ilə təmas qurub, özləri üçün bəzi güzəştlər əldə etməyə çalışırdılar. Çxenkeli gizli görüşdə Rauf bəyi Batumun gürcülərə verilməsi, üstəlik Qars sancağında ermənilərə müxtariyyət kimi bəzi güzəştlər edilməsi zərurətinə inandırmağa çalışmış, sonuncu fikrini "ermənilərin büsbütün ingilislərin qucağına atılmalarına mane ola biləcəyi" ilə əsaslandırmağa çalışırdı; erməni nümayəndəsi Xatisov da əl altından Rauf bəyin yanına adam göndərib, gizli görüşmək arzusunda olduqunu bildirmişdi.

Xatisovun göndərdiyi naməyə görə, hal-hazırda Osmanlı dövlətindən qaçan 400 min erməni siyasətçilərə təzyiq göstərib onların müqəddəratının təyini və həlli məsələsində israr edirdilər. Xatisov bu ermənilərin keçmiş yurdlarına dönmələri və Osmanlı idarəsində "Həyat haqqı" əldə etmələri ilə məsələnin həll ediləcəyi fikrində idi. Əgər bu olarsa, ermənilərin üç sancağın Osmanlı dövlətinə ilhaqına razılıq verəcəklərini və bu xüsusda gürcülərə də təsir edəcəklərini vəd edirdi. Rauf bəy bu şəraitdə Xatisovla görüşməyi münasib bilmədi. Azərbaycan nümayəndəsi X. Xasməmmədov də Rauf bəylə görüşündə ona "gürcülərlə ermənilərin birləşmələrini və Qafqazda müsəlmanlara qarşı cəbhə qurmalarını önləmək üçün Batum şəhəri və limanının gürcülərə buraxılmasının müvafiq olacağı fikrini təlqin etməyə çalışsa da müvəffəq ola bilməmişdi (298, s.470472).

Ümumiyyətlə, Azərbaycan nümayəndələri Türkiyə ilə müharibə məsələsində çətin vəziyyətdə qalmışdılar. Bir tərəfdən, tərkibində olduqları vahid dövlətin mənafelərini müdafiə etməli, xüsusən gürcüləri incik salmamalı və erməniləri qatı antiosmanlı mövqedən çəkindirməli idilər. Digər tərəfdən, Azərbaycanın müxtəlif yerlərindən Osmanlı nümayəndələri yanına ilhaq tələbləri ilə gələn heyətlərin təzyiqinə dözməli, əhalinin fiziki varlığını qorumaq üçün tədbirlər görmək məcburiyyətində idilər. Ona görə də Azərbaycan nümayəndələri hər vasitə ilə Qafqazın dövlət müstəqilliyi haqqında bəyannamənin verilməsinə nail olmağa, müharibənin mümkün qədər tez dayandırılmasına çalışırdı (365a).

Osmanlı nümayəndə heyətinin qəti mövqeyi və sülh danışıqlarının faktiki olaraq dayanması seymdə kəskin müzakirələrə səbəb oldu. Gürcü və erməni nümayəndələri Brest-Litovsk muqaviləsini heç cür qəbul etmək istəmir, bəziləri müharibəni qələbəyədək davam etdirməyi təklif edirdilər. Azərbaycan və Dağıstan nümayəndələrinin mövqeyi tam əksinə olub, Brest-Litovsk sülh muqaviləsini tanımaq və Qafqazı müstəqil elan etmək zərurətini əsaslandırmağa yönəlmişdi. Seymin mart ayının 25-də olan iclasında M.Y.Mehdiyev müsəlman fraksiyası adından bəyan etdi ki, müstəqillik elan edilmədiyi təqdirdə sülh danışıqlarını müdafiə etməkdən imtina edəcək (13, s.45).

Qafqazın Rusiya tərkibindən hüquqi cəhətdən birdəfəlik qopmaqda olduğunu görən sovet Rusiyası özünün Bakıdakı qüvvələri vasitəsi ilə bu işin qarşısını almağa cəhd etdi. Qafqazın Rusiya orbitindən çıxmasından cin iynədən qorxan kimi qorxan daşnaklar da müsəlmanların gözünü qırmaq və Qafqazın müstəqilliyini əngəlləmək üçün qəti tədbirlər görmək qərarına gəldilər. Bolşeviklər və daşnakların üst-üstə düşən məqsədləri martın 30-dan aprelin 1-nə qədər Bakıda baş vermiş “Mart hadisələrinə” səbəb oldu. Bu hadisə erməni-bolşevik zülmünün zirvəsi idi.

Azərbaycanın qərbində Osmanlı qoşunlarının təzyiqi altında geri oturdulan erməni hərbi hissələri* yerli dinc əhaliyə qarşı elan olunmamış müharibə aparılırdı. Qırğınlar dalğası artıq Qarabağa çatmışdı. 1918-ci ilin mart ayına qədər İrəvan quberniyasında 197 kənd darmadağın edilmiş, 100 min 626 nəfərdən artıq yerli sakin ya təcavüzün qurbanı

---

* 1918-ci ilin əvvəli üçün erməni qüvvələri 16 minlik piyadadan, 1000 adamlıq süvaridən və 400 nəfərlik milis dəstələrindən ibarət idi. Gürcülərin 10000 nəfərlik hərbi qüvvəsi var idi (453, s.458).

olmuş, ya da ev-eşiyini atıb, qonşu mahallara pənah aparmağa məcbur edilmişdi. 1917-ci ildə Gəncə quberniyasında 27 yaşayış məntəqəsi dağıdılmış, 35-i ziyan çəkmişdi. Bakı quberniyasında isə (Lənkəran mahalı istisna olmaqla) 33 yaşayış məntəqəsi büsbütün, 126-cı isə qismən dağıdılmışdı. (155a, v.25; 324, s.5152).

Lenin tərəfindən Qafqaza fövqəladə Komissarı təyin edilmiş (11 yanvar 1918-ci il tarixli 13 №li dekretlə) s. Şaumyanın (12, s. 7475) təhriki və təşkilatçılığı ilə Bakıda martın sonlarında başlanmış döyüş dörd gün davam etdi. Bolşeviklərlə bərabər daşnaklar da müsəlman əhalinin qırğınında iştirak etdilər. Mart hadisələri nəticəsində Bakıda 10 mindən çox dinc əhali qırıldı, şəhər duması, milli şuralar ləğv edildi. Daha sonra qırğın dalğası Lənkəran, Şamaxı və Quba mahallarını da bürüdü. Cəmi 30 mindən çox adam öldürüldü. Döyüşün nəticələri bizim üçün əla oldu deyən Şaumyan Azərbaycanın şərqində sovet Rusiyasının yerli hökumətini qurmuş oldu və bütün Cənubi Qafqazı sovetləşdirmək üçün hazırlığa başladı (324, s.4951; 392 a, s.134136; 269, s.250252; 262; 277a, s.243252).

Fəlakətli vəziyyət Azərbaycan nümayəndələrini seymdə daha qəti addım atmağa məcbur edirdi. Bakı məsələsində və müharibəyə münasibətdə onların mövqeyi erməni və gürcülərdən daha artıq dərəcədə fərqlənir*, Türkiyənin Qafqazdakı siyasəti ilə üst-üstə düşürdü.

Seymin bütün müsəlman fraksiyalarının (hümmət partiyasının nümayəndələri istisnadır) aprelin 7-də birgə fövqəladə iclasında Azərbaycanda yaranmış dramatik vəziyyət geniş müzakirə edildi. Çıxış edənlər əsasən menşeviklərdən ibarət olan Tiflis hökumətinin Bakı bolşevikləri ilə əlbir olub, Bakı istiqamətinə göndərilən azsaylı qüvvəni lazımi silah və sursatla təmin etmədiyini, Leninlə gizli danışıqlar apardığını və erməni qırğınlarının miqyasının artdığını qəzəblə qeyd edərək, qəti tədbirlər görmək vaxtının çatdığını göstərdilər. Müzakirə nəticəsində qərara alındı ki,

---

* M. Ə.Rəsulzadə yazırdı: Bittəbii, Bakı Tiflisin müavinətini bəkliyordu. Yalnız Bakı deyil, bütün Azərbaycan, Azərbaycanlıların iştirakı ilə təşəkkül edən seym məclisi ilə Mavərayi-Qafqaz hökumətinin bu müavinətinə intizar ediyordu. Fəqat, heyhat, Azərbaycanlı seym əzasının yüksək səda ilə bağırıb-çığırması Tiflis hökümətinin həqiqi sahibləri olan gürcü menşeviklərinə lüzümunca təsir etmədi. Gürcüstan daxilindəki bolşevizmi min bir şiddət nə qahırlarla basdıran bu əfəndilər Bakıya qarşı quru elani-hərb belə etmədilər... Türk təhlükəsi varkən, bolşeviklərlə müvasim (düşmən.N.N.) olamayız deyə aldıqları bu qərib vəziyyət acib qozah etdilər. Bu sırada seymdəki erməni qisminin xətti-hərəkətini izaha ehtiyac varmıdır? (324, s. 5455).

başqa fraksiyaların nümayəndələri ilə hökumətin birgə iclasını keçirib, müsəlman nazirlərinin istefası bildirilsin. Qafqazın müstəqilliyinin elan edilməsi məsələsində müsəlman fraksiyalarının qəti fikri seymdə təmsil olunmuş bütün partiyaların nəzərinə çatdırılsın, bu tələb qəbul edilməsə, Şərqi Qafqazın müstəqilliyinin elan edilməsi imkanları müzakirə edilsin (111, v. 1922). Azərbaycan nümayəndələrinin ultimativ tələbləri seymə çaxnaşma saldı. Üstəlik həmin günlərdə Osmanlı nümayəndə heyətinin başçısı ultimatum səciyyəli bir yazı göndərərək, həm Brest-Litovsk barışığının tanınmasını, həm də Türkiyə ilə qəti müzakirələr aparmaq üçün seymin müstəqil dövlət kimi Rusiyadan ayrıldığını qəti şəkildə elan etməsini tələb etdi. Cavab üçün 48 saat möhlət verildi (13, s. 155 156). Eyni zamanda Osmanlı Ordusu erməni və gürcü hərbi hissələrinin cüzi müqavimətini qıraraq sürətlə irəliləyirdi.

Aprelin 10-da Zaqafqaziya nümayəndə heyəti Brest-Litovsk müqaviləsinin şərtlərini qəbul etməyə və bu əsasda danışıqları davam etdirməyə hazır olduğunu bildirdiyinə baxmayaraq, seymdə bu məsələlər kəskin münaqişələrə səbəb oldu. seymin Gegeçkori, Sereteli, Cukeli kimi tanınmış gürcü nümayəndələri təntənəli nitqlər söyləyir, müharibəni davam etdirmək üçün ölkə demokratiyasını səfərbərliyə almağa, Rusiya demokratiyasına müraciət etməyə çağırırdılar. Erməni fraksiyalarının ümumi fikrini ifadə edən Arutyunyan türklük düşmənliyi ruhu ilə aşılanmış nitqində müharibəni davam etdirmək lüzumundan bəhs edirdi. Birincilər, xüsusən erməni nümayəndəsi müharibədə məğlubiyyətin əsas səbəbkarları arasında “vahid cəbhəni parçalayan” müsəlman nümayəndələrini tənqid edirdilər[*]. Ş. Rüstəmbəyli öz

---

[*] M.H. Hacınski Trabzon danışıqlarının kəsilməsindən sonra müsəlman fraksiyalarının birgə iclasında deyirdi: Trabzon konfransının dayandırılmasından sonra Ənvər paşanın Trabzona və Batuma gəlməsi vacib hadisələrdən idi. Bizimlə görüşdə türk xalqları ilə gürcülər arasındakı əsrlik dostluğu qorumaq və Ənvər paşanın da diqqətinin cəlb etdiyi Türkiyəyə qarşı erməni düşmənçiliyi münasibətindən gürcüləri çəkindirmək üçün Batum barədə bir daha cəhd etdik, lakin bu cəhdimiz də uğursuz oldu. Hacınskinin verdiyi məlumata görə, Ənvər paşa onlarla görüşdə Azərbaycanın qonşu Gürcüstan və Ermənistanla birlikdə vahid federativ, ya konfederativ dövlət təşkil etməsi və onun Türkiyə ilə sıx əlaqə yaratmasını öz ölkəsi üçün arzu olunan hal hesab etdiyini bildirdi. Bununla belə Cənubi Qafqazda vahid dövlətin varlığına şübhə edən Ənvər paşa bu şübhənin gerçəkləşdiyi təqdirdə “Türkiyə ilə ümumi sərhədləri olan müstəqil Azərbaycanın Osmanlı imperiyası ilə Avstriya-Macarıstan formasında daha sıx ittifaq yarada bilməsi” imkanını da qeyd

çıxışında bu ittihamları rədd edərək, Türkiyə ilə etnik  dini qohumluğuna baxmayaraq, Azərbaycan nümayəndələrinin ümumqafqaz mənafeyi yolunda cəmimi xidmətlərini göstərdi. Özündən razı gürcü nümayəndələri və türk düşmənliyi xəstəliyinə tutulmuş erməni deputatları yaranmış vəziyyətin dramatikliyini nəzərə almadan seymin sülh heyətini geri çağırmaq, geniş səlahiyyətlərə malik fövqəladə üçlük (baş nazir Gegeçkori, daxili işlər naziri Ramişvili, maliyyə naziri Karçikyan) yaratmaq, ölkəni müharibə vəziyyətində elan etmək haqqında qərar qəbul etdilər (13, s. 163-184).

Lakin erməni-gürcü qüvvələri Osmanlı Ordusunun qarşısını almağa qadir deyildi. Aprelin 15-də osmanlılar Batumu tutdular və Poti istiqamətində şimala doğru irəliləməyə başladılar. Aprelin 18-də Qargösə, 19-da isə Zokar aşırımı Tiflis istiqamətində mühüm müdafiə məntəqəsi alındı. Gürcü menşevikləri Osmanlı hücumunun qarşısını almaq üçün gizli əlaqə saxladıqları almanlara müraciət etdilər. Almanlar osmanlılara təzyiq göstərməkdən imtina edib, onların (osmanlıların) Brest-Litovsk sərhədlərini keçməyə cürət etməyəcəklərini və Qafqaz üstündə Rusiya ilə Türkiyənin köhnə hesabları olduğundan bu münaqişəyə fəal müdaxilə etməyə haqlarının olmadığını dedilər (421, s.100).

Seymdəki erməni-gürcü çoxluğunun Qafqazın müstəqilliyini elan etmək və Brest-Litovsk sülhünü tam şəkildə qəbul etmək haqqında müraciət etməkdən başqa çarəsi qalmadı. Aprel ayının 22-də müstəqil Zaqafqaziya Federativ Demokratik Respublikasının yarandığı elan edildi*. A. İ. Çxenkelinin başçılığı ilə yeni hökumət təşkil edildi. Yeni

---

edirdi. Ənvər paşa ona dəfələrlə edilən müraciətlərə cavab olaraq, Azərbaycana yardım göstərmək yolunda bəzi tədbirlər gördüyünü, o cümlədən qardaşı Nuru paşanın 300 hərbi təlimatçı ilə Təbrizdən Gəncəyə getməsi  haqqında əmr verdiyini deyirdi. Hacınskinin "Ermənistanın müstəqilliyinə münasibətiniz?" sualına da Ənvər paşanın verdiyi cavab maraqlıdır: "Türkiyə müstəqil erməni dövlətinin yaranması əleyhinə deyil, bir şərtlə ki, ingilis-rus siyasəti xatirinə erməni xalqı türklərə qarşı intriqalarına son qoysun" (111, v.30-33;  7, s.7).

* M. Ə. Rəsulzadə bu hadisə barədə sonralar yazırdı: "Mavərayi" Qafqasya istiqlalının elanına gürcülər istəməyərək təşəbbüs etdilər. O zamankı türk komandanlığı bunu tələb ediyor və yardım üçün müraciət etdikləri bolşevik Rusiyası isə hər növ müavinətdən (yardımdan - N. N.) imtina ediyordu... Fəqət bizim üçün qəziyə öylə deyildi. Mavərayi Qafqasya istiqlalını, digər təbirlə Rusiyadan ayrılmasına biz ... çox təsir etmişdik (sürətləndirmişdik -N.N.).

hökumətin proqramı müzakirə edildiyi iclasda Azərbaycan fraksiyalarının etimadını göstərən çıxışında Rəsulzadə Şimali Qafqazın müstəqil ZFDR-ə birləşməsi və özlərini Zaqafqaziyanın fövqəladə Komissarıları adlandıran əcnəbi casuslardan Bakının azad edilməsi sahəsində hökumətin gərəkli tədbirlər görəcəyinə ümidvar olduğunu bildirdi (13, s.233-234). Hökumət ilk növbədə Türkiyə ilə müharibə məsələsini həll etməli idi. Çxenkelinin başçılıq etdiyi yeni nümayəndə heyəti danışıqları davam etdirmək üçün Batuma yola düşdü. Heyətin tərkibində həlledici səslə M.Ə. Rəsulzadə və M.H.Hacınski də vardı.

Cənubi Qafqazın müstəqilliyinin elan olunması Azərbaycanın vəziyyətində əsaslı dəyişiklik yaratmadı: Azərbaycanın şərqində yerli bolşevik hökumətinin repressiya aparatı durmadan işləyir, qərbində isə erməni hərbi dəstələri yerli əhalini qırmaqla məşğul idilər. Məngənə arasına alınmış Azərbaycanın türk yurdu kimi qalması belə təhlükədə idi. Ona görə də Azərbaycan nümayəndə heyəti Batum konfransından, xüsusilə də Türkiyənin rəsmi şəxsləri ilə görüşlərdən çox şey gözləyirdilər. Sülh heyətinin danışıqlara yola düşməsindən əvvəl N. Yusifbəylinin müsəlman fraksiyalarının birgə yığıncağında söylədiyi nitq Azərbaycan demokratiyasının əhval-ruhiyyəsini yaxşı əks etdirirdi. Nəsib bəy nitqində Azərbaycanda hökm sürən anarxiya və xaosdan danışaraq sonra göstərirdi ki, bizim bu vəziyyətimizdə, "bizim belə gücsüz halımızda xarici köməyə müraciət etməkdən başqa çarəmiz yoxdur. Müstəqilliyimizin ən qəti müdafiəçisi olmasına baxmayaraq, bu barədə birinci mən danışmağa məcburam. Təhlükənin gözünün içinə dik baxmalı, baş verəcək hadisələri qabaqcadan görüb, vaxtında müvafiq addımlar atmalıyıq. İndiki halda biz sevinməliyik ki, buraya gələcək qüvvə bizə dost və qardaş Türkiyədir. Ola bilsin bu, qonşularımızın xoşuna gəlməsin, amma başqa çıxış yolumuz yoxdur... Xətir üçün xəstə düşə bilərik. Bizim heyətin Batuma gedib, Şərqi Zaqafqaziya türkləri adından Osmanlı imperiyasından yardım istəmək vaxtı gəlib çatıb... Bununla belə heç vaxt azad Azərbaycanın müstəqil yaşaması fikrini yaddan çıxartmaq olmaz (7, s.13).

---

Gürcü dövlət xadimləri ilə Azərbaycan xadimləri üçün Mavərayi Qafqasya istiqlalı zəruri bir taktik şəklində görülürkən ermənilər üçn bu, çarəsi olmayan bir bəla kimi idi (328, s.910).

Bu arada daşnak partiyasının seymdəki deputatları müsəlman fraksiyasına rəsmən siyasi alver təklif etdilər. Onlar "Bakıda gələcək hökumətin sırf müsəlman deyil, beynəlmiləl xarakterdə olması və erməni hissələrinin Bakıda qalması" müqabilində Bakı sovetini buraxmağı ("Bakı hadisələrini ləğv etməyi") öz öhdələrinə götürürdülər. Lakin seymin müsəlman qisminin nümayəndəsi bu həyasız şərtləri qətiyyətlə rədd edib, "Bakı şəhərində hakimiyyətin bölünməzliyini bildirdi" (111, v.3638).

Batum danışıqları (konfransı) mayın 11-də başladı. Osmanlı nümayəndə heyətinin başçısı, ədliyyə naziri Xəlil bəy danışıqlar başlanan kimi verdiyi bəyanatda qeyd etdi ki, iki dövlət arasında Brest-Litovsk müqaviləsindən sonra qan axıdıldığı üçün həmin müqavilənin şərtləri indiki danışıqlar üçün əsas ola bilməz (13, s.314). Osmanlı baş naziri Tələt paşa nümayəndə heyətinin sədrini ermənilərə qüvvətli bir dövlət qurmaq imkanı verilməməsi haqqında təlimatlandırmışdı. Gürcüstanın da qüvvətli olmaması lazımdı; onun üçün də əhalisi əsasən müsəlmanlardan ibarət olan və Türkiyəyə birləşmək üçün ona müraciət etmiş Axısqa və Axalkələk nahiyələri tələb olunurdu (298, s.110-111).

Batum konfransında sovet hökuməti də iştirak etmək istəmiş, xarici işlər Komissarıı Çiçerin xüsusi nota ilə Batuma heç olmasa müşahidəçi göndərmək istədiyini bildirmiş, lakin Moskvadakı alman səfiri qraf fon Mirbaxa verdiyi notada Batum müqaviləsini tanımayacağını da qeyd etmişdi (298, s.474; 12, s.285, 302-303).

Almaniya nümayəndəsi Otto fon Lossov da Batum danışıqlarında iştirak etmək istədiyini bildirdi. Onun bu təklifi gürcü və erməni nümayəndələri tərəfindən ümidlə qarşılandı. Rəsulzadə və Hacınskinin etirazlarına baxmayaraq, nümayəndə heyəti fon Lossovun vasitəçi kimi danışıqlarda iştirakını alqışlayan bəyanat verdi. Lakin osmanlılar fon Lossovun təklifini rədd etdilər. Yola düşməzdən əvvəl alman generalı Lossov yazırdı ki, aldığı etibarlı məlumata görə, Zaqafqaziya parçalanma vəziyyətindədir və o, öz hökumətindən təlimat almaq üçün Batumu tərk edir. O biri gün, mayın 26-da Osmanlı nümayəndə heyəti 72 saat müddətində cavabı tələb edilən başqa bir ultimatum verdi (13, s.309-310; 460, s.116). Bu ultimatum artıq vahid Zaqafqaziya Respublikasının dağıldığı vaxta təsadüf edirdi. Həmin gün gürcü nümayəndələri seymdən çıxdıqlarını və Gürcüstanın müstəqəlliyini elan etdilər.

Beləliklə, Cənubi Qafqazı təşkil edən üç əsas millət arasındakı daxili ziddiyyətlər, xüsusən xarici oriyentasiya məsələsindəki antaqonizm müstəqil vahid dövlətdə birləşmək imkanını aradan qaldırdı. Seymə, daha sonra isə sülh heyətlərinə daxil olan nümayəndələr Cənubi Qafqazın ümumi mənafeyindən çox, öz milli mənafelərini təmsil edirdilər.

Azərbaycanda yaranmış dramatik vəziyyət milli-demokratik qüvvələri seymdə azlıqda qalıb hadisələrin gedişini seyr etməkdənsə qəti addımlar atmağa vadar etdi. Son üç-dörd ayın təcrübəsi Azərbaycanın fiziki varlığını və gələcəyini təmin etməyin bir yolu olduğunu göstərdi - İstiqlal yolu. Bu məqsədinə çatmaq üçün Azərbaycan demokratiyası etnik-dini cəhətdən bağlı olduğu qardaş Türkiyənin yardımına ümid bəsləyirdi.

## §2.

## İSTİQLAL BƏYANNAMƏSİ VƏ AZƏRBAYCAN DİPLOMATİYASININ İLK ADDIMLARI

Gürcü nümayəndələrinin seymdən çıxıb, Gürsüstanı müstəqil dövlət elan etməsi Cənubi Qafqazda yeni siyasi vəziyyət yaratdı. Sabahı günü, mayın 27-də seymin müsəlman qismi yıqışıb, dəyişən vəziyyəti müzakirə etdi. Azərbaycanın müstəqilliyi fikrinin yetişmiş olmasına baxmayaraq, bu tarixi hadisə iki gün ləngidi. Bu, Azərbaycan istiqlalı məsələsinin beynəlxalq xarakterindən çox daxili amillərlə bağlı idi. Məsələ bundadır ki, yuxarıda da qeyd etdiyimiz kimi, dəfələrlə edilən müraciətlərə cavab olaraq Ənvər paşa qardaşı Nuru paşanı 300 hərbi təlimatçı ilə Təbriz - Qarabağ yolu ilə Gəncəyə göndərmişdi. M.Ə.Rəsulzadə yazır: “O zaman mudhiş bir anarşiyə məruz, digər tərəfdən də bolşevik təcavüzü ilə təhdid olunan Gəncə Nuru paşanı göydən enmiş xilaskar bir mələk kimi tələqqi etmişdi (qarşılamışdı - N. N.). Xalqın kəndisinə yapdığı istiqbal Gəncə tarixində görülməmişdi (324, s.5960). Nuru paşanın gəlişi əvvəllər də özünü göstərən ilhaqçılıq cərəyanının püskürməsinə səbəb olmuşdu. Müstəqilliyi elan etməzdən əvvəl xalqın munasibətini öyrənmək lazım idi.

Batum danışıqlarında iştirak edən nümayəndə heyətinin üzvü N.Yusifbəyli də 27 mart tarixli iclasda iştirak edib, Cənubi Qafqazın müstəqilliyini qorumağa, gənc dövlətin güclənməsi və çiçəklənməsində Türkiyənin əlindən gələn köməyi əsirgəməyəcəyini bildirdi.Yusifbəylinin məruzəsini nəzərə alaraq iclas Batumdakı danışıqların davam etdirilməsi zərurəti haqqında qərar qəbul etdi. Daha sonra iclas seymin dağılmasından sonra yaranmış vəziyyəti geniş müzakirə edərək, ölkə daxilində anarxiyanın hökm sürdüyü, milli məsələlərin kəskinləşəcəyi ehtimalı qarşısında

Azərbaycanda legitim hakimiyyət orqanının yaranması zərurətini geniş müzakirə edərək, müvəqqəti Azərbaycan Milli Şurasının yaradılması haqqında qərar qəbul etdi. Milli Şura seymdəki bütün müsəlman fraksiyalarının üzvlərindən ibarət olub, fraksiyaların sayına müvafiq olaraq tərkibini genişləndirmək hüququna malik idi. Milli Şuranın rəyasət heyəti seçildi.

Şuranın sədri Müsavat partiyasının təklifi ilə qiyabi olaraq M.Ə.Rəsulzadə seçildi (bu vaxt o, Batum danışıqlarında iştirak edirdi). Milli Şuranın yaranmasını əhaliyə izah etmək üçün qərara alındı ki, N. Yusifbəyli, Ş. Rüstəmbəyli və X.Sultanovdan ibarət bir heyət Gəncəyə ezam edilsin (111, v.46-48; 7, s.15-16). Tezliklə, nümayəndə heyəti Gəncədən qayıdıb əhalinin, eləcə də köməyə gələn Osmanlı qüvvələrinin müstəqillik məsələsinə müsbət münasibəti haqqında Milli Şuraya məlumat verdi. Onun gətirdiyi məlumata görə, Osmanlı zabitlərinin Gəncəyə gəlməsinin Azərbaycanın gələcək daxili siyasi həyatına heç bir dəxli yoxdur. Onlar heç bir təcavüzkar niyyət daşımırlar. Əksinə, Azərbaycanın müstəqilliyini arzu edirlər (111, v.49-50; 7, s.16).

1918-ci il 28 may tarixli iclasında Azərbaycan Milli Şurası Azərbaycanın dövlət müstəqilliyi haqqında bəyannamə qəbul etdi. sonralar İstiqlal bəyannaməsi, ya Misaği-milli (Milli and) adlanasaq bu tarixi sənəddə bildirilirdi: 1” Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət haqqına malik olduğu kibi Cənub və Şərqi Zaqafqaziyadan ibarət olan Azərbaycan dəxi kamiləlhüquq müstəqil bir dövlətdir. 2.Mustəqil Azərbaycan dövlətinin şəkli idarəsi xalq cümhuriyyəti olaraq təğərrür ediyor (yaranır - N.N.). 3. Bütün millətlər və bilxassə həmcüvar olduğu millət və dövlətlərlə munasibəti-həsəne (xoş münasibət - N.N.) təsisinə əzm edər. 4.Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, silk və cins fərqi gözləmədən qələmruunda (ərazisində N.N.) yaşayan bütün vətəndaşlarına huquqi-siyasiyyə və vətəniyyə təmin edər. 5.Azərbaycan Xalq Cümhuriyyəti, ərazisi daxilində yaşayan beancümlə millətlərə sərbəstanə inkişafları üçün geniş meydan buraxır. 6. Məclisi-müəssisan toplanıncaya qədər Azərbaycan idarəsinin başında arayi-ümumiyyə ilə intixab olunmuş (ümumi səsvermə ilə seçilmiş - N.N.) Şurayi-milli və Şurayi-milliyə qarşı məsul hökuməti-müvəqqətə durur (98 a, v.Z; 111, V.49-50).

Daha sonra Milli Şura Fətəli xan Xoyskiyə müvəqqəti hökuməti təşkil etməyi tapşırır. Müvəqqəti hökumətin tərkibinə bitərəf F. Xoyski (Nazirlər Şurasının sədri və daxili işlər naziri), ittihadçı Xosrov bəy Sultanov (hərbi nazir), müsavatçı Məmməd Həsən Hacınski (xarici işlər naziri), müsavatçı Nəsib bəy Yusifbəyli (maliyyə və xalq təhsili naziri), müsavatçı Xəlil bəy Xasməmmədov (ədliyyə naziri), bitərəf, sonra müsavatçı olmuş Məmməd Yusif Səfərov (ticarət və sənaye naziri), hümmətçi Əkbər ağa Şeyxülislamzadə (əkinçilik və əmək naziri), sosialist Xudadat bəy

Məlikaslanov (yollar, poçt və teleqraf naziri) və hümmətçi Camo bəy Hacınski (dövlət nəzarətçisi) daxil oldular. Mayın 30-da Azərbaycanın öz müstəqilliyini elan etməsi haqqında radioteleqrafla dünyanın əsas siyasi mərkəzlərinə məlumat verildi (7, s.1819). Azərbaycan Demokratik Respublikası (Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan Respublikası) beynəlxalq münasibətlər sahəsində ilk müstəqil addımlarını atmağa başladı.

Bu zaman Batumda danışıqlar davam edirdi. Cənubi Qafqazın özünü müstəqil elan etmiş üç dövləti ayrı-ayrılıqda Osmanlı nümayəndələri ilə danışıqlar aparırdı. İyunun 4-də Osmanlı nümayəndələri ilə Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndələri ayrı-ayrılıqda müqavilə imzaladılar. Bu müqavilə Ermənistan və Gürcüstan üçün çox ağır idi, onlar xeyli torpaq itirmiş, bir sıra güzəştlərə getməyə məcbur olmuşdular.

Müstəqil Azərbaycan dövləti adından Milli Şuranın sədri M.Ə. Rəsulzadə və xarici işlər naziri M.H.Hacınski, Osmanlı dövləti tərəfindən ədliyyə naziri Xəlil bəy və Şərq cəbhəsi komandanı Vəhib paşanın imzaladıqları dostluq müqaviləsinə əsasən iki ölkə arasında daimi sülh və möhkəm dostluq münasibətləri bərqərar edilirdi. Osmanlı hökuməti qayda-qanunu və ölkənin təhlükəsizliyini təmin etmək üçün ehtiyac olduğu təqdirdə Azərbaycan hökumətinə silahlı qüvvələrlə yardım etməyi öz öhdəsinə götürürdü (56 a, v. 12-13, 15-16; 73a, s.5). Azərbaycan Milli Şurası və Müvəqqəti hökumət iyun ayının 16-da Gəncəyə köçən kimi imtahan qarşısında qalmalı oldu.

Milli Şuradan kənarda qalmış bəzi qüvvələr, xüsusən ilhaqçılar real qüvvəyə malik olan Nuru paşa vasitəsilə onu (Milli Şuranı) hakimiyyətdən uzaqlaşdırmağa çalışdılar. M.B.Məmmədzadənin təbirincə, rus çarlarının sabiq qapı qulları və şeyxülislamdan ibarət olan bu qüvvələr (317, s. 139) Milli Şuranı “ifrat inqilabçılıqda” və Azərbaycanda nüfuza malik olmamaqda ittiham etdilər. Seçkilər nəticəsində yaranmış Azərbaycanda yeganə legitim orqan olan Milli Şuranın və Müvəqqəti hökumətin ləğv edilməsi və Nuru paşanın özünün yeni hökumət təşkil etməsi tələb olundu. Bu, artıq böhran demək idi.

Milli Şuranın sədri M.Ə.Rəsulzadə, baş nazir F.Xoyski və xarici işlər naziri M.H.Hacınskidən ibarət bir heyət Nuru paşa ilə görüşüb, məsələni müzakirə etmək istədilər. Lakin Nuru paşa “yalnız bir əsgər olub, siyasətdən anlamadığını”, bu xüsusda “müşaviri-siyasi”si olan Əhməd bəy Ağaoğlu (Ağayev) ilə danışmağı məsləhət görmüşdü. Ə.Ağaoğlu isə demişdi: Xalq sizi istəmir, komandanlıq da sizin işinizə qarışmaq istəmir. Öz qüvvənizə güvənirsinizsə, məclisinizi açın, hökumətinizi qurun. Xalq sizə qarşı üsyan etsə, türk əsgəri qarışmaz; çünki əsgər buraya qardaşlarını düşməndən qurtarmaq üçün gəlmişdir. Komandanlıq hansı şərtlərdə Azərbaycan hökumətinə yardım edə bilər?qarşı sualına Ə.Ağaoğlunun verdiyi cavabı ( Milli Şura özünü ləğv etsin, Nuru paşa özü ayrı bir hökumət qurar) kəskin

etiraza səbəb olmuşdu. Müzakirə nəticəsində Ə.Ağaoğlu razı olur ki, Milli Şura yeni hökumət qursun və işin xatirinə bütün hüququnu bu hökumətə təhvil verib, özünü buraxsın (317, s.140).

Müzakirənin nəticələri Milli Şuranın 17 iyun tarixli iclasında kəskin mübahisələrə səbəb oldu. Zaqataladan olan nümayəndə Aslan bəy Qardaşov Türkiyə ilə birləşməyin qatı tərəfdarı olduğunu bildirib, onun burada olmasını Azərbaycan istiqlalında iştirak kimi qəbul etməməyi xahiş etdi (93a, v.89). Digər tərəfdən, etiraz əlaməti olaraq sosialistlər və hümmətçilər də hökumətdən çıxdıqlarını elan etdilər. Milli Şuranın bir sıra üzvləri (Aslan bəy Səfikürdski, M.Y. Səfərov, R. Vəkilov) Nuru paşanın və ətrafındakı adamların ölkənin daxili siyasi həyatına müdaxiləsini kəskin pisləyib, Milli Şuranın öz hüququndan əl çəkib, ölkəni qara qüvvələrin ixtiyarına buraxmamağı təklif etdilər. F. Xoyski hökumətin istefasını elan etdi. N. Yusifbəyli geniş çıxışında vəziyyəti təhlil edərək, çox həssas anda məsuliyyətli qərar qəbul etmək zərurətini bildirdi. Onun təklifi konstruktivliyi ilə fərqlənirdi: Kabinənin istefasını qəbul edəlim, sonra rəisimizə (M.Ə. Rəsulzadəyə - N.N.) tapşıralım ki, kəndisi etimad etdiyi bir adama yeni bir hökumət təşkilini tapşırsın. Yeni təşkil olunacaq hökumətə hürriyyətdən hasil olan bütün əsasları mühafizə etməsi və onlara sadiq qalması şərti ilə səlahiyəti-tammə verəlim ki, məmləkəti idarə edib, yaxın zamanda Məclisi-Müəssisan dəvət eyləsin və bu ixtiyarını kimsəyə xoşluqla təslim etməyib, qiymətdar bir əmanət kimi saxlasın (317, s.142). N.Yusifbəylinin bu təklifi mövcud şəraitdə ən münasib çıxış yolu hesab edilir, bu xüsusda müvafiq qərar qəbul edildikdən, yeni hökumətin tərkibini təsdiq etdikdən sonra Milli Şura öz işini müvəqqəti dayandırır. Milli Şura yeni Müvəqqəti hökumətin hüquq və vəzifələri (istiqlaliyyət və əsas azlıqlar xüsusunda mövcud olan prinsipləri, torpaq və bu kimi böyük məsələlər haqqında inqilabi qanunları ləğv etmədən, 6 ay ərzində bütün idarə işlərində tam səlahiyyət), eləcə də Azərbaycan Milli Şurasının buraxılması haqqında qərar qəbul edir.

Sonuncu qərar belə idi: Azərbaycanın keçirməkdə olduğu müşkülati-daxiliyyə və xariciyyəni nəzəri-etinaya alaraq Azərbaycan Şurayi-Millisi bütün hüquq və səlahiyyətini Fətəli xan Xoyski təhti-sədarətində təşəkkül edən kabinəyə həvalə və məzkur kabinəni arayi-ümumiyyə üzərinə müstənəd bilatəxir Məclisi-Müəssisan dəvət oluncaya qədər Azərbaycan həqqi-hakimiyyətini kəndi əlində bulunduraraq kimsəyə tərk etməməyə müvəzzəf edər” (4, s.9).

Beləliklə, Azərbaycan siyasi xadimləri daxili irticaçı qüvvələrin ilk zərbəsini qəbul edib, mövcud şəraitdə, sonrakı tarixi təcrübənin sübüt etdiyi kimi, düzgün qərar qəbul etdi. Lakin milli-demokratik qüvvələri Osmanlı dövlətinin Azərbaycana və Azərbaycan istiqlalına birmənalı olmayan münasibəti daha çox narahat etməyə başladı.

Mövzumuz üçün əhəmiyyətli olduğundan Osmanlı dövlətinin Azərbaycana münasibətdə yeritdiyi siyasətin əsas istiqamətləri və Almaniyanın bu siyasətə müqavimət cəhdləri üzərində dayanaq.

Müharibə başlayan kimi Türkiyədəki Qafqaz mühacirlərinin fəaliyyətləri genişləndi. Şimali Qafqaz, Gürcüstan və Azərbaycan nümayəndələrindən ibarət olan Qafqaz Komitəsi Berlin və Vyanaya bir heyət göndərib, Qafqazdakı millətlərin vəziyyətini izah edərək, dörd dövlətdən ibarət Qafqaz konfederasiyasının təşkilində Komitəyə yardım göstərilməsini xahiş etdi. İstanbulda Rusiya məhkumu müsəlman, türk-tatarların haqqını müdafiə komitəsi adlı başqa bir təşkilat Y. Akçura və Ə. Hüseynzadə tərəfindən yaradılmışdı. Ə. Ağaoğlu da bu təşkilatın işində fəal iştirak edirdi. Komitə üzvləri Türkiyə, Bolqarıstan, Almaniya, Avstriya-Macarıstan və İsveçrədə məruzələr edərək, ictimai fikri Rusiyadakı məzlum türklərin faciəli vəziyyətinə cəlb edirdilər (317, s.238-240).

Rusiya mühacirətinin bu fəaliyyəti Osmanlı hökuməti tərəfindən müdafiə olunur və mühacir təşkilatları hökumət tərəfindən maliyyələşdirilirdi. Hakim "İttihad və Tərrəqi" cəmiyyətinin 1917-ci il 11 noyabr tarixli bəyanatı Osmanlı hökumətinin Rusiya türkləri məsələsinə verdiyi əhəmiyyəti göstərir: "Vətənimizin və millətimizin milli ideyaları bizi Moskof düşmənini imhaya ( məhvə - N.N.) dəvət etməkdədir; böyləliklə Rusiyadakı bütün irqdaşlarımızı içinə alan, onlarla birləşməmizə imkan verəcək təbii hüdudlarımız əldə edilmiş olacaqdır (298, s.498)."

Müharibənin lap əvvəllərindən Azərbaycandakı milli təşkilatlar Osmanlı hökumətinin nümayəndələri ilə əlaqələr yaratmış, öz fəaliyyətlərini Osmanlı qoşunlarının hərəkəti ilə uyğunlaşdırmağa çalışmışlar. 1915-ci ilin fevralında Əmir Arslan xan Xoyski "Difai" təşkilatının nümayəndəsi kimi Ərzruma gəlmiş, Osmanlı nümayəndələri ilə görüşmüşdü. Onun fikrinə görə, Qafqazda bir çox milləti içinə alan İsveçrə tipli müstəqil bir dövlət qurmaq mümkün olacaqdır. Ənvər paşa bu fikri təqdir etmişdi. Bununla Türkiyə ilə Rusiya arasında Qafqazda böyük bir bufer dövlət qurulması və Türkiyənin Rusiya təhlükəsindən qorunması fikri ortaya atılmışdı (298, s.500). Lakin Osmanlı ordusunun Şərq cəbhəsindəki məğlubiyyətləri bu planı gerçəkləşdirməyi təxirə saldı. Rusiyada Fevral inqilabı və Qafqazın faktiki olaraq Rusiyadan siyasi-hüquqi cəhətdən qopmasından sonra Türkiyə hakim dairələrində Şərq məsələsinə diqqət daha da

artmış oldu. “İttihad və Tərəqqi” cəmiyyəti dairələrində Turan (ya islam) birliyi* idealını gerçəkləşdirmək üçün münasib şəraitin yetişdiyi əhval-ruhiyəsi üstünlük qazanmağa başladı.

Turan yolunun üstündə Turanın “altun körpüsü” Azərbaycan dururdu. Türkiyə öz lehinə Azərbaycanda və bütün Qafqazda fəaliyyət göstərəcək təşkilatın qurulmasına böyük əhəmiyyət verirdi. Bu məqsədlə “İttihad və Tərəqqi” cəmiyyətinin Qafqaz şöbəsi yaradılmış, Həsən Rövşəni bəy də ona rəhbər təyin edilmişdi. O, tək Azərbaycanda deyil, Türküstandakı fəaliyyətə də başçılıq etməli idi. Bu məqsədlə də 1918-ci ilin əvvəllərində Bakıya göndərildi (298, s.512).

Həsən Rövşəni bəyin, güman ki, bilavasitə fəaliyyəti nəticəsində 1918-ci ilin yanvarında Göyçayda Qafqaz İttihad və Tərəqqi partiyası yaranmışdı. Partiyanın Göyçay şöbəsinin sədri Hacı Bababəy Süleymanzadə, xəzinədarı Mirzəqulu Sultanzadə, üzvləri Ağamirzə Ağamirzəzadə, Əlibaba Sədizadə, Əbülqasım Hüseynzadə, Əbdülhəmid Əfəndi Qazızadə, ümumi katibi isə Şərafəddin Hacı Veysəlzadə idi. Partiyanın proqramı islam sosializmi ruhunda tərtib edilmiş, siyasi sahədə ilhaqçılıq məqsədi daşıyırdı. Bu məqsəd proqramda açıq ifadə edilmişdi: Bütün Qafqasiya müsəlmanlarının əski ana vətənimizin müqəddəs bayrağı altında məsud olması; dünyadakı bütün türklərin böyük Türkiyəyə qatışması və bir hiss, bir tərbiyə ilə yüksələrək aləmi-islama nigahban olması (34a, 22.12.1990).

---

* Şövkət Sürəyya Aydəmir Osmanlı siyasətinin o dövrdə başında duranlardan ali baş komandan vəkili, hərbi nazir Ənvər paşa haqqında yazır ki, o, heç bir zaman açıq bir turançı olmadı. İslamlıq, islam birliyi, qutsal cəhad və dünya müsəlmanları ilə ilişkilər, onun düşüncə ölçülərində daima ön plandaydı. Güney Qafqaziyada belə yalnız Azərbaycan türkləri üçün deyil, Qüzey Qafqaz müsəlmanları üçün də çalışırdı. Bütün birinci dünya hərbi boyunca Afrikada bir müsəlman cəbhəsi yaşatdı. Hətta irəlidə və günün birində Orta Asiyada bir mücadiləyə atıldığı zaman da “müsəlmanların xəlifəsinin damadı” titrini möhrünə və imzasının başına qoyacaqdır. Amma nə var ki, şimdi ona həm müsəlmanlıq, həm türklük üçün baş vuruluyordu. Bu hisslərlədir ki, daha irəlidə və bütün ümidləri sarsıldığı zaman Türküstan yolunu secəçəkdir (264, s.433).

Osmanlı hökumətinin bəzi başçılarının Azərbaycana münasibətdə son məqsədinin gerçəkləşməsi qarşısında iki böyük qüvvə dururdu. Azərbaycan dövlətinin rəhbərlərinin tam müstəqillik xəttini daha sonra görəcəyimizdən burada Almaniyanın Qafqazda, xüsusilə Azərbaycandakı məqsədlərini nəzərdən keçirək.

Türkiyənin Qafqazda irəliləmək, hətta daha irəli getmək arzusu onun müttəfiqi Almaniyanı daha çox narahat edirdi. Alman mənafeyi baxımından bu irəliləmə zərərli hesab edilib, bunun qarşısını almaq üçün tədbirlər görülürdü. Hətta Brest-Litovsk danışıqları başlarkən Almaniya Xarici İşlər Nazirliyi və Baş komandanlığı nümayəndələri Türkiyə heyətinə daimi mötədillik tövsiyə etmiş, hətta üç sancağın (Qars, Ərdəhan, Batum) ruslardan istənilməsinə tərəfdar olmamışdır. Ancaq müzakirələrin sonunda zərurət qarşısında almanlar bu üç sancağın Türkiyəyə birləşməsinə razılıq vermişdilər.

Qafqazda almanların öz mənafelərinə uyğun məqsədləri vardı, bunlardan on mühümü Bakı neftindən istədikləri miqdarda faydalanmaq imkanlarını təmin etmək idi. Ona görə də Azərbaycan istiqlalını tanımayan, əhalisini tatar adlandıran və Türkiyə ilə etnik-mədəni, dini və s. sahədəki qohumluğunu qəbul etməyən Almaniya, Bakının Türkiyənin hərbi yardımı ilə azad olunmasını arzu etmirdi. Almanlar ən azı Bakı neftinə şərik (Türkiyə ilə birlikdə) çıxmaq istəyirdilər (298, s.509; 421, s. 123-127). Müttəfiqlər arasında Azərbaycana münasibətdəki mənafe fərqləri çox tezliklə iki ölkə arasında ziddiyyətlərin kəskinləşməsinə səbəb oldu.

Batumda imzalanmış müqavilələr, o cümlədən Azərbaycanla müqavilənin 4-cü bəndi alman baş komandanlığını çox narazı salmış, Osmanlı hökumətinin Brest-Litovsk müqaviləsi xaricində fəaliyyətlərinə qəti etiraz etməyə tələsdirmişdi. Ənvər paşaya 8 iyun 1918-ci il tarixli təhdidedici məktubunda Baş qərargahın rəisi marşal Lüdendorf Türkiyənin Qafqaz dövlətləri ilə müqavilələrini “təsdiq və qəbul etmiyəcəyini, hətta “işbirliyi üçün bundan sonra imkan qalmayacağını açıqca bildirirdi (264, s.412-414).

İyun ayının 9-da Ənvər paşa cavab məktubunda Osmanlı dövlətinin Qafqazda fütuhat məqsədinin olmadığını və Osmanlı hərbi hissələrinin oraya hərəkətinin müsəlman əhalinin fiziki varlığını qorumaqdan ibarət olmasını bildirdi. Lakin almanlar bu dəlili nəinki müsbət qarşıladılar, hətta sərt bir məktubla Osmanlı hökumətinə təzyiqi son həddə çatdırdılar. Ümumi Baş komandanlıq adından feldmarşal Hindenburq “Qars, Ərdəhan, Batum sancaqları istisna olmaqla Qafqaz daxilindəki türk hissələrinin kamilən geri çəkilməsini, bu üç sancaq daxilində də yalnız asayişi təmin edəcək qədər əsgər saxlanılmasını, Aleksandropol (Gümrü) xaric Təbriz dəmiryolunun ancaq zəif türk mühafizəçiləri

tərəfindən qorunmasını, geridə qalan bütün türk hissələrinin kamilən Əlcəzair və Şimali İrandakı ingilislərə qarşı istifadə edilməsini" və s. tələb etdi.

Hindenburqun ultimatumu Ənvər paşaya çox ağır təsir etmiş, hətta onu istefa vermək fikrinə sövq etmişdi: Çünki Qafqazdan çəkilməyə və Qafqaz müsalmanlarına verdiyi vədi yerinə yetirməməyə özünü məcbur hiss etməkdədir (264, s.423). Hansı mülahizəyə görəsə, Ənvər paşa istefa ərizəsini sultana təqdim etməmiş, üstəlik almanların da tələblərini qulaqardına vuraraq, Azərbaycana münasibətdə nəzərdə tutduğu siyasəti davam etdirmişdi. Bu siyasətin nəticəsi olaraq almanların Bakı neftinə sahib olmaq cəhdi baş tutmamışdı (bu mövzuya 3-cü paraqrafda bir daha qayıdılacaq).

Ənvər paşanın Azərbaycan məsələsində qətiyyətini görən almanlar Batum müqaviləsinin əvəzini çıxmağa çalışırdılar. Bu dəfə onlar müttəfiqi Osmanlı dövlətindən xəbərsiz Bakı nefti və Azərbaycan məsələsində ruslarla anlaşa bildilər. Avqust ayının 27-də sovet Rusiyası ilə Brest-Litovsk müqaviləsinə əlavə imzalandı. Müqaviləyə yeni əlavəyə əsasən sovet Rusiyası Estoniya, Finlandiya, Finlandiya və Litvanın müstəqilliyini tanımış, Gürcüstan barədə isə bu müddəa məqbul hesab olunmuşdu: "Rusiya Almaniya tərəfindən Gürcüstanın müstəqil dövlət orqanizmi kimi tanınmasına razılığını bildirir". Adı çəkilməsə də sənədin 14-cü maddəsi Azərbaycan haqqında idi. Bu maddəyə görə, Almaniya üçüncü dövlətin, yəni Türkiyənin hərbi qüvvələrinin Bakı, Şamaxı və Quba mahallarının müəyyən olunmuş sərhədlərini keçməməsinə kömək etməli idi. Əvəzində Rusiya imkan daxilində Bakı əyalətində neft və neft məhsulları çıxarılmasına şərait yaradacaq və çıxarılan neftin dörddə biri Almaniyaya veriləcəkdi (12, s.443-444). Azərbaycandan xəbərsiz torpaq və sərvətini hərraca qoyan alman-rus sövdələşməsini bu zaman İstanbulda olan Azərbaycan nümayəndə heyəti pisləmiş, protest notasında göstərmişdi ki, Bakısız Azərbaycan başsız bədəndir (88, v.93; 324, s.66; 37, 04.11.1918)*.

Nümayəndə heyəti İstanbula iyunun 24-də getmişdi. Böyük səlahiyyətlərə malik yeddi nəfərlik heyətə M.Ə. Rəsulzadə başçılıq edirdi.**

---

* Əhməd bəy Ağaoğlu isə almanlar barədə yazırdı: Onlar Azərbaycanı bir bidon kerosinə satdılar (324, s.66).

** T. Svyataxovski yazır ki, "Osmanlı hakim dairələri aralarında Rəsulzadə də olmaqla, bir neçə siyasi xadimi Azərbaycandan uzaqlaşdırmaq niyyəti ilə uzunmüddətli görüş üçün onları Türkiyəyə dəvət etdilər (472, s.132).

Nümayəndə heyəti Dördlər ittifaqa dövlətləri nə Qafqazda yeni yaranmış dövlətlərin nümayəndələrindən ibarət konfransda iştirak etməyə, eyni zamanda Osmanlı hökuməti ilə bağlı bəzi məsələləri müzakirə etmək üçün göndərilmişdi. Bir sıra ölkələrin səlahiyyətli nümayəndələri də artıq İstanbulda idi. M. Ə. Rəsulzadənin Bakıya, Nazirlər Şurasının sədri və xarici işlər nazirinə yazdığı məktubundan məlum olur ki, Azərbaycan heyəti burada çoxlu görüşlər keçirmiş, İstiqlal bəyannaməsini bu ölkələrin nümayəndələrinə təqdim etmişdi. İlk dəfə olaraq Gürcüstan və Ermənistan nümayəndələri ilə sərhəd məsələləri üzrə mübahisələr də məhz burada başlamışdı. Müharibənin gedişində Dördlər ittifaqı dövlətlərinin vəziyyəti ağırlaşdıqca, İstanbul konfransının başlanacağı ehtimalı da azalmağa başlamış və bir müddətdən sonra artıq məlum olmuşdu ki, konfrans baş tutmayacaq.

Bununla belə Azərbaycan nümayəndə heyətinin Osmanlı hökumətinin başçısı və digər rəsmi şəxslərlə görüşləri çox faydalı olmuşdur. Rəsulzadə elə ilk məktubunda göstərir ki, Türkiyə mətbuatında və xalq arasında Azərbaycana böyük maraq olmasına baxmayaraq, bu ölkədə Azərbaycan haqqında təsəvvür çox səthidir. Bu çatışmazlıqları aradan qaldırmaq üçün Qafqaz mühacirlərinin fəal iştirakı ilə qurulmuş Qafqaz Tərəqqi Cəmiyyəti çox böyük işlər görür (97, v.6).

Osmanlı hökuməti nümayəndə heyətinin xahişini nəzərə alıb, on il müddətinə Azərbaycana 2 milyon lirə həcmində borc verməyi qərara aldı. Azərbaycan pullarının çapı da İstanbulda başlandı. Yenə də Azərbaycan heyətinin israrlı xahişlərini nəzərə alaraq, Türkiyə Azərbaycana istənilən qədər kitab və müəllim göndərməyə razılıq verdi (37, 12.11.1918).

Azərbaycan heyətinin ən böyük müvəffəqiyyəti isə Azərbaycana hərbi yardım məsələsini həll etməsi idi. Batum müqaviləsinin 4-cü bəndinə müvafiq olaraq Ənvər paşa Azərbaycana kifayət qədər hərbi qüvvə (bir diviziya) göndərəcəyinə söz verir. Lakin bu qərarı verərkən Ənvər paşa onu da qeyd edir ki, Türkiyənin maliyyə vəziyyətinin ağır

---

Görkəmli Azərbaycanşünas alimin bu iddiası ilə razılaşmaq çətindir, çünki Azərbaycan nümayəndə heyətindən başqa İstanbula gürcü, erməni, Şimali Qafqaz nümayəndə heyətləri də dəvət edilmişdi.

olduğu bir dövrdə hər ay Azərbaycanda olan hissələrə 50 min lirə, yaxud 1 milyon manat xərclənməsi ağır yükdur və Rəsulzadə vasitəsi ilə Azərbaycanın öz ordusunu yaratmağıı tövsiyyə edir (97, v. 13; 70, V.2).

Müstəqil Azərbaycan dövlətinin ilk diplomatik addımları İstanbul görüşlərində atıldı. Ondan asılı olmayan şərtlərə görə konfransın baş tutmadığına baxmayaraq, Azərbaycan nümayəndə heyəti xarici ölkə nümayəndələri, ilk növbədə Dördlər ittifaqı ölkələri ilə vacib təmaslar qurmuş, Azərbaycan hökumətinin bu və ya başqa məsələlərdə mövqeyini bildirmiş və müdafiə etmişdi. Türkiyə ilə isə hərtərəfli əlaqələrin əsası qoyulmuşdu. Ən vacibi isə nümayəndə heyəti Bakını düşməndən azad etmək üçün zəruri hərbi qüvvə almaq məqsədinə nail oldu.

## §3.

## HƏRBİ SAHƏDƏ AZƏRBAYCAN OSMANLI ƏMƏKDAŞLIĞI

4 iyun tarixli Azərbaycan-Osmanlı müqaviləsinin imzalandığı vaxt Azərbaycanda hərbi vəziyyət çox gərgin idi. Özünü sovet Rusiyasının yerli hökuməti elan etmiş Bakı quberniyasının Xalq Komissarları soveti yad bir rejim qurmuş, Mart faciəsini davam etdirərək, Azərbaycanın şərqində kommunist diktaturası yaratmışdı. Bu rejim yuxarıda adı çəkilən 13 №li direktivdə əks olunmuş vəzifələrə uyğun olaraq əvvəl Azərbaycanda, daha sonra isə bütün Cənubi Qafqazda milli hərəkatları ləğv etmək üçün qəti addım atmağa başladı. Bakı sovetinin ixtiyarında 18 min döyüşçü var idi. (220, s.154; 471, s.270). Qızıl Ordu demək olar ki, bütünlüklə döyüş qabiliyyətindən məhrum olan, daşnak zabitlərinin komandası altında erməni Könüllülərdən ibarət idi. Bu dəstələr ətraf kəndləri qarət edir, bununla müsəlman kəndlərinin qəzəbinə səbəb olurdular (429, s.194; 460, s.209). İyun ayının 6-da Xalq Komissarları sovetinin hərbi işlər üzrə Komissarıı Korqanov Qırmızı Orduya Gəncə üzərinə hücum əmrini verdi.

Nuru paşa Gəncəyə gəldiyi vaxt sovet qoşunlarına qarşı 600 nəfərdən ibarət dəstələr dururdu. Cəbhəyə knyaz Maqalov adlı bir gürcü polkovniki başçılıq edirdi. Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra Maqalov gürcü əsgərlərini də cəbhədən gətirib, Tiflisə çəkildi. Nuru paşanın fikrinsə, Azərbaycan Ordusuna Könüllü toplanması işi lazımi sürətlə getmirdi. O, bunu çarizm dövründə müsəlmanların hərbi işdən yadırğadılması ilə izah edirdi (340, s.5). Azərbaycan hökumətinin iyun ayındakı qərarlarına əsasən Azərbaycanda hərbi vəziyyət elan edildi. Müsəlman korpusu Əlahiddə Azərbaycan korpusu adlandırıldı, burada xidmət edəcək zabit kadrlarını hazırlamaq üçün qısamüddətli kurslar

açıldı, məcburi hərbi mükəlləfiyyət haqqında fərman verildi. Lakin bütün bunların kifayət etməyəcəyini və ordunun yaranmasının hər şeydən əvvəl vaxt tələb etdiyini nəzərə alaraq Nazirlər Şurasının sədri Fətəli xan Xoyski Osmanlı dövlətinin bir diviziya həcmində real hərbi yardım göstərməsini xahiş etdi. Osmanlı dövlətinin başçıları belə bir yardım haqqında əvvəllər də vəd vermişdilər. Lakin müttəfiqi Almaniyanın əks reaksiyasından ehtiyat edirdilər. Ona görə də üzdə bu qüvvənin Osmanlı dövlətinə bağlı olmadığı təsəvvürü yaratmaq üçün yeni qoşun birləşməsi Qafqaz İslam Ordusu adlandırıldı. Onun başına Nuru paşa gətirildi (baxın: 275, s.839-843; 343, s.98-99).

Azərbaycan hökumətinin köməyinə göndərilən Qafqaz diviziyasının (fırkasının) Gəncəyə kəlməsi almanların müqaviməti üzündən xeyli ləngidi. Sonuncular Brest-Litovsk müqaviləsi ilə bağlı olduqları sovet Rusiyasının tələbi və Bakı neftinə xüsusi maraqları olduğundan Bakının tutulmasına mane olmaq məqsədilə bu diviziyanın Gürcüstan dəmiryolu ilə Gəncəyə gəlməsini qadağan etdilər. Ona görə də Qafqaz diviziyası (komandiri Mürsəl paşa) Gümrü-Dilican-Ağstafa yolunu döyüşlə keçməyə məcbur oldu. 257 zabitdən və 55-75 əskərdən ibarət olan bu diviziyanı Azərbaycan əhalisi sonsuz sevinc və səmimiyyətlə qarşıladı (340, s.24). Təxminən o qədər də Azərbaycan hərbi hissələrindən və Könüllülərdən ibarət olan Qafqaz İslam Ordusu Göyçay ətrafında döyüşə girdi.

Göyçay ətrafında gedən qızğın döyüşlərdən sonra Bakı sovetinin hərbi qüvvələri geri çəkilməyə başladılar. İyulun əvvələrində Ələt stansiyası yaxınlığında sahilə çıxarılıb, Kürdəmir cəbhəsinə göndərilən 1500 nəfərlik Biçeraxovun komandası altında olan polkda cəbhəni saxlaya bilmədi. Şaumyanın hərbi yardım haqqında xahişlərinə cavab olaraq iyul ayında Ukrayna cəbhəsindən Petrovun komandası altında bir eskadron süvari, bir bölük dənizçi və topxanadan ibarət qoşun göndərildi. Bundan başqa 4 top və 170 nəfərlik komandadan ibarət bir süvari batareyası və bir dəstə matros da Bakıya gəldi. Həştərxandan 8 yelkənli gəmi ilə hərbi ləvazimat göndərildi (220, s.159, 162). Lakin gələn hərbi yardım Qafqaz İslam Ordusunun iyul ayında başlanmış hücumunun qarşısını ala bilmədi, Azərbaycan və Türkiyə hissələri iyulun sonlarında artıq Bakı civarlarına gəlib çatdılar. İyulun sonunda stepan Şaumyanın dəstəsi istefa verməyə məcbur oldu. Sonralar Bakı quberniyası Xalq Komissarları sovetinin hərbi sahədə məğlubiyyətinin səbəblərindən danışarkan Suren Şaumyan göstərirdi ki, Bakı soveti qoşunlarının erməni komandirləri apardıqları müsadirələr, [yerli əhaliyə] həqarətli münasibəti və düşmən nəfsinə casusluğun qarşısını almaq bəhanəsi ilə, həqiqətdə isə müsəlmanlara nifrət bəslədiklərindən onu daim terrora məruz qoymaları ilə sovet hakimiyyətinə qarşı yalnız mənfi münasibət yarada bilərdi. Ona görə də indi demək olar ki, Qızıl Ordu tərəfindən başlanmış hücum səhv hərəkət idi (447, s.83-84; 460, s.130).

Şaumyan dəstəsinin iyulun sonunda istefası ilə Bakıda yaranmış sentrokaspi və sovetlərin Müvəqqəti İcraiyyə Komitəsi Rəyasət Heyətinin Diktaturası adlanan yeni yad rejim və onun Ənzəlidən general Denstervilin başçılığı ilə 1,5 min əsgər və zabitdən ibarət qüvvə dəvət etməsi də Qafqaz İslam Ordusunun hücumunun qarşısını ala bilmədi. Yeni gəlmiş hərbi hissələrlə möhkəmləndirilən Qafqaz İslam Ordusu sentyabrın 14-də Bakı üzərinə qəti hücuma başladı. Hərbi əməliyyata bilavasitə Nuru paşa və Xəlil paşa başçılıq edirdilər. Artıq müqavimət göstərməyin mənasız olduğunu görən ingilis qüvvələri və sentrokaspi dəstələri döyüşdən çıxaraq, Bakını tərk etməyə başladılar. Sentyabrın 15-də Azərbaycan hərbi hissələri Bakıya daxil olmaqa başladılar. Bakı fəth edildi.

Bakının qurtuluşunun birinci ildönümü münasibəti ilə Haqq yerini tutan gün adlı məqaləsində M.Ə.Rəsulzadə bu hadisənin tarixi əhəmiyyəti haqqında yazırdı: Azərbaycan türkü mayısın 28-də istiqlalını elan etmiş, eylülün sentyabrın 15-də düşmən əlində inləyən baş şəhərini qurtarmışlar. Mayısın 28-i Azərbaycan cümhuriyyəti tarixinin başlanğıcı isə, eylülün 15-i də o başlanğıc qədər önəmlidir. Eylülün 15-i olmasa, Mayısın 28-i bir sənəsini doldurmadan yox olub gedərdi. Bakı, Azərbaycan üçün sadəcə bir baş şəhər deyil, əfsanələrdəki "can şişəsi" kimi olduğunu diqqətə alırsaq, həqiqi istiqlal gününün eylülün 15-i olduğunu qəbul etməliyiz. Mayısın 28-də böyük bir haq elan edilmiş, eylülün 15-də isə bu haqq gerçəkləşdirilmişdir (45a, N 281, 1991).

Sentyabrın 17-də Azərbaycan hökuməti özünun təbii paytaxtına köçdü. Azərbaycan hökumətinin hakimiyyəti bütün ölkəyə yayılmış oldu. Milli dövlət qurusuluğu işləri sürətləndi.

Sovet Rusiyası hökumətinin bu vaxt özünün taleyinin qeyri-müəyyən olmasına baxmayaraq, o, Azərbaycandakı hadisələrə marağını azaltmırdı. Çarəsizlikdən əsas etibarı ilə diplomatik vasitələrlə Bakının Azərbaycan hökuməti əlinə keçməsinin qarşısını almağa çalışırdı. Yuxarıda da deyildiyi kimi, bu məqsədlə Osmanlı-Almaniya ziddiyyətlərindən istifadə etmək və Almaniya ilə siyasi alver (26 avqust sövdələşməsi) vasitəsi ilə neft səltənəti Bakını öz əlində saxlamaq üçün cəhd edirdi. Lakin Bakının fəthi Moskvanı öz kartını açmağa məcbur etdi, sentyabrın 20-də RSFSR xarici işlər Komissarıı Çiçerin Türkiyə xarici işlər nazirinə böyük və kəskin bir nota verdi. Notada Türkiyə Brest-Litovsk müqaviləsini sistematik şəkildə pozmaqda ittiham edilir, müvafiq bəndlərin öz qüvvəsini itirdiyi elan olunurdu. Bakı hadisələri barədə notada deyilirdi: Bu ilin iyulunda türk ordusu Bakıya hücum etmiş və sovet qoşunlarının üstün qüvvələrə qarşı qəhrəmancasına müqavimətinə (?) baxmayaraq, Rusiya Respublikasının ən mühüm şəhərindən birinə (Bakı nəzərdə tutulur - N.N.) girmişdir (12, s.491).

Sentyabrın 24-də sovet Rusiyasının səfiri İoffe Osmanlı dövlətinin baş naziri Tələt paşadan Bakının boşaldılmasını, vurulan zərərin ödənilməsini və bu şəhərin sovet məqamlarına təhvilini yenidən tələb etdi. Tələt paşa da türklərin hər hansı bir sahəni sovet Rusiyasına təslim etməyəcəklərini və Qafqazdakı millətlərin daxili işlərinə əsla qarışa bilmədiklərini kəskin bir şəkildə ifadə etdi (298, s.355).

Bu vaxt Tələt paşa Berlində idi. İki ölkə başçısının danışıqlarında Azərbaycan məsələsi də müzakirə edilmiş, danışıqlar nəticəsində sentyabrın 28-də gizli bir protokol imzalanmışdı. Almanlar fakt qarşısında qalıb, əvvəlki etirazlarından imtina etdilər. Hətta Azərbaycan və Ermənistanı tanımaq barədə sovetlərin razılığını təmin etmək vəzifəsini öz üzərlərinə götürdülər. Əvəzində osmanlılar hərbi hissələrini Azərbaycandan çıxarmağı vəd etdilər (317, s.149; 472, s.140).

Lakin Azərbaycan üçün açılmış yeni imkanlar gerçəkləşmədən vəziyyət köklü surətdə dəyişdi. Az sonra Dördlər İttifaqından ilk əvvəl Bolqarıstan, onun dalınca Avstriya-Macarıstan, sentyabrın 30-da isə Osmanlı imperiyası müharibədə məğlub olduğunu etiraf etdi. Mudros müqaviləsinin şərtlərinə görə, Osmanlı öz qoşunlarını bir həftə ərzində Bakıdan, bir ay ərzində isə Qafqazdan geri çəkməli, Tiflis-Bakı dəmir yol xəttinin Antantanın nəzarəti altına keçməsinə mane olmamalı idi. Noyabrın 4-də Azərbaycan hökuməti bu müqaviləni pisləyib, Türkiyə və Almaniya hökumətlərinə özünün qəti etirazını bildirdi. Azərbaycanın protest notasına Türkiyə Xarici İşlər Nazirliyinin cavabında deyilirdi: Bakının tutulmasına mane olmadığına baxmayaraq, Osmanlı hökuməti bu şəhəri heç cür Almaniyaya güzəştə getməmişdi. Osmanlı hökuməti heç vaxt ona məxsus olmayan torpaqları üçüncü şəxsə güzəştə getmək fikrində olmamışdır (128a, v.14).

Nuru paşa və silahdaşları Azərbaycan vətəndaşlığını qəbul edib, Azərbaycan Ordusunun təşkili işlərini davam etdirmək istəyirdilər. Qafqaz İslam Ordusu siyasi şöbəsinin rəisi Naib Savad demişdi: Türkiyə hökuməti qardaş Azərbaycan Ordusunun təşkilinə heç bir vəsaiti əsirgəməz; belə ki, Azərbaycanda olan türk ordusunun bütün məmurları Azərbaycan dövlətinin xidmətində hesab ediləcək və onlara ehtiyac olduqca öz yerlərində qalacaqlar.* Lakin Antanta

---

* Müsavat partiyasının qurucularından biri Məmməd Əli Rəsuloğlu Türkiyə zabitlərinin Bakını tərk etməsi haqqında öz xatirələrində bundan fərqli fikir söyləyir: Nəhayət, türk ordusu Türkiyə hökumətinin müttəfiqlərlə yapdığı

nümayəndəsinin tələbi qəti idi. Az sonra Osmanlı əskər və zabitləri Azərbaycanı tərk etdilər. Bununla rəsmi sovet tarixşünaslığında türk işğalı, Azərbaycanın Türkiyənin müstəmləkəsinə çevrildiyi dövr adlanan tarixi mərhələ başa çatır. Odur ki, biz də tədqiq olunan dövrdə Azərbaycan-Osmanlı münasibətləri mövzusunu yekunlaşdırmağa çalışaq.

Hər şeydən əvvəl onu göstərək ki, Rusiya ilə Türkiyə arasında bufer dövlətin yaranmasında maraqlı olan Osmanlı imperiyası Cənubi Qafqazın rus orbitindən qopmasında birinci, dərəcəli rol oynadı. Azərbaycan istiqlalının elan olunması və gerçəkləşməyə başlaması da Türkiyənin Qafqaz siyasəti nəticəsində mümkün oldu. Ağır günlərini yaşayan Azərbaycan Osmanlı dövlətinin timsalında müttəfiqini, hətta hamisini tapmış oldu. Azərbaycan türklərinin fiziki varlığının qorunması və Azərbaycanın türk yurdu kimi qalmasında Osmanlı imperiyası və Anadolu türklüyünün köməyinin birinci dərəcəli tarixi əhəmiyyəti oldu. Anadolu mehmətçiyinin Azərbaycan və onun istiqlalı uğrunda tökülən qanı iki türk dövləti arasında yaranmış münasibətlərə müqəddəslik gətirdi.*

Bununla belə, onu da göstərməyə məcburuq ki, milli Azərbaycan dövləti səviyyəsində Türkiyə ilə yüzillərlə arzu olunan, lakin tarixdə ilk dəfə qurulmuş olan bu əlaqələr rəvan getməmiş, bir sıra anlaşılmazlıqların yaranmasına səbəb olmuşdu. Belə ki, yuxarıda da geniş bəhs etdiyimiz kimi, ilhaq tələb edən mürtəce qüvvələrin əlində alətə çevrilmiş

---

bir müahidə gərəyincə Bakıdan çəkilmək zorunda qaldı. Məmməd Əmin böy türk ordusu komandanları nəzdində bizi buraxıb getməmələri xüsusunda çox rica və israrda bulundu və subayların rütbələrinin bir dərəcə yüksəldiləcəyini və əskərlərə çiftə maaş veriləcəyini söylədisə də subayların aralarında çıxan ixtilaf nəticəsində çəkilib getmə qərarı ağır basdı (338a, s.13).

* Hüseyn Baykara yazır: Azərbaycana beş kəfilə halında göndərilən əsgəri qüvvətin toplamı subay, ər, assubay, səhiyyə, istehkam, topçu və iaşə birliyi ilə həpsi 10.000 kişiyi belə bulmamışdır... Azərbaycanı qurtarmağa gələn və İslam Ordusu adı altında toplanan Osmanlı Ordusunun qayıbları yenə yarbay Rüştünün verdiyi bilgiyə görə 800 ilə 1.000 kirpi arasındadır. Azərbaycan birliklərinin verdiyi qayıb bu sayın ən az 35 mislidir. Çünki bu birliklərlə eyitim əksikliyi vardır. Şimdi bu əziz şəhidlərimiz yan-yana Azərbaycan topraqlarında yatıyorlar. Onlara binlərsə rəhmətlər olsun (269, s.265).

Nuru paşanın təkidi ilə Azərbaycan Milli Şurası buraxılmış, Fətəli xan Xoyskinin kabinəsi daxilində dəyişiklik edilmiş, bəzi Osmanlı zabitləri mütamadi olaraq Azərbaycanın idarə edilməsi işinə qarışmış, bəzən hətta özbaşınalığa yol vermiş, Qafqaz İslam Ordusuna daxil olan milli Azərbaycan hissələrinin nisbi müxtariyyətinə qısqanclıqla yanaşılmış, Gürcüstan və Ermənistana rəva bilinən Osmanlı səfiri Azərbaycana rəva görülməmişdir. "İttihad və tərəqqi" partiyası liderlərinin türk və islam yurdu Azərbaycana bağlılığı o qədər böyük idi ki, onun (Azərbaycanın) öz taleyini özünün müəyyən etməsini bəzi məqamlarda artıq saymışlar.

Diqqəti çəkən cəhət odur ki, özünü kiçik qardaş elan etməsinə baxmayaraq, Azərbaycan risalı, istiqlal və demokratiya məsələsində ölkə əhalisinin fiziki varlığını təmin etmiş sultan Türkiyəsi qüvvələrinə belə güzəştə getmək fikrində olmamışdır. Sultan rejimi və demokratik dövlətçilik qarşılanması əsasında da ziddiyyətlər meydana çıxmışdır. Bir nəslin dramı adlı əsərin müəllifi H. Tuqasla Azərbaycan Nazirlər Şurasının sədri N. Yusifbəyli arasındakı söhbət bu baxımdan, fikrimizcə, xarakterikdir. H. Baykara məlum kitabında Tuğasdan iqtibasla yazır: Azərbaycana bir türk ordusu gəlməsi ola bilər və lazımdır da. Ancaq qorxduğumuz bir mətləb var, türklər bizi İstanbuldan idarəyə qalxmasınlar. Bizim ədəmi-mərkəziyyət üzərinə qurulmuş proqramınız vardır, ona uymaq gərəkdir.

Nəsib bəyin bu sözü mənə bir az qəribə gəldi. Sordum, siz bu ödəmi mərkəziyyət üsulunu rus idarəsinə qarşı irəli sürmüş bulunuyorsunuz. Türklərə gəlincə onların ruslardan bir fərqi olmayacaqmı? Bu ədəmi-mərkəziyyətə nə lüzum var?

Nəsib bəy gülərüzlü bir əda ilə mənə cavab verdi. Azərbaycanın sosial yapısı (quruluşu, strukturu - N.N.) tam başqadır. Bakı bir industri və işçi mərkəzidir. Sultan rejimi buradakı əhvala uymaz. Biz xalqın sinif və təbəqəsinin müsavatı üzərinə dayanan bir hökumət qurmaq fikrindəyiz. Çarlıq dövrünün aristokratik və feodal idarəsinə son verəcəyiz. Milliyyətçi və demokratik bir idarə istiyoruz. Halbuki Osmanlı padşahlığı rejim etibarı ilə çarlıq idarəsindən fərqsizdir. Əlbəttə ki, bu konu (məsələ - N.N.) irq məhfumundan ayrılır. Əlbəttə ki, Osmanlı türkləri azəri türklərinin böyük qardaşıdır. Ancaq Bakı İstanbuldan idarə ediləməz, bunun üçün Musavat firqəsinin ədəmi-mərkəziyyət prinsipi Osmanlı idarəsinə qarşı da var olmalıdır (269, s.269-270)*.

---

* Bu ziddiyyətlər barədə N.Yusifbəylidən daha bir sitat gətirərək o, 1918-ci il dekabrın 7-də türk düşməni ingilis işğal qüvvələri nümayəndəsinin iştirak etdiyi məclisdə demişdir: sərhədlərimizi qorumaq, daxili anarxiyanı ləğv

Sultan Türkiyəsi və demokratik Azərbaycan nümayəndələri arasında bu və ya digər məsələlərdə ziddiyyətlərin olmasına baxmayaraq, Osmanlı imperiyası müstəqil Azərbaycan dövlətinin təşəkkülündə əvəzsiz rol oynadı. Azərbaycan-Osmanlı münasibətləri bu dövrdə ümumilikdə götürdükdə normal inkişaf edirdi.

# İKİNCİ FƏSİL

# AZƏRBAYCANIN ANTANTA ÖLKƏLƏRİ İLƏ ƏLAQƏLƏRİNİN YARANMASI

## 1. BAKININ MÜTTƏFİQLƏR TƏRƏFİNDƏN İŞĞALI VƏ ONA MÜQAVİMƏT

1918-ci il oktyabrın 30-da imzalanmış Mudros sülh müqaviləsi Azərbaycanın beynəlxalq vəziyyətini kökündən dəyişdirdi. Osmanlı imperiyası ilə yanaşı onun müttəfiqi hesab olunan Azərbaycan iştirak etmədiyi müharibədə məğlub sayıldı. Mudros sülhünün şərtlərinə görə, Türkiyə qoşunları Azərbaycanı tərk etməli, Müttəfiq qüvvələri tərəfindən Bakının tutulmasına mane olmamalı, Zaqafqaziya dəmiryolu üzərindəki nəzarət hüququ Antantaya güzəştə gedilməli idi

---

etmək üçün bizim dövətimizlə ölgəmizin hüdudlarına daxil olmuş türk komandanlığı şəraitə uyğun olaraq bizim daxili işimizə qarışırdı. Biz, bir tərəfdən, hüquqlarımızın toxunulmazlığını qorumaq istəyimizdən, digər tərəfdən, türk komandanlığına ehtiyacımız olduğundan necə manevr etməyə məcbur idik ki, xarici təcavüzdən özümüzü qoruya bilək və böyük qurbanlar bahasına bizim fiziki varlığımızı xilas etmiş tərəfi özümüzdən incitməyək (37, 10.12.1918)

(37, 19.11.1918). Yuxarıda da göstərdiyimiz kimi, Azərbaycan hökuməti bu müqaviləni pisləyib, Türkiyə və Antanta hökumətlərinə özünün qəti etirazını bildirdi.

Noyabrın 10-da baş nazir Fətəli xan Xoyski nə xarici işlər naziri vəzifəsinin icraçısı Adil xan Ziyadxan xalqların təyini müqəddərat hüququnu tələb edən Amerika Birləşmiş Ştatlarının prezidenti Vudro Vilsona müraciət etdilər. 14 maddəlik proqramın müəllifinə müraciətdə deyilirdi: Avropanın qüdrətli hakimiyyətinə müraciət etməzdən əvvəl Azərbaycanın xalqı və hökuməti kiçik məzlum millətlərin hamisi kimi sizin humanist şəxsiyyətinizə üz tutur və inanır ki, siz sözünüz və əməllərinizlə Zaqafqaziyadakı Azərbaycan Respublikasının müstəqil dövlət kimi tanınmasında ona kömək edəcəksiniz (7, s.22; 460, s.163). Digər tərəfdən, Ənzəlidə olan ingilis qüvvələrinin komandanlığı ilə danışıqlar aparmaq üçün oraya bir nümayəndə heyəti göndərildi. Nümayəndə heyətinə Ə.Ağaoğlu, N.Yusifbəyli və M.Rəfiyev daxil idilər (37, 18.11.1918)*.

Azərbaycan nümayəndə heyəti ölkə ərazisinə daxil olmazdan əvvəl ingilis hərbi hissələrinin komandanı general Tomsondan Azərbaycanın müstəqilliyini tanımaq haqqında bəyanat verməsini təklif etdi. Lakin o, nümayəndə heyətinin təklifini qəti surətdə rədd edərək demişdi ki, Azərbaycan Respublikası hökuməti türklərin intriqası nəticəsində yaranmışdır və xalq arasında heç bir dayağa malik deyildir. Tomsonun bu bəyanatına Azərbaycan nümayəndələrinin kəskin etirazından sonra general göstərmişdi: Bir halda ki, siz əksini iddia edirsiniz, onda gələrik, yerindəcə təhqiqat aparıb, müvafiq qərar qəbul edərik (324, s.70). Bununla belə, general Tomsonun, son qərarı qəti idi: Noyabrın 17-si saat 10-a kimi Bakı Azərbaycan və Osmanlı qoşunlarından təmizlənməlidir; Bakı neft mədənləri işğal altında olacaq, ölkənin qalan hissələri isə Azərbaycan hökuməti və onun qoşununun nəzarəti altında qalacaq; Azərbaycan rəsmən tanınmır, lakin İngiltərə, Fransa və Amerika nümayəndələri onun hökuməti ilə defakto əlaqələr yaradırlar; bütün təşkilat və müəssisələr adi qaydada işləyir, lakin general Tomson Bakının general-qubernatoru olacaq, şəhər dumasına yenidən fəaliyyət azadlığı veriləcək; Paris sülh konfransında milli müqəddərat prinsipi əsasında müzakirələrdən Azərbaycan

---

* M.Ə.Rəsulzadə nümayəndə heyətinə İ.Yusifbəyli, Ə.Ağaoğlu və Mehdi bəy Hacınskinin daxil olduğunu göstərir (324, s.70).

xaric edilməyəcək, Lazar Biçeraxov və onun hissələri Britaniya qoşunları ilə birlikdə Bakıya daxil olacaq, silahlı ermənilər Bakıya buraxılmayacaqlar . Nümayəndə heyəti Bakıya teleqram vurub, Tomsonun tələblərini və vəziyyətin ağırlığını Azərbaycan hökumətinə bildirdi.

Noyabrın 16-da Azərbaycan Milli Şurası yenidən toplanıb, vəziyyəti müzakirə etdi. Milli Şuranın bəzi üzvləri ingilislərin təzyiqinə münasibətdə tam təslimçilik mövqeyi tutub, hər çür müqavimətin yersiz olduğunu bildirdilər. Azərbaycan milli hərəkatının öndərlərindən biri Ə.Ağaoğlunun fikrincə: Azərbaycan türklərinin bu vaxtadək arxalandığı Türkiyə dünya müharibəsində məğlub olduqdan sonra... Azərbaycanlıların öz talelərini Rusiyanın taleyi ilə bağlamaqdan başqa çarəsi yoxdur, üstəlik də Rusiya mədəni inkişaf baxımından Türkiyəyə nisbətən daha yüksək səviyyədədir. Məhz buna görə, həmişə Azərbaycan məsələsinin Avropada sülh konfransında həll edilməyəcəyinə görə, Azərbaycan xalqı özünün milli istiqlal proqramını gələcək ümumrusiya Müəssislər Məclisində müdafiə etmək hüququnu saxlamaqla ümumrusiya federasiyası tərkibinə daxil olmağa razıdır. Ə.Ağaoğlunun bu mövqeyi kəskin etirazlara səbəb oldu, hətta müsavatçıların və sosialistlərin təzyiqi qarşısında o, Azərbaycanın paytaxtını tərk edərək, müvəqqəti olaraq Gəncəyə keçməli oldu (82, v.Z; 37, 18.11.1918).

Milli Şura üzvlərinin əksəriyyəti vəziyyətin ağırlığına baxmayaraq, sınmayıb, istiqlal məsələsində güzəştə getməməyi qərara aldı. M.Ə.Rəsulzadə sonralar istiqlalçıların düşdüyü vəziyyət haqqında yazırdı: Türk ordusu çəkilmiş, Azərbaycan hərbi hissələri isə yox idi... Komandan Nuru paşanın o zaman Milli Şuranın sədri olduğum zaman mənə yazdığı bir məktubdan aydın olduğu kimi cəmi 1500 nəfərdən ibarət olan Azərbaycan əsgərinin toplu olaraq bir yerdə bulunmayıb, məmləkətin müxtəlif nöqtələrində durduğu anlaşılırdı. Azərbaycan hökumətini bu gün Bakıda təğviyyə edən qüvvə yalnız 500 kişilik bir milis (polis) nəfərlərindən ibarət idi. Fərzən qüvvə olsa belə, Almaniyanın, Türkiyənin təslim olduğu bir qüvvəyə qarşı Azərbaycanın hərb açması, təbii ki, ağıla belə gəlməzdi. Ona görə də məsələ yalnız diplomatik vəsilələrlə həll ediləcəkdi (324, s.70-71).

Noyabrın 17-də Tomsonun hərbi dostələrinin Bakıya gəlişini şəhər əhalisi eyni cür qarşılamadı. Rus və erməni milli şuralarının tərəfdarları bayram əhval-ruhiyyəsində idilər. Tomsonla birlikdə gəlmiş Biçeraxovun təyyarələri Rusiya vətəndaşlarına xitablı intibahnamələr səpir, xristian əhalini Bakının ana vətənə qovuşması münasibətilə təbrik edirdi. General Tomsonun iki gündən sonra yaydığı bəyannamə də eyni ruhda idi. O, Qafqazı Rusiyanın bir parçası hesab edir, Rusiyanın 1914-cü il hüdudlarını bərpa etməkdə müttəfiqinə yardım göstərəcəyini bildirirdi (37, 19.11.1918).

Biçeraxov dəstəsi şəhərdə şuluqluq salır, milli bayrağı təhqir edir, türkcə yazılmış reklam və elanları cırıb-dağıdırdı. Erməni dəstələri onlardan geri qalmırdı. Bütün bunlar şovinist ruhlu qaragüruhçu xristian əhalini sevindirir, Azərbaycan Respublikasının tezliklə ləğv olunmasına ümid yaradırdı.

General Biçeraxov tezliklə daha da qabağa gedib, qurama Qafqaz Xəzər hökuməti deyilən təşkilat yaradıb, daşnaklarla birlikdə Tomsonu Ufadakı Kolçak hökumətinə tabe olmadığı təqdirdə Azərbaycan hökumətini buraxmağa təhrik etməyə çalışdı. Eyni zamanda, o, Bakıda çevriliş təşkil etmək üçün geniş fəaliyyətə başladı. İngilislərin Bakıda general-qubernatorluq yaratmaqda, şəhər polisi, neft sənayesi, dəniz donanması və s. üzərində nəzarət qoymaqda, bir sözlə, Bakıda işğal rejimi yaratmaqda məqsədi nə idi? Azərbaycan hökumətinin fəaliyyətinin əsas istiqamətinə elan olunmuş istiqlalın gerçəkləşməsinə Antantanın münasibəti necə idi?

Hər şeydən əvvəl Bakı özünün əlverişli coğrafi-strateji mövqeyinə görə ingilislərin diqqətini cəlb edirdi. İranda, xüsusən Hindistandakı mənafelərini Şimal ayısının təcavüzündən qorumaq üçün ingilis hökuməti Bakıda və bütün Cənubi Qafqazda möhkəmlənib, Rusiyaya qarşı "sanitar kordonu" yaratmağa çalışırdı. Bu kordon eyni zamanda sovet Rusiyasının təbliğatı və imperialist siyasəti qarşısında sədd rolu oynamalı idi.

General Denikinin Könüllü Ordusuna kömək üçün Bakı əlverişli bir plasdarm rolu da oynaya bilərdi. Həm də ingilislər Denikinə və Kolçaka çar Rusiyasını bərpa etmək üçün deyil, onların bolşeviklərə qarşı mübarizə aparmalarına görə kömək edirdilər. Şübhəsiz, Bakı neft sərvətlərinin ingilis hərb maşını və iqtisadiyyatı üçün əhəmiyyətini də buraya əlavə etmək lazımdır. Odur ki, ingilislər Cənubi Qafqazın başqa yerlərindən fərqli olaraq ilk növbədə Bakıda möhkəmlənməyi qərara aldılar.

General Tomsonun ilk əvvəllər Antanta üzrə müttəfiqi Rusiyanın 1914-cü ildəki sərhədlərinin bərpasına yardım ediləcəyi haqqında hərarətli bəyanatlarını taktiki addım hesab etmək lazımdır. Bakı Müttəfiqlər adından işğal edilmişdi, buraya İngiltərədən başqa Fransa və ABŞ-ın da nümayəndələri gəlmişdilər və bəyanatlar hər üç dövlətin ümumi mövqeyini ifadə etməli idi. Fransa bu dövrdə güclü, vahid Rusiyanın bərpasına çalışır, burada İngiltərənin nüfuzunun artmasının əleyhinə idi. Fransa hərbi heyətinin nümayəndəsi polkovnik Osberq bir qədər sonra 1919-cu il mayın 18-də açıqca bəyan edirdi ki, onun fikrincə, ümumiyyətlə Zaqafqaziya, o cümlədən Azərbaycan separatizmi müvəqqəti haldır... Azərbaycanın gələcəyi dirçələn Rusiya və onun Müəssislər məslisinin gələcək qərarları ilə sıx surətdə bağlıdır (37, 28.05.1919).

ABŞ nümayəndəsi də bu bölgədə ingilislərin nüfuzunun artması və Bakı neftinin yalnız ingilislərin əlinə keçməsindən narazı idi.

Tomsonun bəyanatının açıq ruspərəst ruhda olmasının ikinci səbəbi də Azərbaycan hökumətinə təzyiq göstərib, onun müqavimətini qırmaq cəhdi ilə bağlıdır. Üçüncü səbəb isə Bakıda olan rus ağqvardiyaçı qüvvələrdən Tomsonun istifadə etmək niyyəti ilə bağlıdır. Hələ özünü möhkəmlədənə qədər Tomson Biçeraxovun hərbi hissələrindən və başqa qüvvələrdən istifadə etmək ümidində idi (425, s.3839).

General Tomsonun yürütdüyü ikili münasibət xəttinin o biri üzü də vardı.

Azərbaycan Nazirlər Şurasının sədri F. Xoyskinin noyabrın 16-da Ənzəliyə vurduğu teleqramda Antanta qüvvələrinin Bakıya girməsinə etiraz edilmir, daha sonra qeyd edilirdi ki, Azərbaycan hökuməti bunun Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün pozulmasına xidmət etməyəcəyinə inanır. Tomson qısa cavab teleqramında göstərirdi ki, ...sizin göstərdiyinz yolda əməkdaşlıq edərək, bizim qarşılıqlı münasibətlərimiz kifayət qədər qənaətbəxş olacaqdır. Bakıya çatarkən Azərbaycan hökumətinin nümayəndəsinin xoş gəldininə cavab olaraq, Tomson bir dəfə də olsun Rusiyanın adını çəkmədən qeyd etdi ki, sizin daxili işinizə nə indi, nə də sonralar qarışmaq fikrimiz yoxdur (6, s.14). Tomsonun ikili ingilissayağı siyasəti Azərbaycan hökumətində ölkənin gələcəyinə ümidlə baxmağa imkan verirdi və bu imkandan istifadə etmək lazım idi.

General Tomson Bakıya gələr-gəlməz Azərbaycan dövlətinin başçılarına ölkədə olan əsas millətlərin nümayəndələrindən ibarət yeni hökumət yaradılmasını təklif etdi. Bu məqsədlə özü Rus Milli Şurasının rəhbərliyi ilə də görüşüb, onların Azərbaycan hökumətinə 2 nümayəndə vermələrini tövsiyə etdi. Rus Milli Şurasının rəhbərliyi üçün Azərbaycan Rusiyanın bir əyaləti idi və onlar bu ölkənin təyini-müqəddərat hüququnu tanımadıqlarını dedilər. Odur ki, yeni kabinəyə daxil olmaqdan imtina etdilər. Bu əsasda da Tomsonla Rus Milli Şurası arasında ziddiyyətlər başladı (yeni yaranmış slavyan-rus ittifaqının nümayəndələri Azərbaycan hökumətinin tərkibinə daxil oldular).

Eyni zamanda müvəqqəti qanunverici orqan Azərbaycan parlamenti yarandı. Parlament dekabrın 7-də təntənəli bir şəraitdə açıldı. Fətəli xan Xoyski hakimiyyəti parlamentə təhvil verdi. Qəbul olunmuş qərara əsasən yeni hökumətin təşkili yenə də Fətəli xana tapşırıldı. Yeni koalisiyalı hökumət kabinəsində Azərbaycanda olan üç əsas millətin nümayəndələri də var idi. Yeni hökumətin təşkilindən az sonra Tomson elan etdi ki, Fətəli xanın başçılığı ilə yaradılmış Azərbaycan hökumətini ölkə daxilində yeganə qanuni hakimiyyət orqanı kimi tanıyır (82, v.7). 1919-cu ilin yanvarında Bakıya gələn Müttəfiqlərin səlahiyyətli nümayəndəsi Corc Miln ingilis hökumətinin ölkədəki mövcud hökuməti yeganə

qanuni hakimiyyət kimi tanıdığını təsdiq etdi və onun (Azərbaycan hökumətinin) Müttəfiq komandanlığı tərəfindən tamamilə müdafiə ediləcəyini bildirdi.

Biçeraxov dəstəsinin dövlət çevrilişi cəhdinin üstü açıldıqdan sonra Azərbaycan hökumətinin qəti tələbi ilə ingilislər Qafqaz Xəzər hökumətini qanundan kənar elan edib, qiyam rəhbərlərini 48 saat müddətində Bakıdan uzaqlaşdırdı, daha sonra erməni hərbi hissələri tərksilah edilib buraxıldılar. 1918-ci ilin dekabrından etibarən ingilis komandanlığı Bakıda qoyduğu məhdudiyyətləri tədrisən götürməyə başladı; Bakı polis, su nəqliyyatı və neft sənayesi, maliyyə idarələri, mətbuat üzərində nəzarət ləğv olundu; Azərbaycanın qonşularla mübahisəli məsələlərinin həllində bir sıra hallarda Azərbaycana yardım etdi (daha sonra nəzərdən keçiriləcək).

1919-cu ilin aprelində Bakıda ingilis General qubernatorluğunun ləğvi ilə Gəncədə təşkil olunmuş ilk Azərbaycan alayı paytaxta daxil oldu və Azərbaycan hökumətinə N. Yusifbəyli başçılıq etməyə başladı. Elə həmin ilin avqust ayında ingilis hərbi hissələrinin Qafqazı tərk etməsindən sonra Nazirlər Şurasının sədri parlamentdəki çıxışında millət vəkillərinə müraciət edərək demişdi: Əfəndilər! Dövlətin bu gündən etibarən tam istiqlaliyyətə yetməsi münasibətilə sizi təbrik edirəm (80,v.2; 425, s.)

Deməli, Azərbaycan hökuməti ingilis müdaxiləsi qarşısında nəinki öz varlığını qoruya bildi, həm də çox qısa müddətdə yad qüvvələrin əlini Bakıdan kəsməyə nail olub, ingilis komandanlığını şəhərin idarəçiliyindən uzaqlaşdırdı. Doğrudur, 1919-cu ilin hətta avqustuna qədər ingilislər Azərbaycanın daxili işlərinə ara-sıra müdaxilə edir, Azərbaycan hökumətini buyruq quluna çevirməyə çalışırdı. Lakin sənədlər göstərir ki, parlament və Azərbaycan hökuməti ingilislərin əlində oyuncaq olmamış, ölkənin daxili işlərinə onların müdaxiləsini mütəmadi olaraq məhdudlaşdırmışdır. Qarşılıqlı münasibətlər bu əsasda bəzən konfrontasiya həddinədək kəskinləşirdi. Ədalət naminə onu da qeyd edək ki, ingilislərin Rusiya işlərinə münasibətdəki təbəddülat, beynəlxalq vəziyyətin keçmiş məzlum xalqların xeyrinə dəyişməsi Azərbaycan hökumətinin öz mövqeyini, Azərbaycanın suverenliyinin möhkəmlətməsi üçün münasib şərait yaradırdı (IV fəsildə geniş nəzərdən keçiriləcək).

## §2.

## İTALİYA MANDATI MƏSƏLƏSİ

İngilis hərbi hissələrinin Zaqafqaziyanı tərk edəcəyi haqqında xəbərlər artıq 1919-cu ilin may ayının əvvəllərindən etibarən gerçəkləşməyə başladı. Mayın 10-da Paris konfransı adından General Tomson Azərbaycan hökumətinə aşağıdakı məzmunda teleqram göndərdi: sizə bildirməliyəm ki, Britaniya qoşunları İtaliya hissələri ilə əvəz ediləcək. İtaliya zabitləri heyəti artıq Gürcüstana gəlmişdir... Bu dəyişmə yalnız hərbi xarakter daşıyır və səlahiyyətlər məsələsinə təsir etməyəcək. O, sülh konfransının qərarını heç cür qabaqlamır və konfransın qərarı hələ qabaqdadır.

Bu teleqram Azərbaycan hökumətinin narahatlığına səbəb oldu. Təsili xarici işlər naziri Tiflisə gedib, ingilis qoşunlarının getməsini, italyanların onları əvəz etməsi təqdirində belə bunun arzuolunmaz hal olduğunu bildirdi. Lakin General Tomson bu qərarın Paris sülh konfransında qəbul olunduğunu göstərdi. Azərbaycan nümayəndəsinin Dağlılar Respublikasının işğalını ta ingilis hərbi hissələrinin Zaqafqaziyanı tərk edəcəyi haqqında xəbərlər artıq 1919-cu ilin may ayının əvvəllərindən etibarən gerçəkləşməyə başladı. Mayın 10-da Paris konfransı adından General Tomson Azərbaycan hökumətinə aşağıdakı məzmunda teleqram göndərdi: sizə bildirməliyəm ki, Britaniya qoşunları İtaliya hissələri ilə əvəz ediləcək. İtaliya zabitləri heyəti artıq Gürcüstana gəlmişdir... Bu dəyişmə yalnız hərbi xarakter daşıyır və səlahiyyətlər məsələsinə təsir etməyəcək. O, sülh konfransının qərarını heç cür qabaqlamır və konfransın qərarı hələ qabaqdadır.

Bu teleqram Azərbaycan hökumətinin narahatlığına səbəb oldu. Təsili xarici işlər naziri Tiflisə gedib, ingilis qoşunlarının getməsini, italyanların onları əvəz etməsi təqdirində belə bunun arzuolunmaz hal olduğunu bildirdi. Lakin General Tomson bu qərarın Paris sülh konfransında qəbul olunduğunu göstərdi. Azərbaycan nümayəndəsinin Dağlılar Respublikasının işğalını tamamlamaqda olan Denikin təhlükəsinin artdığı fikrini də irəli sürməsi təsirsiz qaldı. General Tomson bu məsələnin artıq mərkəzdə həll edildiyi və italyan hissələrinin onları əvəz edəcəyi planının dəyişməyəcəyini bir daha bildirməklə kifayətləndi (425, s.55-56).

Azərbaycan hökumətinin narahatlığını artıran səbəblərdən biri də Parisdə ağ generallarla Antanta nümayəndələri arasında yaxınlaşmanın olması idi. Kolçak ordusunun uğurlarını görən Antanta dövlət başçıları iyun ayının 13-də ona məktub göndərdilər.

Vahid və bölünməz Rusiya uğrunda mübarizə aparan Kolçaka Antanta dövlət başçılarının məktubu onun hökumətinin dolayı yolla tanınması demək idi. Antantanın bu addımı keçmiş çar Rusiyası ərazisində yeni yaranmış dövlətlərin rəsmi nümayəndələrinin protestinə səbəb oldu. Estoniya, Latviya, Belorusiya, Ukrayna, Şimali Qafqaz, Gürcüstan və Azərbaycan nümayəndələrinin imzaladığı bu protest məktubunda yeni yaranmış dövlətlərin tam müstəqilliyinin tanınması və Rusiyadan ayrılması tələbi əks olunmuşdu (dördüncü fəslə baxmaq olar). Lakin Antanta yeni yaranmış dövlətlərin tanınması məsələsinə rus məsələsini həll etməzdən əvvəl baxmaq fikrində deyildi. Odur ki, Şimal təhlükəsi Azərbaycan hökumətini İtaliya dil tapmaq və ondan sipər kimi istifadə etməyə cəhd göstərmək məcburiyyətində qoydu.

İtaliyanın Qafqaz siyasətini Parisdəki səfirliyin attaşesi qraf Sadino qeyri-rəsmi danışıqlarda aşağıdakı kimi izah etmişdi: İtaliya Qafqazda siyasi məqsəd güdmür, iqtisadi mənafe naminə buraya gəlir; İtaliya Millətlər Cəmiyyətindən Qafqazın idarəsi üçün mandat alır, lakin bu hüququ o yerli əhalinin razılığı ilə həyata keçirmək istəyir; İtaliya Qafqazda 35 ildən artıq qapmayacaq; bu vaxt ərzində Qafqaz respublikaları konfederasiya yaradacaq və öz talelərini özləri müəyyən edəcək; eyni vaxtda Rusiya Federativ Respublikası yaranarsa, ola bilsin Qafqaz konfederasiyası rus federasiyasına daxil olsun və ondan sonra İtaliya Qafqazı tərk edər. İtaliya Denikin, ya başqası ilə müharibə aparmaq istəmir; Qafqaz öz ordusuna malik ola bilər, bu işdə İtaliya ona kömək edə bilər (142, v.22; 425, s.57).

1919-cu il may ayının 16-da Savoya şahzadəsinin başçılığı altında ilk İtaliya heyəti Bakıya gəldi. Bu heyəti Azərbaycan hökuməti lazımi hörmətlə qarşıladı (37,17.05.1919). Mayın 22-də isə polkovnik Melxior Qabbanın rəhbərlik etdiyi hərbi heyət Bakıya gəldi. Bakıya gələn İtaliya heyətləri Azərbaycanda təhqiqat işlərinə başladılar. Hər şeydən əvvəl onlar sülhün və təhlükəsizliyin qorunması üçün Azərbaycana lazım olan hərbi qüvvənin miqdarını bilmək istəyirdilər. Kapitan Oldanyi İtaliya hissələrinə müvafiq hərbi qışlalar hazırlamaq üçün Şuşa və Şəkiyə səfər etdi. Azərbaycan Ordusunun silah və hərbi sursatla təmin edilməsinə yardım göstərəcəkləri vədi verildi.*

---

* Hələ 1919-cu ilin ortalarında Azərbaycan hökuməti Bakıda alan Fransa, Polşa, İngiltərə nümayəndələri vasitəsilə bir neçə dəfə bu ölkələrdən silah almağa cəhd etdi. Lakin bu cəhdlər boşa çıxdıqda sentyabr ayında General Usubovun başçılığı nlə İtaliyaya nümayəndə heyəti göndərildi. İxtiyarında hərbi texnika və libasın olmadığından İtaliya hökuməti

Bakıdakı İtaliya heyətləri öz işlərini hələ sahmana salmamış İtaliyada hökumət dəyişikliyi baş verdi. Yeni baş nazir Françesko Nitti Qafqaz üzərində İtaliya mandatı məsələsini başa gələ biləcək avantura adlandırdı. Yeni İtaliya kabineti Qafqaza mandatdan və buraya hərbi hissələr göndərməkdən qəti imtina etdi. 1919-cu il iyul ayının 31-də İtaliya hərbi heyətinin Azərbaycan xarici işlər nazirinə göndərdiyi rəsmi məktubda göstərilirdi ki, Britaniya qoşunlarının əvəzinə Zaqafqaziyaya İtaliya qoşunları göndərilməyəcək. Məktubda İtaliyanın kral hökumətinin Azərbaycanla ticarət, maliyyə və sənaye sahəsində əməkdaşlıq əlaqələrini genişləndirmək niyyətində olduğu da qeyd edilirdi (80,v.17).

İtaliyanın Qafqaza mandatdan imtina etməsindən sonra Azərbaycan nümayəndəsi Ermənistan və Gürcüstan nümayəndələri ilə birlikdə yenidən sülh konfransına müraciət etməli oldu. Avqustun 28-də üç ölkənin rəsmi nümayəndəsi sülh konfransının sədri Klemansoya göndərdiyi müraciətdə yazırdı: ...Qafqazın Müttəfiq qüvvələri tərəfindən boşaldılmasının ağır nəticələri ola bilər. Ona görə də aşaqıda imza edənlər sülh konfransından yuxarıda adları çəkilmiş respublikaların müstəqilliyinin aydınlaşması və tanınmasına qədər qoşunların çəkilməsinin qarşısını almağı xahiş edirlər (141, v.80-84; IV fəslə baxmaq olar). Lakin Antanta ölkələri Qafqazın müstəqil dövlətlərini Denikin təhlükəsindən qorumaq üçün öz hərbi hissələrindən sipər kimi istifadə edilməsinə razı olmadılar. İngilis qoşunlarının getməsi ilə Azəbaycanda heç bir xarici ölkənin hərbi qüvvəsi qalmadı. Şimaldan onu təhdid edən təhlükəyə qarşı Azərbaycan özü dayanmalı id.

---

Azərbaycana hələlik avtomobil, aeroplan, projektor, odeyal və yataq vasitəsi sata biləcəyini bildirdi. Dekabr ayında General Usubov hərbi nazirə yazırdı ki, adı çəkilən mallar üzrə kontrakt bağlanır (246, s.66-07).

# ÜÇÜNCÜ FƏSİL

# AZƏRBAYCANIN QONŞU ÖLKƏLƏRLƏ MÜNASİBƏTLƏRİ

İstiqlal bəyannaməsi Şərqi və Cənubi Zaqafqaziyanın Azərbaycan torpaqları olduğunu, Azərbaycan Demokratik Respublikasının qonşu xalqlar və dövlətlərlə mehriban qonşuluq münasibətləri yaratmaq istəyini, Azərbaycan daxilində yaşayan etnik azlıqlara azad inkişafları üçün geniş imkanların açıldığını təsbit etdi. Azərbaycan hökuməti xarici siyasətini bu tarixi sənədin ruhuna uyğun qurdu, öz proqram və fəaliyyətində bu prinsipləri rəhbər tutdu.

Azərbaycan qonşu ölkələrlə münasibətlərini bir sıra çətinlikləri aşaraq qurmalı idi. Ən çətin problem sərhədlərlə bağlı idi. Bu problem çarizmdən miras qalmış inzibati-ərazi bölgüsünün əhalinin milli tərkibinə uyğun gəlməməsindən qaynaqlanırdı (əlavələr hissəsindəki cədvəllərə baxmaq olar).

## §1. AZƏRBAYCAN GÜRCÜSTAN MÜNASİBƏTLƏRİ VƏ BORÇALI MƏSƏLƏSİ

Sərhəd məsələsi istiqlalını elan etmiş Cənubi Qafqazın üç yeni dövləti arasında çox tezliklə münaqişəli problemə çevrildi. 1918-ci il iyun ayının 5-də Gürcüstan hökumətinin iclasında XİŞ nazirin Borçalı qəzasında işlərin vəziyyəti və Gürcüstan dövlətinin dəqiq sərhədlərinin aydınlaşdırılması zərurəti haqqında məruzəsi dinlənildi, Borçalı, Sığnax və Tiflis qəzalarının sərhədlərində silahlı qüvvələrin yerləşdirilməsi haqqında qərar qəbul edildi (243, s.16).

Bu qərardan bir neçə gün sonra alman hərbi dəstələrinin müşayəti ilə Borçalıya gürcü qoşunları yeridildi. Onlara Poylu körpüsünə qədər dəmiryol xətti boyu ərazini tutmaq əmri verilmişdi. Borçalıya daxil olan hərbi hissələrin köməkliyi ilə gürcü məmurları öz idarələrini qurmaqla yanaşı, burada taxıl məhsulunu müsadirə edir, yerli əhalini incidərək, onları yurdlarını tərk etməyə məcbur edirdilər.

Yerli əhali öz yığıncaqlarında qəbul etdikləri qətnamələrdə Azərbaycan hökumətinə müraciət edir, bu torpaqların Azərbaycan torpaqları hesab edilməsini və yeni yaranmış Azərbaycan Demokratik Respublikasının öz hakimiyyətini Borçalıda təsbit etməsini tələb edirdi. Borçalıların Azərbaycan Respublikası Nazirlər Şurasının sədrinə göndərdikləri müraciətdə deyilirdi: Bu torpağın pionerləri bizik, sayca əksər çoxluğu biz təşkil edirik, burada hakim xalq olmaq üçün hər cür ləyaqətimiz var. Ona görə də Türkiyə sultanı və böyük vəzirə, mərkəzi idarəsi Tiflis şəhərində olmaqla Türkiyənin himayəsi altında bizim "Qaraqapax" adı ilə yarımmüstəqil xanlıq kimi tapınmamız, ya da Tiflis şəhəri ilə birlikdə bizim qonşu Azərbaycana birləşməmiz barədə müraciət etmişik.

Borçalı camaatı adından müraciəti imzalamış Borçalının sünni və şiə təriqətləri üzrə qaziləri, xeyriyyə cəmiyyətinin sədri və üzvləri Azərbaycan hökumətinin başçısından Borçalıda törədilmiş cinayətləri araşdırmaq üçün buraya istintaq komissiyası və müsəlman kəndlərinin təhlükəsizliyini təmin etmək üçün tezliklə kifayət qədər qoşun göndərilməsini xahiş edirdilər (120, v.14-15; 2,142,19-90, s.68-69). Cənubi Qafqazın coğrafi mərkəzində yerləşən Borçalı əhalisinin xeyli hissəsi Azərbaycanlılardan (türklərdən) ibarət idi. 1886-cı il statistik materiallarına görə, bu mahalın Borçalı polis məntəqəsi üzrə qeydiyyatda olan 19.109 nəfər, sakinindən 12.384 nəfəri türk, 6.724 nəfəri erməni idi, cəmi birgə gürcü yaşayırdı. Yekaterinenfeld məntəqəsi üzrə 13.937 nəfərdən ibarət ümumi əhalidən 10.028-i türk, 543-ü gürcü, 1.436-cı erməni, 1.966 nəfər isə başqa xalqların nümayəndələrindən (alman, yunan kolonistlərindən və s.) ibarət idi.

Trialet məntəqəsi üzrə rəqəmlər aşağıdakı kimi idi: 35.989 nəfərdən 8.974-ü türk, 3.578 nəfəri gürcü, 6.333 nəfəri erməni və 17.104 nəfəri başqaları. Borçalı mahalının Cənubundakı Loru (Lori) məntəqəsində nisbət yerli erməni əhalisinin xeyrinə idi: cəmi 32.776 nəfərdən 23.339 nəfəri erməni, 1.657 nəfəri türk, 27 nəfəri gürcü, 7.753 nəfəri başqaları idi. Cəmi Borçalı mahalı üzrə 101.811 nəfərdən ibarət olan əhalinin 33.433 nəfəri rus, 4.149 nəfəri gürcü, 37.832 nəfəri erməni, qalanları (26.787 nəfər) başqa etnik birliyin nümayəndələrindən ibarət idi (153, v.56).

1909-cu il statistikası əhalinin etnik tərkibində köklü dəyişikliyin baş verdiyini göstərir. Borçalı polis məntəqəsi üzrə 34.107 nəfərdən 15.884 nəfəri, yəni 49,5-i türk, 15.615 nəfəri (45,8) erməni, 420 nəfəri (1,2) gürcü, qalan 1.188 nəfəri isə başqalarından ibarət idi. Yekaterinenfeld məntəqəsi üzrə 20.693 nəfərdən 15.342 nəfəri, yəni 74,3-i türk, 1.1 nəfəri erməni (5,4), 1862 nəfəri (9) gürcü, 2.382 nəfəri (11,3) başqalarından ibarət idi. Loru məntəqəsində ümumi əhalidən (54.406 nəfər) türklərin sayı 4.446 (8,2), ermənilər 39.518 nəfər (72,6) idi, gürcülər burada da yaşamırdı. Trialet məntəqəsində ümümi əhalinin (48.950 nəfərin) 18,8-i (8.821 nəfəri) türklər, 19,5i

(9.541) ermənilər, 12,4i (6.090) isə gürcülər idi. Borçalı mahalı üzrə ümumi əhalinin (158.Ş2) etnik tərkibi belə idi: 28,8 (45.493 nəfər) türklər, 41,6 (65.777) ermənilər, 4,7 (8.372) gürcülər (153, v.1516). Beləliklə, Borçalı mahalı üç etnik zonaya bölünürdü: onun Cənub hissəsində ermənilər, orta zolağında isə türklər üstünlüyə malik idilər.

Keçmiş Yelizavetpol quberniyasına bitişik Qarayazı nahiyəsi əhalisinin 1886-cı ildə etnik tərkibi aşağıdakı kimi idi: 5.054 nəfərdən ibarət ümumi əhalinin 4.754 nəfəri (yəni 94) türk, 120 nəfəri gürcü və 35 nəfəri erməni idi. 1909-cu ildə bu nahiyədə rus, alman və başqa kolonistlərin gəlməsi ilə türk əhalisinin xüsusi çəkisi 89,8-ə enmiş, lakin burada gürcü və erməni əhalisinin sayı cüzi miqdarda qalmışdır (153, v.17).

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində statistik materiallar əsasında hazırlanmış araşdırmaya görə, tədqiq olunan dövrdə Sığnax qəzasının Cənub-şərq hissəsində sakin olan 6.728 nəfərin hamısı müsəlmanlardan ibarət idi. Qarayazı nahiyəsində ümumi əhalinin (8.356 nəfərinin) 88,8-i müsəlmanlar, qalanları başqa milli azlıqların nümayəndələri olub, burada gürcülərin heç yaşamadığı aydınlaşırdı. Borçalının orta, türk zonasında ümumi əhalinin (147.362 nəfər) 92,3-i (135.898 nəfər) müsəlman, 4,4-i (6.526) gürcü, 3,3-i (4.938) isə qalanları idi (əlavələr hissəsindəki cədvəllərə baxmaq olar).

Gürcü hökumətinin tez-tələsik Borçalını özününküləşdirmək cəhdlərinə, buradakı yerli türk əhalisinin incidilməsi və onların kömək haqqında müraciətlərinə Azərbaycan hökuməti fəal reaksiya verdi. Xarici işlər naziri M. H. Hacınski iyunun 14-də Gürcüstan Respublikasının xarici işlər nazirinə məktubla müraciət etdi. M. H. Hacınskinin məktubunda deyilirdi: Bu gün bəyan edilmiş hökumət məlumatından göründüyü, qismən də əlimizdə olan faktların təsdiq etdiyi kimi, Gürcüstan hökuməti Borçalı qəzasını Gürcüstan ərazisi sayaraq, guya qəzanı quldur dəstələrindən təmizləmək üçün oraya alman dəstələri ilə birlikdə gürcü qoşunlarını göndərib. Borçalı qəzası əhalisinin buraya gəlmiş nümayəndələri həmin dəstələrlə dinc müsəlman əhalisi arasında silahlı toqquşma olduğunu bildirirlər. Sonra mətbuatdakı xəbərlərə görə Gürcüstan hökuməti Zaqafqaziya dəmiryol xətti boyunca təxminən Poylu stansiyasına qədər əraziləri tutmaq barədə sərəncam verib. Borçalı, Tiflis, Sığnax qəzalarının başdan-başa müsəlmanlardan ibarət olan hissələrinin əhalisinin öz nümayəndələri vasitəsi ilə Azərbaycan Rsspublikasının tərkibində olmaq arzularını ifadə etdiklərini nəzərə alaraq, mənim hökumətim gürcü hökumətinin yuxarıda qeyd olunan sərəncamlarına qarşı qəti etiraz edir və ölkələrimiz arasında mehriban qonşuluq münasibətlərinin saxlanması naminə Borçalı qəzasının hüdudlarından qoşun hissələrini çıxarmaq, Azərbaycan ərazisinin yuxarıda qeyd olunan hissələrinin tutulması haqqında sərəncamı ləğv etmək üçün təcili tədbirlər görməyi təkidlə xahiş edir.

Azərbaycan Respublikasının xarici işlər nazirinin məktubu iki qonşu respublikanın dövlət sərhədlərinin bərqərar olması məsələsinin həlli üçün hökumətlərimizin təyinatı ilə xüsusi qarışıq komissiyanın yaradılması təklifi ilə bitirdi (115, v.bba; 117, v.15; 13, s.436-437). Çox keçmədən Gürcüstanın baş naziri, xarici işlər naziri əvəzi N. Ramişvili iyunun 17-də bu məktuba cavab göndərdi. Nazir əvəzi cavab məktubunda yazırdı: Gürcüstan Demokratik Respublikasının sərhədlərini qorumaq üçün mənim hökumətimin gördüyü tədbirlərlə bağlı sizin... məktubunuza cavab olaraq Gürcüstan Respublikası ərazisində daxili asayişin qorunması üçün zəruri olan belə tədbirlərin anlaşmazlığa səbəb ola bilməsini dərin təəssüf hissi ilə bildirirəm. O cümlədən, Borçalı qəzası həmişə Gürcüstan ərazisinin tərkibində olub, mübahisə və şübhələrin obyektinə çevrilməyib, hərçənd ki, bu qəza əvvəllər də yekcins etnik vahid hesab edilməyib. Eyni ilə Gürcüstanın şərq sərhədi də mübahisə doğurmur.

Bunu nəzərinizə çatdıraraq, öz hökumətimin tapşırığı ilə tam inam ifadə edirəm ki, Azərbaycan Respublikası hökumətindən belə də bizim daxili işlərimizə qarışmayacaq, bizim aramızda çoxdan mövcud olan mehriban qonşuluq münasibətlərini saxlayacaq (115, v.77a; 117, v.16; 13, s.437).

M. H. Hacınski növbəti, 22 iyun tarixli cavab məktubunda yenidən sərhəd məsələsi üzrə qarışıq Azərbaycan-Gürcüstan komissiyasının yaranması təklifini irəli sürdü: Hər iki ölkənin xalqları arasında qədimdən mövcud olan dostluq münasibətlərini qoruyub möhkəmləndirmək hissləri ilə fəaliyyət göstərən mənim hökumətim qarışıq Gürcüstan-Azərbaycan komissiyasının tezliklə yaradılması arzusunda olduğunu bildirirdi. Bu komissiya elə yaxın vaxtlardaca ərazilərimizin bölgüsü ilə ilgili bütün məsələlərin müzakirəsinə və həllinə başlamalıdır. Bu yol mönim hökumətimə Qafqaz dövlətlərinin indiki vəziyyətində meydana çıxa biləcək hər hansı anlaşmazlığa yol verilməməsi baxımından daha məqsədəuyğun görünür. Hərgah Gürcüstan hökuməti mənim hökumətimin mövqeyinə şərikdirsə, nümayəndələrin sayını, onların Azərbaycan nümayəndələri ilə görüşlərinin yerini və müddətini göstərməyi xahiş edirəm (13, s.437-438).

Azərbaycan Respublikasının sərhəd məsələlərini qarışıq komissiya vasitəsi ilə həll etmək təklifini Gürcüstan hökuməti qəbul etmək istəmir, keçmiş Tiflis quberniyası ərazisinin qeyd-şərtsiz Gürcüstan ərazisi olduğu fikrində israr edirdi. Gürcüstan hökumətinin başçısı Azərbaycanın Tiflisdəki Rəsmi nümayəndəsi Məmməd Yusif Səfərovla söhbətində bir daha qəti şəkildə bildirdi ki, onun hökuməti keçmiş Tiflis və Yelizavetpol quberniyalarının sərhədlərini mübahisəsiz və dəyişməz hesab edir (114, v.20-20a).

Diplomatik yazışmaların getdiyi bir şəraitdə Borçalı mahalına yerləşdirilmiş gürcü-alman hərbi hissələri taxıl məhsullarının müsadirəsini davam etdirir, yerli əhali çox qaba şəkildə həyata keçirilən bu tədbirlərə müqavimət göstərir,

hətta bəzi yerlərdə silahlı toqquşma nəticəsində tələfat belə olur, yerli əhali Azərbaycan Respublikasına kömək və himayə üçün müraciət etməkdə davam edir, Qarayazıdakı Azərbaycan korpusunun hissələri təzyiqlərə baxmayaraq yerlərindən tərpənmir və gürcü hökumətinin planlarını pozurdu... (117, v. 17-18, 26, 74-77; 115, v. 99a ; 112, v.12a, 16, 29; 114, v.32). Bu məsələ Azərbaycanla Gürcüstan arasında yaranmaqda olan münasibətlərə gərginlik gətirməkdə idi. Bu gərginlik Gürcüstan hökumətinin ultimatumu ilə daha da artdı və təhlükəli xarakter almağa başladı.

Şıxlı kəndinin yerli əhalisi ilə gürcü hərbçiləri arasında silahlı toqquşmadan və yerli əhalinin hərbçiləri qovmasından sonra Gürcüstan hökuməti Azərbaycan hökumətinə ultimatum verdi.

(918-ci il 20 iyul tarixli Gürcüstan hökumətinin notasında bildirilirdi: ... hökumət 24 saat ərzində Qarayazıdan Vəhşi Diviziyanın dəstəsinin çıxarılması üçün tədbirlər görmək təklifi etmək haqqında qərar qəbul etmişdir. Əks təqdirdə bu dəstə hərbi qüvvə vasitəsi ilə tərksilah edəcəəkdir 14,v.Z).

Yaranmış təhlükəli vəziyyəti müzakirə edərək Azərbaycan hökuməti konflikti dərinləşdirməmək yolu tutdu, lakin öz təklifindən vaz keçmədiyini bildirdi. 23 iyul tarixli cavab notasında Azərbaycan xarici işlər naziri bildirdi: İki respublika arasında sərhədlər məsələsi hələ həll edilməmişdir. Mənim hökumətim bu məsələni həll etmək üçün xüsusi beynəlxalq komissiya yaratmağı təklif etmiş və yenə də təklif edir. Təbii ki, həmin komissiyanın işinin nəticəsində əgər göstərilən ərazi Gürcüstan ərazisinə düşsə, onda mənim hökumətim öz hərbi hissələrinin [buradan] çıxarılması haqda təcili sərəncam verməyi ləngitməyəcəkdir (114,v.1). Yaranmış təhlükəli pat vəziyyətini öz xeyrinə həll etmək üçün hər iki tərəf Qafqazda olan Almaniya və Osmanlı nümayəndəliklərini dövriyyəyə qoşub, bu məsələdə onların himayəsinə nail olmağa çalışdı.)

Qarayazı ətrafında münaqişənin ciddi xarakter aldığını görən və bu məsələni öz ölkəsinin nüfuzunu artırmaq üçün münasib vasitə hesab edən Almaniyanın Qafqazdakı nümayəndəsi General fon Kress münaqişənin həllində öz vasitəçiliyini təklif etdi. Almaniya nümayəndəsi gürcü tərəfini beynəlxalq arbitraj komissiyasının yaradılmasına razı saldı, Azərbaycan tərəfinə isə kiçik alman hissələrinin buraya yerləşdirilməsi şərti ilə Qarayazıdakı hərbi hissələrinin çıxarılmasını təklif etdi. Azərbaycan hökuməti Qarayazıda alman hərbi dəstəsinin yerləşdirilməsini yerli əhali arasında arzuolunmaz reaksiya yaratmasını təhlükəsi ilə əsaslandıraraq, Qarayazıdan Gürcüstan və Azərbaycan hissələrinin çıxarılması əvəzində burada alman və türk dəstələrinin yerləşdirilməsini təklif etdi. Azərbaycan hökumətinin bu təklifini Nuru paşa da müdafiə etdi.

Son nəticədə Qarayazıda statuskvonun dəyişdirilməməsi, yəni Azərbaycan korpusu dəstəsinin burada qalması şərqi ilə qarışıq beynəlxalq komissiyanın yaradılması haqqında razılıq əldə edildi. ZÇP 4, v.910, 21-23, 30-31). Avqust ayının sonunda Gürcüstan hökuməti mübahisəli ərazi məsələləri üzrə arbitraj komissiyasının yaradılmasına razılığını bildirdi. Komissiyaya Azərbaycan, Gürcüstan və bitərəf dövlətlərdən birinin nümayəndəsi daxil olmalı idi (59 a, v.116). Bir qədər sonra Azərbaycan hökuməti doktor M. R. Vəkilovu özünün arbitraj komissiyasındakı nümayəndəsi təyin etdi (107, v.116). Lakin daha sonra qarşılıqlı razılığa əsasən iki ölkə arasındakı ərazi məsələlərinin həlli, təşkili İstanbulda nəzərdə tutulmuş beynəlxalq konqresə keçirildi.

Gürcüstan hökuməti ilk əvvəllər Borçalı mahalına olduğu kimi, bütün Zaqatala mahalına da iddia edirdi (əlavələr hissəsindəki cədvəllərə baxlamaq olar). Ona görə də gürcü hökuməti Tiflisdə canişinliyin nəzdindəki mərkəzi idarələrin Zaqatalaya aid sənəd və arxivinin Azərbaycan hökumətinə təhvilini uzun müddət ləngitdi. Gürcülər öz iddialarını bu ərazinin bir vaxtlar gürcü çarlığına daxil olması ilə əsaslandırmağa çalışırdılar. Əhalisinin əksəriyyətinin müsəlmanlardan ibarət olduğu (gürcülər 5) və öz mahallarını Azərbaycan xaricində təsəvvür etməyən yerli əhali gürcü iddiaları qarşısında toplanışlar keçirir, bu iddiaların əsassız olduğunu bildirirdilər, 1918-ci il iyunun 26-da Zaqatala Mahalı Milli Şurası gürcü iddialarını müzakirə edərək, qəbul etdikləri qərarda göstərirdilər ki, mahalın əhalisinin özünəməxsus dini və məişət xüsusiyyətlərinə malik olan böyük əksəriyyəti (95) nəinki Gürcüstana heç bir meyl göstərmir, üstəlik Gürcüstanın Zaqatala mahalını özünə birləşdirmək cəhdləri haqqında qəzet məlumatları və şayiələr [burada] təşviş və hiddət doğurur (112,v.10-10a; 71, v.42). Gürcü hökuməti yeri düşdükcə, Zaqatala mahalına hattı olduğunu bəyan etsə də, onun (mahalın) Azərbaycan tərkibində olması ilə baş vermiş fakt kimi razılaşmalı oldu.

Konqresin açılışını gözləyən Qafqaz nümayəndə heyətləri ərazi məsələsində bir-birini təkzib edən müxtəlif layihələr hazırlayıb, ərazi iddialarını əsaslandırmaq üçün İstanbul dövri mətbuatında geniş təbliğat kampaniyasına başladılar. Azərbaycan nümayəndə heyəti Borçalı, Tiflis və Sığnax mahallarının keçmiş Yelizavetpol quberniyasına bitişik ərazilərinin Azərbaycan Respublikası tərkibində olmasını bu ərazinin yerli əhalisinin büsbütün türklərdən (Azərbaycanlılardan) ibarət olması, onların mütləq Azərbaycan Respublikasına birləşmək arzusu, beləliklə bu rayonlara münasibətdə təyini-müqəddərat hüququnun tanınması ilə əsaslandırırdı. Gürcü nümayəndələri öz iddialarını tarixi prinsip bu torpaqların əsrlər boyu Gürcüstan tərkibində olması və Gürcüstan paytaxtının lap yaxınlığında yerləşməsi ilə əsaslandırırdılar. Bundan başqa onlar hətta Göyçə gölü rayonu, Qazax və Zaqatala mahallarının da tarixən gürcü torpaqları olduğunu iddia edirdilər.

M Ə. Rəsulzadə ilə söhbətində gürcü nümayəndə heyətinin başçısı öz hökumətinin iddialarının qəti olduğunu göstərərək qeyd edirdi ki, əgər onların ərazi iddiaları təmin edilməsə, qan tökməli olacaqlar.

M.Ə.Rəsulzadənin cavabı Azərbaycan hökumətinin bu məsələdə qətiyyətini göstərmək baxımından səciyyəvidir. O, gürcü nümayəndəsinin cavabında demişdi: Nə etmək olar, əgər məcbur etsələr, qan da tökmək olar (60, v.15-16).

1918-ci ilin noyabrında Dördlər İttifaqının müharibədə məğlub olması, Almaniya və Türkiyə qoşunlarının Qafqazdan çəkilməsi, Antanta adından ingilislərin Bakını tutması və sonralar öz nüfuzlarını bütün Cənubi Qafqaza yaymaları ilə burada beynəlxalq vəziyyət kökündən dəyişdi. İngilis qoşunlarının Bakını işğal etməsi ilə hələ özünü yetərincə möhkəmlədə bilməmiş Azərbaycan hökumətinin vəziyyəti ağırlaşdı. İngilislər Azərbaycan hökumətinə düşmənləri Osmanlı imperiyasının müttəfiqi kimi baxır, Qafqazda mövcud millətlərarası problemlərin həllində əsasən ermənilərə hüsn-rəğbət bəsləyirdilər. Almaniya imperiyası ilə sıx əlaqəsi üzündən ingilislərin gözündən düşmüş gürcü hökumətinin də vəziyyəti möhkəm deyildi. Sonuncular ingilisləri xristian həmrəyliyi əsasında onları da ermənilərlə bir gözdə görməyə çağırır, Britaniya ilə sözsüz dil tapacaqlarına ümid edirdilər. Yaranmış yeni qüvvələr nisbətindən Antantanın daimi müttəfiqi Ermənistan istifadə etməyə tələsdi.

Hələ almanlar Gürcüstanda olduqları vaxt Ermənistanla sərhəddə daimi toqquşmalar olurdu. 1918-ci il oktyabrın 18-də Gürcüstan Ermənistanı Tiflis quberniyasının bir hissəsini işğal etməkdə ittiham etdi (13, s.445). Oktyabrın 27-də Gürcüstan hökuməti Azərbaycan, Ermənistan və Şimali Qafqaz Dağlılar Respublikasının (1918-ci ilin mayında istiqlalını elan etmişdi) səlahiyyətli nümayəndələrini Tiflisə konfransa dəvət etdi. Gürcü hökumətinin nəzərinə görə, bu konfrans müharibənin sonunun yaxınlaşdığı üçün zəruri idi, qarşıdan gələn sülh konfransında Qafqazda yaranmış yeni dövlətlər əlbir iştirak etməli idilər. Bunun üçün də öncə öz aralarındakı problemləri həll etmək zərurəti yaranmışdı. Gürcüstan konfransın gündəliyinə aşağıdakı məsələləri təklif edirdi:

1. Konfransa dəvət olunan dövlətlərin istiqlaliyyətinin qarşılıqlı tanınması;

2. Sərhəd məsələləri də daxil olmaqla bütün mübahisəli məsələlərin maraqlı dövlətlər arasında sazişlər yolu ilə, bu sazişə nail olmadıqda arbitraj vasitəsi ilə həll edilməsi;

3. Konfransda iştirak edən xalqların hər hansı birinin ziyanına yönəlmiş sazişə qoşulmamaq haqqında qarşılıqlı təəhhüd;

4. Qafqaz respublikalarının istiqlalının tanınması və maraqlarının qorunması məqsədi ilə ümumdünya sülh konqresində eyni mövqedən çıxış etmək və qarşılıqlı yardım (13, s.429).

Konfransa dəvətə cavab almamışdan əvvəl Tiflis qəzetləri Ermənistanda səfərbərlik haqqında məlumatlar çap etməyə başladılar. Gürcü hökuməti bu xəbərlərin doğru olub-olmaması barədə Ermənistanın Tiflisdəki müvəqqəti işlər vəkili Camalyana sorğu göndərdi, sonuncu bu xəbərləri təkzib etdi (13, s.449-450). Oktyabrın 31-də Camalyan gürcü hökumətinə təqdimat verdi ki, Ermənistan, Gürsüstan, Azərbaycan və Dağlılar Respublikası ilə birlikdə konfransda iştirak etməyə hazırdır, lakin onun hökuməti konfransdan qabaq iki ölkə arasında ilkin müzakirələrin olmasını zəruri hesab edir (13, s.449). Gürsüstan xarici işlər naziri cavab məktubunda konfransa təklif olunan gündəliyin təxmini olduğunu və başqa məsələlərin də gündəliyə əlavə olunmasının istisna edilmədiyini göstərdi (13, s.430).

Bundan sonra belə erməni tərəfi susmaqda davam etdi. Noyabrın 10-da gürcü hökumətinin başçısı Gürcüstanın İrəvandakı diplomatik nümayəndəsi Mdivaniyə göndərdiyi teleqramda erməni nümayəndələrinin konfransa gəlib çıxmadıqları üçün bu konfransın üç gün təxirə salındığını və erməni hökuməti adından iki nəfər səlahiyyətli nümayəndəni gözlədiklərini bildirdi (13, s.430). Erməni hökuməti yenə də Qafqaz konfransınadək sərhəd məsələsinin öncə iki ölkə arasında müzakirə edilməsini və Azərbaycanın konfransa münasibətini müəyyən etməyi təklif etdi. Gürcüstanın nümayəndəsi bununla bağlı öz hökumətindən konfransı daha 10-15 gün təxirə salmağı xahiş etdi. Lakin konfrans Ermənistan nümayəndəsi olmadan noyabrın 14-də öz işinə başladı. Gürsüstanı konfransda Gegeçkori və Ramişvili, Dağlılar Respublikasını Vekştov və Kotsev, Azərbaycanı isə diplomatik nümayəndə M.Y.Cəfərov təmsil edirdi.)

Gürcü nümayəndələri hesab edirdilər ki, ermənilərsiz konfrans baş tutmayacaq. Onlardan fərqli olaraq M.Y.Səfərov konfransın işini davam etdirməsini təklif etdi. Bununla belə konfransın digər nümayəndələri ermənilərin konfransda iştirakını zəruri sayıb, Azərbaycan nümayəndələrini konfransı noyabrın 20-ə keçirməyə razı saldılar. Ermənilər Gürcüstanla sərhəd məsələsini həll etməmiş ümumi konfransda iştirak etməyəcəkləri qərarında israrlı idilər. Konfrans daha iki dəfə təxirə salındı.

Ermənistan hökumətinin Qafqaz konfransının işində iştirakdan imtina və Gürcüstanla ikitərəfli danışıqlarda israr etməsinin iki başlıca səbəbi vardı.

Ermənistan konfransın işində iştirak etdiyi təqdirdə digər qonşusu olan Azərbaycanla da çox kəskin sərhəd problemi olduğundan, labüd olaraq, azlıqda qalacaq və ikitərəfli danışıqlarda əldə edə biləcəyini ümumi konfransda əldə edə bilməyəcəkdi. Ermənilərin konfransdan imtinasının ikinci səbəbi də vardı. Bəlkə də bu daha önəmli səbəb idi. Onların hesabına görə, bir halda ki, Müttəfiqlər Qafqaza gəlirlər, deməli, Gürcüstan və Azərbaycandan fərqli olaraq

Ermənistanı müdafiə edəcəklər. Ermənistan və ermənilər çar Rusiyası, İngiltərə, Fransa və Birləşmiş Ştatlara göstərdikləri xidmətin əvəzini almağa ümidli idilər. Osmanlı və Almaniya hərbi hissələri hələ Qafqazı tərk etməmişdilər, amma ermənilər Antantanın qələbəsini artıq bayram edirdilər.

Türk və alman qoşunları dekabrın əvvəllərində Qafqazı tərk etməyə başladılar. Erməni qoşunları Borçalı mahalının Loru (Lori) nahiyəsini tutub, şimala tərəf irəlilədikdə, onların yolunu gürcü hərbi hissələri kəsdi.

Dekabrın 5-də Ermənistan xarici işlər naziri Tiqranyan bəyan etdi ki, onun ölkəsi münaqişənin sülh yolu ilə həllinə nail olmayınca başqa mübahisəli ərazi hesab etdikləri Axalkələyə qoşun göndərməyəcək. İki gündən sonra Gekeçkori cavab teleqramında bildirdi ki, gürcülər yerli əhalini quldur dəstələrindən və burada qalmış Türk qoşun hissələrindən qorumaq üçün Axalkələyi artıq tutublar. Gürcüstanın xarici işlər naziri üstəlik əlavə edirdi ki, Axalkələyin Gürcüstan hökuməti tərəfindən tutulması nə tarixi, nə siyasi, nə də mənəvi baxımdan heç cür mübahisəli hesab edilə bilməz (13, s.452).

İki ölkənin xarici işlər naziri telefonda bir-biri ilə mubahisə etdikləri vaxt Borçalıda erməni qiyamı başladı. Gürcüstanın İrəvandakı işlər vəkili Mdivani Ermənistan xarici işlər nazirinə teleqram göndərib, Borçalıdakı vəziyyəti müzakirə etmək üçün qarışıq komissiya yaratmağı təklif etdi. Ermənistan xarici işlər naziri cavabında hökumətlə birlikdə bu məsələni müzakirə edəcəyini vəd etdi, lakin Mdivani öz təklifinə cavab olaraq, Gürcüstanın "Borçalının erməni hissəsini" tərk etməsi haqqında erməni hökumətinin ultimatumunu aldı. Loru nahiyəsindəki erməni silahlı dəstəsinin komandiri Dro bəyan etdi ki, onun polkları gürcülərin cavabını gözləməyəcək və dekabrın 14-də hücuma keçəcək. (13,s.458). Gürcüstanın diplomatik nümayəndəsi son hadisələri hökumətinə məruzə etmək üçün Tiflisə yola düşdü, lakin yolüstü Qarakilsədə həbs edildi. Sənain yaxınlığında erməni hissələri artıq gürcü hərbi dəstələri ilə döyüşə girmiş erməni qiyamçıları ilə birləşdi.

Dekabrın 15-də Tiqranyan Gegeçkoriyə daha bir nota göndərdi. Notada o bildirdi ki, Ermənistan ayın 12-də gürcülərin güclə işğal etdikləri Borçalının erməni hissəsini tərk etməsini tələb edir. Daha sonra notada göstərilirdi; Ermənistan hökuməti ifrat sülhpərvərliyi üzündən bu vəziyyətlə barışmış, ümid etmişdir ki, Gürsüstan hökuməti Gürcüstana birləşmək istəməyən yerli əhaliyə qarşı təcavüzkar hərəkətlərdən əl çəkəcək. Lakin Gürcüstan hökuməti sərhəd məsələsini sülh yolu ilə həll etmək istəyimizi nəinki qəbul etmədi, hətta başqasına məxsus olan ərazidə möhkəmlənmək məqsədi ilə dinc əhali üzərinə hücuma keçdi, erməni kəndlərinin artilleriya atəşləri ilə dağıdılmasınadək qanlı və qəddar zorakılığa əl atdı...(13, s.467-468).

Gekeçkori cavab notasında erməni tərəfini yenidən danışıqlara çağırdı, ikitərəfli danışıqlarla bu münaqişəni həll etmək mümkün olmadığı təqdirdə üçüncü dövlətin nümayəndəsinin iştirak etdiyi danışıqlar təklif etdi. Bu təkliflər qəbul edilməsə, Kegeçkori hesab edirdi ki, hər iki respublika üçün fəlakətlə nəticələnəcək hərəkətlərə görə Ermənistan hökuməti məsuliyyət daşıyacaq (13, s.469). Gürcüstanın xarici işlər naziri eyni zamanda Müttəfiq dövlətlərə muraciət edib, Sənain və Voronsovkada gürcü sərhəd dəstəsinin üzərinə olan hücum, gürcü hökumətinin dəfələrlə danışıqlar təklifinə baxmayaraq, ermənilərin təcavüzünün davam etməsi və iki qonşu xalq arasında düşən bu qana görə erməni hökumətinin məsuliyyət daşıdığı haqqında onlara geniş məlumat verdi (13, s.469-470).

Müharibə Gürcüstanda antierməni əhval-ruhiyyəni gücləndirdi.Tiflisin və digər şəhərlərin minlərlə erməni sakini hərbi əsir elan edildi, on minlərlə adam sürgünə göndərildi. İlk əvvəllər hərbi əməliyyatlar ermənilərin xeyrinə inkişaf edirdi, Ermənistan qoşunları hətta Tiflis civarlarına qədər gəlib çıxa bilmişdilər, lakin dekabrın 29-da Şulaver yaxınlığındakı məğlubiyyətdən sonra geri çəkilməyə məcbur oldular. (460, s.180).

Hələ dekabrın 21-də ingilislər müharibəni dayandırmağa çalışdılar. Erməni və gürcü ordusunun komandanlarına atəşi dayandırmaq əmri verildi, lakin bu əmrə məhəl qoyan olmadı. Səhəri gün gürcü hökuməti Tiflisdəki ingilis missiyasının başçısı polkovnik Cordana xəbər göndərdi ki, Gürcüstan Müttəfiqlərin təklifini iki şərtlə qəbul edə bilər: 1. Gürcü ordusuna atəşi dayandırmaq əmrini yalnız onun hökuməti verə bilər; 2. Borçalı bölgəsində status-kvo bərpa edilməlidir (13, s.477-479).

Dekabrın 25-də Müttəfiqlər hərbi əməliyyatların dərhal dayandırılması haqqında gürcü və erməni ordusunun baş komandanlarına müraciət etdilər. Elan edildi ki, gürcü hökumətinin nümayəndələrinin müşayəti ilə fransız və ingilis zabitlərindən ibarət qarışıq komissiya əmrin icrasına nəzarət etmək məqsədilə cəbhəyə yola düşəcək. Barışıq şərtləri fransız, ingilis və gürcülər tərəfindən hazırlanmışdı və bu şərtlər ermənilərlə razılaşdırılmamışdı. Ermənistan respublikasının baş nazirinə göndərilmiş teleqramda Müttəfiqlər erməni ordusunun münaqişədən qabaqkı mövqelərinə çəkilməsini əmr edirdilər. Axalkələk gürcülərin əlində qalmalı, Borçalı neytrallaşdırılmalı və ingilislərin nəzarəti altına keçməli idi. Bu teleqramı fransız və ingilislərlə yanaşı, eyni zamanda gürcü hökumətinin başçısı Jordaniya imzalamışdı. Ermənilər hesab etdilər ki, qərbli dostları onları satıblar.

Ermənilər ümidsiz vəziyyətə düşmüşdülər. Onlar Müttəfiqlərin himayəsinə ümid etməsəydilər, şübhəsiz, Gürcüstanla müharibəyə başlamazdılar. Onlar inanırdılar ki, müharibə vaxtı almanlarla əməkdaşlıq etmiş xalqın cəzalandırılmasına İngiltərə və Fransa mane olmayacaq. Onlar hesab edirdilər ki, Qərb onlara borcludur. Məgər ingilis

baş naziri deməmişdimi ki, Ermənistana xidmət sivilizasiyaya xidmətdir? Bu ibarəni ingilis, fransız və Amerika dövlət xadimləri, yazıçılar, rahiblər və diplomatlar tez-tez təkrar edirdilər. Lakin indi Müttəfiqlər Qafqazda ikən ermənilərin haqlı işini müdafiə etmirdilər. Almanlardan istifadə etmiş Gürcüstan sanki indi də Antantanı öz məqsədlərinə yönəldə bilmişdi.

General Denikin xatiratında ingilislərin gürcüləri müdafiə barədə öz versiyasını irəli sürür: gürcülər ingilisləri inandırmışdılar ki, ermənilər gürcülərə qarşı müharibədə General Denikinin Könüllülər ordusu ilə sazişə gəlmişlər. General Gürsüstana qarşı onunla Ermənistan arasında sazişin olmasını inkar edir, lakin bildirir ki, Britaniya ordusunun generalı Uolker Tiqranyana Ermənistan və Könüllü ordunun Gürcüstan üzərinə birgə hücumu olduğu təqdirdə İngiltərənin Gürcüstana yardım edəcəyini bildirmişdi (380, s.4, s.154).

1918-ci il dekabr ayının 30-da Müttəfiq dövlətlərin qarışıq komissiyasının Qarakilsədə olan sədrindən Ermənistanın dekabrın 31-i saat 24-də müharibəni dayandırması haqda Tiflisə teleqram gəldi (13, s.483; 37, 12.01.1919).

Yanvar ayının 9-da Tiflisdə Ermənistan-Gürcüstan danışıqları başladı. Danışıqlara ingilis missiyasının zabiti başçılıq edirdi. Erməni nümayəndələri çalışırdılar danışıqları uzatsınlar. Hətta mümkün olsa onu pozsunlar. İngilis nümayəndəsinin danışıqlar gedişinə fəal müdaxiləsi ermənilərin barışmaz ruhunu qırdı (37, 16.01.1919).

Konfransın qəbul etdiyi qərara görə, Borçalıda neytral zona yaradıldı; neytral zonanın şimal sərhədi Gürcüstan qoşun hissələrinin dekabrın 31-də saat 24-dək tutduğu məntəqələri ayıran xətt hesab edirdi; neytral zonanın cənub sərhədi isə türklərin tutmuş olduğu Disix-Cəlaloğlu. Beləliklə, Borçalı qəzası üç hissəyə bölünürdü, şimal hissə Gürcüstana, cənub hissə Ermənistana verilir, Loru nahiyəsi isə neytral zona sayılırdı. Sonra Borçalı və Axalkələk zonalarında Gürcüstan və Ermənistan qoşunlarının sayı, ordudan tərxis, hərbi əsirlərin dəyişdirilməsi, girovların buraxılması, Borçalı neytral zonasının idarə olunması və s. məsələlər barədə razılıq əldə edildi. Zonanın idarə olunması ingilislərin nəzarəti ilə qarışıq komissiyaya həvalə edildi (243, s.33-34)

Azərbaycan hökuməti Borçalı mahalının taleyini həll etməli olan danışıqlara Azərbaycan nümayəndələrinin dəvət olunmamasına qəti etirazını bildirdi. Azərbaycanın Tiflisdəki nümayəndəsi Gürcüstan xarici işlər naziri ilə söhbətində bildirirdi ki, Azərbaycan nümayəndələrinin iştirak etmədikləri danışıqların qərarını Azərbaycan tanımayacaq. Maraqlıdır ki, Gürcüstanın xarici işlər naziri bu fikrin əsaslı olduğunu etiraf edirdi (117, v.106).

1919-cu ilin fevral ayının 21-də Gürcüstanın xarici işlər naziri Azərbaycan hökumətinə nota ilə müraciət edib, qonşu ölkələr arasında dəmiryol hərəkətini, poçt və teleqraf mübadiləsi sahəsindəki problemləri, gömrük, maliyyə və mal mübadiləsi məsələlərini müzakirə etmək üçün Azərbaycan, Gürcüstan, Ermənistan və Dağlılar Respublikasının yüksək səlahiyyətli nümayəndələrindən ibarət konfransın keçirilməsini təklif etdi. Azərbaycan Respublikasının Nazirlər Şurası bu təklifi qəbul edərək, daha altı məsələni konfransın gündəliyinə təklif etdi:

1.Konfransda iştirak edən dövlətlərin qarşılıqlı olaraq istiqlaliyyətinin tapınması və bu təntənəli aktın bütün dünyaya bildirilməsi; 2. Sülh konqresində birgə iştirak və bu respublikaların müstəqilliyinin müdafiəsi sahəsində fəaliyyətlərin əlaqələndirilməsi; 3. Qafqazdakı yeni dövlətlərin müstəqilliyinə yönəlmiş təcavüzün qarşısının alınması sahəsində tədbirlər; 4. Bütün sərhəd-ərazi məsələlərinin, ya mübahisələrin sazişlər yolu ilə həlli, saziş əldə etmək mümkün olmadıqda arbitraj vasitəsilə həlli; 5. Qafqaz Cənub-Qərbi Respublikası adlı beşinci respublikanın dördlərin danışıqlarında iştirakının arzu edilməsi və zəruri olması; 6. Respublikaların hamısı üçün həssas məsələ olan qaçqınlar məsələsinin müzakirəsi. Azərbaycan hökuməti konfransın Bakıda keçirilməsini təklif edib, bəziləri üçün bu məqbul hesab edilməsə, Tiflisdə keçirilməsinə etiraz etmədiyini bildirdi (122, v.45).

Gürcü hökuməti konfransın gündəliyinə təklif edilən əlavə məsələlərə müsbət münasibətini bildirdi, lakin Cənub-Qərbi Qafqaz Respublikasının iştirakına qəti etiraz etdi (122, v.6). Eyni münasibət Ermənistan hökumətinə də aid idi. Konfransın iflası təhlükəsini görən Azərbaycan hökuməti Cənub-Qərbi Qafqaz Respublikası məsələsində israr etmədi və uzun yazışma və mübahisələrdən sonra yeni yaranmış dörd Qafqaz dövlətinin yüksək səlahiyyətli nümayəndələrinin iştirak etdiyi konfrans aprelin 25-də Tiflisdə öz işinə başladı. Azərbaycan Respublikası nümayəndə heyətinə baş nazir və xarici işlər naziri əvəzi Fətəli xan Xoyski özü başçılıq edirdi.

Qafqaz dövlətləri arasındakı münasibətlərin ayrı-ayrı əhəmiyyətli sahələri üzrə konfransda altı komissiya yarandı və onlar gərkin işləməyə başladılar:

1) Ərazi və sərhəd mübahisələrinin həlli prinsipləri və yollarının müəyyən edilməsi üzrə; 2) Respublikalar arasında dəmiryol, poçt-teleqraf əlaqələrinin nizamlanması üzrə; 3) mal mübadiləsi, gömrük, maliyyə və başqa məsələlərlə bağlı maliyyə-iqisadi komissiya; 4) siyasi məsələlər üzrə (respublikaların müstəqilliyinin tanınması və müvafiq bəyannamənin hazırlanması, respublikaların maraqlarının birgə qorunması, xarici təcavüzün qarşısının alınması sahəsində tədbirlər, vətəndaşlıq məsələləri); 5)məhkəmə-hüquq komissiyası (cinayətkarların təhvil verilməsi, dövlətlərə iddialar üzrə); 6) qaçqınlar və köçəri əhali üzrə (108,v.56).

Qafqaz konfransında müzakirə olunan əsas məsələlərdən biri ərazi-sərhəd məsələsi idi; bu məsələ üzrə yaradılmış müvafiq komissiyaya hər respublikadan bir neçə tanınmış dövlət xadimi daxil idi. Azərbaycan nümayəndə heyəti ərazi məsələlərinə münasibətdə aşağıdakı prinsipləri əsas tutmağı təklif etdi: ərazi iddiaları yalnız respublikalararası sərhədyanı əraziyə münasibətdə elan edilə bilər; ərazi məsələlərinin həllində əhalinin iradəsi təyini-müqəddərat hüququ əsas tutulmalıdır; təsərrüfat-məişət və tarixi bağlarla digər mübahisəsiz rayonla əlaqədar olan rayon haqqında iddia irəli sürülübsə, referendum bütöv şəkildə götürülmüş bütün bu rayonların əhalisi arasında keçirilir.

Uzun mübahisələrdən sonra aşağıdakı formul qəbul edildi: Konfrans qarşısında öz müqəddəratını təyin etmək haqqında inqilabın böyük şüarının həyata keçməsi nəticəsində əmələ gəlmiş Zaqafqaziya dövlətləri sərhədlərinin müəyyən olunması vəzifəsi durur; yalnız respublikaçılar arasındakı qarışıq əhaliyə malik rayonlar haqqındakı mübahisəli məsələlər müzakirə edilə bilər; yuxarıda göstərilən mübahisələr əlaqədar respublikalar arasında sazişlərin əldə edilməsi, sazişlərə gəlmək mümkün olmadıqda isə bu mübahisələr arbitraj yolu ilə həll olunur (129, v.34).

Mübahisəli məsələlərin, o cümlədən ərazi-sərhəd məsələlərinin həlli yollarının əsas istiqamətləri və prinsipləri barədə Qafqaz dövlətlərinin razılığa gəlmələri konfransın ən böyük müvəffəqiyyəti idi. Bundan başqa Qafqaz konfransında birgə son buraxılışı, köçəri əhalinin hərəkəti qaydaları, maliyyə məsələləri və iqtisadi əlaqələr sahəsində bir sıra razılaşmalar əldə edildi. Komissiyaların gərgin və konstruktiv işi bu konfransın Qafqaz dövlətləri arasında normal münasibətlərin nəhayət qurulması işində əhəmiyyətli mərhələ olacağı ümidini verirdi.

Lakin iyun ayının əvvəllərində regionda vəziyyətin kəskin surətdə dəyişməsi Qafqaz konfransını öz işini dayandırmağa məcbur etdi. Denikin ordusunun Dağıstan üzərinə hücumu və Cənuba doğru sürətlə irəliləməsi Azərbaycan Respublikasının qismən Gürcüstanın taleyi üçün ciddi təhlükə yaratdı. (baxın §4).

Qafqaz konfransının uğurlu işi, o cümlədən burada Azərbaycan tərəfinin təklif etdiyi Qafqazın müstəqilliyinə təcavüzün qarşısının alınması tədbirləri haqqında sənədin konstruktiv müzakirəsi Denikin təhlükəsinə qarşı Azərbaycan və Gürcüstan hökumətlərinin fəaliyyətlərinin əlaqələndirilməsi üçün münasib baza yaratdı. Bu meylin nəticəsi olaraq Azərbaycanla Gürcüstan arasında 1919-cu ilin iyunun 16-da Tiflisdə imzalanmış və iyunun 27-də hər iki ölkənin parlamentində təsdiq edilmiş hərbi-müdafiə müqaviləsi meydana çıxdı.

Hərbi-müdafiə müqaviləsinə görə, Qafqaz dövlətlərinin istiqlalı və ərazi bütovlüyünə hər hansı dövlət tərəfindən təcavüz olduğu təqdirdə müqavilə iştirakçısı olan dövlətlər bir-birinə hərbi yardım göstərməli idi (maddə 1). Razılığa gəlmiş tərəflər hər iki dövlətin müstəqilliyi və suveren hüquqlarının qorunmasına yönəlmiş diplomatik danışıqlarda

birgə hərəkət etməli idilər (maddə 6). Tərəflər separat sülh danışıqlarından çəkinməli idilər (maddə 7). Tərəflər müttəfiqləri ilə ilkin razılığa gəlmədən, başqa dövlətlərlə hərbi konvensiyalar bağlamamalı idilər (maddə 8) (87, v.46-47; 86, v.1012; 7, s.3).

Müqavilənin 10-cu maddəsi Qafqazın üçüncü dövləti Ermənistan barədə idi. Müqavilənin rəsmi elanından sonrakı iki həftə ərzində Ermənistan bu müqaviləyə qoşula bilərdi. (Ermənistan hökuməti müdafiə paktına nəinki qoşulmadı, hətta Denikinlə gizli sazişə gəlib, Azərbaycan və Gürcüstana qarşı onunla ittifaq yaratdı baxın §2).

Azərbaycan-Gürcüstan paktı iki olkə arasında münasibətlərin normal məcraya düşməsi və əlaqələrin inkişafı üçün münasib şərait yaratdı. Xüsusən hərbi sahədə əməkdaşlıq meylləri artdı.

Yusif Vəzir Çəmənzəminli 1919-cu ildə yazdığı məqalədə hərbi kadrlar problemini məhz qonşu Gürcüstanın köməkliyi ilə həll etməyi təklif edirdi. Dövlət orqanlarında həssas nöqtələrə milli kadrları yerləşdirmək, onun fikrincə, bu günün işi deyil. Ona görə də özümüzdə adam az olsa, gürcülərdən götürməliyik.

Yoxsa istiqlaliyyətimizə düşmən bir çox məmurlar bəsləyirik. Bunlar Denikinin kəlməsini cani dildən gözləyirlər. Xəyanət olmamaq üçün məsuliyyətli yerləri dəst əlinə verməliyik (260, s. 38).

Azərbaycan hökumətinin dəvəti ilə 1919-1920-ci illərdə onlarla gürcü zabiti Azərbaycan Ordusuna cəlb olundu. Gürcü hökuməti öz anbarlarından Azərbaycana lazım olan qədər əsgəri təchizat vasitələrinin buraxılmasına da razılıq verdi. Gürcülərdən alınmış tonların hesabına 1919-cu ilin iyulunda yeni batareyalar təşkil edildi (87, v.1314; 106, v.85;107, v.10).1920-ci ilin fevralın 5-də Gürcüstanla ticarət tranzit müqaviləsi imzalandı. Müqaviləyə əsasən iki ölkə arasında sərbəst tranzit rejimi müəyyən edildi. Bir il müddətinə nəzərdə tutulmuş bu müqaviləyə əsasən Azərbaycan qonşu ölkəyə münasib qiymətlər və qaydada istədiyi qədər neft və neft məhsulları satmalı idi (134, v.25).

Beləliklə, Gürcüstanla 1918-ci ilin may ayının sonlarından qurulan əlaqələr çox çətin mərhələləri keçib, bəzi vaxtlar böhran həddinə qədər kəskinləşsə də, 1920-ci ilin əvvəllərindən etibarən normal məcraya düşməkdə idi. İki ölkənin maraqları strateji məsələlərdə üst-üstə düşdüyü üçün Azərbaycanla Gürcüstan arasında mehriban qonşuluq münasibətləri formalaşmaqda idi.

Bu münasibətlərdə ən çətin problem ərazi-sərhəd məsələsi, xüsusilə Borçalı məsələsi idi. Bu kəskin problem üstündə mübahisələr olsa belə, o, müharibəyə gətirib çıxartmamış, problemi sivil qaydada beynəlxalq arbitraj missiyasını daşıyacaq Paris sülh konfransında həll etmək qərara alınmışdı. Azərbaycan Respublikasının Gürcüstana münasibətini Yusif Vəzirin “Gürcüstan və biz” məqaləsi yaxşı əks etdirirdi: Gürcüstan ilə dostluğumuz ən təbii bir

haldır. Şimalda rus qorxusu və Cənubda ola biləcək intriqalar gürcülər ilə Azərbaycanlıları kip dostluğa məcbur edir (260, s.37).

## §2.
## AZƏRBAYCAN – ERMƏNİSTAN MÜNASİBƏTLƏRİ VƏ QARABAĞ MƏSƏLƏSİ

Çarizmdən miras qalmış inzibati-ərazi bölgüsünün əhalinin milli tərkibinə uyğun gəlməməsi Cənubi Qafqazda yeni yaranmış dövlətlər arasında meydana çıxan kəskin ərazi-sərhəd problemlərini şərtləndirdi. Azərbaycan hökuməti işə başladığı elə ilk günlərdə Gürcüstan Respublikasına olduğu kimi ermənilərə də müraciət edərək, sərhəd məsələsində mürəkkəb vəziyyətin yaranmasının qarşısını almaq və mehriban qonşuluq münasibətlərini bərqərar etmək məqsədi ilə respublikaların ərazisini elan etməmişdən əvvəl üçtərəfli danışıqlarda bu məsələni müzakirə edib, razılaşma əldə etməyi təklif etdi.

Azərbaycan Milli Şurasının səlahiyyətli nümayəndəsi ilə Erməni Milli Şurası arasındakı danışıqların nəticəsi Azərbaycan Milli Şurasının 1918-ci il 29 may tarixli iclasında müzakirə edildi. Aleksandropolun (Gümrünün) Türkiyə tərəfindən tutulması ilə əlaqədar Ermənistan hökumətinin İrəvanı özünə siyasi mərkəz seçməsi məsələsi nəzərdən keçirildi. Azərbaycanla Ermənistan arasında konfederasiya ehtimalını nəzərə alaraq, Azərbaycan Milli Şurası səs çoxluğu ilə (siyahıdakı 28, iştirak edən 20 nəfərdən 16-ı lehinə, bir nəfər əleyhinə, 3 - bitərəf) İrəvan şəhərini Ermənistan (Ararat) Respublikasının mərkəzi kimi tanımağı mümkün saydı.

Çıxış cdən Şura üzvləri mövcud şəraitdə İrəvanın ermənilərə güzəştini tarixi zərurət, qaçılmaz şər hesab etdiklərini bildirdilər (111, v.51-52; 123, v.3-4). Lakin Milli Şuranın bəzi üzvləri bir neçə gün sonra bu qərara etiraz etmiş, onun (qərarın) İrəvan quberniyası müsəlman əhalisinin gələcək taleyi üçün təhlükə yaradacağı ehtimalından narahat olduqlarını göstərmişdilər. B. Rzayev Milli Şurada təmsil olunmuş irəvanlılar adından demişdi: Müstəqil

Azərbaycan uğrunda çalışmaqla yanaşı, rica edirik, bizi - erməni respublikası ərazisində qalanları da unutmayasınız (111, v.53-56)*.

Həmin 7 iyun tarixli iclasda Zaqafqaziya seymi üzvü olan daşnak partiyasının liderlərinin may ayının əvvəllərində müsəlman fraksiyasına təklif etdiyi siyasi alver yenidən müzakirə edildi. Ermənilər Bakıda, gələcək hökumətin sırf müsəlman deyil, beynəlmiləl xarakterdə olması və erməni hissələrinin Bakıda qalması müqabilində Bakı sovetinin buraxılması (Bakı hadisələrini ləğv etməyi) öz öhdələrinə götürürdülər. Lakin Azərbaycan Milli Şurası əski müsəlman fraksiyası kimi bu həyasız şərtləri qətiyyətlə rədd edib, Bakı şəhərində hakimiyyətin bölünməzliyini bildirdi (111, v.37,55).

Siyasi gedişat tezliklə bu iki respublikanın bir konfederasiyada birləşməsinin mümkün olmadığını göstərdi. Bakı sovetinə tabe olan hərbi hissələrin (onların xeyli hissəsini daşnak hərbi dəstələri təşkil edirdi) Gəncə üzərinə yürüşü və Azərbaycan hökumətinin öz hakimiyyətini Azərbaycanın mərkəzində təsbit etmək məsələləri ilə məşğul olduğu bir dövrdə Ermənistan hökuməti fürsətdən istifadə edərək, bütün gücü ilə keçmiş İrəvan quberniyasını yerli qeyri-erməni əhalidən təmizləmək işini davam etdirirdi.

Azərbaycan Respublikası XİN-nin məlumatına görə, etnik təmizləmə prossesində 1918-ci ilin ilk aylarında dağıdılmış 300 türk (azərbaycanlı) kəndinə İrəvan, Yeni Bəyazid, Eçmiədzin, Sürməli və b. mahallarda yerlə-yeksan edilmiş onlarla yeni kənd əlavə olundu, onların əhalisi nizami qoşun tərəfindən ya qətlə yetirildi, ya da başqa yerlərə pənah aparmağa məcbur edildilər.

Həmin ilin avqust ayının təkcə iki həftəsi ərzində bu mahallarda 50 kənd viran edilmişdi (127, v.102-103). İxtiyarında olan nizami dəstələrə güvənərək Ermənistan hökuməti milli-ərazi bölgüsü məsələsində Azərbaycan

---

* İyun ayının 13-də Azərbaycan Milli Şurası İrəvandan gələn həyəcanlı xəbərlərin müzakirəsinə həsr edildi. Şura üzvü İbrahim ağa Vəkilov qaçqın müsəlmanların fəlakətli vəziyyəti barədə məlumat verərək, aclıq çəkən qaçqınlar üçün 150 min rubl ayırmağı təklif etdi, məlumatının sonunda 206 kəndin də dağıdıldığını bildirdi. Şura dərhal nümayəndə heyəti ilə qaçqınlar arasında paylamaq üçün ixtiyarında olan bütün nəğd vəsaitin İrəvan mahalına göndərilməsi haqqında qərar qəbul etdi (157, v. 1-1a).

hökumətini qabaqlayıb, onu fakt qarşısında qoymağa, gələcək müzakirələrin gedişinə bu yolla təsir göstərməyə çalışırdı.

Azərbaycan (rusca) qəzeti noyabrda yazırdı ki, türk qoşunlarının İrəvan quberniyasına gəlişinə qədər müsəlmanların həyatı tükdən asılı qalmışdı; erməni hərbi qərargahının əmri ilə 200 müsəlman kəndi yandırıldı, 200 min müsəlman əhali evsiz-eşiksiz qaldı. Bu bədbəxtlər təsvirəgəlməz zülmə və təzyiqə məruz qaldılar; bir tərəfdən də aclıq və xəstəlik. Elə bu vaxt türklər İrəvan quberniyasına daxil oldular və yerli müsəlman əhalini ölümün pəncəsindən xilas etdilər (37,   13.11.1918).

Dünya müharibəsinin 1918-ci ilin ortalarında Ermənistan üçün çox ağır şərait yaratdığına baxmayaraq, o, İstanbula göndərdiyi nümayəndə heyətinə geniş ərazi iddiaları irəli sürməyi tapşırmışdı. Konfransda iştirak etmək arzusu ilə İstanbula getmiş  Qafqaz nümayəndə heyətindən ən hazırlıqlısı ermənilər idi. Onlar konfransa xeyli statistik materiallar, eləcə də özləri hazırladıqları xəritələr və layihələr ilə gəlmişdilər. Erməni layihəsində Sürməli, Naxçıvan, Axalkələk, Eçmiədzin, İrəvan, Qazax, Qarabağ, Zəngəzur, Ordubad və Borçalı mahalları daxil idi. Azərbaycan nümayəndə heyətinin başçısı M. Ə. Rəsulzadə Bakıya yazdığı məktublarının birində göstərirdi ki, ermənilər gətirdikləri rəqəmlərlə sübut etmək istəyirlər ki, bu mahallarda əhalinin 70-i ermənidir. Onların fikrincə, Cənubi Qafqaz bu cür bölünsə, ədalətli olar (70, v.20-21).

Ermənilər apardıqları geniş təbliğat kampaniyasında tarixi prinsipdən də istifadə etməyə çalışır, ictimaiyyəti, eləcə də müraciət etdikləri dövlət adamlarını bu torpaqların əvvəldən ermənilərə məxsus olduğuna inandırmağa çalışırdılar. Dövrün, eləcə də XIX əsrin statistik materialları erməni iddialarının, o cümlədən tez-tez müraciət etdikləri demoqrafik prinsipin əsassız olduğunu göstərir (əlavələr hissəsindəki cədvəllərə baxmaq olar).

1917-ci il statistikasına görə, keçmiş İrəvan quberniyası əhalisinin 38 faizini müsəlmanlar, 60 faizini ermənilər təşkil edirdi: Şərur-Dərələyəz mahalında ümumi əhalinin 66,7-i, Sürməlidə 63,6, Naxçıvanda 59,0 müsəlmanlar idilər; İrəvan, Yeni Bəyazid, Eçmiədzin, Aleksandropol qəzasında ermənilər çoxluqda olub, müvafiq olaraq 52,0, 68,5, 68,6 və 90-ə bərabər idilər (154, v. 15-16). İrəvan şəhərinin özünün əhalisinin 43,4 müsəlmanlardan ibarət idi (1915). Keçmiş Yelizavetpol quberniyasında 1915-ci ildə əhalinin on çox qarışıq olduğu Şuşa, Zəngəzur, Qazax (Köyçə ilə birlikdə), Qaryagin, Cəbrayıl, Cavanşir mahallarında əhalinin milli tərkibi müvafiq olaraq belə idi: 46,0 müsəlman və 54,0 erməni; 55,0 və 44,3; 49,8 və 46,0 ; 74,5 və 24,9; 67,5 və 31,6 (155, v.1-2).

Beləliklə, Şuşada xırda fərq istisna olmaqla, ermənilərin iddia etdikləri mahalların hamısında onlar azlıqda idilər. Şuşa mahalına əlahiddə erməni anklavı kimi baxmaq olmazdı, çünki bu mahal bütün parametrlərinə görə Qarabağın qalan yerlərinin üzvi hissəsi idi. 1917-ci il “Qafqaz təqvim”minə görə Qarabağ ərazisində cəmi 242 min erməni, 322 min isə müsəlman (türk və kürd) yaşayırdı.

Lakin XİN ekspertinin qeyd etdiyi kimi, bu rəqəm gerçək vəziyyəti köstərmirdi, çünki Qarabağ ermənilərinin sayını göstərən rəqəmə Qarabağın oturaq əhalisi olmayan Bakı və Rostova qədər yayılmış çoxminli erməni sənətkar və fəhlələri də əlavə edilmişdi. Təkcə Bakıda 30 min belə Qarabağ ermənisi vardı. Həmin ekspertin fikrincə, real vəziyyəti 1912-ci ilin Zaqafqaziyanın pay torpaqlarının alınması haqqında məruzə və 1917-ci ilin kənd təsərrüfatı sayımı daha yaxşı əks etdirir: 170 min erməni və 415 min müsəlman (152, v.1-15; 57, v.20-35).

İstanbul konfransında iştirak edən erməni nümayəndə heyəti burada açıq-aydın türkofilə çevrilərək, Osmanlı hökumətinin başçılarını erməni sədaqətinə inandırmağa çalışırdılar (465, v. 149-151). Azərbaycan nümayəndə heyəti də sıx-sıx Osmanlı hökumətinin üzvləri ilə görüşür, mövqeləri uyğunlaşdırırdı. M. Ə. Rəsulzadə məktublarından birində qeyd edir ki, Ənvər paşa erməni və gürcülərlə sərhəd məsələlərini qaldırmamağı və onlarla mübahisə etməməyi məsləhət görürdü. Paşanın fikrinə görə, Qafqazda erməni dövləti qurulacaqsa, onun xarici qüvvələrin əlində oyuncaq olmasına, türklüyə düşmən kəsilməsinə yol vermək olmaz. Məmməd Əmin bəy yazırdı ki, Ənvər paşanın fikri qəbul edilsə, onda Ermənistan haqqında heç danışmağa dəyməz. Ola bilsin, ermənilər müstəqillikdən imtina edib, Azərbaycan daxilində qalmağı, ya başqa yolu seçsinlər. Söhbət vaxtı Ənvər paşa, Nuru paşaya Zəngəzur və Qarabağı da tutmaq haqqında əmr verdiyini əlavə etmişdi (70, v.27-28).

İstanbul konfransında iştirak üçün gəlmiş Azərbaycan nümayəndə heyətinin yeni başçısı Ə.M. Topçubaşov (Topçubaşı) da Osmanlı hökumətinin üzvləri ilə görüşləri davam etdirdi. Oktyabrın 2-də baş nazir Tələt paşa Əli Mərdan bəylə görüşdə sərhəd məsələsində ermənilərlə dil tapmağı, bu mümkün olmasa, osmanlılar və almanların da iştirak etdiyi arbitrajın yaradılmasını təklif etdi. Xarici işlər naziri Əhməd Nəsimi bəy və ədliyyə naziri Xəlil bəy, eləcə də hərbi nazir Ənvər paşa Qafqazın gələcəyi və rifahı üçün mümkün qədər tez sərhəd məsələlərinin həlli məsələsini irəli sürdülər (94, v.1-8; 22, v.8-18).

Müharibənin sonu yaxınlaşdıqca İstanbuldakı erməni nümayəndələrinin fəallığı və tələbləri müvafiq olaraq artırdı. Ermənilər yerli qəzetlərdə Azərbaycan hökumətinin Qarabağda asayişin bərqərar olmasına yönəlmiş tədbirləri (bu barədə bir qədər sonra) haqqında böyük hay-küy qaldırdı. Oktyabrın 27-də Əli Mərdan bəy yeni Osmanlı xarici işlər

naziri Nəbi bəylə söhbətində son hadisələr barədə dəqiq məlumatın olmamasını bildirmiş, Azərbaycan hökumətindən müfəssəl məlumat alınmayınca bu məsələ ilə bağlı bir tədbir görməməsini xahiş etmişdi. Xarici işlər naziri Qarabağla bağlı bir tədbirin görülməyəcəyini vəd etmiş, lakin məsləhət də vermişdi ki, yaşadığımız zaman baxımından, əlbəttə, arzu olunur qoşun göndərilməsi kimi hərəkətlərdən çəkinəsiniz (94, v.12a).

Oktyabrın 2-də erməni nümayəndə heyəti yeni baş nazir İzzət paşa ilə görüşüb, Qarabağa türk qoşunlarının göndərilməsi qərarının ləğv edilməsi haqqında şifahi nota verdi. Erməni mətbuatının yazdığına görə, İzzət paşa dərhal bu qərarın ləğv edilməsi barədə vəd verdi (37, 31:10.1918).

Noyabr ayının 18-də Ə.M.Topçubaşovun Qarabağ məsələsi ilə bağlı Türkiyə xarici işlər nazirinin müavini Rəşad Hikmət bəylə xüsusi söhbəti oldu. Əli Mərdan bəy ermənilərin İstanbulda yürütdükləri təbliğat kampaniyasının əsassız olduğunu izah etmiş, Azərbaycan Respublikası hökumətinin öz sərhədləri daxilində asayişi qorumağa borclu olduğu üçün Qarabağdakı Andronik qiyamı və onun yerli əhaliyə qarşı kütləvi qırğınlarına qarşı tədbir gördüyünü bildirmişdi. Nazir müavini ermənilərin Qarabağa iddiaları ilə əlaqədar vəziyyətin mürəkkəbləşdiyini göstərib, 5-10 kəndin üstündə israr etməməyi məsləhət görərək demişdi: Qarabağ, əgər varsa başqa yerlər barədə danışıqlara gəlməlisiniz. Unutmayın, o yerdə ki ermənilər çoxluq təşkil edir, onlar mütləq məqsədlərinə nail olacaqlar, onları bütün dövlətlər, xüsusən Antanta müdafiə edir. Əli Mərdan bəyin cavabı Azərbaycan hökumətinin Qarabağ məsələsinə münasibətini göstərmək baxımından maraqlıdır: Ermənilərin ortaya atdığı Qarabağ məsələsi 5, ya 10 kənd məsələsi deyil, mübahisə bütöv 4 sancaq- Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur üstündədir. Bu, elə bir xanlığın ərazisidir, burada erməni və müsəlmanların sayı bərabər olmasa da, hər halda ermənilərin mütləq çoxluğu barədə danışmağa əsas yoxdur. Özü də onlar buranın yerli əhalisi deyildirlər. Rusiya ilə müharibədən sonra Türkiyədən buraya köçənlərdir. Nəzərə almaq lazımdır ki, erməni Respublikasına daxil olan İrəvan vilayətinin sancaqlarında 100 mindən çox müsəlman əhalisinin qalmasına baxmayaraq, onların məskun olduğu torpaqlara biz göz dikməmişik. Nəhayət, Qarabağın özündə ermənilər yığcam halda yaşamırlar, müsəlmanlarla qarışıq məskundurlar: bununla belə biz məsələnin sülh yolu ilə həlli tərəfdarıyıq (95, v.22-23).

Erməni heyətinin haqqında İstanbulda haray saldığı, Ə. M. Topçubaşovun isə əlində kifayət qədər ətraflı məlumatın olmadığı Qarabağ hadisələri nə idi, burada nələr baş verirdi?

Yuxarıda deyildiyi kimi, Azərbaycan hökumətinin başının Bakı məsələsi və ölkənin mərkəzində dövlət orqanlarının yaradılmasına qarışdığı üçün ermənilər fürsətdən istifadə edərək, Azərbaycan hökumətinin hələ nüfuz

dairəsində olmadığı yerlərdə bütün gücləri ilə etnik təmizləmə ilə məşğul olurdular. 1918-ci il iyun ayının 20-də böyük bir hərbi dəstənin başında General Andronik Naxçıvana daxil oldu. O, yol boyu müsəlman kəndlərini dağıtmış, yerli əhalidən xeyli adam məhv etmişdi. İki gündən sonra Andronik Culfaya gəlib, Araz çayını keçərək İran ərazisinə daxil oldu. Xoy yolu ilə Salmasa doğru hərəkət etməyə başladı. Məqsədi İrandakı ingilis qoşunları ilə birləşmək idi.

Lakin Osmanlı komandanlığı yolu kəsib, onu geri - Culfaya dönməyə məcbur etdi. Oradan Əbrəqunis kəndinə hərəkət edib, daha sonra isə Qafan istiqamətinə getdi. Andronikin dəstəsi onlarla müdafiəsiz kəndi darmadağın etmiş, minlərlə dinc müsəlman əhalini xüsusi vəhşiliklə qətlə yetirmişdi. Andronikin vəhşilikləri haqqında saysız tarixi sənədlər mövcuddur (100, v.38; 37, 13.11.1918, 14.01.1919; 43,17.02.1919; 236; 228). Məsələn, Russkaya mısl qəzeti 1919-cu ilin baharında yazırdı ki, təkcə Zəngəzurda Andronik 119 müsəlman kəndini dağıtmış, 50 mindən artıq yerli əhalini evindən-eşiyindən didərgin salmışdı (44, 09.03.1919).

Culfada olarkən Andronik Bakı Sovetinin sədri S. Şaumyana teleqram göndərir və xəbər verir ki, Culfa mənim əlimdədir, istədiyiniz vaxt onu sizin sərəncamınıza verə bilərəm. Şaumyan isə bunun əvəzində Andronikə belə bir cavab teleqramı vurmuşdu: Culfa, xalq qəhrəmanı Andronikə. Sizin 577 N-li teleqramınızı aldım. Tam mətnini Moskvaya, Mərkəzi hökumətə göndərdim. Öz tərəfimdən sizin şəxsinizdə həqiqi xalq qəhrəmanını təbrik edirəm (39, 14.01.1919; 38, 18.07.1918). Gorusda yerləşmiş Andronikin ixtiyarında 12 minlik qoşun vardı, bunlardan 1600 nəfəri süvari idi.

Andronik kifayət qədər top və pulemyot əldə etmişdi. Xoyda ikən buradakı ağqvardiyaçı zabitləri də döyüşə götürmüşdü (37,10.12.1918). Andronik Zəngəzuru tam ələ keçirmiş, buradakı türk kəndlərini dağıtmış, əlinə keçən əhalini isə məhv etmişdi. Zəngəzurla kifayətlənməyən ermənilər öz nüfuz dairələrini qonşu mahallara da yaymağa çalışırdılar (66, v.129,130). Əlverişli şəraitdən istifadə edərək, ermənilər Qarabağın müxtəlif məntəqələrindən yığdıqları nümayəndələrin qurultaylarını keçirmiş, üç dəfə (1918-ci ilin iyul ayının 22-24-də, sentyabrın 6-da və 27-də) Azərbaycan hökumətinin xəbərdarlığına əhəmiyyət vermədən, Ermənistana birləşdiklərini bildirmişdilər.

Azərbaycanın Zəngəzur və Qarabağda yerli hakimiyyət orqanlarının ixtiyarında kifayət qədər qüvvə olmadığından, Andronik ordusu törətdiyi vəhşiliyin coğrafiyasını durmadan genişləndirirdi. Yerli mahal rəisləri mərkəzə bir-birinin dalınca kömək haqqında müraciətlər edirdilər.Zəngəzur mahalının rəisi Q.Namazəliyev əvvəl müvəqqəti paytaxt Gəncəyə, sonra Bakıya doqquz raport göndərmiş, 10-cu raportunda isə göstərmişdi ki, banditi Andronikin hesabına daim artan erməni dəstosi hazırda ikinci dairənin kəndlərini dağıtmağı başa vurub. Şuşa şəhərinin

arxasındakı Sarıbaba dağını ələ keçirməyə çalışır... Andronikin bu dairədə uğur qazanması və Şuşaya yaxınlaşması bu şəhərin müsəlman əhalisinin labüd məhvi təhlükəsini yaradır (37, 16.10.1918).

Azərbaycan hökuməti Andronikin törətdiyi qətl-qarət haqqında Ermənistan hökumətinə rəsmi nota göndərib, bu hərəkətlərin qarşısını almağı tələb etdi. Cavab notasında erməni hökuməti Andronikin hərəkətlərinin ona dəxli olmadığını bildirdi. Baş nazir Fətəli xan Xoyskinin dekabrda parlamentdəki çıxışında dediyi kimi, erməni hökuməti bizə cavab verdi ki, Andronikin Ermənistan Cumhuriyyətilə heç bir əlaqəsi yoxdur, özü də adi bir asidir (qiyamçıdır - N.N.). Erməni hökuməti özü də onun dəfini və üsyanın yatırılmasını istiyər. Fəqət gücü yoxdur, bir iş görə bilmiyor. Baş nazir hələ iyun ayında bu hadisə ilə bağlı hökumətin gördüyü tədbirləri sadalayaraq davam edir: Azərbaycan hökumətinin bütün zehni və əsgəri qüvvəsi tamamilə Bakı məsələsinə münhəsir idi. Ona görə də qəti bir iş görə bilməyib, ancaq Gəncədən iki dəfə qarışıq erməni-müsəlman delegesi göndərdi. Lakin bundan da bir şey çıxmadı. Andronik öz əməlində davam ediyordu (30, 22.12.1918). Sentyabr ayında Bakı məsələsi həll edildikdən sonra Azərbaycan hökuməti Andronik dəstələri ilə mübarizə aparmaq üçün Qarabağa qoşun göndərdi. Andronikin dəstələri əzilərək, Əsgərandan, sonra Şuşadan çıxarıldı. Andronik özü Gorusa, oradan da İrəvana qaçdı.

Azərbaycan (rusca) qəzeti 1918-ci il 22 oktyabr tarixli nömrəsində yazırdı ki, artıq bir ovuc daşnaksakanın avantürası ləğv edilib, erməni əhalisinin Qarabağ hadisələrində iştirakının olmaması tam aydınlaşdı. Erməni əhalisi şəhər və kəndlərdə bizim qoşunları duz-çörəklə qarşılayır, Azərbaycan təbəəliyini qəbul edir, hökumət orqanlarının bütün sərəncamlarına tabe olmağa hazırdır, silahları Könüllü təhvil verir. Bir sözlə, həyat normal məcraya düşür və zəhmətkeş kəndlilər öz dinc məşğuliyyətlərinə qayıdırlar.

Eyni qəzet oktyabr ayının 10-da xəbər verirdi ki, erməni hökuməti Türkiyənin İrəvandakı səfiri və Osmanlı Ordusunun şərq cəbhəsinin baş komandanının razılığı ilə Qafqaz İslam Ordusunun baş komandanı Nuru paşanın yanına nümayəndə heyəti göndərdi. Bu heyət Qarabağa yola düşməli, orada müsəlman-erməni münasibətlərinin nizamlanmasına çalışmalı, Nuru paşadan hərbi əməliyyatları dayandırmağı xahiş etməli idi.

İstanbuldakı erməni nümayəndə heyəti insanlığa yaraşmayan cinayətləri durdurmaq və asayişi bərpa etmək üçün yuxarıda qısaca təsvir etdiyimiz Azərbaycan hökumətinin tədbirlərinə etiraz edirdi. Erməni təbliğatı eyni zamanda Bakının fəthi zamanı (15 sentyabr) və müharibədən sonra Bakıdakı ermənilərin kütləvi surətdə qırılması iddiasına əsaslanırdı. Sentyabr ayının 6-da Ermənistanın Tiflisdəki müvəqqəti işlər vəkili Camalyan Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi M. Y. Cəfərova etiraz notası göndərib, Azərbaycan hökumətini Bakıda 25 mindən 30 minə

qədər ermənin in ölümündə ittiham etdi və günahkarların şiddətli cəzalandırılmasını tələb etdi. Amerika tarixçisi F.Kazımzadənin də yazdığı kimi, Camalyan öldurülənlərin sayını ifrat dərəçədə artırmışdı. Erməni təhqiqat komissiyası belə müəyyən etmişdi ki, öldürülənlərin sayı 10 mini keçmir (460, v.226).

Cəfərov cavab notasında göstərirdi ki, Azərbaycan hökuməti qonşularla sülh şəraitində yaşamağı arzu edir. Bunun üçün də o, Bakı və Şamaxıda 10 mindən artıq müsəlmanın qanının tökülməci, eləcə də bu ilin yazında İrəvan quberniyasında 200-dən artıq kəndin darmadağın edilməsinin yaratdığı kütləvi qisas hissinin qarşısını almağa çalışmışdır. 200 min nəfər əhalisi olan Bakıda müdafiəçilərin çəkilməsindən yeni hakimiyyətin qurulmasına qədərki dövrdə asayişin pozulması halı və qurbanlar olmuşsa da, bu, notada göstərilən rəqəmlərdən qat-qat az olmuşdur.

Cəfərov günahkarların cəzalandırılmaması haqqında ermənilərin ittihamlarını rədd etdi. Yüz adam günahkar sayıldı və asıldı. Notanın sonunda diplomatik nümayəndə göstərirdi ki, Camalyanın notası ictimai fikri Azərbaycana qarşı qaldırmağa yönəlib, iki ölkə arasında münasibətlərin yaxşılaşmasına xidmət etmir (37, 27.10.1918).

Artan erməni təbliğatına qarşı mübarizə aparmaq, ermənilərin Qafqazda müsəlman qanına susamasını dünya ictimaiyyətinin gözündə ifşa etmək, erməni elementinin bu bölgədə qarışdırıcı rolunu göstərmək üçün xarici işlər nazirinin təşəbbüsü ilə hələ iyul ayının 15-də Azərbaycan Respublikasının Nazirlər Şurası Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiyasnın yaradılması zərurəti* haqqında xarici işlər naziri hökumətə təqdim etdiyi məruzədə göstərirdi: Artıq dörd aydır ki, Azərbaycan ərazisinin ayrı-ayrı hissələrində bolşeviklər, məsuliyyətsiz erməni hərbi hissələri və başqaları dinc müsəlman əhalisinin həyatı və mülkiyyəti üstündə inanılmaz vəhşiliklər törədirlər. Bununla belə Avropanın ictimai fikri bu bandaların təşkilatçıları tərəfindən göndərilmiş

---

* X.Xasməmmədov 1918-ci ilin dekabrında yazırdı: Biz azərbaycanlıların siyasətdə hələ təcrübəsi yoxdur. Biz hələ başqalarının, xüsusən bütün bədxahların istifadə etdiyi vasitələrdən istifadə edə bilmirik. Biz Avropaya səs sala bilmədik, bu dünyanın böyüklərinin qapısını döyüb, hətta lazım olduğu kimi Apropada özümüz üçün yaxşı mətbuat yarada bilmədik... Rus paytaxt matbuatında qaldırılan bu küy, şübhəsiz, Avropa və dünya məbuatında təsirsiz qalmadı və müsəlmanlar haqqında Qustav Emarın romanlarındakı qırmızı dərili insanlar haqqındakı təsəvvür yarandı. “Müsəlman vəhşiliklərinin qurbanları” haqqında isə müxtəlif dövlətlərin parlamentlərində sorğular verildi.(37.08.12.1918).

səhv informasiya nəticəsində tamamilə əks istiqamətə yönəldilir. Ümumdövlət mənafeyi, əhalinin zərər çəkən hissəsinin maraqları xüsusi təşkilatın yaradılmasını zəruri edir. Bu təşkilat 1) bütün zorakılıq hallarının dəqiq qeydiyyatını aparmalı, 2) bu zorakılığın törədildiyi şəraiti aydınlaşdırmalı, 3) günahkarları və dəyən zərərin həçminin müəyyən etməlidir. Bu təşkilat Fövqəladə İstintaq Komissiyası xarakteri daşımalı, komissiyanın işi başlıca Avropa dillərində (rus, fransız və alman, təbii ki, üstəlik türk dilində) çap edilməli və geniş yayılmalıdır (160, v.1).

Fövqəladə İstintaq Komissiyasıiın sədri Ələkbər bəy Xasməmmədov təyin edildi. Komissiya çox fəal şəkildə işə başladı, 1918-ci ilin qanlı mart hadisələrini, Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdiyi cinayətləri araşdırmağa balşadı. İstintaq Komissiyasının məhsuldar işləməsinə baxmayaraq, törədilmiş kütləvi cinayət hallarının həcmi komissiyanın öz işini yekunlaşdırmasına imkan vermədi. Mövcud olduğu dövr ərzində (1920-ci ilin 27 aprelinə qədər) komissiyanın topladığı istintaq materialları erməni iddialarının əsassız olduğunu göstərən, erməni cinayətlərini ifşa edən ən gözəl tarixi sənədlərdir.

Daha sonra Fövqəladə İstintaq Komissiyasının gördüyü işləri dünya ictimaiyyətinə çatdırmaq üçün Xarici İşlər Nazirliyinin nəzdində xüsusi təbliğat bölməsi yaradıldı. Məqsəd Paris sülh konfransının qərarlarına təsir edə biləcək Avropa ictimai fikrinə yönəlmiş Azərbaycanın maraqları baxımından gərəkli olacaq materialların hazırlanması və yayılması idi.

Xüsusi təbliğat şöbəsinin yaradılması haqqında sənəddə deyilirdi: Bütün Avropa və Amerika erməni qırğınları deyilən hadisəni bilir, amma heç olmasa onu bilmir ki, məsələn, İrəvan quberniyasının cənub hissəsində yüzlərlə müsəlman kəndi dağıdılmış, 150000 müsəlman qaçqını Azərbaycan ərazisində evsiz-eşiksiz, ac-susuz sərgərdan dolanır. Bu kəndləri kim yandırıb, camaatı kim doğma yurdundan didərgin salıb? Ermənilər... Bu cür misalları çox çəkmək olar. Onlar haqqında bütün Avropada təbliğat aparmaq və hər tin başı bu barədə çığırmaq lazımdır... (149, v.1-3).

Oktyabr ayında Qarabağ və Zəngəzurda asayiş bərpa edildikdən sonra Azərbaycan Respublikası daxilində erməni məsələsinin həllində dönüş yarandı. Azərbaycan hökumətn bu bəlkədə dövlət orqanlarının yenidən qurulmasına və onların gücləndirilməsinə başladı. Sentyabr ayının 25-d- Azərbaycan hökumətinin qərarı ilə Bakı arxiyepiskopu Baqratın başçılığı ilə Bakı və ətraf rayonların erməni əhalisinin qarşılıqlı yardım cəmiyyətinin yaradılmasına icazə verildi (64,v.2).

Elə bu zaman Bakıdakı bir sıra tanınmış türk (Azərbaycanlı) və erməni ictimai xadimlərin təşəbbüsü və hökumətin razılığı ilə Bakıda "Qafqaz Xalqlarının Birliyi və Həmrəyliyi Liqası" adlanan kütləvi ictimai təşkilatın yaradılmasına başlandı. Liqanın nizamnaməsində "Bütün Qafqaz xalqları, ilk növbədə Zaqafqaziya türkləri və ermənilərı üçün birlik və həmrəyliyin, bütün Qafqaz xalqları arasında sabit mehriban qonşuluq münasibətlərinin yaranması, mədəni təyini - müqəddərat hüququnun və hər biricinin siyasi varlığının tanınması haqqında iddiaların şifahi və mətbu təbliğatı əsas məqsəd hesab edilirdi (2-ci maddə). Liqa bu məqsədinə çatmaq üçün kütlələr arasında birlik və həmrəylik ideyalarının geniş yayılması üçün kitab, qəzet, broşura və vərəqələr çap etməli, yığıncaqlar, ümumi söhbətlər, mühazirələr təşkil etməli idi (4-cü maddə) (15, v.2- 9)

Ermənilər Mudros barışığı (1918-ci ilin 30 oktyabrı) və Antantanın müharibədən qalib çıxmasını toy-bayram kimi qarşıladılar. Osmanlı-alman hərbi hissələrinin Qafqazdan çəkilməsi və onun yerini Müttəfiqlərin tutması, ermənilərin fikrincə, onillərlə arzu etdikləri məqsədə çatmaları üçün münasib şərait yaratdı. Azərbaycan Respublikasının yaxın müttəfiqi Osmanlı imperiyasının müharibədə məğlubiyyəti Ermənistanın Azərbaycana münasibətində böyük dəyişiklik yaratdı.

Hər şeydən əvvəl ermənilərin torpaq iddialarının miqyası xeyli genişləndi. "Böyük Ermənistan" yaratmaq ideyası Ermənistan Respublikasının rəsmi dövlət siyasətinin əsasını təşkil etməyə başladı. Osmanlıların qorxusundan ermənilər İstanbul konfransında əgər yalnız Qafqazın ona aid olmayan bir hissəsini (Borçalı, Qarabağ, Naxçıvan, Şərur, Sürməli, Qazax, Axalkələyi) mübahisəli ərazi hesab edirdilərsə, artıq bu torpaqlar ermənilərə görə, sözsüz Ermənistan əraziləri idi, bu barədə əks fikri onlar eşitmək belə istəmirdilər. Bununla iş bitmir. Erməni iddialarının coğrafiyası da genişlənir və "Böyuk Ermənistan" xəritə-layihəsi artıq rəsmi sənəd kimi Paris sülh konfransına təqdim edilir (əlavələr hissəsindəki xəritəyə baxmaq olar, dördüncü fəsildə geniş bəhs ediləcək). 1919-cu ilin əvvəllərində daşnak partiyasının İrəvanda çıxan erməni torpaq iddialarının coğrafiyasını belə müəyyən edir:

1) bütün İrəvan quberniyası - Naxçıvan, Ordubad, Şərur, Sürməli ilə birlikdə;

2) bütün Qars rayonu - Batumdan Sürməliyə qədər olan çox geniş bir ərazi ilə birlikdə;

3) Tiflis quberniyasının xeyli hissəsi – Axalkələk mahalının iki nahiyəsi, Borjom və Qori ətrafının bir hissəsi, Borçalı mahalının qərb hissəsi (Tsalka deyilən ərazi), Şulaverə qədər Borçalı mahalının əksər hissəsi ilə birlikdə;

4) Gəncə quberniyasının xeyli hissəsi - Qazax mahalının cənub hissəsi, Gəncə mahalının Çardaxlı da daxil olmaqla cənub hissəsi, Cavanşir mahalının cənub-qərb hissəsi, Şuşa mahalının Ağdama qədər şimal hissəsi, Cəbrayıl

mahalının Vəng, Hadrut, Edilli və Arakül kəndləri də daxil olmaqla bir hissəsi, Zəngəzur mahalının cüzi bir hissəsi istisna olmaqla hamısı ilə birlikdə (37, 18.05.1919).

Yusif Vəzir Çəmənzəminli Ermənistan və biz adlı məqaləsində erməni iddialarının durmadan artmasını qeyd edərək, Azərbaycan qəzetində yazırdı: Böyük Ermənistan xəritəsini gördüm, üç dəniz arasında təşəkkül edəcək imiş: Ağ, Qara və Xəzər dənizləri arasında. Xəritədə Gəncə, Lənkəran, Salyan, Təbriz, Marağa və başqa şəhərlər də Ermənistana daxil edilmişdi. Əgər bu xəritə erməni milli amilinin həlli isə, onda erməni məsələsi yenə bir çox münaqişə və mücadiləyə səbəb olacaq və həlli yenə kağız üzərində qalacaqdır. Halbuki Qafqazda asayişin təmini məsələsi etnoqrafik dairədə həll olunması ilə mərbutdur" (260, s.36).

Böyük Ermənistan yaratmaq planı etnik cəhətdən təmiz ərazi tələb edirdi. Odur ki, yaranmış şəraitdə fürsətdən istifadə edərək, ermənilər yenidən etnik təmizləmə işinə girişdilər.

"Azərbaycan" (rusca) qəzeti noyabrın 4-də yazırdı ki, bu günlərdə Bakıya gəlmiş İrəvan müsəlmanlarının nümayəndə heyəti Ermənistan Respublikası ərazisində yaşayan müsəlman əhalisinin ağır günlər keçirdiyini, Osmanlı qoşunlarının yaxın vaxtlarda bu yerləri tərk etməsindən dolayı müsəlmanların böyük təşviş keçirdiklərini Azərbaycan ictimaiyyətinə çatdırdı: Nümayəndə heyəti özlərini də bir hissəsi hesab etdikləri Azərbaycana müraciət etməyi vətəndaşlıq borcu bilərək, Azərbaycan hökumətindən onların fiziki varlığını qorumaq üçün müvafiq tədbirlərin görülməsini xahiş etdi... Bütün Zaqafqaziyada erməni-müsəlman münasibətlərinin qurbanlarına çevrilmiş İrəvan müsəlmanlarının səsini bütün Azərbaycan xalqı eşitməlidir; İrəvan quberniyasının qırğınlara məruz qalmış müsəlman əhalisinin qalıqlarının xilası üçün əlimizdən gələni etmək bizim vətəndaşlıq borcumuzdur. Qəzet əlavə edirdi ki, Azərbaycan hökuməti qarşılıqlı münasibətləri nizamlamaq, o cümlədən İrəvan quberniyası müsəlmanlarının maraqlarını qorumaq üçün təcili olaraq İrəvana diplomatik nümayəndə göndərməyə hazırlaşır.

Keçmiş İrəvan quberniyası müsəlman əhalisinin təşvişləri özünü doğrultdu: Osmanlı qoşunları tutduqları ərazini boşaltdıqca ondan sonra buraya yeridilmiş erməni hərbi hissələri əhali ilə elan edilməmiş müharibə aparır, görünməmiş vəhşilik və intiqam hissi ilə kəndləri dağıdır, yerli əhalini qırıb-çatırdı. 1919-cu ilin son iki ayında Azərbaycan Respublikasının Tiflisdəki diplomatik nümayəndələrinin verdiyi məlumata görə, Eçmiədzin mahalında 62 müsəlman kəndi, Sürməlidə 34 kənd, Zəngibasar istisna olmaqla İrəvan mahalındakı müsəlman kəndlərinin hamısı darmadağın edildi (79, v.31-33,47-48).

Erməni qoşunlarının hücumunun digər istiqaməti Göyçə bölgəsi idi. Azərbaycan (rusca) qəzeti 1918-ci il noyabrın 10-da Gəncə mahalından alınmış teleqramı çap etmişdi: "Noyabrın 2-də erməni qoşunları Azərbaycan sərhədini keçib, silahla təhdid edərək, müsəlman Göyçənin təslim olmasını tələb etdi; hazırda əhalini qarət edir, namusuna toxunurlar. 60 min müsəlman adından onların namus, mülk və həyatlarını vəhşilərin təhqirlərindən qorumağı xahiş edirik. Sultanov". Qəzetin elə həmin sayında İdris adlı bir nəfərin eyni məzmunlu teleqramı və Azərbaycan hökumətinin Tiflisdəki diplomatik nümayəndə M. Y. Cəfərova erməni hərbi hissələrinin hərəkətləri barədə Ermənistan hökumətinə protestini bildirməsi tapşırığı haqqında məlumat çap edilmişdi.

Azərbaycan Ordusunun hələ yaranmadığı, Azərbaycan hökumətinin ixtiyarında yerli əhalini qorumaq üçün kifayət qədər hərbi qüvvənin olmadığı, üstəlik Bakını işğal etmiş Müttəfiq qüvvələrin baş komandanı Tomsonun Azərbaycan hökumətini tanımaq istəmədiyi bu zaman kəsiyində (1918-ci ilin noyabr-dekabrı) ermənilərin etnik təmizlik yaratmağa yönəlmiş hərbi səylərinin əsas istiqamətlərindən biri də Zəngəzur və Naxçıvan bölgələri idi. Erməni vəhşiliklərinin başında yenə də burada peyda olmuş General Andronik dururdu.

Azərbaycan (rusca) 1918-ci ilin dekabr ayında Qaryagindən alınmış teleqramı çap etmişdi: "Artıq bir neçə gündür Andronikin başçılığı altında ermənilər Zəngəzur mahalında müsəlmanları amansızcasına qırırlar - Aşdərə, Mənzitit, Tuqut, Sanan, Bıtnəzər, Karzaniem, Şamilli və başqa kəndlər dağıdılıb, yandırılıb. Qalan kəndlər məhv olmaq ərəfəsindədir. Külli miqdarda ölən və yaralanan var. Xilas olmuş sakinlərdən bir hissəsi İrana keçib, bir hissəsi də Arazın qırağında evsiz-eşiksiz sərgərdan qalıblar. Belə bir tale bu günlərdə Cəbrayıl və Şuşa mahallarının müdafiəsiz qalmış müsəlmanlarını da gözləyir. Andronikin başçılığı altında ermənilər silahsız müsəlmanların birdəfəlik axırına çıxmaq istəyirlər. Bütün Avropa və bütün dünyanın indi silahı yerə qoyub, sülh barədə çığırdığı bir vaxtda məşhur quldur Andronikin başçılığı ilə ermənilərin utanmadan və Qafqazda yerləşmiş Müttəfiq dövlətləri saymadan müsəlmanları qırıb-çatmaları bizi heyrətləndirir. Xahiş edirik, təcili olaraq müsəlmanların kütləvi qırğınlarının qarşısını almaq üçün müdafiə tədbirləri görülsün. Xahiş edirik, Müttəfiq dövlətlərin nümayəndələri erməni vəhşiliklərini öz gözləri ilə görmələri üçün Azərbaycan hökumətinin nümayəndəsi ilə birlikdə buraya komissiya göndərsinlər.

Başqa bir teleqramda Andronikin beş mindən ibarət dəstəsinin Zəngəzurda əllidən artıq kəndi dağıtdığı göstərilirdi. Noyabrın ikinci yarısında Andronik Ordubadın on kəndini darmadağın etmişdi (37, 10.12.1919). Zəngəzur qəza rəisi göndərdiyi teleqramda göstərirdi ki, Andronikin birbaşa məqsədi Zəngəzuru müsəlman əhalilən təmizləmək,

onu Ararat Respublikasına qatmaq və öz dəstələri üçün yolu açıb, Şuşanı tutmaqdır. Onun məlumatına görə, əllidən artıq müsəlman kəndində əhali elliklə məhv edilib, kəndlər isə tamamilə yandırılıb (37, 10.12.1918).

Noyabr ayının birinci yarısında Andronik Zəngəzurdakı bütün hərbi hissələrə və erməni əhalisinə əmrlə müraciət etdi. O, əslində Zəngəzurda özünü bütün hərbi dəstələrin baş komandanı elan edib, bütün hissələrin komandirlərindən onun bütün əmrlərinə cüzi sapma olmadan sözsüz əməl etmələrini tələb etdi. Andronik əmrində qoşunlar, ya da xalq tərəfindən hər hansı özbaşınalığın, ya anarxiya meyllərinin öz ixtiyarında olan bütün vasitələrlə beşikdə ikən boğulacağını bildirdi (37, 17.11.1918).

Erməni hökuməti keçmiş İrəvan quberniyası və qonşu mahallarda dinc əhalinin kütləvi qırğınını təşkil etməklə yanaşı, fürsətdən istifadə edərək Bakıda və Azərbaycan Respublikasının digər mərkəzi bölgələrində Azərbaycanın erməni əhalisinin təhlükəsizliyi məsələsini qaldırır, bu məsələdən təzyiq (Azərbaycan hökumətinə və Müttəfiqlərin nümayəndələrinə) vasitəsi kimi istifadə etməyə çalışırdı. Bu baxımdan Ermənistanın Tiflisdəki müvəqqəti işlər vəkili Camalyanın 1918-ci ilin 5 noyabr tarixli notası səciyyəvidir.

Camalyan Azərbaycan hökumətinin erməni əhalisinin sıxışdırılması sahəsində ayrı-ayrı faktlara diqqətsiz yanaşmasının iki ölkə arasında mehriban qonşuluq münasibətlərinin yaranmasına mane olduğuna işarə vuraraq, iddia edirdi ki, Bakıdakı həbsxanalarda olan ermənilərin vəziyyəti ağır olaraq qalır, başqa etnik birliklərin (məsələn, latışların) milli şuraları olduğu halda, erməni milli Şurası ləğv edilmişdir. O, göstərirdi ki, Azərbaycan qəzetində Qarabağ ermənilərinin ünvanına yönəlmiş təhdidlər onlara ağır təsir edib, Azərbaycan dəmir yolunda ayrı-ayrı ermənilər incidilir, hətta qətlə yetirilir. Camalyan nəticə çıxarırdı ki, Azərbaycanda yaşayan ermənilərin təhlükəsizliyi üçün zəmanət yoxdur (99, v.21-23).

Müharibənin bitməsi, İstanbul konfransının baş tutmaması, fürsətdən istifadə edərək ərazi iddialarını gerçəkləşdirmək üçün olmazın vəhşiliklər törədən erməni hücumlarının qarşısını almaq, dəyişən yeni şəraitdə Qafqazda yaranmış yeni dövlətlər arasında pozulmuş münasibətləri tarazlaşdırmaq, o cümlədən ərazi-sərhəd problemlərini müzakirə etmək üçün 1918-ci ilin noyabrında Gürcüstan və Azərbaycan hökumətlərinin Tiflisdə çoxtərəfli danışıqlar təklifini, yuxarıda göründüyü kimi, erməni hökuməti müxtəlif bəhanələrlə rədd edərək, həm Gürcüstan (Borçalıda), həm də Azərbaycanda (Göyçə, Qarabağ, Zəngəzur, Naxçıvan, Şərur) elan edilməmiş müharibəni davam etdirmək xətti tutdu. Ordu qurusuluğu və erməni hücumlarının qarşısını almaqla yanaşı, Qafqazda önəmli siyasi-hərbi amilə çevrilmiş Müttəfiq dövlətlərin nümayəndələrinin Azərbaycanın maraqları istiqamətinə yönəldilməsi üçün Azərbaycan hökuməti

yorulmadan ingilis Generalı Tomsona dəfələrlə müraciət etdi, Qafqazda asayiş və tarazlığı pozan ermәmi hücumlarının qarşısını almaq məqsədilə onun himayəsini əldə etməyə çalışdı.

Noyabrın sonunda Müttəfiq qoşunların komandanı General Tomson Gəncə və Qazax mahallarında olan erməni hərbi dəstələrinin başçılarına aşağıdakı teleqramı göndərdi: “Məndə olan məlumatlara görə, ermənilər Gəncə və Qazax mahallarında qarışıqlıq salmaq və qarətlə məşğuldurlar. Müttəfiqlərin nümayəndəsi kimi bu qarışıqlığın tamamilə dayandırılması üçün tədbirlər görməyi və bütün ermənilərə öz evlərində dinc oturmağı çatdırmağı əmr edirəm. Əgər siz əmrə tabe olmasanız, töküləcək qanlar üçün şəxsən məsuliyyət daşıyacaqsınız”(37, 03.12.1918).

Eyni məzmunlu teleqrama cavab olaraq Andronik noyabrın sonlarında Zəngəzur mahalının erməni və müsəlman əhalisinə müraciət etdi. Müraciətdə deyilirdi: “Mahalın əhalisinə məlum olduğu kimi, Şuşa üzərinə mənim səfərim Bakıdakı Müttəfiq qoşunların komandanı General Tomsonun əmri ilə dayandırılmışdır. Bu əmr Azərbaycan hökumətinin başçısı s. Fətəli xan Xoyskinin vəsatətinə əsaslanır. Ona görə də mən Şuşaya səfəri təxirə salır və bütün hərbi əməliyyatları dayandırıram” (33, 02.07.1991).

1919-cu il yanvar ayının 29-da Azərbaycan Respublikasının Nazirlər Şurası daxili işlər nazirinin Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir mahallarında müvəqqəti valilik (General-qubernatorluq) yaratmaq təklifini müzakirə edərək, müvəqqəti valiliyin yaradılması haqqında qərar qəbul etdi. Qarabağ və Zəngəzurda erməni basqınlarına qarşı mübarizədə böyük nüfuz və təcrübə qazanmış Xocrov bəy Sultanov* vali təyin edildi. Valiliyin ehtiyacları üçün 5 milyon rubl büdcə ayrıldı. Hökumətin qərarında 600 nəfərlik süvari dəstənin yaradılması və onun sayının 3 minə çatdırılması da nəzərdə tutulmuşdu (61, v.P).

---

* Xosrov bəy Sultanov 1879-cu ilin martında indiki Laçın rayonu ərazisində anadan olmuşdur. Gəncə klassik gimnaziyasını bitirdikdən sonra Odessa Universitetinin pediatriya fakültəsində oxumuşdur. Ali təhsilini başa vurduqdan sonra bir müddət Tiflisdə işləmişdir. 1917-ci ildə Müsavat Partiyasına daxil olur. 1918-ci ilin fevralında Zaqafqaziya seyminə seçilir. Fətəli xan Xoyskinin birinci kabinəsində hərbi nazir, ikinci və üçüncüdə isə torpaq naziri vəzifəsini tutmuşdur. Azərbaycan parlamentinin üzvü idi. 1920-ci ilin aprelin sonunda Trabzonda, sonra isə İstanbulda yaşamış, 1941-ci ildə burada vəfat etmişdir (34, №11, 1991).

Ermənilər Azərbaycan hökumətinin Qarabağ və Zəngəzurda müvəqqəti valilik yaratmaq qərarını, xüsusən müvəqqəti vali vəzifəsinə məşhur ermənifob Xosrov bəy Sultanovun təyin edilməsi xəbərini hikkə ilə qarşıladılar. Erməni hökuməti dərhal Azərbaycan hökumətinə etiraz notası göndərdi və bu qərarı tanımayacağını bildirdi. Azərbaycanın o vaxtkı xarici işlər naziri A.Ziyadxan cavab notasında ermənilərin protestinin əsassız olduğunu göstərib, onu Azərbaycanın daxili işlərinə qarışmaq cəhdi kimi qiymətləndirdi (145, v.Z).

Erməni hökuməti Azərbaycan hökumətinin bu qərarı və təyinatı barədə bir neçə dəfə Muttəfiqlərin xüsusi nümayəndəliyinə müraciət etmiş, onları öz nüfuzlarından istifadə edərək müvəqqəti valiliyin yaranmasına mane olmağa çağırmışdı (145, v.2; 122. v.20-20a). Fransız nümayəndələrindən fərqli olaraq (84, v.2) General Tomson Azərbaycan hökumətinin bu tədbirlərini qanuni hesab etdi. Ermənilərin protestlərinə cavab olaraq Tomson demişdi: Məsələ bundadır ki, bəzi ermənilər Azərbaycanın Britaniya tərəfindən tutulmasından intiqam məqamı kimi istifadə edə bilmədikləri üçün çox mütəəssir olmuşlar. Onlar başa düşməyə borcludurlar ki, məsələni hərbi qüvvələr deyil, sülh konfransı həll edəcək (472,s.143). Aprel ayının 3-də Müttəfiq komandanlığı doktor Sultanovu Qarabağın General-qubernatoru kimi tanıdığını elan etdi (122, v.20).

Ermənilər üçün ən böyük zərbə Andronikin Zəngəzurdan çıxarılması haqqında General Tomsonun tələbi oldu. Tomsonun qərarına əsasən Andronik ixtiyarında olan qeyri-nizami dəstələri buraxmalı, 1300 nəfərlik piyada və 500 süvari ilə Yevlağa qədər hərəkət etməli, oradan qatarla İrəvana yola düşməli idi. Andronikin Azərbaycan ərazisindən sakit keçməsi üçün Azərbaycan hərbi hissələri müvafiq tədbirlər gördülər (163 a, v.1-2). Lakin sonra Andronikin hərəkət istiqaməti dəyişdirildi, hərbi dəstələri buraxaraq, aprelin əvvəllərində o, İrəvana, oradan da xaricə çıxıb getdi (1927-ci ildə ABŞ-da oldu).

General Tomson Qarabağ və Zəngəzurda müvəqqəti valiliyin yaranmasına və doktor Sultanovun bu vəzifəyə təyin edilməsinə razılığını bildirsə də, məsələnin birdəfəlik həllinə, burada tam əmin-amanlığın yaranması və Azərbaycan hökumətinin tam nəzarətinə keçməsinə mane oldu. Onun fikrincə, bu məsələ Paris sülh konfransında həll ediləcəyi üçün radikal tədbirlərə ehtiyac yox idi. General bu planını Ermənistan Respublikası Nazirlər Şurasının 28 mart tarixli qapalı iclasında (Tomson: Ümid edirəm, bu sözlər binadan kənara çıxmayacaq) da açıqladı. Həmin iclasda Tomson eyni zamanda çalışdı ki, Antantaya böyük xidmətləri keçmiş ermənilərin hikkəsini soyutsun və onlarda Qarabağ ermənilərinin təhlükəsizliyinin təmin ediləcəyi inamını yaratsın.

Bu məqsədlə o, erməni hökumətinin üzvlərini əmin etməyə çalışdı ki, onun üçün Qarabağ məsələsi yalnız qaçqınların (30 min erməni, 10 min müsəlman) ərzaqla təminatı və Yevlax-Şuşa yolunun təhlükəsizliyini təmin etməkdən (İrəvana isə Şuşadan yol yoxdur) ibarətdir; Azərbaycan qoşunları Ağdam və Xankəndindən o tərəfə keçməyəcək; doktor Sultanov onun təlimatlarından kənara çıxsa, Nuru paşa Bakı hadisələrinə görə cavab verdiyi kimi, o da cavab verməli olacaq; Zəngəzur erməni milli Şurası tərəfindən idarə ediləcək və s. Erməni hökumətinin başçısı Xatisov general Tomsonun planı ilə razı olmadığını Biz Qarabağa münasibət məsələsində öz mövqeyimizdə qalırıq, sizin mövqeyi isə nəzərə alırıq sözləri ilə formulə etdi (88, v.36-37).

General Tomson hazırladığı plana uyğun olaraq, mayor Mak-Mozenin başçılığı altında Şuşada xüsusi ingilis nümayəndəliyi yaratdı. Bu nümayəndəlik qarşısında qayda-qanunu qorumaq, aclıqla mübarizə aparmaq vəzifəsi qoyulmuşdu. Nümayəndəliyə verilmiş təlimatda göstərilirdi ki, nümayəndəlik qaçqınların harada və necə yerləşdirilməsi və onların Yevlaxdan ərzaqla təmin edilməsi məsələsini həll etməli idi. Nümayəndəlik eyni zamanda Qarabağ və Zəngəzurun sülh konfransının qərarınadək nə Azərbaycana, nə də Ermənistana məxsus olmadığını izah etməli, güc mövqeyindən çıxış edən tərəfə Bakıdakı Müttəfiq komandanlığının kəskin reaksiyası ilə qarşılaşacağını bildirməli, hər bir belə hərəkət barədə Bakıya (General Tomsona) operativ məlumat verməli idi. Təlimatda qeyd edilirdi ki, doktor Sultanov vilayətin general-qubernatoru təyin edilib, o vilayəti güc tətbiq etmədən idarə etməli, ərazi iddialarının qaldırılmasının qarşısını almalı idi.

Nümayəndəlik bu işlərdə doktor Sultanova hər cür yardım etməli idi. İngilis nümayəndəliyinin başçısının ixtiyarına və ona kömək məqsədi ilə Şuşaya iki erməni nümayəndəsi də göndərilməli idi. Təlimatın sonunda yenidən Qarabağ və Zəngəzurun mənsubiyyəti məsələsinə qayıdılırdı: Siz görək əlaqədar bütün şəxslərə izah edəsiniz ki, sizi nümayəndəliyin fəaliyyəti Qarabağ və Zəngəzurun mənsubiyyəti haqqında sülh konfransının qərarına heç cür təsir edə bilməz (61.V.21).

Müvəqqəti valiliyin yaranmasını və doktor Sultanovu tanımayacaqlarını bildirən ermənilər öz fəaliyyətlərini davam etdirməkdə idilər. Yanvar-fevral (1919) aylarında Qarabağ və Zəngəzurda ermənilər ingilis missiyasının gözü qarşısında əsgər yığmaqla məşğul idilər. Şuşa mahal rəisinin ingilis nümayəndəsinə verdiyi ermənilərin bu işinin qarşısını niyə almırsınız? sualına cavab olaraq, ingilis nümayəndəsi demişdi: Bu bizim işimiz deyil, ümumiyyətlə, ermənilər müharibə dövrünün şərtlərinə uyğun əsgər yığmırlar (67, v.14).

Bahadurov adlı birici üzvü olduğu Erməni Xalq Partiyasının Mərkəzi Komitəsinə Şuşadan xəbər verirdi ki, aprelin 5-də Müttəfiq komandanlığının nümayəndəsi Şatelvort Bakıda doktor Sultanovun təyinatını elan etdi. Lakin bu qərarı Şuşada elan etmək istəyəndə erməni milli Şurası bunun asayişin pozulmasına səbəb olacağını bildirdi və Qarabağ ermənilərinin V qurultayını çağırmağı təklif etdi. Nümayəndəlik razılıq verdi. Şatelvortun da iştirak etdiyi qurultay aprelin 23-də təşkil edildi. Şatelvortun Qarabağın müvəqqəti idarəsi haqqında təklifini müzakirə edərək, qurultay müvəqqəti General-qubernatorluğun yaranması qərarını rədd etdi. Qurultay alternativ olaraq müvəqqəti ingilis idarəsini qəbul edəcəyini bildirdi.

Daha sonra Şatelvort Zəngəzura gedib, buraya təyin edilmiş erməni Komissarıı Şahmazyanın Gorusu tərk etməsini tələb etdi, Zəngəzurun erməni əhalisi Şatelvortla gələn heyəti təhdid edib, onları mühasirəyə aldı. Bahadurov yazırdı ki, bunun nə ilə nəticələndiyini bilmir, amma onu bilir ki, Şatelvort erməni hökumətinin Zəngəzur və Qarabağın müvəqqəti olaraq Azərbaycanın tərkib hissəsi kimi tanımaması qərarından bərk qəzəblənib. İngilis nümayəndəliyi Qarabağdakı erməni milli Şurasını tanımır və onu repressiya ilə hədələyir. Buna baxmayaraq Bahadurov yazırdı ki, onun mövqeyi Azərbaycanı tanımamaq, ingilispərəst siyasət və ehtiyatlı olmaqdır (84, v.4; 124, v.5-5a).

Belə bir şəraitdə işə başlayan doktor Sultanov Qarabağ və Zəngəzurda Azərbaycan Respublikasının dövlət hakimiyyətini təsbit etdirmək üçün həm ermənilərin, həm də ingilislərin müqavimətini qırmalı idi. Müvəqqəti vali hər şeydən əvvəl Yevlax-Şuşa yolunun açılmasını və onun təhlükəsizliyini təmin etdi. Qarabağla Azərbaycanın başqa bölgələri arasında gediş-gəlişi yoluna qoydu. Bu, sürülərin aran bölgələrindən yaylaqlara çıxarılması üçün münasib şərait yaratmış oldu. Arandan yaylaqlara köç mövsümü ərəfəsində vali yolların təhlükəsizliyinin möhkəmləndirməsi üçün strateji nöqtələrdə postlar qoydu. Bu, erməni milli Şurasının müqavimətinə rast gəldi. Ermənilər iyunun 4-də Şuşa yaxınlığındakı Üçmıx deyilən yerdə qoyulmuş posta hücum edib, 3 əsgəri öldürdülər. Müvəqqəti vali Sultanov öz hesabatında göstərirdi ki, bu hadisə əhalinin və hərbi hissələrin ümumi narazılığı və günlərlə davam edən atışma üçün bir siqnal oldu (86, v.12).

Bu hadisə iyunun əvvəllərində Qarabağda ermənilərlə azərbaycanlılar (türklər) arasında onlarca adamın ölümü və Qarabağ ətrafında yeni qalmaqalın yaranması ilə nəticələndi. Azərbaycan parlamentinin deputat komissiyası Şuşaya gedib, hadisəni təhqiq edəndon sonra par-lamentin muzakirolöri vaxtı doktor Qarabəyov və başqa azərbaycanlı deputatlar qan tökülməsində yerli erməni təxribatlarını və erməni milli Şurasını günahlandırdılar, erməni deputatları isə

vəziyyətin qarışmasında doktor Sultanovu günahlandırıb, onun istefasını tələb etməyə başladılar (101, v.1-18; 102, v.84-97; 103, v.1-6).

Erməni hökuməti hadisə ilə bağlı verdiyi etiraz notasında doktor Sultanovu iğtişaşın mənbəyi və təşkilatçısı, tökülən qanların günahkarı hesab edib, Şuşa yaxınlığındakı tək bir kənddə (görünür, Qaybalıkənd nəzərdə tutulur) 600 adamın öldürüldüyünü bildirdi (127, v.73). Eyni zamanda ermənilər doktor Sultanovun müvəqqəti General-qubernator vəzifəsindən çıxarılması barədə ingilislərin yanında israrlı vəsatət qaldırdılar. İngilis komandanlığı Azərbaycan hökumətindən Xosrov bəy Sultanovun vəzifədən götürülməsini tələb etdi.

Doktor Sultanovun İngilis siyasəti nəticəsində Qarabağda yaranmış vəziyyət və vəziyyətin düzəldilməsi üçün zəruri olan tədbirlər adlı geniş məruzəsi həmin dövr hadisələrinə aydınlıq gətirmək üçün əhəmiyyətli mənbədir. X. Sultanov bu məruzəsində Şuşadakı ingilis nümayəndələrinin ikibaşlı siyasətini faktlarla sübut edir, valilik yaranan vaxt ingilislərin üstünə götürdükləri təəhhüdləri bilərəkdən yerinə yetirmədikləri, ya ləngitdiyini göstərirdi. İngilislər vəd etmişdilər ki, ermənilər tərəfindən atəş altında saxlanılan Ağdam-Qaryagin və ermənilər yaşayan kəndlərdən keçən Şuşa-Qaryagin yolunun açılmasını təmin edəcəklər; onda ingilislərlə birlikdə General-qubernator tərəfindən hazırlanmış və erməni milli Şurasının rədd etdiyi qarşılıqlı münasibətlərin qurulması prinsipləri həyata keçiriləcək; milli şuranın üzvləri Şuşadan uzaqlaşdırılacaq; Qarabağın dağlıq hissəsində Azərbaycan hakimiyyəti qurulacaq; ingilis dəstəsindən sonra Azərbaycan qoşunları Gorusa girəcək və burada Azərbaycanın hakimiyyət orqanları yaradılacaq; ermənilərin General Şatelvortu təhqir etdiklərinə görə Gorusun üstündə nümayişkaranə uçuşlar olacaq; polkovnik Arzumanov həbs ediləcək; ermənilərin Qarabağda Azərbaycan hakimiyyətini tanımamaq işində erməni hökumətinin əli olduğu sənədlərlə sübut edilsə, Ermənistan hökumətinə qarşı tədbirlər görüləcək və s.

Məruzəçinin yazdığına görə, bu işlərin heç birisi görülməmiş, əksinə, ingilis nümayəndəliyi daim Azərbaycan hökumətinin təmsilçisi olan valinin fəaliyyətini məhdudlaşdırmağa çalışmış, nəticədə Qarabağ məsələsinin ermənilərin xeyrinə həlli üçün münasib şərait yaranmışdır. X.Sultanov vəziyyətdən çıxış yolu kimi aşağıdakıları təklif edirdi: ya əvvəlki General-qubernator geri qaytarılsın, ya da yenisi təyin edilsin; təcili olaraq Zəngəzura hərbi hissələr yeridilsin, ermənilərin İrəvandan qoşun gətirməsinin qarşısı alınsın; Dağlıq Qarabağa Azərbaycan hakimiyyətini tanımaq barədə altı günlük ultimatum verilsin; eyni vaxtda ermənilərə bütün müsəlman rayonlarını tərk etmələri təklif olunsun; yalnız Şuşa şəhəri istisna edilsin; rədd cavabı verildiyi təqdirdə altı gündən sonra hərbi əməliyyatlar başlansın (89, v.44-47).

İngilis nümayəndələrinin və erməni hökumətinin tələblərinə baxmayaraq, Azərbaycan hökuməti X.Sultanovu Qarabağ və Zəngəzurun müvəqqəti valisi vəzifəsindən götürmədi, Azərbaycanın beynəlxalq vəziyyətinin mürəkkəb olmasına (Denikin təhlükəsi) baxmayaraq, Azərbaycan ordu hissələrinin Qarabağın dağlıq hissəsi və Zəngəzurda yerləşdirilməsinə hazırlıq barədə Hərbi Nazirliyə göstəriş verdi. Eyni zamanda Azərbaycan hökuməti adından xarici işlər naziri iyunun 23-də Ermənistanda ərazi-sərhəd və qaçqın məsələlərini müzakirə etmək üçün Azərbaycan və Ermənistan nümayəndələrindən ibarət qarışıq hökumət-parlament Komissiyasının yaradılmasını təklif etdi (132, v.6).

Elə bu vaxtlar Tiflisdə başlanmış Qafqaz ölkələri konfransı Denikin təhlükəsinin artması ilə bağlı öz işini dayandırmağa məcbur olduq, İyun ayının 16-da şimaldan gələn təhlükəyə qarşı Azərbaycanla Gürcüstan hərbi-müdafiə müqaviləsi imzaladılar. Yuxarıda deyildiyi kimi, müqavilənin 10-cu bəndində Ermənistanın iki həftə ərzində bu pakta qoşulması təklifinin olmasına baxmayaraq, Ermənistan nəinki bu təklifi qəbul etmədi, hətta Denikinlə əvvəllər başlamış əlaqələrini daha da genişləndirdi.

Erməni nümayəndələri Denikinin qərargahının yerləşdiyi Yekaterinodar şəhərində daha tez-tez görünməyə başladılar. Erməni hökuməti ilk nümayəndə kimi polkovnik Vlasovu göndərmişdi. O, erməniləri qatı rusofillər kimi təqdim etmiş, Şimali Qafqazdakı çağırış yaşlı erməni gənclərini öz vətənlərinə göndərməyi xahiş etmişdi. Könüllü Ordunun tutduğu ərazidə yaşayan və Ermənistanda qulluq etmək istəyən bütün ermənilər üçün polkovnik Vlasov ərzaq, silah və nəqliyyat vasitələri xahiş etmişdi.Denikinin müavinlərindən biri General Draqomirov yerində vəziyyəti öyrənmək üçün İrəvana akent göndərdi. Akent qayıdanda ermənilərin öz xarici strategiyalarını dəyişdikləri haqqında məruzə etdi. Onun sözlərinə görə, ermənilər artıq Vlasovdan imtina edib, ingilis və amerikanlıların qılığına girməyə çalışırdılar. Denikin öz xatiratında yazır ki, bu xəbər ona çox pis təsir etmişdi (380, ç.4, s. 176).

Buna baxmayaraq erməni hökuməti Kuban hökuməti yanında daimi nümayəndə təyin etdi. Denikinlə görüşdə erməni nümayəndəsi Siqatelyan generala izah etməyə çalışmışdı ki, xaricdən olan təzyiqlərə görə Ermənistan açıqdan-açıqa rusiyapərəst görünə bilmir. Denikin cavabında bildirdi ki, erməni hökumətinin ağır vəziyyətdə olmasını başa düşür, erməni xalqına rəğbət bəsləyir (380, s.4, s.176).

Denikinin Ermənistanla əlaqələri yarı gizli şəkildə davam edirdi. 1919-cu ilin iyulunda Denikin Batum və İrəvan yolu ilə Ermənistana bir neçə milyon patron göndərdi. Bəzi məlumatlara görə, Ermənistanla Denikin arasında hətta gizli saziş belə bağlandı (39, 29.04.1920).

İyulun 7-də Azərbaycan Respublikasının İrəvandakı diplomatik nümayəndəsi Təkinski Bakıya məlumat verirdi: “Ermənilər Könüllü Ordunun hərəkətlərinə sevinirlər, ümid edirlər ki, o, Bakını tutacaq. Hərçənd ki, iyunun 1-də Xatisov mənim yanımda nahar vaxtı müstəqilliyin qorunması məsələsində Ermənistanın Azərbaycanla ümumi maraqlarının olmasına məni inandırmağa çalışırdı. Könüllü Ordu ilə bizim aramızda mürəkkəb vəziyyət yaranarsa, Ermənistan bizə qarşı düşmən mövqe tutacaq (75, v.20).

Azərbaycan hökuməti eyni zamanda erməni qoşunlarının Qarabağ və Dilican istiqamətində toplanması haqqında məlumatlar alırdı, paralel olaraq bu bölgələrdə ermənilərin təcavüzkar-təhrikçi hərəkətlərinin artdığı da müşahidə edilirdi. Üstəlik Müttəfiq qoşunlarının Bakıdakı nümayəndəliyi də Zəngəzur barədə Azərbaycan hökumətinə xəbərdarlıq etdi. General Şatelvort baş nazirlə söhbətində bildirmişdi: Ona Zəngəzurda Azərbaycan administrasiyasının tətbiq edilməyəcəyi xəbərini çatdırmaq tapşırılmışdır. Zəngəzur və ətraf rayonlarda Azərbaycan hakimiyyəti tərəfindən hər cür zor tətbiq edilməsi qadağan olunur və bu Müttəfiqlərə qarşı hücum kimi qiymətləndiriləcək... Bu məsələnin Müttəfiq dövlətlər tərəfindən həllinədək Zəngəzurun işlərinə qarışmaq yolverilməzdir (75, v.13). İngilis komandanlığının xəbərdarlığına və Denikinin təhlükəsinin artmasına baxmayaraq, Qarabağdakı gərgin vəziyyət, erməni qoşunlarının Azərbaycan sərhədlərində cəmləşdirilməsi və Zəngəzura ermənilərin xeyli hərbi dəstə və sursat göndərməsi (75, v.80) Azərbaycan hökumətindən ləngimədən lazımi tədbirlər görməyi tələb edirdi. İyun ayında Azərbaycan Respublikası Nazirlər Şurasının sədri hərbi nazir S. Mehmandarova yazdığı məktubda Qarabağdakı gərgin vəziyyətlə bağlı General-qubernator Sultanovun ixtiyarına 2 mindən az olmayaraq nizami hərbi qüvvə verməsini təklif etdi.

İngilis qoşunlarının Qafqazı tərk etməsi və Azərbaycan hərbi hissələrinin Qarabağa yerləşdirilməsi yerli erməniləri yumşaq mövqe tutmağa məcbur etdi. Avqustun ortalarında Şuşada yığışmış erməni kəndli icmalarının VII qurultayı Azərbaycan hökumətinin Qarabağ üzərində hakimiyyətini müvəqqəti olaraq sülh konfransının qərarınadək tanıdığını bildirdi. Yerli ermənilərə mədəni muxtariyyət verildi (109, v.44-45; 135, v.41).

Müttəfiqlərin ali Komissarıı təyin edilmiş amerikalı polkovnik V.Haskel sentyabr ayında Bakıya səfər edib, baş nazir Yusifbəyli ilə görüşdü. Azərbaycan qəzetinə verdiyi müsahibəsində Haskel bildirdi ki, o, erməniləri təmsil etmir və respublikalar arasındakı münasibətlərdə tam bitərəf mövqe tutur. Haskel Müttəfiqlər adından elan etdi ki, Qarabağ və Zəngəzurun Azərbaycanın tərkib hissəsi kimi tanındığını təsdiq edir, lakin Naxçıvan, Şərur və Dərələyəz Qafqaz respublikaları ilə Türkiyə arasında neytral zona sayılır (454, s.102). Qarabağ və Zəngəzuru erməni təcavüzündən

qorumaq işinə yerli müsəlman əhalisini cəlb etmək üçün hazırlanmış plan üzrə oktyabr ayında xalq qoşunu (kazak hissələri nümunəsində) təşkilinə başlandı. Yerli əhali hesabına burada 4 bölüklü nişançı batalyonu və iki hissədən ibarət süvari diviziyası yaradılmalı idi. Bu hissələrdə hərbi xidmət iki il idi.

Piyada hissəsinə çağırılmış gənc özü ilə paltar, silah və hərbi ləvazimat, süvari isə bundan əlavə müharibəyə yararlı at və at ləvazimatı gətirməli idi. Hərbi ləvazimat onu göndərən kənd camaatının hesabına olur, qəbul Komissiyası tərəfindən bu ləvazimat yararsız hesab edilirdisə, kənd camaatı öz hesabına həmin ləvazimatı təmin edirdi. Hər bir nişançı əsgər və süvariyə aylıq maaş verilirdi. Silahların düzəldilməsi, əsgər və atların saxlanması xəzinə hesabına idi. Bu qoşun hissələrini zabit heyəti ilə təchiz etmək üçün hərbi məktəbdə 20 nəfərdən ibarət xüsusi qrup təşkil olunmuşdu. Xalq qoşununun təşkilinə türkiyəli zabitlər də cəlb edilmişdilər (246, s.63-64).

Erməni hökuməti hadisələrin onun xeyrinə olmadığını görüb, heç olmasa, Zəngəzurda möhkəmlənməyi qərara aldı və qoşun hissələrinin buraya göndərilməsini sürətləndirdi. Oktyabr ayında polkovnik Cavad Şıxlinskinin komandanlığı altında Azərbaycan Ordusu hissələri Zəngəzurda olan erməni hərbi hissələrinə qarşı hərbi əməliyyatlara başladı. Döyüşlər bir aydan çox çəkdi. Döyüş meydanında uduzan ermənilər böyük təbliğat kampaniyasına başladılar. Bu təbliğata qarşı 1919-cu ilin noyabr ayında Azərbaycan hökumətinin Zəngəzur hadisələri barədə rəsmi xəbəri yayıldı.

Burada göstərilirdi ki, artıq bir ildir ki, bolşevik əhval-ruhiyyəli erməni quldur dəstələri Zəngəzurda əhalini idarə edir, Azərbaycan hakimiyyətini tanımır və müsəlman kəndlərini dağıdırlar. Artıq 60 mindən çox müsəlman qaçqını evsiz-eşiksiz, aclıq və soyuqdan əziyyət çəkir. Son altı ayda Qarabağ administrasiyası bu anarxiyanın sülh yolu ilə ləğvinə çalışır. Dəfələrlə əhaliyə quldur dəstələrinin başçılarını təhvil vermək, təbliğata uymamaq haqqında müraciət edilmiş, respublika qanunları əsasında onlara can və mal toxunulmazlığı barədə zəmanət verilmişdi.

Lakin bu müraciətlər quldur dəstələrinin başçılarına təsir etməmiş, xaricdən pul və silah alaraq bəd əməllərini davam etdirmişlər. Daha sonra məlumatlar gəldi ki, Ermənistan hökuməti Zəngəzur mahalına nizami hərbi hissələr və döyüş sursatı göndərir. Bu, Azərbaycan hökumətini asayişi bərpa etmək və dinc əhalini qorumaq üçün Qarabağ General-qubernatorunun ixtiyarına kiçik hərbi dəstə göndərməyə məcbur etdi. Daha sonra hökumətin məlumatında Dığ, Xanavar və Xoznavar kəndləri yaxınlığında gedən döyüşlərdən sonra noyabrın 8-dən etibarən hərbi əməliyyatların dayandırıldığı bildirilirdi (109, v.19-19a).

Erməni hökuməti Qarabağda olduğu kimi Zəngəzurda da vəziyyətin onun ziyanına dəyişdiyini görüb, məsələnin həllini heç olmasa ləngitmək məqsədi ilə gürcü hökumətinin başçısı, ingilis nümayəndələri Uordrop və polkovnik Reyə

müraciət edərək, atəşin kəsilməsinə kömək etmələrini xahiş etdi. Onlar da öz növbəsində baş nazir Yusifbəyliyə müraciət etdilər (109, v.5-18). Yaranmış vəziyyəti müzakirə edib, bu müraciətləri nəzərə alaraq Dövlət Müdafiə Komitəsi qoşunların Zəngəzurdan müvəqqəti olaraq çəkilməsinə qərar verdi, bununla belə bildirdi ki, Zəngəzur məsələsində əvvəlki mövqeyində qalır və onu Azərbaycanın tərkib hissəsi hesab edir. Gürcü hökuməti və Müttəfiqlərin nümayəndələrinin vasitəçiliyi ilə qərarlaşdırılmış Azərbaycan-Ermənistan danışıqlarında iştirak etmək üçün baş nazir N.Yusifbəyli Tiflisə yola düşdü.

Tiflisdə Müttəfiq qoşunları Komissarılığının nümayəndəsinin iştirakı ilə Azərbaycan və Ermənistan hökumətləri başçılarının danışıqları 1919-cu il noyabr ayının 23-də sazişin imzalanması ilə nəticələndi.

Bu sazişə görə iki ölkənin hökümətləri davam edən toqquşmaları dayandırmaq və bundan sonra silaha əl atmamağı öhdəcinə götürürdü (I maddə); hər iki hökumət Zəngəzura gedən yolların açılması üçün təsirli tədbirlər görməli idi (II); sərhəd məsələləri də daxil olmaqla bütün mübahisəli problemlər sülh konfransının qərarına qədər yalnız sülh yolu ilə həll edilir. Barışıq əldə edilmədiyi təqdirdə üçüncü şəxs neytral hakim kimi danışıqlarda iştirak edir, onun qərarı hər iki tərəf üçün məcburidir və bu dövrdə ABŞ polkovniki Ceyms Rey neytral şəxs qəbul edilir (Ş); Ermənistan və Azərbaycan hökumətləri iki ölkə arasında danışıqlarda iştirak etmək üçün bərabər sayla nümayəndələr seçir, bu danışıqlarda iki ölkə arasında mübahisə və anlaşılmazlığa səbəb olan məsələlər müzakirə ediləcək (IV); Ermənistan və Azərbaycan hökumətlərinin sədrləri bu sazişdə irəli sürülmüş müddəalara vicdanla əməl edəcəklərini bildirirlər (V) (137, v.13).

Sazişin imzalanmasından bir neçə gün keçməmiş atəşkəs pozuldu. Erməni nizami hissələri Zəngəzurda bir neçə müsəlman kəndini dağıtdı, Dərələyəz bölgəsində isə 300 kişinin ölümü və 30 qadının əsir alınması ilə nəticələnən növbəti vəhşiliyə əl atdılar. Azərbaycan xarici işlər naziri M.Y.Cəfərovuı 29 noyabr tarixli kəskin etiraz notasına cavab olaraq erməni tərəfi bildirdi ki, bu əməliyyatlar Dərələyəzdən Zəngəzur istiqamətinə Xəlil bəyin başçılığı altında olan hücumun qarşısını almağa yönəldilmişdir və notada göstərilən ölüm halları barədə onun məlumatı yoxdur; erməni hökuməti 23 noyabr tarixli sazişdən irəli gələn təəhhüdlərə əməl edir (109, v. 11,20).

Azərbaycan hökuməti erməni tərəfinin bu cür münasibətindən sonra hadisəni təfərrüatı ilə Müttəfiqlərin diqqətinə çatdırdı (109,v.25,26,26a). Müttəfiqlərin ali Komissarıı Haskel Ermənistan hökumətini xəbərdar edərək bildirdi ki, Azərbaycan tərəfinin ittihamlarının həqiqət olduğu ortaya çıxsa, bu, Ermənistanın gələcəyi üçün on güclü zərbə olacaq (109, v.23).

Azərbaycan hökumətinin diplomatik hücumları şəraiti hər halda dekabrın 14-də Bakıda Azərbaycan-Ermənistan danışıqları başladı. Azərbaycan tərəfindən Fətəli xan Xoyski, M.H.Hacınski və doktor M. Vəkilov iştirak edirdi. Danışıqların gündəliyində ərazi-torpaq məsələləri, qaçqınlar məsələsi, ticarət və dəmiryol nəqliyyatı üzrə müqavilələr, məhkəmə-hüquq münasibətləri, Azərbaycan və Ermənistanın müxtəlif şəhərlərində konsul agentliklərinin təsisi məsələləri daxil edildi. Konfransın işinin proqramı haqqında məsələ ilə bağlı Azərbaycan nümayəndə heyətinin fikrini ifadə edərək, onun sədri F. Xoyski çıxışında göstərdi ki, Azərbaycan və Ermənistan arasında dostluq münasibətlərinin yaranması naminə gündəliyə Zaqafqaziya respublikalarının konfederasiyasının yaradılması məsələsini daxil etmək lazımdır.

Erməni heyəti Zaqafqaziya respublikalarının konfederasiyası məsələsinə prinsip etibarı ilə etiraz etmədi, bununla belə, bildirdi ki, bu vacib məsələ respublikaların hökumət və parlamentlərində ilkin müzakirə edilməli, üstəlik, Gürcüstan nümayəndələri də münasibətlərini bildirməlidirlər. Odur ki, erməni nümayəndə heyəti Azərbaycan-Ermənistan konfransını Tiflisə keçirməyi, paralel bu konfransla birlikdə Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndələrinin konfederasiya məsələsi ilə bağlı konfransının təşkilini təklif etdi. Zaqafqaziya dövlətlərinin konfederasiya ideyasının hər iki nümayəndə heyəti tərəfindən bəyənilməsi haqqında qətnamənin qəbul edilməsi ilə konfrans öz işini Tiflisə keçirmək qərarına gəldi. (137, v.43-64; 7, s.25-26).

Azərbaycan-Ermənistan konfransında Azərbaycan nümayəndə heyəti tərəfindən irəli sürülmüş Zaqafqaziya konfederasiyası ideyası müstəqil dövlətlərin mövcud olduğu il yarım ərzində daimi etnik müharibənin acı təcrübəsindən doğmuşdu. Konfederasiya ideyası bu müharibənin sona çatması sahəsində səmərəli vasitə hesab edilirdi. Azərbaycan heyətinin geniş konfederasiya layihəsində ittifaq hakimiyyətinə minimum hərbi-müdafiə xarakterli səlahiyyətlər verilir, konfederasiyaya daxil olan dövlətlər öz müstəqillik və suverenliklərini saxlayırdılar (148, v.1-13).

1919-cu ilin dekabrında Müttəfiqlərin ali Komissarıı Haskel sülh konfransına məlumat verdi ki, Azərbaycan və Ermənistan aralarındakı problemləri danışıqlar yolu ilə həll etmək barədə razılığa gəliblər, danışıqlar nəticə vermədiyi təqdirdə ali Komissarılığın arbitrajlığı qəbul edilib. 1921-ci ilin əvvəllərində Paris sülh konfransı Azərbaycanın Qarabağ üzərində hakimiyyətini tanıdı. Bu qərar Antantanın əvvəlki siyasətinin təsdiqi oldu (454, s.102).

Ermənilər bu vəziyyətlə barışmaq istəmirdilər. Yenidən zor mövqeyindən vəziyyəti öz xeyirlərinə dəyişməyə cəhd etdilər. Təxminən eyni vaxtda 1920-ci ilin əvvəllərində üç istiqamətdə: Qazax, Zəngəzur və Zəngibasara erməni nizami qoşunlarının hərəkəti başladı. Müharibənin bu mərhələsi digərlərindən miqyasına görə xeyli fərqlənirdi.

Yanvarın 19-da Zəngəzurdan Şuşa istiqamətinə hücuma keçən erməni ordusunun 10 min piyadası, 10 topu və 60 pulemyotu var idi (109, v.61,65). Zəif müdafiə olunan Zəngəzurda elə hücumun ilk günlərində 40 kənd yandırıldı, minlərlə insan qətlə yetirildi, on minlərlə yerli sakin qaçqınlar siyahısına əlavə edildi (79, v.14; 109, v.53).

1920-ci il yanvar ayının 21-də parlament üzvü Cəmil Sultanov parlamentin sədrinə göndərdiyi teleqramda yazırdı: Mahalın bədbəxt əhalisi adından yalvarıram, kağız üzərindəki protestlərdən fəal hərəkətə keçin və Azərbaycanın ən yaxşı hissəsini birdəfəlik məhv olmaqdan xilas edin. Zəngəzurdan sonra növbə Qarabağındır. Bütün bunların itirilməsinə görə türk xalqı və Azərbaycan qarşısında siz cavab verəcəksiniz (109, v.59). Başqa bir teleqramında Cəmil Sultanov Qarabağın dağlıq zonasında qiyam hazırlandığını xəbər verirdi (109, v.61).

Erməni hökumətinə hücum əməliyyatlarını dərhal dayandırmaq tələblərinə və Müttəfiqlərə müharibənin dayandırılmasında vasitəçi olmaq haqqında müraciətlərə baxmayaraq, erməni ordusu dinc əhalini qırmaqda davam edirdi. Azərbaycan hökuməti Denikin təhlükəsinin kəskinliyinə rəğmən, fevral ayının ikinci yarısında Qarabağa qoşun hissələri göndərmək məcburiyyətində qaldı. Azərbaycan Ordusu Zəngəzurda və Qazağın dağlıq hissəsində erməni hücumlarının qarşısını aldı və bəzi yerlərdə onu xeyli geri çəkilməyə məcbur etdi.

Elə bu vaxt 1920-ci ilin martında - Novruz bayramı günlərində ermənilər gecə vaxtı qəflətən Xankəndi qarnizonuna hücum edib, 16 ordu zabitini və xeyli əsgəri şəhid etdilər. Qarnizon rəisi General Kazım Mirzə Qacarın başçılığı ilə kiçik çaşqınlıqdan sonra özünə gəlmiş ordu zabitləri tezliklə müdafiəni təşkil edib, erməniləri Xankəndindən kənara atdılar. Lakin düşmən Əsgəran qalasını ələ keçirərək, Xankəndində olan Qarabağ süvari alayı, Cavanşir piyada alayı və artilleriya batareyasını mühasirəyə ala bildi. Şuşa üzərinə hücum Cavanşir alayının bir batalyonu tərəfindən dəf edildi. Elə bu zaman Şuşanın erməni məhəlləsində yanğın baş verdi (109, v.69-71; 110 a, v. 3,8,19; 110 b, v.24,32,42; 246, s.69).

Əsgəran qalasını geri almaq və Qarabağdakı erməni qiyamını yatırtmaq üçün Azərbaycan hökuməti General Həbib Səlimovun komandasında ordunun böyük bir hissəsini Qarabağa göndərdi. Əsgəran qalası tezliklə azad edilib, erməni hərbi dəstələrinin buradakı başçısı Dəli Qazar məhv edildi. Ermənilərin yığnaq mərkəzi olan Keşişkənd uğrunda qanlı döyüşlər Azərbaycan Ordusu hissələrinin qələbəsi ilə başa çatdı. Qarabağ qiyamı yatırıldı. Hərbi nazir General Mehmandarov əsgərlərə müraciətində demişdi: Qəhrəman əsgərlər, mən şəxsən Almaniya cəbhəsində bir çox müharibələrdə oldum, fəqət sizin qədər qəhrəman əsgərlərə nadirən təsadüf etdim. Siz mənim ümidlərimi qüvvətləndirdiniz. Siz qanınızla gənc Azərbaycan Ordusunun namusunu mühafizə etdiniz (317, s.173).

Ermənilərin hərbi təcavüzünə layiqli cavab verildiyi martın sonu aprelin əvvəllərində onlar yenidən Müttəfiqlərin Qafqazdakı nümayəndələrinə müraciət edərək, Azərbaycan Ordusunun günahsız dinc əhalini qırması barədə təbliğatlarını genişləndirdilər. 1920-ci il aprelin 5-də xarici işlər naziri Fətəli xan Xoyski Fransa, İngiltərə və İtaliya nümayəndələrinə göndərdiyi geniş teleqramda son iki ildə erməni siyasətini səciyyələndirib, bir daha onların diqqətini erməni hökumətinin imzaladığı sənədlərə hörmət etmədiyinə cəlb edərək göstərirdi: Azərbaycan hökuməti həmişə Zaqafqaziya xalqları arasında bütün problemlərin sülh yolu ilə həlli tərəfdarı olmuş və indi də onun tərəfdarıdır; əks tərəfdən sülhün pozulmasına yönəlmiş ciddi təhriklərin, Azərbaycan hökumətini fəal hərəkət etməyə məcbur edən şərtlərin olmasına baxmayaraq, o, özünün sülhsevər siyasətini dəfələrlə faktiki olaraq sübut etmişdir... Xalqın taleyi üçün məsuliyyət daşıyan Azərbaycan hökuməti özünün müqəddəs borcunu yerinə yetirməli, bir ovuc xəbis şəxs tərəfindən törədilmiş, dövlətin azadlığını, hətta varlığını belə təhdid edən bu üsyanın (Qarabağ qiyamının - N.N.) yatırılması üçün təcili tədbirlər görməli idi (38, 28.04.1992).

Döyüşlərin davam etdiyi şəraitdə aprelin 9-da Zaqafqaziya ölkələri nümayəndələrinin Tiflisdə növbəti danışıqları başladı. Erməni heyəti israrla Azərbaycan hərbi hissələrinin əməliyyatlarının dayandırılmasına nail olmağa çalışırdı (74, v. 12-13; 130, v. 12-13,35).

Qarabağ müharibəsi mövzusu Azərbaycan parlamentində də fəal müzakirə edilirdi. Müzakirələrin birində kommunist deputat Ə.H.Qarayev deyirdi:  Qarabağda zühur edən bu hadisə Müttəfiqlərin bizi boğmaq üçün sardığı zəncirlərdən bir halqadır. Bu halqanı Azərbaycan öz qüvvəsi ilə parçalaya bilməz. Buraxın Şərq millətlərini müdafiə edən Qızıl Ordu gəlsin, Qarabağ üsyanını yatırtsın, daha sonra Anadoluya getsin (324, s.107). Azərbaycan hökuməti Antanta ölkələrinin xəbərdarlıq notasına (əsas təhlükə şimaldan gəlir) əhəmiyyət verməyərək, Samur çayı istiqamətindəki olub-qalan qoşun hissələrini də ölkənin qərbinə yeritdi. Ermənistan tərəfi aprelin 26-da barışıq xahiş etdi. Lakin artıq iş-işdən keçmişdi. Qızıl Ordu Samur çayını keçib, sürətlə Bakı üzərinə irəliləyirdi...

Beləliklə, iki il ərzində daimi mübahisə və müharibə ilə müşayiət edilən Azərbaycan-Ermənistan münasibətlərinin bu mərhələsi başa çatdı, Qarabağ, Zəngəzur, Göyçə, Naxçıvan və başqa problemlər artıq başqa siyasi müstəvidə həll edilməli oldu.

## §3.

## CƏNUB – QƏRBİ QAFQAZ RESPUBLİKASI İLƏ ƏLAQƏLƏR VƏ NAXÇIVAN MƏSƏLƏSİ

1918-ci il martın 3-də imzalanmış Brest-Litovsk müqaviləsinə görə, Rusiya Qars, Ərdəhan və Batumu ("Elviyeyi-selase" üç sancaq) Osmanlı imperiyasına güzəştə getməli idi. Bu məsələ barədə müqavilənin IV maddəsində deyilirdi: Şərqi Anadolu əyalətlərinin dərhal boşaldılması və onların Türkiyəyə nizamlı şəkildə qaytarılması üçün Rusiya ondan asılı olan hər bir işi görəcəkdir. Ərdəhan, Qars və Batum mahalları da təxirəsalınmadan rus qoşunlarından təmizlənəcək. Rusiya bu mahallarda yeni dövlət-hüquq təşkilatı və beynəlxalq-hüquq münasibətlərinə müdaxilə etməyəcək, qonşu dövlətlərin, xüsusilə Türkiyənin razılığı ilə yeni quruluşunu müəyyən etməsini bu mahalların əhalisinin ixtiyarına buraxacaq (12, s.121; 298, s.652)

Bu müqavilədə rus əsgərinin bu üç mahalı dərhal boşaltması müddəti göstərilməmişdi. Lakin rus hərbi hissələri müqavilə imzalandıqdan əvvəl cəbhəni tərk edir, onların yerini erməni və gürcü hissələri tuturdu. Bu, Brest-Litovsk müqaviləcinə zidd olduğu üçün türk nümayəndə heyəti sovet heyətinə qəti etirazını bildirmişdi (284, s.17).

1918-ci ilin baharında keçirilmiş əməliyyatlar nəticəsində Osmanlı qoşunu aprelin 5-də Sarıqamışı, 14-də Batumu, 25-də isə Qarsı azad etdi (geniş məlumat üçün baxın: 298, s.488-494). Gürcülər belə olduğu təqdirdə almanlara şikayət etməyə və sonuncuları bu məsələdə türklərə təzyiqə təhrik etməyə başladılar. İyun ayının 20-də və 28-də gürcü hökuməti alman diplomatik nümayəndəliyinə müraciət edib, türklərin "Batumda etnik əsasda öz müqəddəratlarını müəyyən etmək istəyən acarları incitdiklərini" bildirir və bu hərəkətlərin qarşısını almaqda onlara kömək etmələrini xahiş edirdi (13,s.375-376). Bu tələblər qarşısında türklər Batumda xalq səsverməsi keçirdilər və əhalinin böyük əksəriyyəti Osmanlı imperiyası daxilində qalmaq istədiyini bildirdi (284, s.20-22).

İyulun 28-də gürcü hökumətinin məktubuna cavab olaraq Gürcüstandakı alman qoşunlarının komandanı fon Kress yazırdı ki, Batum plebisitinin qonşu dövlətlərin razılığı olmadan, beləliklə, Brest-Litovsk müqaviləsinin IV maddəsini pozaraq həyata keçirdikləri üçün, alman hökuməti bu referendumu protest edərək, gürcü demarşını qanuni hesab edir (13, s.377-378).

Almaniyanın təqdirini əldə etmiş gürcü hökuməti Osmanlı Ordusunun komandanlığına Batum plebisitinin keçirilməsi qaydasına öz etirazını bildirdi. Gürcü hökumətinin notasında plebisitin keçirilməsində yol verilmiş pozuntular qeyd olunurdu: referendum şəhər mühasirə vəziyyətində olduğu şəraitdə keçirilmişdir; hazırlıq işləri pis aparılmış, referendum gözlənilmədən keçirilmiş, yalnız iki dildə aparılmış, gürcülərin ondan xəbəri belə olmamışdır; referendum vaxtı Batum əhalisinin böyük hissəsi şəhərdən kənarda imiş; səsvermə gizli olmamış, vətəndaşların çoxuna səs vermək imkanı verilməmiş, türklər təzyiq götərmiş, hətta seçiciləri qorxutmuş; müvəqqəti sakinlərə, məsələn, iranlılara səs vermək ixtiyarı verilmiş, bülletenlər milliyyətlər üzrə verilmiş, ona görə də seçicilərin azadlığı məhdudlaşdırılmışdır. Qeyd edilən bu səbəblərə görə, gürcü hökuməti Batum referendumunu Brest-Litovsk müqaviləsinin mahiyyətinə zidd hesab edir və onu tanımadığını bildirirdi (13, s.370-371).

Ordu komandanı Əsəd paşa gürcü hökumətinin xarici işlər nazirinə yazdığı cavab məktubunda gürcülərin iradlarının əsassız olduğunu göstərir, gürcü hökumətinin qəbul etmədiyi Brest-Litovsk müqaviləsinə əsaslanmalarını məntiqə uyğun hesab etmədiyini bildirib, deyilən bütün iradların faktlara uyğun gəlmədiyini izah edir, bununla protesti ləğv olunmuş və etibarsız saydığını xəbər verirdi (13,s.372-374). Bu notadan sonra Osmanlı imperiyasının nümayəndələri bu məsələni bir daha müzakirə etməkdən imtina etdilər.

Batum, eləcə də Qars və Ərdəhan məsələləri Osmanlı imperiyasının müharibədə məğlub olması və oktyabrın 30-da Mudros barışığını imzalamasından sonra yenidən aktuallaşdı. Mudros barışığının I-ci maddəsinə görə, Osmanlı qüvvələri İranın şimalından və Cənubi Qafqazdan 1914-cü il hüdudlarına qədər geri çəkilməli idi. 24-cü maddədə isə göstərilirdi ki, Şərqi Anadoluda ermənilərin məskun olduğu altı vilayətdə qarışıqlıq yarandığı təqdirdə Müttəfiqlər bu vilayətlərin hər hansı birini işğal edə bilərdilər (298, s.576).

Yeni yaranmış İzzət paşa hökuməti hələ Mudros barışığı imzalanmamış qoşunların tələsik Qafqazdan geri çəkilməsi haqqında əmr verdi. Noyabr ayında türk ordusunun heç olmasa qışı Elviyeyi-selasedə (üç sancaq) keçirə bilməsi haqqında Osmanlı hökumətinin xahişini rədd edərək, Müttəfiqlər bu bölgələrin boşaldılmasını əmr etdilər. Bu əmrə uyğun olaraq IX Ordu komandanına noyabrın 23-də 1914-cü il sərhədlərinə geri çəkilmək tapşırıldı.

Mudros barışığına uyğun olaraq Osmanlı Ordusunun 1914-cü il hüdudlarına qədər geri çəkilməsi bu böyük bölgədə yaşayan türk və müsəlman əhalini öz talelərinin ixtiyarına buraxmaq demək idi. Daha öncə rus, gürcü, erməni qətliamlarını və zülmlərini görmüş yerli əhali öz azadlıqlarını təkrar əldən verməmək üçün fəaliyyətə başladı. Axısqa,

Axalkələk, Gümrü, İğdır və Naxçıvan mahallarının yerli əhalisi IX Ordu komandanı Yaqub Şövqi paşaya göndərdikləri müraciətdə xahiş edirdi:

Osmanlı hökuməti ərazimizdən əsgərləri geri çəkməsin;

2. və yaxud əsgərləri geri çəkmək zərurəti varsa, islam əhalini mühafizə üçün bir miqdari - kafi mühafiz əsgər buraxsın;

3.və yaxud qəzamıza gələcək xristian əhalinin bizi məhv və ifşa etməməsinin və xristian əsgərlərinin də gəlməməsini və sülhi-ümuminin nəhayətinə qədər bizi kəndi halımıza və müstəqil buraxaraq, gürcü və ya erməni hökumətlərinin də bizi şimdilik təhti-əmr və əsarətlərinə almamalarının təmin edilməsi!" (283, s.238).

Yerli əhalinin müraciətini alan Yaqub Şövqi paşa dərhal hərbi nazirliklə əlaqəyə girib, "bizim əsgər çəkilincə, xristianların gəlib onları məhvi-pərişan edəcəklərindən qorxurlar və bu düşüncədə də haqlıdırlar əlavəsi ilə əhalinin müraciətini İstanbula göndərdi və əmr gözlədiyini bildirdi. Hərbi Nazirlikdən alınan əmr təskinedici deyildi: Müttəfiqlərimizlə birlikdə, təəssüf ki, məğlub çıxdığımız və odur ki, barışığa uyğun olaraq Qafqazı altı ay içərisində tamamilə tərk edəcəyimiz və bölgədə bulunan türk-islam əhalinin də bir növ başının çarəsinə baxması və hətta daha iləri gedərək, ana vətəni güc durumda buraxacaq hərəkətlərdən qaçınmaları tələb edilirdi (283, s.238-239.).

Axısqa əhalisi öz mahallarını qorumağa, buraya gürcüləri buraxmamağa qərar verdi. Öz taleyinə buraxılmış bölgə əhalisinin öz hökumətini yaratmaqdan başqa yolu yox idi. Belə bir vəziyyətdə 1918-ci ilin oktyabrın 29-da Axısqa hökuməti-müvəqqətisi quruldu.

Hökumətin başçısı Ömər Faiq Nemanzadə seçildi. Hökumətin qurulduğu gün Ömər Faiq Osmanlı Ordusunun burada yerləşmiş 3-cü fırka (diviziya) komandanı Xalid bəyə müraciət edərək, hökumətin yaranması məqsədlərini açıqlayıb, bir sıra xahişlər etdi: Bölgədə bulunan 3-cü fırka mümkünsə əsgərlərini geri çəkməsin; 2. Məcburən Osmanlı hökumətindən qoparıldığımız təqdirdə, qurulan hökumətin davamlılığının təmin edilməsi və bunun üçün də Yaqub Şövqi paşanın yardımlarını əskik etməməsi üçün Xalid bəyin vasitəçi olması. Lakin 9-cu ordunun komandanının kömək xahişlərinə rədd cavabı qəti idi: "Əgər bu mümkün olsa idi, onun (Ömər Faiqin - N.N. ) xahişlərinə biz meydan verməzdik. Fəqət Osmanlı hökumətinin vəziyyət və siyasəti - hazirəsi məlum olan məntəqələri kamilən əsgərlərimizdən boşaltmağa məcburiyyət göstərməkdədir".(284, s.38-39).

3-cü diviziyanın komandanlığı Axısqa və ətrafını boşaltmağa çox da tələsmirdi. Diviziyanın komandanı yerli əhaliyə lazım olan dəstəyi təmin etdikdən sonra çəkilmək niyyətində idi.

Bu arada gürcülər də öz növbəsində Osmanlı əsgərinin bu bölgələri tərk etməsini, səbirsizliklə Axısqa və Axalkələyin tutulmasını gözləyirdilər. Bu məqsədlə General Makoyevi Axısqa və Axalkələk qarnizonunun komandanı təyin etmişdilər. Makoyev ilk əvvəl xalqa xoş görünmək üçün müsəlman əhalidən əsgər alınmayacağını, bu vaxta qədər qüvvədə olan qanunların işləyəcəyini, gürcü əsgərinin buraya yalnız ictimai asayişi qorumaq üçün girəcəyini, özünün də "xalqa hüzur sədaqət gətirəcəyini vəd etdi. Bu mövzuda gürcü qəzetlərində də yazılar çıxdı"(284, s.40).

3-cü diviziya komandanı gec-tez bölgəni tərk etmək lüzumu qarşısında, yerli əhalinin yardımsız və müdafiəsiz qalmaması üçün Yaqub Şövqi paşa ilə: gizlincə anlaşaraq, 500-ə qədər əsgər və onlara çatacaq qədər zabit, bir milis alayının yaradılması üçün başqa tədbirləri gördü. Mühəndis Osman Sərvər Atabəyovun (Atabəyin) başçılığı ilə yaradılan bu milis alayının ixtiyarına kifayət qədər top, pulemyot və güllə-mərmi də verildi (284, s.42-43). Beləcə, Axısqa hökuməti labüd olan gürcü işğal və hücumlarına qarşı tədbirlərini gördü.

Osmanlı Ordusunun Mudros şərtlərinə uyğun olaraq Naxçıvan, Şərur, Eçmiədzin, Sürməli və ətrafını tərk etməsi zərurəti qarşısında bu bölgənin əhalisi də öz təhlükəsizliyini təmin etmək üçün hərəkət etmək məcburiyyətində qaldı. Keçmiş İrəvan quberniyasının bu mahalları İrəvandan qaçmış əhalinin nümayəndələri ilə birlikdə 1918-ci il noyabrın 3-də Qəmərli qəsəbəsində məclis qurub, mövcud vəziyyəti geniş müzakirə etdikdən sonra Araz Türk hökuməti adlı müvəqqəti təşkilat yaratdılar.

Araz hökumətinin yaranması haqqında bəyannamədə deyilirdi: Biz Araz kənarı və civarında bulunan müttəhidən bir milyon qədər islam camaatı kəndi hüququmuzu müdafiə və mühafizə üçün Araz Türk Hökuməti namında bir təşkilat yapıb və bu təşkilatın məğərri-hökuməti (hökumətin yerləşdiyi yer - N.N.) İğdır qəsəbəsi təyin olundu. Və sair nəvahidə (nahiyələrdə - N.N.) şöbələr açılıb, camaat və millətimizin hüququnu mühafizə və müdafiə etməklə bərabər, heç bir millətin və dövlətin hüququna təcavüzümüz olmayacaqdır. Lakin başqaları bizim hüququmuza təcavüz etdiyi təqdirdə ümumi səfərbərlik ilə silaha sarılıb, malımız, canımız və axirətçi bir qətrə qanımıza qədər kəndi hüququmuzu gözləmək səlahiyyəti dəxi (də - N. N.) hökuməti-məzburəyə (göstərilən, deyilən hökumətə - N.N.) verildi və bu xüsusda bacarıqlı və dəyanətli bir hökumət təşkil etdilər ki, hər nə həvf ilə, hansı əsbab (səbəblər - N. N.) ilə olursa, bu ufaq millət və camaatın hüququnu müdafiə və mühafizə eyləsin (283, s.239).

Bəyannamədə sonra hökumətin tərkibi elan edilirdi. Hökumətin başçısı Əmir bəy Əmirzadə (Əmirov) olmaqla, İbrahim bəy Cahangiroğlu hərbi nazir, Qəmbərəli bəy Bənənyari maliyyə naziri, Bağır Rzazadə mülkiyyə naziri, Məmməd Bəyzadə ədliyyə naziri, Həsən ağa Səfazadə xarici işlər naziri təyin edir, şeyxülislamlığa Mirzə Hüseyn Mirzə

Həsənzadə, müftiliyə Xocaəkit Əfəndi gətirilir, General Əliəşrəf bəy də fəxri üzv kimi hökumətin tərkibinə daxil edilirdi. Araz hökumətinin fəaliyyətində yüzbaşı Xəlil bəy, Cəfərqulu xan, Kəlbəli xan böyük rol oynadılar (241, s.39-45).

Hökumət qurulandan sonra hərbi hissələrin yaranması işinə girişildi. Bu barədə İbrahim Cahangiroğlu xatiratında geniş məlumat verir: "Dərhal işə başladıq. Nerədə alay, tabur və bölük komandanı vardısa Qəmərliyə istədik. İyirmiyə qədər tabur təşkil etmişdik. Türk ordusu orada bulunduğu zaman bu təşkilatı yapıblarmış. Hər tabur, iki yuz əllidən beş yüzə qədər var idi. Bunlar miyanında (yanında - N. N.) çox insanlar vardı ki, isimləri dəftərə qeyd olunmamışdı. Bu əsgərlərdən dörd taburu Naxçıvanda idi... Üç tabur da Şərurda, Dərələyəzdə idi. O biri taburlar da Vedibasar, Zəngibasar, Qəmərli, Başkəndi kariyəsində (ətrafında - N:) idi (283, s.241).

...Bundan başqa Araz hökuməti buranı tərk etməkdə olan IX ordu komandanlığından iki batareya top, lazım olan qədər pulemyot, onlar üçün güllə, Könüllü zabit, hərbi həkim, əsgərlər üçün geyim və ərzaq istədi. Bu cür təkrar müraciətlər nəticəsində Araz hökuməti əhalini müdafiə etmək üçün lazım olan silah, sursat, zabit və vəsait təmin edə bildi. O cümlədən 5 zabit və 300 əsgər bu bölgədə qaldı (241, s.43).

Araz hökuməti bir yandan daxildə pozuculuq fəaliyyətlərinin, digər tərəfdən isə ermənilərin hücumlarının qarşısını almağa çalışırdı. Ermənilərin təzyiq, qarət və hücumları hökumətin qurulduğu vaxtdan başladı. Noyabrın 3-ü gecəsi Naxçıvanın 40 kilometr şərqində Sultanbəy və Sis kəndlərindəki ermənilər Osmanlı hissələrinin oradan çıxarılmasından dərhal sonra qonşularının 1300 qoyununu, 11 mal-qarasını və çobanla birlikdə 2 atını oğurladılar. Sonrakı gün 3 zabitin başçılığı ilə bir erməni bölüyü Arpa kəndinə, 20 əsgər isə hömkət kəndinə gəldi. Həmkolun müsəlman əhalisinə silahlarını təhvil verərək təslim olmalarını tələb etdilər. Qırxbulaq və Qurban kəndlərinin camaatı erməni hücumları qarşısında kəndlərini tərk edib qaçdılar, Haçik erməniləri oradakı anbarları zəbt etdilər. Üstəlik, müsəlmanları kəndlərinə dönməyə qoymayacaqlarını da bildirdilər.

"Yapom" adlı erməni zabiti Dərələyəz ətrafındakı Çölmərdan, Kiçikbəy, Qeysərxarabalı, Paşalı, Gümuşxana, Qarapınar, Çalıkəndi, Dəmirçi, Çıraqlı, Qayalı, Göyərçin, Dərinaxçalar kəndlərinə ultimatum göndərərək 5 gün ərzində silahları vermədikləri təqdirdə, zorla kəndlərini zəbt edəcəyini bildirdi. Noyabrın 4-də İrəvanın 16 kilometr cənubundakı Ağbaş üstündəki hərbi posta 8 adamlıq erməni dəstəsi hucum edib, müqavimətə rast gəldikdən sonra geriyə çəkildi. Noyabrın 6-da bir erməni təyyarəsi Böyük Vedi istiqamətində kəşfiyyat uçuşu edib geri qayıtdı. Noyabrın 7-də Ermənistanın daxilindəki müsəlman kəndlərində buğda və başqa ərzaq mallarının müsadirəsi haqda

xəbərlər yayıldı. Noyabrın 16-da Böyük Vedinin 25 kilometrliyindəki müsəlman kəndinə ermənilərin hücumu qeydə alınmışdı.

Yenə bu sıralarda ermənilər Dəmirçi və Dəhnə kəndləri üzərinə hücuma başladılar. Bir neçə gün davam edən atışmada şəxsən İbrahim Cahangirzadə və Araz hökumətinin başçısı Əmir Əmirzadə də iştirak etmiş, ermənilər Dəhnə bazarından geri oturdulmuşdular. Noyabrın 28-də Uluxanlının iki kilometr yarım cənub-qərbindəki təpələri tutan 100 nəfərlik erməni dəstəsi ilə bu təpələr üzərinə yeriyən xalq qoşunları arasında döyüş olmuş, ermənilər geri oturdulmuşdular. Ermənilər döyüşdə bir pulemyot itirdiklərinə baxmayaraq, səhəri günü artıq 600 nəfərlik bir qüvvə ilə yenidən hücuma keçmiş, lakin qarşıları alınmışdır. Səhərdən axşamadək seyrək top atəşi ilə xalq qoşunlarının tutduğu təpələri döymüşlər... (284, s.56-59). IX Ordunun komandanı Yaqub Şövqi paşa vəziyyəti gündəlik izləyərək, Osmanlı Hərbi Nazirliyinə məlumat verir, ermənilərin artan hücum hərəkətlərinə qarşı tədbir görmək üçün icazə istəyir, Müttəfiqlər tərəfindən buraya heç olmasa istintaq Komissiyası göndərilməsini təklif edirdi. Osmanlı Ordusunun komandanı yazırdı: “Tərk edəcəyimiz ərazidə maddi və mənəvi hər cür himayədən məhrum qalacaqlarını və erməni bıçaqları ilə rəhmsiz kəsiləcəklərini, daxili duyğu ilə hiss edən bu məzlum müsəlmanların yanıb-yaxılma və yardım istəmə fəryadlarına və pak təzahür olan aqibətlərinin təcəvvürünə on qatı qəlb belə təhəmmüldən acizdir” (284, s.60).

Axısqa və Naxçıvanda olduğu kimi Qars və ətrafında da yerli türk-müsəlman əhali milli təşkilatını qurub, Osmanlı Ordusu buranı tərk edənədək öz mühafizəsini təşkil etməyə çalışdı. Qarsda yerləşən IX Ordu komandanı Yaqub Şövqi paşa bölgəni və Qarsı da işğal edəcək ingilislərlə təmas qurmağa çalışmır və Qarsı təşkil ediləcək milli bir hökumətə təhvil verməyi daha uyğun görürdü. Axısqa və Araz hökumətlərində olduğu kimi Yaqub Şövqi paşanın yardımları ilə 1918-ci ilin noyabrın 5-də Qars və ətrafının yerli türk-müsəlman əhalisi Qars İslam Şurası adı ilə özünün “milli hökumətini” quraraq, idarəni Osmanlı dövlətindən rəsmən təhvil aldı.

Qars İslam Şurası Fəxrəddin bəy Piroğlunun başçılığı ilə təşkil edildi. Bu şura qurulduqdan dərhal sonra ətraf mahal və qəsəbələrə xəbər göndərərək, şuranın ilk toplantısının noyabrın 14-də olacağını bildirdi. Doqquz gün ərzində xəbər verilən Oltu, Ərdəhan, Kağızman və buralara bağlı qəsəbələrdən nümayəndələr gəlməyə başladı. Noyabrın 14-də toplanmış Birinci Qars qurultayında Fəxrəddin bəy Piroğlunun sədr olduğu 8 nəfərlik bir Müvəqqəti Heyət seçildi.

Bu heyət Kəpənəkçi Emin ağanın başçılığı altında Milli İslam Şurası Mərkəzi-Ümumisi adlı bir hökumət təşkil etdi. Qurulan yeni hökumət çəkilməkdə olan Osmanlı Ordusundan möhkəmlənmiş yerləri, hərbi binaları təhvil almaq,

ətraf qəsəbə və mahallarda Milli Şuranın şöbələrini yaratmaq üçün hazırlıq işlərinə başladı. Qars Milli İslam Şurasının sədri Kəpənəkçi Emin ağa, müavinliyinə isə Fəxrəddin bəy Piroğlu seçildi (284, s.65-66).

Qurultaydan sonra Milli Şura qəbul olunmuş qərarlara uyğun olaraq fəaliyyətə başladı. Qarsdan IX Ordu çəkilən vaxt ermənilərə qarşı müqavimət göstərə bilmək, daha öncə Qars əhalisindən toplanan silahları almaq və yeni silahlar əldə etmək üçün Fəxrəddin Piroğlu ordu komandanına müraciət etdi. Yaqub Şövqi paşa yalnız ruslardan qalma min ədəd berdanka tüfəngi verə biləcəyini deməsinə baxmayaraq, edilən müraciətlərə cavab olaraq Qars Milli Şurasına və bölgədə yaranmış milli təşkilatlara mümkün olan qədər yardım etdi. Daha sonra Qars Milli İslam Şurası noyabrın 30-da Qarsda böyük bir qurultay çağırmaq qərarına gəldi. Bu məqsədlə telefon və teleqrafla Batumdan Ordubada qədər yerlərə xəbər verib, nümayəndələrini Qarsa göndərmələrini təklif etdi (295, s.8).

Bu arada erməni hökuməti bölgədəki hadisələri yaxından izləməkdə və ondan narahat olmaqda idi. Bu məsələ barədə Ermənistan Xarici İşlər Nazirliyi noyabrın 21-də İrəvandakı Osmanlı siyasi və hərbi təmsilçisi marşal Məhmət Əli paşaya müraciət edib, “boşaldılacaq yerlərdə alayların təşkili və təlimlərin keçirildiyini, hərbi manevrlər və düşməncəsinə hazırlıq işlərinin görüldüyünü, bu vəziyyətin bölgəyə gedəcək qaçqınları həyəcanlandıracağını və bunların özlərini müdafiə üçün silahlanmağa məcbur olacaqlarını, bunun da bölgədə asayişi pozacağı üçün” yuxarıda göstərilən hazırlıqlara son qoyulmasını  tələb etdi.

Mehmet Əli paşa bölgədəki müsəlmanların durumunu bilmədiyi üçün eyni gün Yaqub Şövqi paşaya müraciət edərək, məlumat verməsini xahiş etdi. Eyni zamanda Ermənistan Xarici İşlər Nazirliyinə də erməni əhalinin başdan-başa silahlandığını, bundan dolayı boşaldılacaq bölgədəki müsəlman əhalinin də baş verəcək erməni təcavüzlərinə qarşı sırf özlərini müdafiə üçün, bəlkə də məcburi olaraq silah tədarük etmiş ola biləcəkləri cavabını verdi. Yaqub Şövqi paşa eyni gün İrəvandakı Osmanlı nümayəndəsinə cavab verdi: “Boşaldılacaq məntəqədəki müsəlman əhali tərəfindən yapıldığı Ermənistan Xariciyyə Nəzarəti tərəfindən bildirilmiş olan, təşkilat və təslihat (silahlar -N.N.) haqqında ordunun heç bir dəxli və təsiri yoxdur. Əhali nə yaparsa sərbəstdir. Sırf namus və həyatlarını mühafizə məqsədi ilə əhali tərəfindən yapılması mühtəməl olan təşəbbüsat bizə (yəni Osmanlı dövlətinə -N.N.) aid olmayacaqdır. Gələcək mühacirlərlə (yəni erməni qaçqınları ilə - N.N.) yerli islam əhalini qaynaşdıracaq tədbirlər alınmışdır. Ermənistan hökumətinin iyi niyyətimizdən şübhə etməsinə gərək yoxdur” (284, s.66-67).

Ermənilər bu məsələdə qabaqdan gəlmişlik edirdilər. Çünki Araz hökuməti ərazisində yerləşmiş 9-cu diviziyanın komandanı polkovnik Rüşdü bəy 26 noyabr tarixli teleqrafında Yaqub Şövqi paşaya “25 noyabr günü İrəvan şossesi ilə

622 erməni mühacirinin gəldiyini, gecəni Ağhəmzəlidə keçirdiklərini nə təcbit edilən kəndlərə yerləşdirildiklərini, yenə eyni gün Eçmiədzin şossesi ilə də 239 erməni mühacirinin gəlib, vəsiqələri mucibincə Cəfərəddin və Qurdqolu köylərinə iskan etdirilmək (yerləşdirilmək - N.N.) üzrə; məzkur köylərə sevq edildiklərini (göndərildiklərini -N. N.) bildirmişdi. Türkiyə tarixçisi Ə.Ə.Göydəmirin fikrinə görə, bölgənin yerli əhalisi Yaqub Şövqi paşanın bölgəyə erməni qaçqınlarını yerləşdirmə qərarına sırf Osmanlı dövlətinə duyduqları sayqıdan dolayı qarşı çıxmamışdı.Çünki Osmanlı Ordusu hələ çəkilməmişdi. Paşanın qərarına qarşı ediləcək hərəkət ona qarşı hörmətsizlik sayılacağı üçün lap əvvəldən susqun qalmağa üstünlük verilmişdi. Halbuki ermənilərin məqsədləri bölgəyə gələrək, müsəlmanlarla bir arada mehriban qonşuluq şəraitində yaşamaq deyildi. Onlar bu qaçqınları (çoxu da silahlı talançı idi) bölgəyə göndərməklə sonrakı qətliamlara zəmin hazırlayırdılar (284, s.68). Noyabr ayının ortalarında ingilislər Batum,Qars və Ərdəhanın boşaldılması məsələsində Osmanlı hökumətinə təzyiqlərini artırdı. Ümumi qərargahın rəisi IX Ordu komandanlığına ingilislər Elviyeyi-səlasenin də tərəfimizdən boşaldılmasını tələb edirlər deyib, yaxın vaxtlarda bu ərazini tərk etməyə hazır olmasını əmr edirdi. Yaqub Şövqi paşa bu məsələ barədə Müttəfiqlərin Qarsda araşdırma aparmadıqları üçün (yəni yerli əhalinin rəyini soruşmadıqları üçün -N. N.) Mudros barışığının pozulduğu düşüncəsində idi, Paşa ərazini boşaltmağın qarşısını almaq, heç olmasa ən azından Müttəfiqlərin araşdırma aparmasınadək təxirə salmaq məqsədi olduğunu hökumətə xəbər verdi. Onun dediyinə görə, nə gürcülər, nə də ermənilər bölgədə kontrolu ələ keçirmək hüququna malik deyildirlər. Bu baş verərsə, vilayəti bu anarşik ünsürlərdən birinə buraxmaq, minlərcə məsum adamın yox olmasına səbəb olacaqdı (284, s.69). Odur ki, Yaqub Şövqi paşa passiv müqavimət taktikası seçərək, bölgəni boşaltmağın muddətini gücü çatdığı qədər uzatmağa çalışdı.

1918-ci il noyabrın 30-da Qars İslam Şurasının dəvətini qəbul edərək Ordubad, Naxçıvan, Qəmərli, Sürməli (İğdır), Sərdarabad, Şərqi Şuragil, Axısqa və Axalkələk bölgələrindən 60 nümayəndə Qarsa toplandı.

Eyni gün başlanmış qurultaya sonrakı gün 10 nümayəndə əlavə oldu. Qurultayda çox əhəmiyyətli qərarlar qəbul edildi. Batumdan Ordubada və Ağrı dağından Azqura qədər xalqının əksəriyyəti türk və müsəlman olan yerlərdən Osmanlı Ordusu çəkildikdə idarə və yurdun müdafiəsi işlərinə səlahiyyətli mərkəzi Qars olmaq üzrə Milli Şura hökumətinin yaranması haqqında qərar qəbul edildi. Hökumət 12 adamdan ibarət idi: Qarslı Cahangiroğlu Həsən bəy, Piroğlu Fəxrəddin bəy, doktor Əsəd bəy, Hacı Abbasoğlu Kərbəlayi Məmməd bəy, Hacıoğlu Əhməd bəy, Molla Bilal bəy, Axundoğlu Bilal bəy, Əlibəyoğlu Məhmət bəy, Xalıcıoğlu Yusif bəy, Kəpənəkçi Emin ağa, Kağızmandan Əli Rza bəy, camdanlı tayfasının başçısı Məqsud Ağaoğlu Həsən ağa.

Hökumətin başçısı İbrahim bəy Cahangiroğlu, müavini isə Emin ağa Kəpənəkçi seçildi. Qurultay müxtəlif yollarla ələ keçirilmiş silah-sursat və yerli gönüllülər əsasında Milli Şura Ordusu adlı xalq qoşunlarının təşkili, onun Arpaçay və Araz çayları ətrafında ermənilərə, Kür boyu və Acarıstan cəbhəsində gürcülərə qarşı yerləşdirilməsi və Milli Şura hüdudlarını qoruması haqqında qərar qəbul etdi. Başqa bir qərara görə, qalib dövlətlərin və İngiltərənin tutumu nə olursa-olsun, Osmanlı dövləti ilə İslam xəlifəliyinə gönüldən bağlı qalmaq və türk bayrağından istifadə edərək, Türkiyə qanunlarına görə ədliyyə və idari işləri yürüdülməli idi. Bu qurultayda həmçinin Araz Türk hökuməti və Axısqa Müvəqqəti hökumətinin Milli Şura hökumətinə birləşməsi də qərara alındı. (284, s.69-70).

Bununla Batum, Qars və Naxçıvana qədər geniş bir ərazidəki türk və müsəlman əhali arasında böyük bir birlik təmin edilirdi.

Milli Şura Hökuməti qurultayın qərarlarının yerinə yetirilməsi istiqamətində böyük fəaliyyətə başladı. Hökumət İbrahim bəy Cahangiroğluna Milli Şuranın seçmələrini yaratmaq səlahiyyətləri verdi. Axısqa və Naxçıvanda olan yerli hökumətlərə əlavə olaraq çox tezliklə Oltu, Sarıqamış, Çıldır, Ərdəhan və başqa yerlərdə Milli Şuranın şöbələri açıldı.

Bu arada xarici dövlətlərin diqqətini cəlb etmək üçün yeni yaranan dövlət qurumunu tanıtma fəaliyyətləri də başlandı. Bu məqsədlə İstanbulda Müttəfiq dövlətlər və digər Avropa dövlətləri tərəfindən Milli Şura hökumətini tanıtmaq üçün hökumət tərəfindən iki nəfər nümayəndə seçildi. Xarici dövlətlərə Milli Şura hökumətini tanımaq barədə müraciətlər edildi. Yapon imperatoruna 1918-ci il dekabrın 8-də Kəpənəkçi Emin ağanın imzası ilə göndərilən teleqrafda deyilirdi: ...Asiya asiyalılarındır davasının ələmdarı sifəti ilə sizə Qars İslam Şurası hökumətinin mövcudiyyəti-siyasiyyəsinin tanınmasında... köməyinizə nail olmağı bir asiyalı olaraq rica edəriz (292a, s.150).

Milli Şura şöbəsi açmaq məqsədi ilə hökumətin başçısı İbrahimbəy Cahangiroğlu, onun müavini Kəpənəkçi Emin ağa və hökumətin ümumi katibi qurultaydan az sonra Naxçıvana gəldilər. Burada Araz Türk Hökumətinin başçısı ilə birlikdə həm mülki, həm də hərbi təşkilatlanma işini yenidən başladılar. Heyət Osmanlı Ordusunun bu bölgəni tərk edəcəyi perspektivi qarşısında panikaya düşmüş əhali qarşısında ilhamverici çıxışlar edib, onları müqavimətə dəvət etdi. Bu arada erməni hökumətinin maliyyələşdirdiyi və xalq arasına göndərdiyi təbliğatçılara qarşı da mübarizə aparmalı oldular.

Bu təbliğatçılar ermənilərlə müharibə etməyək, buralar Müttəfiqlər tərəfindən ermənilərə verilmiş, müharibə başlasa, boş yerdən qırılacağıq məntiqi ilə camaat arasında pessimist ruh yaradırdılar. Bu təbliğatçıların fəaliyyətinin

nəticəsi olaraq, Uluxanlı camaatı ermənilləri dəvət etmiş, onlar da 300 süvari və dörd-beş yüz piyada əsgər ilə Uluxanlını işğal etmişdilər (284, s.73).

Naxçıvan və ətrafında mənfi təbliğatın təsirini xalqın üzərindən silmək, onlara azadlıq və istiqlal ruhu aşılamaq və onları ermənilərə qarşı müqavimətə hazır vəziyyətə gətirmək üçün hökumətin başçıları inadla öz fəaliyyətlərini davam edirdilər. Bu məqsədlə Dəvəçi, Sədərək, Dəhnə və Noraşen kimi yaşayış məntəqələrini dolaşdılar. Bu fəaliyyətlər nəticəsində Dəhnə boğazında ermənilərin növbəti hücumunun qarşısı alındı. Lakin erməni təbliğatından başqa xalqın əlində kifayət qədər silahın olmaması, hərbi baxımdan əhalinin təcrübəsiz olması onların müqavimət gücünü zəiflədirdi. Bundan istifadə edən erməni hökuməti hərbi hissələrinə cənub istiqamətində irəliləmək əmri verdi. Dekabr ayında Dərələyəz bölgəsindəki bir çox azərbaycanlı (türk) kəndlərinin əhalisi qorxudulub, buraya on beş min erməni yerləşdirildi. Daha sonra ermənilər Dəvəçi qəsəbəsinə qədər İrəvan-Culfa dəmiryolu boyu irəlilədilər.

Onlar Şərur istiqamətində hücumlara hazırlaşdıqları vaxt Borçalıda Gürcüstanla müharibə başladı. Ermənistanın hərbi naziri İrəvanın cənubundakı erməni qoşun hissələrinə hücum hazırlıqlarını dayandırıb, Ermənistanın şimalına hərəkət etmək əmri verdi. Bu, Naxçıvan bölgəsi camaatını bir müddət erməni hücumlarından xilas etmiş oldu (284, s.74).

Gürcü hökuməti də Batumu və ətrafını ələ keçirmək üçün çalışırdı. Bu məqsədlə Ozurgetdə legionlar yaradıb, əsgərlərə təlim keçir, siyasi təşəbbüslər bir nəticə verməsə, şəhər üzərinə hücuma keçməyi planlaşdırırdılar. Eyni zamanda şəhərdə gizli bir təşkilat qurub, çevriliş edərək idarəni ələ keçirmək istiqamətində də fəaliyyət göstərirdilər. Digər tərəfdən, gürcülər Osmanlı dövlətinin Tiflisdəki nümayəndəsinə təzyiq göstərir, onun vasitəsi ilə IX Osmanlı Ordusunu fəaliyyətsizliyə məcbur etmək istəyirdilər. Bütün bu siyasi-diplomatik təzyiqlər nəticə vermədikdə, gürcü legionları dekabrın 7-də Ozurgetdən Batum üzərinə hərəkət etdilər. Lakin Osmanlı əsgərləri ilə döyüşdə ağır məğlub olub, geri çəkildilər. Bu arada ingilislər Batuma kiçik bir donanma göndərdilər, dekabrın 24-də isə yeddi minlik əsgər çıxardaraq, Batumun hərbi və mülki idarəsini öz nəzarətlərinə aldılar (284, s.77-78).

Bu, gürcülərin planlarını bir müddət pozdu. Dekabrın 4-də Osmanlı hissələri Axısqanı tərk edib, Ərdəhan istiqamətinə geri çəkildilər. Eyni gün gürcülər 3 tabur piyada, 6 top və 12 pulemyotdan ibarət olan qüvvə ilə Axısqanı işğal etdilər. Gürcülər yerli əhalinin heç bir hüququnu tanımadıqlarını elan etdilər. Eyni tarixdə Axalkələyin Osmanlı hissələri tərəfindən tərk edilməsindən sonra buranı da dərhal ermənilər işğal etdilər. Milli Şura hökumətinin öz torpaqları elan etdiyi əraziləri böyük bir xaos təhdid etməyə başladı.

1919-cu ilin yanvarın 6-da ingilis Generalı Forestyer Uolkerin Gümrüdə Ermənistanın xarici işlər naziri ilə görüşü oldu. Erməni naziri hökumətinin 1914-cü il sərhədlərinə qədər irəliləmək niyyətində olduğunu bildirmiş, ingilis generalı isə bu təklifi rədd etmişdi. Onun planına görə, Qarsı ingilis əsgəri öz nəzarətinə almalı, mülki idarəni isə ermənilər təhvil almalı idilər. Bu, Ermənistana verilmiş əhəmiyyətli bir güzəşt idi. Ertəsi gün General Uolker Qarsa gəlib, Yaqub Şövqi paşaya ingilis hökumətinin tələblərini çatdırdı: Qars vilayətinin hərbi və mülki idarəsi ingilislərin nəzarəti altına keçir, ingilis hərbi valisi 200 erməni əsgəri və kifayət qədər mülki məmurla yanvarın 27-də Qarsa gəlir; Osmanlı Ordusunun komandanlığı əhalinin sərbəst gəliş-gedişinə mane olmamalıdır; erməni məmurları Gümrüdən Qarsa qədər bütün dəmir yolu və teleqraf xətlərini nəzarəti altına alacaq; türklər yanvarın 25-ə qədər Qarsı tərk edib, qurtarmalıdırlar; əski rus hökumətinin və mülki əhalinin mal və mülklərinə toxunulmayacaq; türk Ordusu ancaq bir aylıq taxıl ehtiyatı götürə bilər və s. Bu tələblərini bildirdikdən sonra General Uolker Gümrüyə qayıtdı və Qars hərbi valiliyində ermənilərin rolu barədə bir memorandum elan etdi.

Bu sənəd əvvəlki tələblərdən daha sərt şərtlərə malik idi və Qars vilayətinin idarəsi işində ermənilərə daha böyük səlahiyyətlər tanıyırdı. General Uolker ingilis zabiti Temperleyi hərbi vali (qubernator) təyin etdi, erməni hökuməti isə Stepan Korqanyan (Korqanov) adlı birisini mülki vali kimi ingilislərə təqdim etdi (284, s.82-85).

General Uolgerin çəkdiyi plana uyğun olaraq yanvar ayının 13-də təyin olunmuş hərbi vali Temperleyin başçılığı ilə 200 nəfərlik ingilis əsgəri və ermənilərdən təşkil edilmiş hökumət heyəti Qarsa gəldi. İngilislərin İstanbuldakı qərargahının rəisi General Biç də onlarla idi.

İngilislərin Qarsa gələcəkləri xəbəri iki gün əvvəl şəhərə çatmışdı. Milli Şura hökuməti ətraf qəsəbələrə xəbər göndərərək 2000 adamı Qarsa yığdı. İngilis Generalı Biç və hərbi vali Temperley Milli Şura hökumətinin üzvlərini çağırıb, “ingilis hökuməti adından erməni Korqanovun Qars valisi təyin edildiyini, ona itaətin vacib olduğunu” bildirdilər. Milli Şuranın üzvləri müsəlmanlardan ibarət olan Qars vilayətinə bir erməni vali təyin etmək və bu surətlə göz görə-görə müsəlmanları ermənilərə qətl etdirmənin ingilis tarixinə yaraşmadığını və erməniləri əsla qəbul etməyərək, bu xüsusda həyatlarını qurban edəcəklərini və Qars tarixini müsəlman qanı ilə yazdıraraq namusları ilə öləcəklərini bildirdilər.

Bundan başqa əvvəlcədən hazırladığı sənədi Milli Şura ingilislərə təqdim etmişdi. Bu sənəddə çarizmin dağılmasından sonra üç sancaqda (Elviyeyi-selase) əhalinin əksəriyyətinin iradəsinə uyğun olaraq bir hökumətin qurulduğu, bu hökumətin İngiltərə dövlətinin komandir və əsgərlərinə hörmətlə yanaşdığı, erməni düşmənlərini

Arpaçaydan bu yana buraxmayacaqları, ermənilərin bu məmləkətdən çıxıb getdikləri vaxt bir daha geri dönməmək şərtilə türk kəndlərini yandırdıqları və kəndliləri məhv etdiklərini nəzərə alaraq erməniləri bir daha buraya buraxmamaq xahişi əks olunmuşdu.

Təqdim olunan müraciətə əlavə olaraq Milli Şra üzvlərindən biri demişdi: Əldəki rəsmi rus statistikası ilə bütün qeydlərə və bugünkü nüfuz vəziyyətinə görə əhalinin 85-i müsəlmandır. Geridə qalan 15-i qeyri-müsəlmandır. Odur ki, bu torpaqlarda 15 adam səksən beş adamı idarə edə bilməz. Belə bir azlıq bu qədər qahir ( tam, öldürücü - N. N.) əksəriyyətə hakim ola bilməz. Bu xüsus, Müttəfiq dövlətlərin rəsmən qəbul etdiyi və bütün dünyanın mənimsədiyi Vilson prinsiplərinə, insanlıq əsaslarına da qəti olaraq ziddir (284,s.87-88).

Milli Şura hökumətinin müqavimətini görən general Biç bir neçə gün sonra danışıqların növbəti mərhələsində heç olmasa bir neçə erməni məmurunun burada qalmasına nail olmağa çalışmış, bu da mümkün olmadıqda, erməni heyətini geriyə göndərmiş və Milli Şura hökumətini tanıdığını bildirmişdi. Bir neçə gün sonra general Biç özü də Gümrüyə geri dönmüşdü.

İngilislərin təzyiqinə tab gətirə bilmiş Milli Şura hökuməti yanvar ayının 17-də (1919) Qarsa yerlərdən gəlmiş 131 nümayəndədən ibarət yeni qurultay çağırdı. Qurultay mərkəzi Qars olmaq üzrə Cənubi-Qərbi Qafqaz hökuməti - Müvəqqəteyi - Milliyyəsini qurdu və on səkkiz maddədən ibarət təşkilati-əsasiyə (konstitusiya, ya konstitusiya aktı) qəbul etdi.

Cənubi-Qərbi Müvəqqəti Milli hökumətinə on nəfər daxil oldu. İbrahim Cahangiroğlu yenidən hökumətin başçısı seçildi. Konstitusiya aşağıdakı müddəalardan ibarət idi: hökumət Cənub-Qərbi Qafqaz adını daşıyacaq; hökumətin üçrəngli (ağ, yaşıl və qara) ay-ulduzlu bayrağı qəbul edilir; Cənub-Qərbi Qafqaz hüdudları daxilində rəsmi dil türkcədir; Məclisi-məbusana (parlamentə) on min əhalidən bir millət vəkili seçiləcək; 18 yaşına çatmış hər vətəndaş seçkidə iştirak edə biləcək; hər vilayət və qəzada Milli Şuranın şöbələri açılacaq, onların fəaliyyəti üçün hər cür şərait yaradılacaq; türk millət və hökumətini narahat edən hər cür fəaliyyətdən qaçınacaq; ümumi hərbi şöbə və təşkilatlar türk dövlətinin qəbul etdiyi prinsiplər çərçivəcində tətbiq ediləcək, türk dövləti ilə əlaqələrin təmini üçün daimi bir heyət Türkiyədə olacaq; mülkiyyət təşkilatları 8-ci maddədəki prinsipə uyğun olaraq işləyəcək; qonşu hökumətlərlə daimi dost və normal münasibətlər qurmaq Cənub – Qərbi Qafqaz hökuməti üçün düstur olacaq, parlament seçkilərindən sonra bu xüsusda xüsusi qanun çıxarılacaq; Avropa hökumətləri üç sancağı alıb başqa dövlətə vermək qərarına gələrsə, hökumət Türkiyədən ayrılmamağı qətiyyətlə qəbul edir; azlıqların hüquqları qorunacaq; müsəlmanlar arasında olan dini

ayrılıqlara hörmət ediləcək və dini ayinlərin gələcəkdə eyniləşdirilməsi istiqamətində iş aparılacaq; seçkilər demokratik qaydada, türkün şan və şərəfinə yaraşacaq surətdə keçiriləcək; valilər və hərbi komandanların təyini və vəzifədən alınması məclisin qərarı ilə olacaq; Milli Şura hökuməti parlament seçkilərindən sonra bəzi qanun maddələrinin dəyişməsinə səlahiyyətdar olacaq; millət vəkillərinin yaşları 25-dən aşağı olmayacaq; bu qanunun icrası Milli Şuranın sədri İbrahim Cahangirzadəyə tapşırılır (292a, s.157-158).

İbrahim Cahangiroğlunum (Cahangirzadənin) başçılığı ilə yeni təşkil edilən hökumət dərhal yeni qurulan dövlətin problemlərini həll etməyə girişdi. Yerlərdə və mərkəzdə yeni təyinatlar oldu, Nazirlər kabinəsi (heyəti-vükəla) parlament seçkiləri haqqında qərar qəbul etdi və martın əvvəlinə qədər seçkilərin tamamlanması haqqında yerlərə tapşırıqlar verdi. Ordu quruculuğu işi cürətlə davam edirdi, ordunun şəxsi heyəti az vaxtda 8 minə çatdı. İngilis hərbi valisi Temperley yeni yaradılmış Cənub-Qərbi Qafqaz hökumətini tanıdığını elan etdi (284, s.93).

Cənub-Qərbi Qafqaz hökuməti qurulduğu vaxt məşhur Vilson prinsiplərinə istinad edilmişdi. Ona görə də prezident Vilsona, İngiltərə kralına. Fransa prezidentinə, Paris sülh konfransına, Aralıq dənizindəki Müttəfiqlər komandanlığına, Osmanlı paytaxtındakı ABŞ, İngiltərə və Fransa Komissarılarına tanınmaq haqqında müraciətlər edildi. Tiflis, Batum və Ərzruma diplomatik nümayəndələr göndərildi. Daha əvvəl İstanbula göndərilmiş heyət öz işini davam etdirməkdə idi. Onlar İstanbuldakı Amerika, İtaliya və İngiltərə nümayəndələrinə Cənub-Qərbi Qafqaz Respublikasının hüdudları, əhalinin milli tərkibi haqqında statistik materialları və respublikanın yaranması zərurəti, təyini-müqəddərat hüququndan yerli əhalinin də yararlanmaq haqqının olması və respublika nümayəndələrinin Paris sülh konfransında iştirakına yardım etmələri xahişləri haqqında bəyannaməni Osmanlı hökumətinə də vermişdi. Osman Sərvər bəyin (Atabəyov) başçılığı ilə yeddi nəfərlik nümayəndə heyəti də Parisə yola düşmək üçün hazırlanmışdı (284, s. 119-125).

Cənub-Qərbi Qafqaz hökumətinin yaranmasına qonşu Ermənistan və Gürcüstan dərhal mənfi münasibətlərini bildirdilər. Ermənistanın xarici işlər naziri Tiqranyan vali təyin edilmiş Korqanovun və başqa erməni məmurlarının geri qaytarılmaları haqqında general Uolkerə protestini bildirmiş, ingilislərin Qarsda müsəlmanlara göstərdikləri yumşaqlıqdan da Avropa dövlətlərinə şikayət etmişdi. Gürcü hökuməti də Qafqazda yaranan bu yeni dövlətə düşmən münasibətinə görə ermənilərlə birləşdi. Hökumət başçısı Jordaniya “gürcü torpaqları üzərində düşmənlərə yardım etdiyi və buna görə də gürcü Ordusunun əski vəziyyəti düzəltmək məcburiyyətində qaldığı üçün ingilis siyasətçini tənqid etdi.

Gürcü mətbuatı da Gürcüstanın Cənub-Qərbi Qafqazın şimal bölgələrinə, xüsusilə Ərdəhan mahalına aid iddiaları ilə bağlı materiallar dərc edirdi (284, s.99).

Yanvar ayının 3-də Azərbaycanın Tiflisdəki diplomatik nümayəndəsi Cənub-Qərbi Qafqaz hökumətinin Bakıya nümayəndə heyəti göndərdiyi haqqında məlumat verdi. Onun fikrincə, münasib şəraitdən istifadə edərək, qonşuların işğal hərəkətlərinin qarşısını almaq üçün buraya general-qubernator göndərmək lazımdır. Eyni zamanda o, bu məsələnin sülh konfransında həllinədək Azərbaycanın bir hissəsi kimi Müttəfiqlər komandanlığına buranı tutmaq haqqında müraciət etməyi təklif etdi (121, v.2). Yanvarın 8-də Azərbaycanın xarici işlər naziri əhalisi başdan-başa müsəlmanlardan ibarət olan və türk qoşunlarının çəkilməsindən sonra yenicə yaranmış Cənub-Qərbi Qafqaz respublikasında sülh konfransına qədər status-kvonun saxlanması zərurəti haqqında Bakıdakı Müttəfiq qoşunlarının komandanlığına nota verdi (125, v. 1-1a).

Həmin nota aidiyyəti üzrə general Uolkerə göndərildi (121, v.8; 122, v.14). Azərbaycan hökuməti başqa bir notasında Cənub-Qərbi Qafqaz hökumətinə qarşı göstəriləcək düşmənçiliyin ona qarşı düşmənçilik olduğunu bəyan etdi, General Tomsonu öz müqəddəratını təyin etmək hüququna hörmət etməyə, bu yeni dövləti gürcü və erməni hücumlarından qorumağa çağırdı. Azərbaycan hökumətinin fikrincə, yeni dövlətin daimi mövcudiyyətinə ən uyğun təminat Batumdan Qarsa, Axısqadan Ordubada qədər olan torpaqların Azərbaycana ilhaqa idi. Bakıdakı ingilis nümayəndələri Qars və ətrafında status-kvonu saxlayacaqları və Paris sülh konfransında yeni dövlətin taleyi müəyyən oluncaya qədər onu qoruyacaqlarına söz verdilər (284, s.99-100).

Cənub-Qərbi Qafqaz Respublikası müvəqqəti hökumətinin başçısı yanvar ayının 26-da Azərbaycan hökumətinə nota ilə müraciət etdi. Müvəqqəti hökumətin başçısı notada Qars, Batum, Axalsıx və Axalkələkdən ibarət Cənub-Qərbi Qafqaz Respublikasının yaranması, onun parlamentinin işə başlaması, hakimiyyətin müvəqqəti hökumətin əlində cəmləşməsi, gürcülərin Ərdəhan və Axalsıxı tutmaq cəhdləri, yerli əhalinin müqaviməti, ermənilərin isə Qarsı ələ keçirmək niyyətində olmaları haqqında geniş məlumat verdi (122, v.14-15a). Səhəri gün yanvar ayının 27-də Cənub-Qərbi Qafqaz Respublikası hökumətinin Batumdakı nümayəndəsi Azərbaycan hökumətindən xarici təzyiqlərə tab gətirmək üçün Qarsa lazım olan qədər mülki məmurlar və zabitlər göndərilməsini xahiş etdi (121,v.9-9a).

Azərbaycan hökuməti özünün Tiflis, İrəvan və Batumdakı nümayəndələrinə Cənub-Qərbi Qafqaz Respublikası ilə ön sıx əlaqələr yaratmaq və Bakını mütəmadi olaraq geniş məlumatla təmin etmək göstərişi verdi (122, v.15). Bu nümayəndələrdən gələn məlumatlar Cənub-Qərbi Qafqazda hadisələrin çox sürətlə inkişaf etdiyini göstərirdi.

Hələ dekabr ayının əvvəllərində Axısqa və Axalkələyi zəbt etmiş gürcü hərbi hissələri burada işğal rejimi yaratmış, yerli əhalini qarət edərək, özünə qarşı nifrət yaratmışdı. Gürcülər eyni zamanda bölgədə böyük nüfuza malik Milli Şura üzvlərini, o cümlədən Ömər Faiqi də həbs edib, Tiflisə göndərdilər. Tutulmuş şəxsləri ingilislərin vasitəsi ilə azad etmək cəhdləri də nəticəsiz qaldı. Qeyri-insani yerli idarəçiliyə qarşı yanvarın sonunda Axısqada üsyan başladı* və fevral ayının 2-də gürcülər Axısqa və Axalkələkdən tamam qovuldular, bu bölgə yenidən Cənub-Qərbi Qafqaz Respublikası hökumətinin nəzarəti altına keçdi (284, s.127).

Cənub-Qərbi Qafqaz Respublikası hökuməti Müttəfiqlərin nümayəndələrinə gürcülərin hərəkətini protest edən müraciət göndərdi, eyni zamanda gürcülərə barışıq təklif etdi. Lakin gürcü hökuməti nəinki bu təklifi qəbul etdi, hətta dərhal buraya böyük qoşun hissəsi göndərdi. Yerli Milli Şura səfərbərlik elan edib, əlverişli mövqeləri tutdu. Beş gün davam edən döyüşlərdən sonra gürcü hissələri top və yüngül silahlarını buraxıb, Borjoma geri çəkildilər.

Gürcülər öncə Müttəfiqlərin dəstəyinə nail olmağa çalışırdılar. Gürcü hökumətinin başçısı Jordaniya general Uolkerlə söhbətində bildirirdi ki, Axalsıx və Axalkələk keçmiş Tiflis quberniyasına daxil olduqlarından Gürcüstan Respublikasının ərazisi hesab edilməlidir və buranın əhalisi də XVII əsrdə zorla müsəlmanlaşdırılmış gürcülərdir. Jordaniyanın bu yerləri qiyamçı əhalidən təmizləmək planlarını General bəyəndi (375, s.98-104).

---

* Ömər Faiq gürcü hakimlərinin qeyri-insani hərəkətləri barədə yazırdı: Hörmətli gürcü cəmiyyəti son zamanlar məni özünün milli düşməni, Gürcüstan Respublikasının düşməni hesab edir və Axalsıxda hansısa üsyanı mənim adıma yazır. Bu qənaət S.Ruxadzenin hökumətə göndərdiyi teleqramdan sonra yaranıb. Cavab olaraq bildirirəm: Əgər Axalsıx qəzasında qarışıqlıq və əhali arasında həyəcan varsa - bütün bunların səbəbkarı hər şeydən əvvəl S. Ruxadzenin elə özüdür. Qayda-qanun qoruyucusu kimi bizim qəzaya gəlmiş bu adam burada ağlagəlməz işlər görməyə, hökumət adından hər cür dövlətçiliyə zidd olan, hətta demokratik respublikanın şərəf və ləyaqətinə zərbə vuran öz siyasətini yeritməyə başladı. "Özünün dövlət" planını həyata keçirərik, onun ideyalarını paylaşmayan hər bir kəsi buradan uzaqlaşdırmaq işinə girişdi. Toxunulmazlıq haqqında Makoyevin rəsmi məktubuna baxmayaraq, üç yoldaşımla bərabər məni həbs edib, Tiflisə göndərdi, çoxlarını da azadlıqdan məhrum etdi (37, 08.02.1919)

Martın sonlarında 28 minlik qoşunla hücuma keçən gürcülər yenidən bölgəni işğal edib, Posofa qədər çıxdılar. Lakin özünü toplayan Qars hökuməti yerli əhalinin köməyi ilə gürcüləri aprelin əvvəllərində yenidən Axısqa və Axalkələkdən qovmağa müvəffəq oldu (baxın: 123, v.10-14, 20, 21, 31-32; 121, v.5; 118, v.58; 117, v.113-115; 88, v.2-2a, 175-175a, 179; 37, 21.02.1919, 20.03.1919).

Borçalı müharibəsi qurtarar-qurtarmaz erməni hökuməti yenidən üzünü cənuba tərəf çevirdi. Ermənistanın hərbi naziri Haqverdiyan Şərur üzərinə öncə başlatmış olduğu hücumu tamamlamaq üçün Dəvəlidə hərbi hissələrin toplanması və hərəkətə hazır olması haqqında əmr verdi. Erməni hissələri eyni zamanda qonşu kəndlərə tez-tez reydlər edərək, müsəlman kəndlərini dağıdır, əhalini soyur, cüzi müqavimətə rast gəldikdə kəndlərin əhalisini məhv edirdilər.

Yanvarın 18-də ingilis polkovniki Lafton hərbi nümayəndə kimi Naxçıvana gəldi. Polkovnik burada erməni hücumlarına qarşı müdafiə tədbirləri ilə məşğul olan Milli Şura üzvləri ilə görüşdü. Lafton Milli Şuranı qane edən barışıq sənədi hazırladı və yanvarın 21-də erməniləri də, istəməsələr belə, hərbi əməliyyatların dayandırılmasına razı saldı. Daha sonra Naxçıvanda ingilis hərbi valiliyinin (qubernatorluğunun) təşkili və ermənilərin İrəvanın cənubundakı əsgərlərini geri çəkməsi təklifi ilə ingilis hərbi komandanlığına müraciət etdi. Laftonun təklifi müsbət qarşılandı və General Uolker onu yanvarın 26-da Naxçıvanın hərbi valisi təyin etdi.

Yeni təşkil edilən Naxçıvan hərbi valiliyi bütün Naxçıvan bölgəsindən şimal-qərbə doğru ta İrəvanın cənublarına qədər ərazini əhatə edirdi. Müsəlman-türk ünsürünün çoxluq təşkil etdiyi zonada Milli Şura yerli idarəçiliyi əlində saxlamalı*, İrəvanın cənubu ilə ermənilərin əksəriyyət təşkil etdiyi ərazi isə mülki erməni məmurları tərəfindən idarə

---

* Milli Şura öz üzvlərindən naxçıvanlı Bəhram xanı Bakıya göndərdi. Bəhram xan özü ilə yerli hökumətin Cənub-Qərbi Azərbaycan adı altında Naxçıvanı Azərbaycan Respublikasına birləşdirmək təklifini də gətirmişdi. Bəhram xan Azərbaycan hökumətindən buraya vali (General-qubernator) təyin etmək xahişi haqqında ona verilmiş səlahiyyətdən də istifadə etdi. Valinin yanında yerli idarəçilərdən ibarət şura da olmalı idi. Bəhram xan Bakıdan eyni zamanda maliyyə yardımı, zabit və başqa köməklər də xahiş etdi. Onun sözlərinə görə, Naxçıvan bölgəsinin Azərbaycan Respublikasına birləşməsi mövzusunda Tiflisdə ingilislərlə də söhbətlər olmuş, sonuncular bu məsələ haqqında sülh konfransına məlumat verəcəklərini vəd etmişlər (37, 2X.02.1919). Təxminən eyni vaxtda Bakıdan da

ediləcəkdi. Erməni hökuməti bu vəziyyətlə könülsüz barışmalı oldu. Bununla belə, ermənilər Paris sülh konfransına bir-birinin ardınca şikayət göndərməyə başladılar (121, v.31). Xarici işlər naziri Paris konfransı iştirakçılarına şikayətində göz yaşı tökürdü: Şərur və Naxçıvan müvəqqəti belə olsa, Qars nümunəsində əlimizdən alınaraq ingilis hərbi valiliyinə verildi. hətta hissələrimizi bu sərhədin öz tərəfimizdə qalan bölgəsinin (Vedibasar) xaricində saxlamağa məcbur edirdik, türklər eyni oyunu Sürməlidə də oynamaq üçün planlı şəkildə hazırlaşırlar. Qarabağ ingilis komandası altında bir Azərbaycan baş valiliyinə bağlanmışdır. Axısqa, Axalkələk və Batum gürcü qarnizonlarını sərhəddən kənara atan Qars turanlıların hakimiyyəti altına keçdi. Və beləcə Transqafqaz türkçülüyü inkilis komandanlığı dövründə alman-Osmanlı işğalı sırasında olduğundan daha artıq əlverişli şəraitin kefini çəkir. Bizi ağrıdan və ifrat sıxıntı çəkdirən də bu gerçəklər və həqiqətlərdir (284, s. 143-144).

Bu arada Cənub-Qərbi Qafqaz Respublikası özunün varlığını qorumaq üçün gərəkli işləri görməkdə davam edirdi. Mart ayının 27-də (bəzi sənədlərdə 25-də) Cənub-Qərbi Qafqaz Demokratik Respublikası öz istiqlalını dünyaya bildirmək ehtiyacı duydu. Cənub-Qərbi Qafqaz Demokratik Respublikasının parlamenti tərəfindən qəbul edilmiş bəyannamədə Fevral inqilabından sonra Qafqazın bu bölgəsində baş verən hadisələrə siyasi qiymət verilir, Qars, Batum,

---

M.A.Mirbağırovun başçılığı ilə 11 zabit və polkovnikdən, bir neçə mülki şəxsdən ibarət nümayəndə heyəti Naxçıvana göndərildi. Nümayəndə heyəti Naxçıvanın ehtiyacları üçün bir milyon manat pul gətirmişdi. Nümayəndə heyəti Cəfərqulu xanın başçılıq etdiyi hökumətlə görüşlərdə bu bölgənin problemlərini müzakirə etdi, Naxçıvanın Azərbaycan Respublikasının qalan hissələri ilə birləşməsi haqqında yeni sənəd qəbul edildi. Buradakı ingilis valisi ilə görüşdə sonuncu Bakının buraya hərbi işin təşkili üçün zabitlər göndərməyə haqqının olmadığını bildirib, nümayəndə heyətinə eşitdirdi ki, bu ərazi hələlik Azərbaycanın tərkib hissəsi deyil və məlum deyil kimə çatacaq; indi burada ingilis general-qubernatorluğudur... Mən sizə qonaq kimi baxıram, necə ki qonaq kimi  gəlmisiniz, elə də qonaq kimi gedə bilərsiniz (78, v.Z).

Axalsıx, Axalkələk, Şərur, Naxçıvan, Sürməli, İrəvan qəzasının cənub-qərb hissəsinin əhalisinin öz müqəddəratını təyin etmək hüququndan istifadə edib, öz dövlətlərini yaratdıqları bəyan edilirdi*.

Bəyannamədə Cənub-Qərbi Qafqaz Demokratik Respublikasının bütün dövlətlər, ilk növbədə yeni yaranmış Qafqaz respublikaları ilə mehriban qonşuluq münasibətləri qurmaq istəyi, onun maraqlarına toxunulmadığı təqdirdə ümumiyyətlə bitərəfliyi qoruyub saxlayacağı, bu respublikada milliyyətindən, dini əqidəsindən, sosial vəziyyətindən asılı olmayaraq bütün vətəndaşların bərabər hüquqa malik olmaları və Qafqazın başqa xalqları kimi onun da nümayəndələrinin sülh konfransına buraxılması tələbi öz əksini tapmışdı. Bəyannamədə xüsusi qeydlə erməni qaçqınlarının müvəqqəti olaraq respublika ərazisinə buraxılmamasının səbəbləri izah edilir, qaçqın ermənilərin kəndlərinə (cəmi 88) Gürcüstan və Ermənistandan qaçqın düşmüş müsəlmanların (təkcə Ermənistanda 482 kənddə yaşayırdılar) yerləşdikləri göstərilirdi (121, v. 14-14a).

40 min kv. kilometrlik böyük əraziyə, 1,7 milyon nəfər (bunun 1,5 milyonu türk-müsəlman idi) əhaliyə malik olan Cənub-Qərbi Qafqaz Demokratik Respublikasının taleyi sanki təmin edilməkdə idi. Nümayəndələri konfransa buraxılmasa belə, respublikanın rəhbərləri ümidlərini Paris sülh konfransına bağlamışdılar. Lakin mart ayından başlayaraq, qalib dövlətlərin, xüsusilə ingilislərin bu yeni dövlət qurumuna münasibətində kəskin dəyişiklik yaranmağa başladı.

Bakıdan Tiflisə gələrək, İngiltərənin Qafqazdakı hərbi qüvvələrinin komandanlığını öz üzərinə götürmüş General Tomson ilk əvvəl Naxçıvan və Qarsdakı ingilis hərbi valilərini dəyişdirdi. Yeni təyin edilmiş valilərin qarşısında artıq yeni vəzifələr qoyuldu. Yerli hərbi valilərin səlahiyyət dairəsinin məhdudlaşdırılması haqqında əmr ləğv edildi. İngilislər sülh konfransının Ali Şurasına müraciət edərək, "Qars vilayətinin erməni xristian cümhuriyyətinə verilməsi lüzumunu və bu təhvil işinin gerçəkləşdirilməsini təmin etmək məqsədilə bölgəyə ingilis qüvvələrinin göndəriləcəyini bildirdilər (284, s.150).

---

* Türkiyəli tarixçi Ə.Ə.Göydəmirin verdiyi mətn həcm və məzmun baxımından bizim istifada etdiyimiz bəyannamədən fərqlidir (284, s.148-149).

Mart ayının sonunda Qafqazdakı Müttəfiq qüvvələrinin baş komandanı ingilis Generalı Miln Cənub-Qərbi Qafqaz Respublikasının ləğvi haqqında qərar verdi. Aprelin əvvəlində isə o, Batumda General Tomsonla bu respublikanın dağıdılması planını müzakirə etdi və sonuncuya lazım olan təlimatları verdi. Bu təlimatlara görə, Qars vilayəti və Naxçıvan bölgəsi ermənilərə, Borçalı hərbi valiliyi ləğv edilərək gürcülərə, ya da ermənilərə veriləcəkdi (284, s. 152-153).

Çəkilən plana uyğun olaraq ingilislər Qarsa xeyli əsgər topladılar, digər tərəfdən Qars hökumətini inandırmağa çalışdılar ki, fövqəladə bir hadisə baş verməyib. Az sonra ingilis komandanlığı özlərinin hər simalarını və planlarını açdılar. Aprelin 12-də ingilis əsgərləri gizlicə Cənub-Qərbi Qafqaz Respublikasının parlamentini mühasirəyə aldılar və Milli Şura hökumətinin həbs edib, Tiflisə, oradan İstanbula, oradan da Malta adasına sürgünə göndərdilər. Həbs edilən 12 adam arasında Cənub-Qərbi Qafqaz Respublikasının başçısı İbrahim Cahangiroğludan başqa bir neçə nazir, parlament üzvü və başqa dövlət xadimləri də var idi (284, s. 156-157).

Cənub-Qərbi Qafqaz Respublikası hökumətinin üzvlərinin tutulması və bu dövlətin ləğvinə münasibət, təbii ki, eyni deyildi. Ən çox məmnun qalan ermənilər idi: ingilislər Qars vilayətini ermənilərə bağışlamışdılar, xeyli əvvəl vali təyin edilmiş Korqanov aprelin sonunda iki minlik əsgərlə Qarsa daxil oldu, hərbçilərdən sonra 50 mindən artıq erməni qaçqını Qarsa doluşdu, Qarsın yerli türk-müsəlman əhalisi üçün yenidən qara günlər başladı.*

Gürcülər də razı qalmışdılar: Axısqa və Axalkələkdə bir neçə dəfə gürcüləri ağır məğlubiyyətə uğradan və bu bölgəni öz nəzarəti altında saxlaya bilmiş Cənub-Qərbi Qafqaz Respublikası dağıdılmışdı, gürcülərə Axısqadan başlayaraq Ərdahanın şimalına qədər ərazini işğal etməyə icazə verilmişdi, gürcülər türklərə etdikləri zülmdə ermənilərdən geri qalmadılar. Azərbaycan hökuməti ingilis komandanlığının “Cənub-Qərbi Qafqaz Respublikasının ləğvi sahəsindəki hərəkətlərinə qəti etirazını bildirib, etibarı utandırıcı şəkildə pozduğu üçün İngiltərəni qınadı(122, v.15).

Ermənilər şimalda Qars, Sarıqamış, Kağızman kimi yerləri işğal etdikdən sonra Naxçınan tərəfə üz tutdular. İngilislər erməniləri hər vasitə ilə himayə edirdilər. General Dro və ingilis Generalı Devinin birgə imzaladıqları 3 may

---

* Bu vəziyyət Anadoluda Milli Mücadilə Hərəkatının başlanmasına qədər davam etdi, Kazım Qarabəkir paşanın komandanlığı altında türk Ordusu 1920-ci ilin oktyabrın 30-da Qarsı azad etdi.

1919-cu il tarixli bəyannamədə müharibənin artıq bitdiyi, Müttəfiq dövlətlərin və erməni hökumətinin qərarına görə, Dronun hissələrinin xalqın asayiş və hüzurunu təminat altına almaq üçün Naxçıvan üzərinə irəliləyəcəyi, müqavimət göstərən kəndlərin qanundan kənar elan ediləcəkləri, atəş və dəmirlə əziləcəkləri bildirilirdi. 6 minlik erməni Ordusu müqaviməti qıraraq, mayın 24-də Naxçıvana çatdı. Azərbaycan hökumətinin etirazına baxmayaraq, ingilislər Naxçıvanı da ermənilərə təslim edərək, buradakı ingilis hərbi valiliyini ləğv etdilər. Ermənilər də silah toplamaq bəhanəsi ilə qətliamlara başladılar (135, v.41-42; 284, s.177-178).

Ermənilərin və ingilislərin cəhdlərinə baxmayaraq, onlar Naxçıvan bölgəsini tam nəzarətləri altına ala bilmədilər. 1919-cu ilin yayında onlar yalnız Naxçıvan şəhərinə və Naxçıvan-İrəvan dəmiryol xəttinin ətraflarına hakim ola bildilər. İngilis nümayəndəsi və erməni valisi şəhərdə deyil, ondan üç kilometr aralıdakı hərbi düşərgədə yerləşmişdilər. Yerlərdə hakimiyyət Milli Şuranın əlində idi. İyulun əvvəllərində ingilis qüvvələri Naxçıvanı tərk etdilər. Milli Şura əlverişli vəziyyətdən istifadə edib, erməni nizami hissələrini əzdi, Naxçıvan və Şərur qəzalarının, demək olar ki, bütün ərazilərini tutaraq, burada öz şəriksiz nüfuzunu bərpa etdi (241, s.51-53).

İngilis hərbi qüvvələrinin Qafqazı tərk etməsindən sonra Qafqazda sözükeçən xarici qüvvə olan Amerika nümayəndələri Naxçıvan və bölgəsi məsələsini yenidən həll etməyə cəhd göstərdilər. Avqust ayında Müttəfiqlərin ali Komissarıı Haskel sərhəd məsələləri ilə bağlı öz təkliflərini verdi. Nazirlər Şurasının sədri N.Yusifbəyli bu təklifləri müzakirə etmək üçün Tiflisə getdi. Lakin sərhəd məsələsi ilə bağlı müzakirələr bir nəticə vermədi. Onda polkovnik Haskel ikinci layihə ilə Bakıya gəldi. Bu layihəyə görə, Qarabağ və Zəngəzur Azərbaycanın ayrılmaz tərkib hissəsi hesab edilir, keçmiş Şərur və Dərələyəzdə əlahiddə neytral zona yaranmalı idi. Bu zona Amerika qubernatoru vasitəsilə idarə edilməli idi. Erməni hökuməti lap əvvəldən bu layihəni rədd etdi. Azərbaycan hökuməti də Naxçıvandan heç cür əl çəkməyəcəyini qəti şəkildə bildirdi. Parisə yola düşməyə hazırlaşan və sülh konfransına işinin nəticəsi haqqında nəsə bir sənəd aparmaq istəyi üzərində israr edən Haskelə Azərbaycan hökuməti uzun müzakirələrdən sonra Naxçıvanda neytral zonanın yaranmasına mane olmayacağı təəhhüdünü verdi (81, v.15,17-18).

Paris sülh konfransının qərarınadək Naxçıvanda müvəqqəti neytral zona yaratmaq barədə Amerika nümayəndələrinin layihəsi formal akt olaraq qaldı. Naxçıvanda Amerika General-qubernatoru və onun məhdud sayda aparatı olmasına baxmayaraq, bu bölgənin idarəsi Bakıdan göndərilən vali, xüsusən bir neçə il Naxçıvan camaatının fiziki varlığının qorunmasında böyük rolu olmuş Milli Şuranın əlində idi. Amerika nümayəndələri yerli hökümətin yanında müşavir rolu oynayırdılar (241,s.54-60).

Naxçıvanda yaranmış vəziyyət ermənilləri, qismən də Amerika nümayəndələrini qane etmirdi. 1919-cu ilin sonlarında bir neçə dəfə reyd edib, geri çəkilməyə məcbur olandan sonra ermənilər ciddi şəkildə geniş hücuma hazırlaşmağa başladılar. Ermənilərin planlarından xəbərdar olan yerli Milli Şura və Azərbaycan hökuməti müdafiə tədbirlərini genişləndirdi. 1919-cu ilin mayından etibarən 15-ci ordu korpusunun başına gətirilən Kazım Qarabəkir paşa Naxçıvanın müdafiəsinin təşkili sahəsində əlindən gələni əsirgəmədi, buraya zabit və silah göndərdi. 1920-ci ilin yazında başlanan erməni Ordusunun hücumu qətiyyətlə dəf edildi və ermənilər İrəvanın cənubuna qədər geri oturduldular (241, s.62-63; 454, s.105; 242).

İngilislərin cəhdləri ilə yox edilmiş Cənub-Qərbi Qafqaz Respublikasının digər hissəsi - Batum və ətrafında proseslər başqa istiqamətdə getdi. İngilislər bu şəhərin strateji əhəmiyyətini nəzərə alaraq, onun idarə edilməsi ilə ciddi məşğul olur, bu şəhərə iddialara əhəmiyyət vermirdilər. Azərbaycan Respublikasının Batumdakı baş konsulluğunun məlumatlarına görə, bu şəhərin idarə edilməsində on yaxın müttəfiq olaraq denikinci ruslar seçildilər. Yerli acar əhalisi nümayəndələrinin cəhdlərinə baxmayaraq, Batumun ingilis General-qubernatoru Kukk-Kollis onları yaxına buraxmırdı (144, v.4; 121, v.1,4,8,23,41,44 - 44a,47).

Azərbaycan hökuməti Batumun Cənubi Qafqaz üçün böyük strateji və iqtisadi-ticarət əhəmiyyətini nəzərə alıb, 1920-ci ilin əvvəllərində bu şəhərin statusu məsələsini qaldırdı. Müttəfiq dövlətlərə ünvanlanmış memorandumda Azərbaycan hökuməti Batum şəhərinə beynəlxalq status verilməsini təklif etdi. "Azərbaycan (rusca) qəzetinin müxbiri ilə söhbətində baş nazir Fətəli xan Xoyski göstərirdi ki, "bu şəhər Azərbaycanın Qərbi Avropaya açılan yeganə pəncərəsi ilə neft kəmərinin son məntəqəsidir, ona görə də Zaqafqaziyanın üç respublikası arasında bağlanacaq saziş vasitəsi ilə heç bir şəraitdə bu limanın Zaqafqaziya xalqlarının üzünə bağlanmayacağı, eləcə də ondan istifadə üçün məhdudlaşdırıcı, ya sıxışdırıcı şərtlər qoyulmayacağı haqqında möhkəm təminat verilməlidir. Baş nazirin fikrincə, Batum iqtisadi (məsələn, gömrük müharibəsi deyilən vaxtlarda), ya siyasi xarakterli hər hansı mübahisə baş verdikdə Gürcüstanın əlində öz qonşularına iqtisadi təzyiq obyekti və vasitəsi olmamalıdır (110, v.6-9; Həmçinin baxın: 152, v.14-15; 57, v.34-35).

İlk əvvəllər erməni hökuməti Batum məsələsində Azərbaycanın mövqeyini müdafiə edir, bu məsələdə Azərbaycan-Gürcüstan münasibətlərində soyuqluğun yarandığını gördükdə, erməni diplomatiyası mövqeyini dəyişib, iki olkə arasında münasibətləri pozmaq xətti götürdü.

Azərbaycanın Tiflisdəki attaşesinin 6 mart 1920-ci il tarixli məlumatına görə, iki ölkənin arasını vurmaq sahəsində ermənilər böyük müvəffəqiyyətlərə nail olublar və olurlar; Batum məsələsi kəskinləşdiyinə, Ermənistanla bizim münasibətlərimiz təhlükəli xarakter aldığına görə, biz Gürcüstanın Ermənistanla gerçək yaxınlaşmasının şahidi oluruq (62, v.9). Gürcü hökumətinin Batum şəhərinə beynəlxalq status verilməsi məsələsinə qəti etirazlarına və qıcıqlanmasına baxmayaraq (123, v.16), Can Remo konfransı 1920-ci ilin aprelində Millətlər Liqasının himayəsi altında kiçik ərazidən ibarət Porto-Franko-Batumun yaradılması haqqında qərar qəbul etdi. Batumun beynəlxalq statusuna Fransa, İtaliya və İngiltərə təminatçı dövlət olmalı və buraya hərəsi bir piyada batalyonu göndərməli idi (144, v.15; 151, v.1).*

Beləliklə, mövcud şəraitdə Azərbaycan Respublikası öz qarşısına qoyduğu strateji məqsədə - Qara dənizə çıxış yolu əldə etməyə nail ola bilmədi. Lakin bilavasitə onun təşəbbüsü ilə Batuma beynəlxalq status verilməsi, yəni Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinə cavab verə biləcək amilin gerçəkləşməsi üçün şərait yarandı. Cənub-Qərbi Qafqaz Respublikasının varlığını qorumaq, buradakı yerli türk - müsəlman əhalinin (xeyli hissəsi azərbaycanlılar idi) təhlükəsizliyini təmin etmək kəskin problem kimi qapmaqla yanaşı, Cənubi Qafqazda yaranmış yeni dövlətlər arasında qurulan münasibətlərdə mənfi amil rolu oynadı. Naxçıvan bölgəsinin erməni işğalı altında qalmamasının əsas səbəbi isə yerli əhalinin fədakarlığı və Anadolu türkünün ona yardımı oldu.

---

* 1920-ci ilin aprelindən başpayaraq, Cənubi Qafqazda beynəlxalq vəziyyətin kökündən dəyişməsi, Müttəfiqlərin hərbi qüvvələrinin Batumdan çıxması və Batumun sovetləşməsindən sonra ona beynəlxalq status vermək məsələsi gündəlikdən çıxarıldı.

## §4.

## AZƏRBAYCAN – DAĞISTAN MÜNASİBƏTLƏRİ VƏ DENİKİN TƏHLÜKƏSİ

Azərbaycan Respublikasının mövcudluğu bütün dövr ərzində ölkənin şimalından baş verən hadisələri çox diqqətlə izləməyə məcbur idi. Xarici İşlər Nazirliyinin əməkdaşı A.Şepotyevin məruzəsində deyildiyi kimi, "Azərbaycan Respublikasının sərhədlərinə uyğun olaraq strateji cəhətdən əsaslı surətdə qorunmalıdır – Samur çayı boyu sərhədin təbii sərhəd baxımından qeyri-qənaətbəxş olması şəksizdir". (152, v. 15: 57, v. 35.)

Azərbaycan Respublikasının istiqlalı elan ediləndə onun şimalında artıq Rusiyadan qopmuş müstəqil dövlət yaranmışdı. Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Respublikası (qısaca - "Dağlılar Respublikası") öz istiqlalını 1918-ci il may ayının 11-də elan etmişdi. Onun müstəqilliyini Azərbaycan, Gürcüstan və Osmanlı imperiyası tanıdı. 1918-ci ilin noyabrında Dağlılar Respublikası hökumətinin başçısına göndərdiyi məktubda General Tomson yazırdı ki, Paris sülh konfransının qərarına qədər Dağlılar Respublikasının istiqlalına təminat verilir (425, s.97).

Dağlılar Respublikasının yaranması Azərbaycanın təhlükəsizliyi üçün çox əhəmiyyətli amil hesab edildiyindən, ilk günlərdən Azərbaycan hökuməti Dağlılar Respublikası ilə əlaqələrin genişləndirilməsi xəttini tutdu. İyun ayının 26-da M.H.Hacınskinin Gəncədən Dağlılar Respublikası hökumətinin sədri Əbdül Məcid Çermoyevə cari məsələlərin həlli haqqında yazdığı cavab məktubu bu dövlətlə xoş münasibətin qurulması istəyi ruhunda idi (86, v.60).

Azərbaycan (rusca) qəzeti oktyabr ayında məlumat verirdi ki, Azərbaycan və Dağlılar İttifaqı hökumətinin nümayəndələri vacib siyasi məsələlər haqqında ilkin saziş imzalayıblar (37, 25 (12). 09. 1918). Bir tərəfdən Azərbaycan Respublikası hökumətinin başçısı F.Xoyski və maliyyə naziri M.H.Hacınski, digər tərəfdən Qafqaz Dağlıları Respublikası hökumətinin sədri Ə.M.Çermoyev və maliyyə naziri Həsən-Girey Cabakiyev tərəfindən imzalanacaq müqavilə layihəsinə görə, iki dövlət arasında xarici işlər və xaricdən müdafiə məsələləri ümumi işlər hesab edilirdi.

Tərəflərin beynəlxalq traktat və sazişlər imzalaması, eləcə də başlıca dövlətlərlə münasibətlərin əsaslarını müəyyən etməsi ya məsləhətləşmələrdən sonra, ya birgə, ya da müttəfiq dövlətin hökuməti ilə razılaşdırıldıqdan sonra mümkün ola bilərdi. İki dövlətin istiqlalının qorunması şərtləri tərəflər arasında bağlanacaq sazişlə müəyyən edilməli

idi. Eyni zamanda daxili asayişi qorumaq üçün maraqlı tərəfin xahişi ilə digər tərəf hərbi kömək də verməli idi. Müharibə vaxtı tərəflərin hərbi qüvvələri hər iki hökumətin razılığı ilə seçilmiş bir şəxsin komandanlığı altına keçməli idi. Respublikalarda gömrük ərazisi, gömrük qanunvericiliyi və gömrük rüsumlarının bölüşdürülməsinin əsasları haqqında məsələlər də xüsusi sazişlə müəyyən edilməli idi. Eyni zamanda maliyyə, ölçü sistemləri, dəmiryol, poçt, teleqraf və telefon məsələləri haqqında xüsusi sazişlər nəzərdə tutulurdu (86, v.25-26). Bu müqavila layihəsi əslində iki dövlət arasında konfederatin münasibətlərin yaranmasına gətirib çıxarmalı idi.

1918-ci il noyabr ayının 28-də Azərbaycan hökuməti ilə Dağlılar Respublikası hökumətinin nümayəndələri tərəfindən imzalanmış müqaviləyə əsasən Azərbaycan Respublikası qonşu dövlətə 10 milyon manat həcmində kredit ayırdı. Bu kredit iki il ərzində taxılla ödənilməli idi. Eyni zamanda Azərbaycan hökumətinə öz ehtiyacı üçün Şimali Qafqazdan əlavə taxıl almaq hüququ verilirdi (72, v.1-2).

Azərbaycan Respublikasının Şimali Qafqazla qurulmaqda olan münasibətlərinə siyasi meydana girən Könüllü Ordu amili yeni məzmun gətirdi. Bu amil təkcə iki ölkə arasındakı əlaqələrə deyil, eyni zamanda Qafqazın Gürcüstan qarışıq bu üç dövləti arasındakı əlaqələrə də yeni cürət verdi, ümumiyyətlə, Denikin kabusu bölgədə vəziyyətə fəal təsir edən amillərdən birinə çevrildi.

1918-ci ilin yayında keçmiş çar zabitləri Novoçerkasskda rus antisovet qüvvələrinin xeyli hissəsini toplayıb, general Alekseyev və General Denikinin başçılığı ilə bolşevik rejimini devirmək üçün Könüllü Ordu (“Dobrovolçeskaya Armiya”) adlanan böyük hərbi birləşmə yaratmışdılar. Menşeviklər və eserlər bu mürtəce generallara ürək qızdıra bilmədilər və mübarizələrini ayrılıqda davam etdirdilər. Çox tezliklə gürcü hökuməti nəzarəti altında olan Tuapse, Soçi və Suxum üstündə Könüllü Ordu ilə qarşı-qarşıya gəldi. Sentyabrın 25-də gürcü hökumətinin başçısı Gegeçkori və General Mazniyev Könüllü Ordunun başçıları və Kuban kazakları hökuməti ilə Yekaterinodarda danışıqlara başladı.

Könüllü Ordunun o vaxtkı baş komandanı General Alekseyev Gürcüstanın istiqlaliyyətini de-fakto tanıdığını bildirdi, lakin gürcüləri rus ərazisini zəbt etməkdə, Gürcüstandakı rus zabitlərini sıxışdırmaqda, almanların Qafqazdakı hərəkətlərinə göz yummaqda, ruslara məxsus mülkiyyətin müsadirə edilməsində günahlandırdı. Gürcü hökumətinin başçısı isə Könüllü Ordunun sərhəd məsələsini həll etmək üçün səlahiyyəti olmadığını vurğulayaraq, Soçinin müvəqqəti olaraq gürcü qoşunlarının nəzarəti altında qalmasında israr etdi. İlk diplomatik təmas qarşılıqlı ittihamlar və General Alekseyevin Gürcüstanı yüngülcə xəbərdarlığı ilə nəticəsiz qurtardı (13, s.391 - 414).

Almanlar hələ Gürcüstanda idilər, ona görə də Könüllü Ordu cənuba doğru irəliləməyə cürət etmirdi. Lakin gürcülər hiss edirdilər ki, böhran heç də uzaqda deyil. Odur ki, çar zamanında Zaqafqaziyaya daxil olmayan zəbt etdikləri əraziləri saxlamaqa bəhanə əldə etmək üçün yerli əhalinin rəğbətini qazanmağa çalışdılar. Dekabr ayının əvvəlində Soçidə toplanan kəndli qurultayı qərara aldı ki, Soçi şəhəri kec-töz demokratik Rusiya ilə birloşocok, amma hələlik homin Rusiyanın olmadıqı üçün Soçi və ətrafının müvəqqəti olaraq Gürcüstana birləşməsi haqqında Soçidəki sosialist partiyaların və başqa demokratik təşkilatların qətnamələri zəhmətkeş kütlələrin mənafeyinə cavab verir və irticanın bütün dəhşətlərindən qurtarmağa kömək edir; Gürcüstan Demokratik Respublikası qanunlarının himayəsi altında zəhmətkeş əhali yerli kənd təsərrüfatı həyatını qurmaq, demokratik zemstvo yaratmaq və zəhmətkeşlərə ədalətli qaydada torpaq paylamaq imkanı əldə edir.

Qurultay rəyasət heyətinə Gürcüstan Demokratik Respublikasına təbrik teleqramı göndərmək tapşırığı verdi (13, s.414-415). Soçi əhalisinin Gürcüstanın xeyrinə qəbul etdiyi qətnamələrə baxmayaraq, Könüllü Ordu Soçini tutdu. 1919-cu il yanvarın 5-də Soçidəki demokratik təşkilatlar Könüllü Ordunun baş komandanı vəzifəsində General Alekseyevi əvəz etmiş General Denikinin hücumunun qarşısını almaq xahişi ilə Müttəfiqlərə müraciət etdilər Bu müraciəti Soçi Şəhər Duması, rayon kəndli deputatları soveti, sosial-demokrat partiyasının Soçi komitəsi və eserlərin şəhər komitəsi imzaladı (13, s.415-416).

Keçmiş Rusiya imperiyasının çar diplomatiyası general Denikinin ixtiyarında idi. Onun vasitəsi ilə General Fransa və İngiltərənin hökumət dairələrinin xeyli hissəsini öz tərəfinə çəkə bilirdi. Bundan başqa, o, Müttəfiqlərin Rusiya, Zaqafqaziya və başqa yerlərdə olan nümayəndələri ilə birbaşa əlaqə saxlayırdı. 1919-cu ilin fevralında o, ingilis Generalları Miln (İstanbul) və Uolkerə (Tiflis) teleqram göndərib, gürcülərin abxazları incitdiklərini bildirdi.

Gürcülər, onun sözlərinə görə, Abxaz Milli Şurasını qovmuş və Şuranı öz iradələrinə tabe etdirmək üçün hərbi hissələrin təzyiqi altında yeni seçkilər keçirtmişlər. Denikin iddia edirdi ki, abxaz xalqı ona müraciət edərək, yalvarır ki, seçkilərin qarşısını alsın, gürcüləri Abxaziyadan qovsun və onları gürcü zülmündən azad etsin. General hesab edirdi ki, yerli əhalinin nifrət etdiyi gürcülərin Abxaziyanı uzun müddət mühasirədə saxlaması, qayda-qanunu bərpa etmək üçün onun hərbi müdaxiləsini tələb edir (460, s.237-238).

Elə bu vaxt Tiflisdə Jordaniya ilə ingilis hərbi nümayəndəsi General Uolkerin görüşü oldu. Uolker gürcü baş nazirinə məlumat verdi ki, 1919-cu il yanvarın 23-də Britaniya komandanlığı Gürcüstan ərazisini toxunulmaz elan edib. Denikin bu qərarı nəzərə almadığı üçün Gürcüstanla Könüllü Ordu arasında sədd yaratmaq məqsədi ilə buraya bir hərbi

hissə göndəriləcək. Jordaniyanın Denikin öz qüvvələrini təcili çıxartmalıdır, əks təqdirdə biz onları güclə qovacağıq fikrinə qarşı Uolker ingilis hissələrinin döyüşmək üçün deyil, sülhü bərpa üçün buraya gəldiyini deyib, xəbərdarlıq etdi ki, gürcülər münaqişəni dərinləşdirmək xətti tutsalar, nəticələrinə görə özləri cavab verməli olacaqlar (460, s.238).

Könüllü Ordunun başçıları ingilis hökumətinin müstəqil Qafqaz respublikalarına kömək etməsini bilirdilər. Onlar başa düşürdülər ki, Rusiyanın müxtəlif yerlərində hətta vahid, bölünməz Rusiyanın əksinə olsalar belə yerli elementlərin köməyi ilə qayda-qanun yaratmaq istəyirlər. Ruslar (istər bolşeviklər, istərsə ağlar olsun), Qafqazı özlərinin dədə-baba mülkü hesab edirdilər, istənilən vaxt onu geri tələb edə bilərdilər. Ona görə də ingilis hökuməti Qafqaz respublikalarının taleyinin Parisdə sülh konfransında qəti müəyyənləşəcəyi haqqında təklif irəli sürdükdə, Denikinin diplomatları London və Parisdə böyük hay-küylə etirazlarını bildirdilər.

Bununla belə, onlar onu da başa düşürdülər ki, Zaqafqaziya üstündə ingilislərlə üz-göz olmaq və sonuncuların hərtərəfli yardımından imtina etmək olmaz. Denikinin diplomatlarından biri yazırdı: İndiki şəraitdə Rusiya ilə İngiltərə arasında Qafqazın taleyi barədə prinsipial fikir ayrılığını kəskinləşdirmək arzu edilmir...Türkiyə və İranın qonşuluğunda yerləşmiş Qafqaz artıq xeyli dərəcədə rus mədəniyyətinə yoluxub, şübhəsiz, rus təsir dairəsində qalacaq... Ona görə də, mənim fikrimcə, bu gün yazılmış qərarların əhəmiyyətini şişirtmək olmaz (460, s.239).

1919-cu ilin yayında Denikin General Baratovu danışıqlar aparmaq üçün Tiflisə göndərdi. General Baratova üç əsas qrup məsələni əhatə edən gizli tapşırıqlar verildi. Birinci qrupa hərbi məsələlər daxil idi. Baratov çoxdan dağılmış rus Qafqaz Ordusunun bütün mülkiyyətini geri qaytarmalı idi. O, Gürcüstanda qalmış rus zabitlərinə, onların ailələrinin rifahına təminat verən Könüllü Orduya yazılmaq təklifi etməli idi. İkinci qrupa siyasi məsələlər daxil idi. General Baratova tapşırılırdı ki, o, Rusiya imperiyasının bölünməz hissəsi hesab etdikləri Zaqafqaziyanın Rusiya ilə yenidən dinc birləşməsi üçün zəmin hazırlasın.

Baratov gürcü qüvvələrinin Bzıb çayının (Soçinin Cənubu) Cənubuna çəkilməsi tələblərini yenidən səsləndirməli idi. Gürcüstan özünü Rusiyanın tərkib hissəsi hesab etsə, Könüllü Ordu bütün gömrük maneələrini qaldıracaq, sərbəst ticarətə icazə verəcək və onunla dostluq munasibətləri quracaqdı. Ya da tariflər qüvvədə qalacaq, amma Könüllü Ordu hücum etməmək haqqında zəmanət verəcək. Yox, əgər Gürcüstan bütün bu tələbləri rədd etsə, o gərək hər şeyə razı olsun. Baratova verilmiş tapşırıqların iqtisadi hissəsi çox konkret idi: Zaqafqaziya respublikalarının Cənubi Rusiya silahlı Qüvvələrinin (Könüllü Ordunun) buraxdığı pulların sərbəst dövriyyəsinə icazə verməli idi. Bu sənədin müəllifi General Lukomski idi, baş komandan Denikin də onu təsdiqləmişdi (380, s. 4, s. 137-138)

Baratova verilmiş bu sənəd göstərirdi ki, general Denikin dünənki günlə yaşayır, iki rus inqilabı sanki olmamışdı, Qafqazın yerli əhalisi də onun gözündə olsa-olsa “ram edilmiş tayfalar” idi. General Baratov mövcud gerçəklikdə bu tapşırıqlar əsasında Qafqazdakı yeni dövlətlərin heç birisi ilə danışıqlar apara bilmədi. Denikin özü Zaqafqaziyaya münasibəti haqqında belə yazır - Gürcüstan və Azərbaycanın zorla zəbt edilməsi mənim planlarıma daxil deyildi və siyasi cəhətdən də məqsədəuyğun olmazdı. Lakin bu yeni qurumların hökumətləri bizim siyasətimizə ya inana bilmirdilər, ya da taktiki mülahizələrə görə inanmaq istəmirdilər. Onların mətbuatı qeyri-adi ehtirasla bizə qarşı nifrət yaradır, ehtirasları qızışdırır, bizim niyyət və planlarımızı açıq-aydın cəfəngiyyatlarla təhrif edirdi.

Onların təkcə (Könüllü) ordu və onun rəhbərlərinə qarşı deyil, hətta Rusiyaya qarşı etinasız münasibəti kobud və təhqiredici forma aldı, buna görə onların mətbuatı hətta bolşevik plakatlarını belə keçdi. Nəhayət, Qafqazda mübarizənin əsas, bəlkə də yeganə səbəbi vahid Rusiya ideyası və yeni Qafqaz qurumlarının tam müstəqilliyi ideyası arasında toqquşma idi. Yerdə qalanlar irili-xırdalı, əhəmiyyətli-əhəmiyyətsiz bəhanələr idi (380, s.4, s.139).

Könüllü Ordunun başçısının sonralar (20-ci illərdə, xaricdə) yazdığı bu bəyanatın əksinə olaraq, Könüllü Ordu, hər halda, bütün Qafqazı zorla ələ keçirməyə cəhd etdi. Gürcü qoşunları Soçidən vurulub çıxarıldı. Gürcüstanın özü təhlükə qarşısında qaldı, bu təhlükə Azərbaycanı da təhdid etməkdə idi. Burada Denikinin siyasətinin əsas dayağı Lazar Biçeraxov idi.

Yuxarıda deyildiyi kimi, hələ 1919-cu ilin yanvarında Biçeraxov Bakıda Qafqaz-Xəzər hökuməti deyilən bir qurum yaratmışdı və onun vasitəsilə Azərbaycanın qanuni hökumətini devirmək niyyətində idi. Biçeraxovun ilanlarından xəbəri olan ingilislər onu fənd işlədərək, Londona göndərdilər, başsız qalmış hərbi dəstələri isə dağıdıb, Azərbaycandan çıxartdılar (II fəslə baxın). Yanvar ayında general Tomson ağqvardiyaçıların keçmək haqqının olmadığı demarkasiya (ayrılma) xətti müəyyən etdi, bu xətt Dağıstanın şimal sərhədi boyu keçirdi. Mart ayının 1-də ingilislər Bakıda lövbər atmış rus Xəzər donanmasını tərk-silah etdilər və Könüllü Ordu üçün zabit toplayan General Prjevalskini dərhal Bakını tərk etməyə məcbur etdilər (472, s.152).

Könüllü Ordunun 1918-ci ilin sonlarından başlanmış hücumları 1919-cu ilin yazında daha da gücləndi. General Denikinin Dağlılar Respublikası üzərinə yeriməsinin, A.Rayevskinin fikrinə görə, üç səbəbi var idi: Dağlılar Respublikası ərazisini tutmaqla Könüllü Ordu sovetlərə qarşı mübarizəni genişləndirmək üçün əlavə plasdarm əldə etmiş olurdu; Xəzərin Dağıstan sahillərini ələ keçirmək, ingilislərdən hərbi gəmilər almaq şərti ilə bolşeviklərin blokadasını təşkil etmək və Xəzər dənizini Qızıl Ordunun kommunikasiyası vasitəsindən özünün kommunikasiya

xəttinə çevirmək imkanı verirdi; Və, nəhayət, Dağlılar Respublikasını zəbt etmək, dağlı xalqların hesabına vətəndaş müharibəsi dövründə böyük rolu olmuş süvari dəstələri yaratmaq imkanı verə bilərdi (425, s.96-97). Sovet tarixçisinin göstərdiyi bu səbəblərə birini də (özü də səbəblərin birincisi kimi) əlavə etmək lazımdır: General Denikinin vahid və bölünməz Rusiyanı bərpa etmək istəyində Dağlılar Respublikası bir mərhələ idi.

Dağlılar Respublikası hökuməti ilk növbədə Müttəfiqlərə müraciət etdi. O, Denikinin respublika ərazisinə hücumuna etiraz edərək, Könüllü Ordunun törətdiyi vəhşilikləri Müttəfiqlərin nəzərinə çatdırdı. Dağlılar Respublikası hökuməti Müttəfiqlərə müraciətində General Tomsonun hələ 1918-ci ilin noyabrında hökumətə yazdığı məktubunda ingilis komandanlığının Qafqazdakı siyasətinin ümumi prinsiplərini xatırlatdı. Bu prinsiplər aşağıdakılardan ibarət idi: koalisyon hökumət yaratmaq; bolşeviklərə qarşı birləşmək; ədalətli qanun bərqərar etmək; dəmiryol və dəniz yolu əlaqələrini bərpa etmək və aclığa qarşı mübarizə aparmaq; ölkədən bütün türkləri çıxartmaq və alman-türk təbliğatına son qoymaq; Denikinlə əlaqə yaratmaq işində Müttəfiqlərə kömək etmək (460, s.243).

Müttəfiqlər Dağlılar Respublikası hökumətinin yalvarışlı müraciətinə cavab olaraq 1919-cu il may ayının 5-də bildirdilər ki, Denikin Dağıstanın üzərinə getməyəcək, Könüllü Ordu Şamilqala (Petrovsk) məntəqəsini bolşeviklərə qarşı Həştərxan cəbhəsinə hərbi hissələr göndərmək məqsədilə ondan baza kimi istifadə etmək üçün tutub. Dağlı Xalqları İttifaqı Respublikasının Nazirlər Şurasının sədri ingilislərin Teymurxanşuradakı nümayəndə heyyəti ilə söhbətində Denikin bolşevik cəbhəsini ləğv etdikdən sonra Dağıstana hücum edəcəkmi deyə soruşduqda nümayəndə heyətinin üzvü cavab vermişdi: Əgər sizin dağlıların arasında açıq bolşevik xarakterli cərəyan olsa, ya ölkədə anarxiya başlasa və hökumət özü təkbaşına bununla mübarizə apara bilməsə, onda təkcə Denikin deyil, biz özümüz də onunla mübarizə aparmaq üçün gələcəyik (422, s.663).

Dağlılar Respublikası hökuməti kömək üçün eyni zamanda qonşu Azərbaycan və Gürcüstan hökumətlərinə də müraciət etdi. Aprel ayında Azərbaycan Respublikasının diplomatik nümayəndəsi Haqverdiyev Teymurxanşuradan xəbər verirdi ki, Dağıstanda Azərbaycana birləşmək hərəkatı genişlənib. Xarici İşlər Nazirliyinin 25 aprel tarixli məktubunda diplomatik nümayəndəyə bu hərəkatın genişlənməsi səbəbləri haqqında ətraflı məlumat verilməsi tapşırılırdı. Diplomatik nümayəndə cavab teleqramında göstərirdi ki, buradakı ictimai xadimlər müdafiə qüvvələrinin ümidsiz zəifliyi və hökumətin vəziyyəti düzəltməyə qadir olmadığını düşünür və Dağıstanın gələcəyini Azərbaycanla birləşməkdə görürlər (69, v. 1,5,10).

Azərbaycan hökuməti bilirdi ki, Denikin Dağlılar Respublikasını məhv etdikdən sonra növbəti hədəf Azərbaycan Respublikası olacaq. Azərbaycan Respublikası Nazirlər Şurasının sədri Fətəli xan Xoyski Denikinin hərəkətləri barədə General Tomsona etirazını bildirdi: Azərbaycanla dost Şimali Qafqazın dağlı xalqlarının iradəsinə və süveren haqlarına təcavüz Azərbaycan hökumətinin ən kəskin etirazına səbəb olmaya bilməz... hökumət şübhəsiz, bütün mümkün vasitələrlə dağlıların köməyinə gəlməyi özü üçün borc bilir (380, s.4, s.128).

Bu etiraz notası yalnız diplomatik demarş deyildi. Ölkə Dağıstana kömək üçün qüvvələrini birləşdirir, Denikinin təhlükəsinin qarşısını almaq üçün səfərbər olurdu. 1919-cu ilin aprel ayında Azərbaycan parlamentində Şimali Qafqaz hadisələri müzakirə edildi, Dağlılar Respublikasına kömək məqsədilə xüsusi komissiya yaradıldı. Komissiyanın 30 aprel tarixli "Qardaşlara və vətəndaşlara" başlıqlı müraciətində deyilirdi: Şimali Qafqazda öz əcdadlarına və kiçik xalqların azadlığı və müstəqilliyi prinsiplərinə sadiq olan azadlıqsevər dağlılar Denikinin və kampaniyasının mürtəce qüvvələri ilə qeyri-bərabər mübarizədə öz qanlarını tökürlər. Dağlıların öz istiqlallarını qəhrəmancasına müdafiə etməsi Azərbaycanlılarda zülmət və zülm mümməssili Denikinin Azərbaycanın özünün müstəqilliyinə rəhm etməyəcəyi şüuru doğurmalıdır. Hər bir müsəlmanın müqəddəs borcu nə qədər ki gec deyil, Dağlı qardaşlarımıza köməyə gəlməkdir. Partiyalararası komissiya dağlılara kömək məqsədi ilə təcrübəli zabitlərin komandanlığı altında könüllülər dəstəsi yaradır. Vətəndaşlar! Könüllülər sırasına daxil olun. Parlamentin binasında könüllü yazılmaq olar (380, s.4, s.171). Könüllü dəstələrindən başqa, təcili olaraq sanitar briqadaları da təşkil edilib, şimala yola salındı.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 191cu il 24 iyun tarixli məlumatında deyilirdi: Partiya və siyasi cərəyan fərqi olmadan Azərbaycan əhalisini ümumxalq qəzəbi bürüdü... Hər gün Azərbaycanın düşmənləri ilə mübarizə məqsədi ilə Könüllülər dəstələrinin yaranması haqqında məlumatlar daxil olur. Ziyalılar səs verdilər, fəhlələr tərpəndilər, hamı cəbhəyə getməyə hazır olduğunu bildirməyə başladı (86, v.10). Həmin günlərdə Yusif Vəzir Çəmənzəminli Azərbaycan qəzetində Xarici siyasətimiz silsiləsindən Denikin qorxusu adlı məqaləsini çap etdirdi. Ölkədə vətənpərvərlik ruhunun yüksəldiyi həmin günlərdə Yusif Vəzir yazırdı: Hökumətimizin ciddi tədbirləri Denikin qorxusunu Vətənimizdən uzaqlaşdırır. Bu yolda xalqımızın geniş dairəsi hökumətimizə kömək etməlidir. Xalq anlamalıdır ki, Denikin gəlsə, Vətənimiz alt-üst olacaqdır. Əvvəla, daxildə zidd qüvvələr bizə qarşı çıxacaq; ikinci, bolşeviklik meydan alacaqdır. Təcrübə göstərdi ki, Denikin ayağını basar yerlər bolşevik olur... Bu müsibətlər Vətənimizə üz verməmək üçün Denikinin qara qüvvəsi ilə həmişə mübarizəyə hazır olmalıdır (260, s.40-41).

İyun hadisələri vaxtı Bakıdakı bolşeviklər də hərəkətə gəldilər. Yusif Vəzirin dediyi kimi, bolşeviklik meydan almağa başladı. Bu canlanma sovet Rusiyasının vəziyyəti ilə bağlı idi. Çətin günlərini yaşayan bolşevik rejimi üçün Denikinin qüvvəsinin paylanmasının böyük əhəmiyyəti var idi, bolşeviklər istərdilər ki, Könüllü Ordu üçün Zaqafqaziyada da bir cəbhə açılsın. Ona görə də Bakı fəhlə konfransı iyunun əvvəllərindən Azərbaycan hökumətindən Denikinə muharibə elan etməyi tələb etdi.* Bakı fəhlə konfransının müraciətində deyilirdi: Bakı proletariatı Rusiya proletariatının köməyinə gəlməlidir. O, Denikinə qarşı inqilab cəbhəsinə qoşulmalıdır, bilməlidir ki, haradan gəlməsindən asılı olmayaraq, Denikinə vurulmuş hər bir zərbə Rusiya fəhləsinə qardaşlıq yardımıdır (9, s.172). Bir qədər sonra RSFSR xarici işlər Komissarıı G.Çiçerin və bu Komissarılığın Müsəlman Yaxın Şərq şöbəsinin müdiri N.Nərimanovun imzaları ilə Azərbaycan, Dağıstan və Gürcüstanın fəhlə və kəndlilərinə müraciət qəbul edildi, kobud şəkildə bu ölkələrin daxili işinə qarışaraq, onlar zəhmətkeşləri öz hakim siniflərinə inanmamağa və Denikinə qarşı mübarizəyə çağırdılar (9, s.258-260).

Şübhəsiz, Azərbaycan hökuməti Rusiya fəhləsinə qardaşlıq yardımı göstərmək üçün nəhəng Könüllü Orduya** qarşı müharibə elan edə bilməzdi. Hökumət Azərbaycanın başının üstünü almış təhlükəyə qarşı tədbirlər görməkdə davam edirdi. İyun ayının 11-də parlamentin qərarı ilə Nazirlər Şurasının sədrinin başçılığı altında Dövlət Müdafiə

---

* Bakı fəhlə konfransı may ayının 25-də hələ konstruktiv mövqe tutur, Denikinlə mübarizədə hökumətlə əməkdaşlıq edəcəyini bildirirdi: “Özünü türk demokratiyasının nümayəndəsi hesab edən, Azərbaycan Respublikasının müstəqilliyini müdafiə etmək vəzifəsini boynuna götürmuş və ixtiyarında dövlət aparatı olan Azərbaycan hökuməti bütün türk demokratiyasını, eləcə də Azərbaycan Respublikasının müstəqilliyini yer üzündən silməyə çalışan yaxınlaşmaqda olan təhlükə qarşısında özünün bütün gücünü toplamalı, bütün türk demokratiyasını ayağa qaldırmalı, bu təhlükənin qarşısını almaq üçün bütün canlı və texniki qüvvələrini səfərbər etməlidir. İşdə Denikin bandalarına qarşı mübarizə aparacaqsa, bütün Bakı proletariatı ixtiyarında olan hər bir vasitə və yollarla Azərbaycan hökumətini müdafiə edəcək” (9, s.146).

** 1919-cu ilin sentyabrında Denikin komandası altında 150 min silahlı əsgər və süvari, 500 top və 1900-dan artıq pulemyot var idi.

Komitəsi yarandı. Ona ümumi səfərbərlik həyata keçirmək, ölkədə hərbi müharibə vəziyyəti elan etmək, digər fövqəladə müdafiə tədbirləri görmək səlahiyyəti verildi. Elə həmin gün Dövlət Müdafiə Komitəsi Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət elan etdi. Hərbi vəziyyət rejiminin şərtlərinə əsasən ölkədə hərbi-səhra məhkəmələri yaradılır, milli düşmənçiliyə səbəb ola biləcək şayiələrə, hərbi hissələrin əməliyyatları haqqında yalan məlumat yaymağa, bahalığa səbəb ola biləcək tətillərin təşkilinə görə cəzanın şiddəti artırılır; qanunsuz mitinq və nümayişlər, icazəsiz silah gəzdirmək qadağan edilir; daxili işlər nazirinə ayrı-ayrı mətbuat orqanının nəşrini dayandırmaq hüququ verilirdi (7, s.1-3).

Azərbaycan Ordusu hissələri şimal sərhədi boyu cəmləşdirilir, Denikinlə əlaqəsi şübhə doğuran zabitlər ordudan təmizlənirdi. Onların yerinə Gürcüstandan zabitlər dəvət edildi. Denikinlə əlaqə saxlayan, Lənkəran və Muğanın işğalı üçün onun yanına nümayəndə heyəti göndərmiş (Denikin Lənkəran və Muğanın tutulması üçün bir dəstə göndərməyə söz vermişdi) Muğandakı hərbi silahlı dəstə ləğv edildi. Bakıda qiyam hazırlığı görən denikinçi təxribat qrupu tutuldu. Denikinin hücum təhlükəsi qarşısında Yalamadan Bakıya qədər dəmiryol xəttinin sökülməsi üçün tədbirlər müəyyən edildi, partizan hərəkatının təşkili, hətta paytaxtın müvəqqəti Gəncəyə köçürülməsi istiqamətində hazırlıq işlərinə başlandı (87, v.P - Pa; 93, v.20; 81, v. 16-17; 460, v.245).

Azərbaycan Respublikası hökuməti diplomatik fəaliyyətini Denikin təhlükəsinə qarşı yönəltdi. Paris sülh konfransında iştirak edən Azərbaycan nümayəndə heyəti gürcü nümayəndə heyəti ilə birlikdə Denikinin Dağlılar Respublikası üzərinə hücumunu pisləyən etiraz hazırladı və bu sənəd Antanta ölkələrinin başçılarına təqdim edildi. Eyni zamanda Dağlılar Respublikasının nümayəndə heyəti ilə birlikdə hələ may ayında başlanmış konfederativ əsaslarda iki ölkənin birləşməsi haqqında müzakirələr intensivləşdi (baxın, 4-cü fəsil §1).[*]

Baş nazir, hərbi nazir General Mehmandarovla birlikdə Tiflisə gedib, iyunun 16-da, Gürcüstan hökuməti ilə hərbi-müdafiə müqaviləsi bağladı. Bu müqavilə iyunun 27-də parlamentdə təsdiq edildi (baxın §3). Könüllü Ordunun

[*] Azərbaycan heyətinin başçısı Ə.M.Topçubaşovun iyun ayında Qafqaz məsələsi üzrə ingilis mütəxəssisi professor Simpsonla Denikinin Dağlılar Respublikası üzərinə hücumu ilə bağlı söhbəti maraqlıdır. Əli Mərdan bəyin Denikinin hücumundan narahatlığı qarşısında Simpson Dağlılar Respublikasının gələcəyinə şübhə etdiyini əlavə etmişdi, lakin Dağıstan sizindir və Denikin ona verilən səlahiyyətlərin həddini aşıb, sizə hücum etməyəcək”. (425, s.98).

irəliləməsi ilə bağlı Azərbaycan hökuməti ilə Müttəfiqlər arasında diplomatik təmaslar davam edirdi. Bir neçə gün əvvəl, iyunun 11-də Cənubi Qafqazdakı Britaniya qoşunlarının komandanı General B.Kori Azərbaycan hökumətinin başçısı N.Yusifbəyliyə yazdığı məktubda Britaniya hökumətinin General Denikinlə Qafqaz dövlətləri arasında demarkasiya (ayrılma) xəttini müəyyən etdiyini xəbər verirdi.

Yeni demarkasiya xətti Bzıb çayının mənsəbindən Suxumun sərhədinə, oradan şərqə doğru Suxum, Kutais, Tiflis və Dağıstan vilayətlərinin sərhədi boyu Petrovsk-Dağıstan dəmiryolunun 5 mil cənubuna, oradan cənub-şərq istiqamətində Petrovsk şəhərinin 5 mil cənubuna qədər uzanırdı. Məktubda göstərilirdi ki, "general Denikinə bu xətdən cənuba keçməməsi tapşırılıb, Qafqaz dövlətləri də bu xətdən şimala keçməməlidir" (9, s.168-169).

Britaniya hökumətinin müəyyən etdiyi demarkasiya xəttinə Denikin riayət etmiş olsa idi, Dağıstanın böyük hissəsi Azərbaycanın nüfuz dairəsinə keçmiş olurdu. Bu, Azərbaycanın böhrandan çıxması demək olardı. Lakin Şimali Qafqazdan gələn xəbərlər böhranın nəinki sovuşduğunu, əksinə, təhlükənin artdığını göstərirdi. Xarici İşlər Nazirliyinin 24 iyun tarixli məlumatında göstərilirdi ki, Dağlılar Respublikası hökumətinin sədri Kotsevin istefasından sonra parlament general Xəlilovu hökumət başçısı təyin etdi. İngilislərin razılığı ilə Petrovsk şəhərini General Prjevalski tutdu, ölkənin şimalında denikinçilərlə partizanlar arasında toqquşmalar baş verir, ölkənin mərkəzində isə bolşeviklər geniş iş aparırdılar. Denikin eşalonu Dağlılar Respublikası hökumətinin müqavimətinə rast gəlmədən mayın 25-də Petrovsk və Dərbənd şəhərlərinə daxil oldu. Denikinçilər Dağlılar Respublikası ərazisinin Könüllü Ordunun nəzarətinə keçdiyini elan etdilər. General Xəlilov parlamenti buraxdı. Denikin də öz növbəsində onu Dağıstanın hakimi təyin etdi (86, v.9).

Azərbaycan hökumətinin narahatlığı qarşısında Könüllü Ordunun Bakıdakı ingilis qoşunları qərargahındakı nümayəndəsi General Denikinin Azərbaycana loyal münasibətdə olduğunu bildirir, ingilis komandanlığı isə Könüllü Ordunun tezliklə Dağıstanı boşaldacağı haqqında vəd verirdi. Lakin bu bəyanatlara baxmayaraq, Denikinin Biləcərə qədər dəmiryol xəttini və Bakı limanını tutacağı və Qızılburunu sərhəd məntəqəsi hesab etməsi haqqında mətbuatda məlumatlar yayılırdı.

Qafqazı tərk etməkdə olan ingilislər Denikinə diplomatik təzyiqlərini artırır, onun Azərbaycan və Gürcüstanla münaqişəsinə yol verməməyə çalışırdı. Azərbaycan Respublikasının xarici işlər naziri avqustun əvvəlində Parisə yola düşmək ərəfəsində olan Müttəfiqlərin ali Komissarıı polkovnik Haskellə söhbəti zamanı Könüllü Ordu məsələsinin nisbətən yüngül həllinə diqqəti çəkərək qeyd etdi ki, mövcud vəziyyətdə Azərbaycanın təhlükəsizliyi üçün ən yaxşı

təminat Denikinin öz qoşunlarını Dağıstandan geri çəkməsi, əvəzində Azərbaycan hökumətinin onun arxasında təhlükəsizliyinin təmin etməsi olardı. Polkovnik Haskel ümid etdiyini bildirdi ki, yaxın günlərdə Parisdən Azərbaycanın Könüllü Ordunun hücumlarından qorunması təminatı haqqında xəbər olacaq. Şimali Qafqaz məsələsinə gəldikdə polkovnik Haskel hesab edirdi ki, bu məsələ çox mürəkkəb məsələdir, ola bilsin, onu tam həcmdə həll etmək mümkün olmasın (81, v. 18-19).

Britaniya nümayəndələrinin soyuqqanlı təminat vədlərinə baxmayaraq, General Denikin sovetlərə qarşı mübarizəsində böyük uğurlar dövrünü yaşayır və Antantanın qadağanlarının hamısına əməl etmək fikrində deyildi. Dağıstanlıların Azərbaycan Könüllüləri və keçmiş Osmanlı zabitlərinin (Nuru paşa və s.) köməyi ilə apardığı müqavimət, Generalı Azərbaycan və Gürcüstan sərhədinə qədər Dağıstanın qalan ərazilərini də işğal etməyə təhrik etdi. İngiltərə bu dəfə də Denikinə güzəştə getdi*. Avqustun 4-də demarkasiya xətti müəyyən edildi, bu xətt artıq Azərbaycan-Dağıstan sərhədi boyu keçdi. Yalnız bu vaxt General Denikin öz qüvvələrini şimalda qırmızılara qarşı son hücumlar üçün cəmləşdirmək məqsədi ilə Dağıstanda hərbi əməliyyatları dayandırdı. Denikin elə bu vaxt özünün regiondakı rəsmi nümayəndəsi General Baratova yazırdı ki, Zaqafqaziya Rusiyanın tərkib hissəsi hesab edilməlidir, amma yerli hökumətlərə hələ dözmək olar (472, s.153).

Britaniya hökumətinin müəyyən etdiyi demarkasiya xəttini pozması və başqa aqressiv hərəkətlərinin ingilislərin narahatlığına səbəb olduğunu görən Denikin onları sakitləşdirmək üçün polkovnik Lazarevi danışıqlar üçün Bakıya göndərdi. Lazarev Bakıda bəyan etməli idi: Biz Azərbaycanı Rusiyanın tərkib hissəsi hesab edirik, Rusiyada ali

---

* Azərbaycan Respublikası Nazirlər Şurasının sədrinə yazdığı məktubda hərbi nazir General Mehmandarov vəziyyətin ağırlığını təsvir edir, bu vəziyyətdən çıxmaq üçün yollar təklif edir, eyni zamanda ingilis nümayəndələrinin hərəkətlərindən də qəzəbləndiyini gizlətmirdi. Hərbi nazir göstərirdi ki, "Dağıstanın işğalı Azərbaycan üçün açıq təhlükədir, Qızılburun - Zaqatala xətti üzrə sərhəd iddiaları Könüllü Ordunun Azərbaycana münasibəti barədə şübhə yeri qoşur... Lakin məni Könüllü Ordunun hərəkətləri qətiyyən təəccübləndirmir, onun niyyəti açıq və aydındır, məni ingilis nümayəndələrinin ikiüzlü siyasəti və sonuncunun Azərbaycana xeyirxah münasibəti haqqında yalançı sözləri təəccübləndirir. Məktubun sonunda General Mehmandarov ingilislərin ona verdiyi ordeni geri qaytaracağını bildirir və əlavə edirdi: Mən belə bir ordeni daşıya bilmərəm, çünki onları Azərbaycanın düşməni hesab edirəm" (391, s.28-30)

hakimiyyətin bərpa edilməsinə qədər biz Azərbaycanın müstəqil varlığını qəbul edə bilərik. Lakin baş nazir N.Yusifbəyli ilə söhbətində polkovnik ilk cümləni ötürdü (ona görə də vəzifəsindən az sonra azad edildi) (460, s.245-246). Bununla belə, Azərbaycan hökuməti qəti inanmışdı ki, Denikinin son məqsədi Azərbaycanı və keçmiş Rusiya imperiyasının digər ərazilərini vahid və bölünməz Rusiya tərkibinə qatmaqdır.

Denikin diplomatiyası ingilislərin Azərbaycan hökumətinə verdiyi bir neçə hərbi gəmini almağa cəhd etdi. Azərbaycan hökuməti Denikinin tələbini rədd etdi. Elə bu zaman avqustun sonunda danışıqları davam etdirmək və Azərbaycanla saziş hazırlamaq üçün General Baratov Bakıya gəldi. Hökumət və parlament üzvləri ilə görüşən General Baratovla danışıqlar nəticəsiz qaldı. Rusiyanın ali hakimi Kolçakı təmsil edən Baratovla danışıqlarda Bakı və Rostov arasında birbaşa poçt və teleqraf rabitəsinin bərpası, Şimali Qafqazla Azərbaycan arasında dəmiryolu və dəniz əlaqəsinin nizamlanması, Şimali Qafqazdakı Azərbaycan nümayəndələrinin Bakı ilə kuryer əlaqəsində şəxsiyyətin və diplomatik yazışmanın toxunulmazlığı haqqında təlimat, Azərbaycan və Şimali Qafqaz arasında maliyyə-iqtisadi xarakterli saziş layihəsinin hazırlanması, Azərbaycan bayrağı altında Xəzər dənizində gəmiçiliyin nizamlanması təklif edildi. Bu danışıqlar bir nəticə vermədi. Azərbaycan hökumətinin başçısı Tiflisə yola düşdükdən sonra General Baratov da oraya gəldi.

Danışıqların ikinci mərhələsi burada başladı. Azərbaycanın baş naziri ilkin sazişin imzalanması üçün Könüllü Ordunun Dağıstanı, gürcü hökuməti isə Soçini boşaltması şərtini irəli sürdü. Tiflisdə general Baratova edilən sui-qəsd hadisəsindən sonra Bakıya Denikinin yeni nümayəndəsi - General Voskresenski göndərilməli idi (81, v.15).

İngilis qoşunlarının avqust ayında Qafqazı tam (Batum istisna olmaqla) tərk etməsindən sonra, 1919-cu ilin payızında Denikinin Azərbaycana təzyiqləri davam etməkdə idi. General Baratovla danışıqlar kəsildikdən sonra bir müddət onu Bakıda polkovnik Palitsın təmsil edirdi. Bir neçə həftədən sonra o da Bakını tərk etdi və bu ərəfədə Bakıdan getməyinin Denikinin ehtimal edilən hücumu ilə bağlı olduğunu deməyi də unutmadı. Psixoloji təzyiqləri artırmaq məqsədilə Denikin diplomatiyası Xəzər Donanması məsələsini qaldırdı. İngilislərdən alınmış hərbi gəmilər hesabına yaradılmış Azərbaycan Hərbi Donanması və ticarət gəmiləri milli bayraq altında üzürdü. 1828-ci il Türkmənçay müqaviləsinə əsaslanaraq, Denikin buna kəskin etirazını bildirdi və tələb etli ki, Azərbaycan ticarət gəmiləri rus bayrağı altında üzməli, hərbi gəmiləri isə heç dənizə çıxmamalıdır. Bu müqaviləyə əsasən Xəzər. dənizində ancaq rus hərbi və ticarət gəmiləri, eləcə də İranın ticarət gəmiləri üzə bilərdi. Azərbaycan hökuməti bu etiraza müvafiq etirazla cavab verdi və İranla Rusiya arasında nə vaxtsa bağlanmış müqavilənin ona dəxli olmadığını bildirdi (80, v.74).

Bu məsələ hələ bitməmiş Könüllü Ordu yeni təzyiqlərə əl atdı. Petrovskda yerləşmiş Azərbaycan Respublikasının konsul agentinə Azərbaycana daxil olmaq üçün əcnəbilərə icazə (viza) vermək qadağan edildi, sonra isə o, Petrovskdan çıxarıldı. Xarici İşlər Nazirliyinin məlumatından aydın olur ki, Şimali Qafqazdan icazəsiz (vizasız) Azərbaycana gəlmiş xeyli adam Bakı limanında gəmilərdə günlərlə gözləməli olurdu. Noyabrın 9-da Denikin heç bir əməli nəticəsi olmayan, yalnız Azərbaycana (eləcə də Ermənistana) münasibətini göstərən bir əmr verdi: Azərbaycan hakimiyyətinin rus Ordusuna düşmən münasibətini və Azərbaycan qoşunlarının Ermənistan torpaqlarına hücumlarını nəzərə alaraq, Azərbaycan qoşunlarında qulluq edən bütün rus Ordusu zabitlərinə onun (Azərbaycan Ordusunun -N.N.) sıralarını tərk etməyi əmr edirəm (425, s.116).

Denikinin Azərbaycana və Gürcüstana diplomatik təzyiqlərinin finalı 1919-cu il noyabrın 19-da bu ölkələrə iqtisadi blokada elan etməsi oldu. 171 №-li əmrində general yazırdı: “Mən Rusiya dövlətçiliyinin maraqlarına zidd olaraq yaranmış və Rusiya dövlətçiliyi ideyasına açıq-aşkar düşmən olan Gürcüstan və Azərbaycanın saxta qurumlarına bolşeviklərdən azad edilmiş Rusiya rayonları hesabına ərzaq əldə etmələrinə icazə verə bilmərəm” (37, 10.12.1919; 460, s.247).

İngilis diplomatiyası Denikinin bu təzyiqlərini təqdir etmir, mümkün olduğu qədər Generalın diqqətini şimala – bolşeviklərə qarşı cəmləşdirməyə çalışırdı. Bu məqsədlə ingilislər Denikinlə Azərbaycan Respublikası (həmçinin Gürcüstan) arasında münasibətləri normallaşdırmağa xeyli cəhd etdilər. Onlar Azərbaycanın Dağıstan məsələsində israrı qarşısında ümumi düşmənə qarşı Azərbaycanın Denikinə canlı qüvvə ilə kömək etməsi təklifini verdilər. Bu təklif Azərbaycan hökumətinin prinsipial - Rusiyanın daxili işlərinə qarışmamaq - xəttinə uyğun gəlmədiyi üçün qəbul edilə bilməzdi. Denikinin nəinki Dağıstan məsələsində, Azərbaycan istiqlalının tanınması məsələsində də vahid və bölünməz Rusiya mövqeyindən çıxış etməsi Könüllü Ordu - Azərbaycan münasibətlərində əsas ziddiyyətləri şərtləndirir, Denikinin zamanla qabarıb-çəkilən təzyiqləri fonunda müsbət bir dəyişiklik vəd etmirdi. Odur ki, Denikinin nümayəndələri Bakıdan əliboş qayıtdıqları kimi Azərbaycan Respublikasının Kuban hökuməti yanındakı diplomatik nümayəndəsi Cəfər bəy Rüstəmbəylinin fəaliyyəti də nəticəsiz qaldı (baxın: 83, v.16-19; 425, s.110-119).

1919-cu ilin oktyabr-noyabrında Rusiyada vətəndaş müharibəsinin gedişində dönüş yarandı. Moskvanı ələ keçirmək istəyilə alışıb-yanan Könüllü Ordu tezliklə ilk böyük məğlubiyyətin dadını gördü. Tulaya qədər gedib çıxan Denikin burada güclü müqavimətə rast gəldi, ilk böyük məğlubiyyətdən sonra sürətlə Cənuba doğru qaçmağa başladı. Qızıl Ordunun zərbələri altında Könüllü Ordu 1920-ci ilin yanvarında artıq Rostov şəhərindən vurulub çıxarıldı. Elə bu

vaxt RSFSR xalq xarici işlər komissarı K.Çiçerin Azərbaycan hökumətinə verdiyi notada nə qədər ki gec deyil, Denikinə qarşı mübarizəyə başlamağı məsləhət görüb, Denikinə qarşı hərbi ittifaq yaratmağı təklif etdi. Azərbaycan Respublikasının xarici işlər naziri F.Xoyski cavab notasında hökumətinin Rusiyaya münasibətdə tutduğu prinsipial mövqeyi - Rusiyanın daxili işlərinə qarışmadığını bir daha bildirdi (baxın: 4-cü fəsil, §2).

Bolşevik hücumları qarşısında sarsılmış Könüllü Ordu komandanlığının əvvəlki təkəbbüründən əsər-əlamət qalmamışdı. Könüllü Ordunun amansızcasına qırdığı dağlı xalqlarının və aylarla təzyiq altında saxladığı Azərbaycan və Gürcüstanın rəhminə indi ehtiyacı vardı. Hətta General Denikin Azərbaycan və Gürcüstanın müstəqilliyini tanıdığını belə elan etmək məcburiyyətində qalmışdı. Yeni dövlətlərə münasibətini müəyyən etmək haqqında Müttəfiqlərin təklifi qarşısında general demişdi: 1. Mən bolşevizmlə mübarizə aparan ucqarların faktiki hökumətlərinin müstəqilliyini tanıyıram, 2. ucqarların Rusiyaya qarşılıqlı münasibəti ümumrus hökuməti ilə ucqarların hökumətləri arasında bağlanacaq müqavilə ilə müəyyən ediləcək, bu paxt müttəfiq dövlətlərin vasitəçiliyi mümkündür" (425, s.177).

Mart ayında Denikin hərbi əməkdaşlıq məsələlərini müzakirə etmək üçün Azərbaycan və Gürcüstana Kovalyovun başçılığı ilə nümayəndə heyəti göndərdi. Gecikmiş danışıqlar bir nəticə verə bilməzdi. Aprelin 4-də General Denikin Könüllü Ordunun baş komandanlığından istefa verdi.

Mart ayından başlayaraq Könüllü Ordunun eşelonları Azərbaycana gəlməyə başladı. Şimal sərhədində tərksilah edilən Denikin Ordusu hissələri Gürcüstan sərhədlərində ölkədən çıxarıldılar. Dağılmış Könüllü Ordunun silahlarından bir hissəsini (15 milyon rubl dəyərində) Azərbaycan hökuməti aldı (56, v.4).

Lakin bütün bunlara baxmayaraq, 1919-cu ilin iyunundan etibarən Azərbaycanın varlığını təhdid etmiş Denikin Ordusunun məğlub olması Azərbaycan hökumətini sevindirmədi. Çünki ölkənin şimal sərhədində indi daha ciddi düşmən - qələbədən məst olmuş bolşevik dəstələri yığılmaqda idi.

## §5.
## AZƏRBAYCAN - İRAN MÜNASİBƏTLƏRİ

İstiqlal bəyannaməsindəki istiqlal və qonşu dövlətlərlə qarşılıqlı dostluq münasibətinin qurulması zərurəti prinsipləri Azərbaycanın cənub qonşusu İranla da normal münasibətlərin yaranmasını tələb edirdi. Azərbaycan torpaqlarının böyük hissəsinin İran daxilində olması bu iki ölkə arasında qurulacaq münasibətlərdə özünü göstərməli idi. Ona görə də İranla münasibətlərin tənzimlənməsi xüsusi yanaşma və ehtiyat tələb edirdi. Yusif Vəzir yazırdı: "Rusla İranın arasında Azərbaycan dövləti təşəkkül etdi. Rus qorxusuna qarşı Qafqaz orduları döşlərini sipər edərək durdular və duracaqlardır. İran da asudə nəfəs almağa başladı. Bundan sonra bu iki qonşu və islam dövlətləri arasında dostluq hüsulə gəlməlidir. İranla aramızda məshul və ixtilaflı bir məsələ yoxdur. İki qonşu dövlətin tərəqqisi yalnız dostluq ilə ola bilər. İran bizi tutarsa və bizi müstəqil deyə tanırsa, özü üçün şimal tufanına qarşı bir sipər qazanar (260, s.34).

Deyilən amil - Azərbaycanın parçalanmış vəziyyətdə olması və. onun şimalının istiqlalını elan etməsi çox tezliklə İranla ilkin diplomatik təmaslar zamanı özünü göstərdi. İran tərəfi Arazın şimalında Azərbaycan adlı dövlətin yaranması və onun gec-tez Cənubi Azərbaycana təsir edəcəyindən təşvişə düşdüyünü tezliklə biruzə verdi. 1918-ci ilin iyulunda Azərbaycanın İstanbulda olan nümayəndə heyəti buradakı digər nümayəndələrlə yanaşı, İran konsulluğuna da Azərbaycan Demokratik Respublikasının yaranması haqqında bəyannamə təqdim etmiş, İran konsulu isə bu bəyannaməni geri qaytararaq, ona əlavə olunmuş vərəqədə göstərmişdi ki, o, Azərbaycan adlı müstəqil dövlət tanımır (70, v.17).

Tehran hökuməti Şimali Azərbaycan təbəələrinin Təbrizdə öz nümayəndəliklərini yaratmasının qarşısını almağa, bu mümkün olmadıqda nümayəndəliyin fəaliyyətini məhdudlaşdırmağa çalışdı. Hələ Rusiya imperiyasının dağılmasından sonrakı ilk aylarda şimallılar Təbrizdə öz komitələrini yaratmış, bu komitə onların mənafeyinin müdafiəsi yolunda bəzi işlər görə bilmişdi. Türkiyə qoşunlarının General Andronikin Denstervil qüvvələri ilə birləşməsinə mane olmaq məqsədilə təcili Təbrizi tutması ilə həmin komitə Qafqaz İslam Cümhuriyyəti konsulluğuna çevrildi. Konsulluğa əvvəl Teymur bəy Məlik-Aslanov, sonra Yusif Ziya, daha sonra isə Rauf bəy başçılıq edirdi.

Türkiyə qoşunlarının Təbrizi tərk etməsindən sonra Tehran hökuməti bu konsulluğu bağladı (136, v.Z; 38, 14.05.1925).

İranlı Azərbaycanlıların (türklərin) qabaqcıl dairələri Azərbaycan Respublikasının yaranmasını sevinclə qarşıladılar. 1918-ci ilin iyulunda İstanbulda olan Azərbaycan nümayəndə heyətinin başçısı M.Ə.Rəsulzadə öz hökumətinin xarici işlər nazirinə yazırdı: "Mən burada İran azərbaycanlıları ilə görüşdüm. Onlar mənim köhnə yoldaşlarımdırlar. Azərbaycanın müstəqilliyinə (istiqlaliyyətinə) onların gizli sevgi bəslədiklərini hiss etdim... Onların çoxu İrandan əllərini üzüb, öz fikirləri var. Cənubi azərbaycanlılar burada türkçülük və Azərbaycançılığa dayanan cəmiyyət yaradıblar. Deyirlər ki, biz onları unuduruq (70, v.7; 97, v.7-8).

İran mətbuatında Arazın şimalında yaranmış yeni dövlətin adının düzgün müəyyən edilib-edilməməsi ətrafında geniş müzakirələr başlanmış, bəziləri həmin səhvin səbəbkarının Türkiyə olduğunu iddia edir, digərləri burada heç bir yanlışlığın olmadığını sübut etməyə çalışırdı. Bakıdakı mətbuat orqanları İran mətbuatının hücumlarına fəal cavab verir, Azərbaycan adını inhisara almağın əsassız olduğunu göstərir, yeni yaranmış dövlətin adının Azərbaycan olmasından İranda təşvişə düşməmələrini tövsiyə edirdi (37, 01.07.1919)*.

Yusif Vəzir Azərbaycan qəzetində yazırdı: Dövlətimizin Azərbaycan adlandığı sui-təfəhhümlərə (anlaşmazlığa-N.N.) səbəb oldu. Halbuki Təbriz əyalətinin, yəni İran Azərbaycanının İranın olub-olmaması barədə ortalıqda heç bir məsələ yoxdur. İranın hüququna təcavüz etmək fikrində deyilik, olmamışıq və olmayacağıq. Bizim tərəqqi və istirahətimizi təmin edən yalnız qonşularımız ilə dostluğumuz olacaqdır (260, s.35). İranın rəsmi diplomatik nümayəndələri Azərbaycan adına etiraz etməklə yanaşı (95, v.18), İranın şimalında müstəqil dövlətlərin, xüsusən müsəlman dövlətinin yaranmasını İranın mənafeyinə uyğun hesab edirdilər. İran diplomatları Rusiya ilə İran arasında

* Maraqlıdır ki, Bakıda S.S.Pişəvərinin redaktorluğu ilə nəşr edilən Azərbaycan qəzetinin (türkcə və farsca) başlığı altında Azərbaycan - cöze layənfəkke İran əst" (Azərbaycan İranın ayrılmaz hissəsidir) yazılırdı (45 a, № 6-7, 1954).

başqa bir bufer dövlətin, beləliklə özlərinin təhlükəsizliyi üçün əlavə amilin meydana çıxmasından məmnun olduqlarını bildirirdilər.[**]

Bir qədər sonra İranın Azərbaycana münasibətində kəskin dönüş yarandı. İran rəsmi nümayəndələri İranla Azərbaycanın vahid dövlət təşkil etməsinin hər iki ölkə üçün məqsədəuyğun olduğu tezisini ortaya atdılar.

İlk dəfə həmin tezis sülh konfransında iştirak üçün Parisə səfəri zamanı 1918-ci ilin sonlarında iki gün Bakıda qalmış İran nümayəndə heyəti tərəfindən irəli sürüldü. Nümayəndə heyətinin başçısı - İran xarici işlər naziri dünya müharibəsi qurtardıqdan sonra Azərbaycan üçün qeyri-münasib vəziyyətin yarandığını (Türkiyə ilə ittifaqda olduğunuz üçün Antanta sizə rəğbətlə yanaşmayacaq), qonşu gürcü, xüsusilə də erməni hökumətlərinin düşmən münasibətini nəzərə alaraq, Azərbaycan hökumətinin qonşularla birlikdə konfederasiya təşkil etmək ehtimalına şübhə ilə yanaşdığını göstərib, İranla Azərbaycan birləşməsinin hər iki tərəf üçün faydalı olacağını əsaslandırmağa çalışmışdı. Lakin Azərbaycanın bəzi nüfuzlu siyasi xadimləri (xüsusən Əhməd bəy Ağaoğlu) bu təklifi kəskin etirazla qarşılamış, onu İran diplomatiyasının hiyləsi kimi dəyərləndirmişdi (94, v.40-41).

İran xarici işlər naziri eyni məsələni 1919-cu ilin yanvarında İstanbulda olan Azərbaycan Respublikasının geniş səlahiyyətli yeni nümayəndə heyətinin başçısı Əli Mərdan bəy Topçubaşov qarşısında da qaldırmışdı. O, Əli Mərdan bəylə qeyri-rəsmi söhbətində İranla Azərbaycan Respublikasının birləşmək perspektivi barədə demişdi: Bununla mən demək istəmirəm ki, siz Tehrandan asılı vəziyyətə düşəsiniz, sizin Azərbaycan, əlbəttə, daxili muxtariyyətini saxlayacaq. Xarici siyasət sahəsinə gəldikdə isə, o, xüsusi rəsmi sənədlə müəyyənləşəcək. Əlbəttə, bütün bunlar konqresdə (Paris sülh konfransında - N.N.) rəsmi şəkil alacaq (94, v.53-55).

İran xarici işlər nazirinin təklifi Əli Mərdan bəy üçün gözlənilməz olmuş, o Azərbaycan Respublikasının suverenliyini ön plana çəkmiş, Azərbaycan siyasi xadimləri tərəfindən bu təklifin qəbuluna şübhə etdiyini bildirməklə yanaşı, Azərbaycanın təhlükəsizliyi baxımından onun diqqətəlayiq təklif olduğunu göstərmişdi.

---

[**] İranın xarici işlər naziri 1919-cu ilin yanvarında Azərbaycan nümayəndəsi ilə söhbətində Qafqazda yaranmış yeni dövlətlərə münasibət barədə deyirdi: “Biz bu respublikaların hamısını tanıyırıq. Xüsusilə sizin Azərbaycana rəğbətlə yanaşırıq. Mən artıq demişəm ki, biz nəinki sizin istiqlalınızın əleyhinə deyilik, hətta ona sevinirik. Bu bizim üçün bütün hallarda sərfəlidir, hər şeydən əvvəl bu, gələcək Rusiyaya qarşı müəyyən zəmanətdir (94, v.45).

İranla ilk diplomatik münasibətlər 1919-cu ilin yazında İsmayıl xan Ziyadxanın başçılığı ilə Tehrana Fövqəladə missiyanın göndərilməsi ilə quruldu. Bu missiya İran hökuməti ilə bir sıra əhəmiyyətli məsələlər üzrə ilkin danışıqlar aparmış, Azərbaycan Respublikasının Tehranda diplomatik nümayəndəliyinin (səfirliyin), Təbrizdə, İranın sərhəd və mərkəzi məntəqələrində konsulluqlarının yaranması məsələlərini müzakirə etmişdi (138, v.1).

1919-cu il iyulun 16-da Azərbaycan Respublikasının Nazirlər Şurası İran hökuməti yanında diplomatik nümayəndəliyin təsis olunması haqqında qərar qəbul etdi. 4 oktyabr tarixli qərarı ilə hökumət nümayəndəliyin ştatını təsdiq etdi. Tehrandakı nümayəndəliyin başçısı Adil xan Ziyadxan (bir sıra sənədlərdə Ziyadxanov) təyin edildi (150, v.30). Çar Rusiyasının keçmiş səfiri, sonra isə General Denikinin rəsmi nümayəndəsi olmuş Etter Azərbaycan nümayəndəsinin İrana gəlməsinə hər vasitə ilə mane oldu.*

Lakin rus səfirinin hər sözünun Tehran hökuməti üçün qanun olduğu dövr keçmişdi, onun sözünə artıq heç kəs məhəl qoymurdu. Azərbaycan nümayəndəsi Tehran hökuməti və İran şahı tərəfindən iltifatla qəbul edildi. İran şahı Tehran, Təbriz və b. şəhərlərdə Azərbaycan Respublikasının daimi rəsmi nümayəndəliklərinin yaradılması fikrini razılığını bildirdi. Yerli azərbaycanlılar diplomatik heyətin gəlişi münasibətilə ziyafət verdilər. Diplomatik

---

* Etter bir il əvvəl RSFSR hökumətinin nümayəndəsinin də Tehranda diplomatik işə başlamasına mane olmuşdu. Sovet hökuməti Xoydakı keçmiş çar konsulu Bravini özunün Tehrandakı nümayəndəsi təyin etmişdi. Lakin Bravin sovetlərə işləməkdən imtina etdi. Onda sovet hökuməti Bakı Xalq Komissarıları Sovetinin sədri Şaumyana onun adından Tehrana başqa bir nümayəndə göndərməyi tapşırdı. Şaumyan 1918-ci ilin iyulunda Kolomiysevin başçılığı ilə İrana diplomatik heyət təyin etdi. İran hökuməti sovet diplomatik heyətinin Tehrana gəlib çıxmasını çox pis qarşıladı. O, Kolomiysevin heyətini tanımaqdan imtina etdi. Çar səfirinin də birbaşa təhriki ilə sovet missiyasının binası darmadağın edildi. 1919-cu ilin yayında həmin Kolomiysev yenidən İrana göndərildi, az sonra onu yolda Aşur-adada güllələdilər (369, s.66-67). Sovet nümayəndə heyətinin əlində 16 maddəlik bir müqavilə layihəsi vardı və bu layihədə İran tarixçisinin yazdığına görə, yeni sovet rejimini tanımaq müqabilində Qafqaz Azərbaycanının bir hissəsin İran dövlətinə verilməsi haqqında maddə də var idi (479, s.254).

nümayəndəlik Azərbaycanla İran arasında ticarət əlaqələri, iqtisadi və hüquqi sahələrdə bağlaşmalar işləyib hazırlamaq məqsədilə ilkin danışıqlara başladı (156, v.30-31; 460, s.229).

Diplomatik nümayəndəlik Naxçıvanda vəziyyətin normallaşdırılması ilə də məşğul olurdu. Tehran, ingilis və ermənilərin təhrikilə Naxçıvan və ətrafından 60 mindən çox yerli əhalini İrana köçürməyi, beləliklə, Naxçıvanı zəiflədib, ermənilərin planlarının gerçəkləşməsi üçün münasib şərait yaratmağa meylli idi. Nümayəndəlik Naxçıvandan didərgin düşənlərə yardım etməklə yanaşı, Naxçıvan üzərinə hücumlarda İran ermənilərinin də fəal iştirakını Tehran hökumətinin nəzərinə çatdırır, bunun qarşısını almağı ondan tələb edirdi. Azərbaycanın Tehrandakı səfiri Xarici İşlər Nazirliyinə məlumat verirdi ki, İran hökuməti müvafiq tədbirlər görməkdədir (127, v.114; 163, v.55).

İran nümayəndələri ilə diplomatik təmaslar Parisdə də davam edirdi. 1919-cu ilin oktyabrında Azərbaycan nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşovun İran xarici işlər naziri Əliqulu Müşavirülməmalik Ənsari ilə görüşləri adətən anlaşmazlıq şəraitində keçirdi. Sovet Rusiyasının İranla qeyri-bərabər müqavilələri ləğv etməsindən istifadə edərək, İran 1919-cu ilin əvvəllərində Paris konfransına böyük iddialı rəsmi memorandum vermişdi.

İran bu memorandumda Bakı, Dərbənd, Şəki, Şamaxı, Gəncə, Qarabağ, Naxçıvan və İrəvanı tələb edir, öz tələbini buranın müsəlman əhalisinin əksəriyyətinin İran mənşəli və İran irqindən olması ilə əsaslandırırdı. Yuxarıda nəzərdən keçirdiyimiz Naxçıvan hadisələrinin mahiyyəti də təhrif edilərək, memorandumdakı tələbləri əsaslandırmaq üçün istifadə edildi: ... bundan başqa, bu əyalətlərin əhalisinin böyük qismi bu yaxınlarda onu müdafiə haqqında Tehran hökumətinə müraciət etmiş və İrana qayıtmaq arzusunu bildirmişdir”.(460, s.266).

Birinci dünya müharibəsində heç bir rolu olmayan İranın fantastik torpaq iddiaları ciddi qarşılanmamışdı, 1919-cu ilin 9 avqust tarixli ingilis-İran müqaviləsinin imzalanmasından sonra onun nümayəndələri konfransın işinə yaxın buraxılmadılar. Bu müqaviləyə görə, İran Ordusunun yenidən qurulması və yollar çəkilişinə sərf ediləcək borc müqabilində böyük hüquqlara malik İngiltərə mütəxəssisləri ümumi razılığa əsasən İran idarələrində yerləşdirilməli idilər (254, s.67).

Sentyabr ayında yeni xarici işlər naziri Firuz Mirzənin nümayəndə heyətinin başçısı sifəti ilə Avropaya gəlməsindən sonra İran heyətinin Azərbaycan istiqlalına münasibəti tam dəyişdi. Bu əsasda İran və Azərbaycan heyətlərinin görüşlərində iki ölkə arasında ittifaq yaranması haqqında sənəd qəbul edildi. Noyabr ayının 1-də Azərbaycan nümayəndə heyəti tərəfindən təqdim edilən bu sənəd aşağıdakı bəndlərdən ibarət idi:

1.Qafqaz Azərbaycanı Rusiyada hər hansı forma və şəkildə hakimiyyət və quruluşun yaranmasından asılı olmayaraq, Azərbaycan nümayəndə heyətinin sülh konfransına təqdim etdiyi tələb və xəritələrdə göstərilmiş torpaqları ilə Rusiyadan birdəfəlik və qəti surətdə ayrılır.

2.1918-ci il mayın 28-dən etibarən Qafqaz Azərbaycanının göstərilən hüdudlarında mövcud olan Azərbaycan Respublikası paytaxtı Bakı şəhəri, ümumi seçki hüququ əsasında Azərbaycan hökuməti tərəfindən çağırılan Azərbaycan Müəssislər Məclisinin təsdiqindən sonrakı qanunlar çərçivəsində fəaliyyət göstərən seçkili Prezident və Parlamenti olmaqla müstəqil, suveren, demokratik respublika kimi tanınır.

3.Azərbaycan Demokratik Respublikası qonşu İran dövlətilə siyasi-iqtisadi əlaqə yaradır, bu əlaqənin əsasları və formaları, eləcə də yolları iki dövlətin parlamentlərinin təsdiqilə İran və Azərbaycan hökumətləri tərəfindən qarşılıqlı razılığa əsasən işlənib hazırlanır və müəyyən edilir. Özu də İran və Azərbaycan hökumətlərinin xarici işlər sahəsində fəaliyyətlərinin birləşdirilməsi arzu olunur.

4.I və II bəndlərdə yuxarıda göstərilən məqsədlərə nail olması, Azərbaycan Respublikasının istiqlalının tanınması, onun müstəqilliyi və bütovlüyünə hər hansı qəsdin xətərsizləşdirilməsi işində Azərbaycan Respublikası İrana göstərilən kömək timsalında onun siyasi, iqtisadi, mədəni inkişafına və hərbi qüvvələrinə, İngiltərənin həqiqi köməyinə möhtacdır (427, s.87-88).

Azərbaycan nümayəndə heyəti bu müqavilədə qoyulan müddəalara birdən-birə, gözübağlı gəlməmişdi. Bir il əvvəl İstanbulda çap etdirdiyi Azərbaycanın təşəkkülü adlı əsərində Ə.M.Topçubaşov İran barədə yazırdı (dili sadələşdirilmişdir): ... bu gün qonşu İran dövləti mədəniyyət baxımından dindar və dövlət təşkilatı etibarı ilə zəif buluşuna görə Qafqaz Azərbaycanı üzərində heç bir təsir icra edə bilmək vəziyyətində deyildir. Baxüsus, Azərbaycan kəndi dövlət təşkilatını müasirləşdirməyə və həyatını mədəni, siyasi və dini hürriyyət prinsiplərinə görə qurmağa çalışdığı bir zamanda, İranın bu qaydalardan indi pək uzaq və tamamən biganə qalmış olduğu meydandadır (229, s.26-27).

Qafqaz konfederasiyası ideyasının faktiki olaraq iflası, Müttəfiq qoşunlarının Azərbaycandan çəkilməsi, milli mümasibətlərin kəskin olduğu Cənubi Qafqaz üzərində İtaliyanın müvəqqəti mandatı hüququndan imtina etməsi, Denikin təhlükəsinin Azərbaycanı təhdiddə davam etməsi, yeni yaranmış dövlətlərin istiqlalının tanınması sahəsindəki qeyri-müəyyənlik 1919-cu ilin payızında Azərbaycan nümayəndə heyətini ölkənin xaricdən təhlükəsizliyinə nail olmaq məsələsində İran amilindən istifadəyə sövq edirdi.

Əli Mərdan bəy Nazirlər Şurasının sədrinə yazırdı: Biz, əlbəttə, İranın müasir vəziyyətini, o cümlədən onun İngiltərə ilə bağladığı və bizim incəliklərinə qədər təhlil etdiyimiz 9 avqust tarixli müqaviləni (bu müqavilə 1921-ci ilin əvvəllərində ləğv edildi - N.N.) nəzərə alırıq (427, s.88). Bununla belə, Azərbaycan nümayəndə heyəti, heç şübhəsiz, onu da nəzərə alırdı ki, İranla konfederasiya tipli birliyin yaranması və müqavilə layihəsində irəli sürülmüş başqa müddəaların da həyata keçməsi suverenliyini saxlayacaq Şimalın onillərlə cənubla birləşərək həsrətinə son qoya, başının üstündə oynayan Damokl qılıncından (Rusiya təhlükəsindən) canını qurtarmaq imkanı yarada bilərdi.

Paris və Londonda başlanmış danışıqları davam etdirmək üçün dekabrın əvvəlində Seyid Ziyaəddin Təbatəbainin (Seyid Ziyanın) başçılığı ilə Bakıya İran fövqəladə nümayəndə heyəti gəldi. Nümayəndə heyətini Azərbaycan hökuməti təntənəli şəkildə qarşıladı. Dekabrın 5-də başlanmış danışıqlar daha sonra xüsusi komissiyalarda (siyasi-hüquqi, gömrük-ticarət-tranzit, poçt-teleqraf) davam etdirildi.

Azərbaycan-İran konfransının açılışında nümayəndə heyətlərinin başçıları pafoslu nitqlər söylədilər. Azərbaycanın xarici işlər naziri M.Y.Cəfərov qonşu dövlətin diplomatik heyətini salamlayıb, danışıqların uğurlu keçəcəyi ümidini bildirdi: Burada hamının inandığı kimi, bu konfrans öz işini uğurla başa vura bilər, çünki İran və Azərbaycanı bir-biri ilə çoxlu amillər bağlayır və bu amillər o qədər çoxtərəfli və möhkəmdir ki, onları heç kəs ləğv edə bilməz. İndi İranla Azərbaycan arasında təkcə siyasi və iqtisadi deyil, eyni zamanda mədəni, dini və irqi ümumiliklər mövcuddur. Bütün bunlar Azərbaycan-İran konfransının nəticəsiz qalmayacağı, əksinə, Azərbaycan Respublikası ilə İran arasında münasibətlərdə bir mərhələ olacağına kifayət qədər əsas verir (128, v.Z). İran nümayəndə heyətinin başçısı eyni fikirləri bölüşdüyünü, iki ölkə arasında "tarixi və qohumluq əlaqələrinin" olmasının danışıqların müsbət nəticələnəcəyinə səbəb olacağını bildirdi (58, v.6).

Siyasi-hüquqi komissiyada əsas mübahisə obyekti İranda yaşayan Azərbaycan təbəələrinə kapitulyasiya (təslimçilik) rejiminin üstünlüklərindən istifadə etmək hüququnun verilməsi tələbi idi. Bu, İranla ticarət aparan Bakı tacirlərinin Azərbaycan hökumətindən istəklərinə cavab idi (124, v.51,77). İran tərəfi ölkəsinin bu rejimi rəsmən ləğv etdiyi, bu qeyri-bərabər təhqiramiz rejimin qalıqlarını tezliklə tam ləğv etmək niyyətində olduğunu söyləyib, hər iki ölkənin bu məsələdə beynəlxalq hüquq normalarına əsaslanmasını təklif etdi. Azərbaycan Respublikasının hərbi və xarici işlər nazirlərinin israrı ilə bu məsələ gündəlikdən çıxarıldı və qərara alındı ki, komissiya hər iki dövlətin vətəndaşlarının təhlükəsizliyini təmin edən, iki dövlətin qanunlarına əsaslanan hüquqi sənəd hazırlasın (162, v.7-11).

Azərbaycan-İran konfransında digər məsələ sərhədboyu şahsevən tayfalarının sərhəd pozuntuları və talançı hücumları ətrafında meydana çıxdı. İran tərəfi şahsevənlər arasında təbliğat işində Azərbaycan Respublikasının nümayəndələrini ittiham edir, Azərbaycan tərəfi isə sərhədyanı kəndlərə talançı basqınların qarşısını almağı tələb edirdi. Komissiyanın işi gedişində məlum oldu ki, şahsevənlər arasında qarışıqlığın yaranması bolşevik təbliğatçıların fəaliyyəti ilə bağlıdır (162, v.5-6; 163, v.46-49; 138, v.1). Qarşılıqlı razılaşma əsasında 1920-ci ilin yanvarın sonlarında Azərbaycan hərbi hissələri sərhədi keçib, İran ərazisində şahsevən silahlı dəstələrini darmadağın etdi və yanvarın 31-də Qaradonluya geri qayıtdı (119, v.2).

Azərbaycan Respublikası ilə İran arasında diplomatik danışıqlar 1920-ci il mart ayının 20-də bir sıra sazişlərin - teleqraf, ticarət-gömrük, poçt sazişlərinin və konsul konvensiyasının qəbulu ilə başa çatdı (302, s.4,5,13). Həmin gün Azərbaycan Respublikası və İran Şahənşahlığı arasında dostluq haqqında da müqavilə imzalandı. Dostluq müqaviləsinin birinci maddəsi Azərbaycan Respublikasının (Qafqaz) istiqlaliyyətinin təntənəli surətdə tanınması, ikincisi - iki dövlət arasında dostluq münasibətlərinin və iqtisadi əlaqələrin əsasını qoyan sazişlər haqqında, üçüncüsü isə iki dövlət arasında səfirlik (diplomatik nümayəndəlik) səviyyəsində diplomatik əlaqələrin yaranması haqqında idi (139, v.2-3)*.

1920-ci illərin əvvəllərindən etibarən Azərbaycan Demokratik Respublikasının Xarici İşlər Nazirliyi İranın bir sıra şəhərlərində rəsmi nümayəndəliklər şəbəkəsi yaratmağa başladı. Fevral ayının 2-də Azərbaycanın xarici işlər nazirinin müavini İranın Azərbaycandakı nümayəndəsinə yazdığı məktubda Ənzəli, Təbriz, Məşhəd və Rəşt şəhərlərində Azərbaycanın konsul agentlikləri yaratmaq niyyətində olduğunu bildirdi (163,v.29). Fevral ayının 4-də Məmməd bəy Xəlilov Ənzəlidə vitse-konsul təyin edildi (158, v.23; 150, v.20).

Bir qədər sonra Azərbaycanın o zamankı xarici işlər naziri F.Xoyski 1920-ci ilin aprel ayının 1-dən etibarən Azərbaycan Respublikasının Təbrizdə baş konsulluğunun, Rəştdə konsulluğunun, Məşhəd şəhərində vitse-

---

* Hələ fevral ayının 17-də İranın Xarici İşlər Nazirliyinə göndərdiyi notada Azərbaycanın xarici işlər naziri Fətəli xan Xoyski təklif edirdi ki, iki müstəqil dövlət arasındakı münasibətlərə uyğun olaraq, Bakıdakı İran konsulunun statusu diplomatik nümayəndə (səfir) statusuna yüksəldilsin (163, v.45).

konsulluğunun, Əhər və Xoy şəhərlərində konsul agentliklərinin təsis edilməsi haqqında parlamentə müraciət etdi (150, v.30-31).

Yanvar ayının 4-də Azərbaycan Respublikasının ilk səfiri A.Ziyadxanın Tehrana gəlməsi ilə Azərbaycan nümayəndəliyi geniş fəaliyyətə başladı. Diplomatik nümayəndəliyə xas olan vəzifələrlə yanaşı, A.Ziyadxanın başçılığı ilə Azərbaycan nümayəndələri İranda yaşayan azərbaycanlıların mədəni-maarif işinə yardım etməyə başladılar. Səfir xarici işlər nazirinə yazırdı ki, nümayəndəliyin maddi imkanı olmadığından o, ehtiyacı olan dul qadınlara və yetimlərə kömək etmək, türk dilində məktəb açmaq, türkcə qəzet nəşr etmək və s. işləri görə bilmir. Bununla belə, o yazırdı ki, xeyriyyə cəmiyyəti və Azərbaycan türkcəsini öyrədən cəmiyyətin yaradılması işinə başlamışdır. Bundan başqa, nümayəndəlik yerli soydaşlar arasında pulsuz olaraq ana dilində A.Ziyadxanın Azərbaycan tarixi, ədəbiyyatı və siyasəti adlı kitabını yayırdı (136, v.47).

Səfirliyin hələ mart ayının əvvəlindəki məktubunda göstərilirdi ki, İran Azərbaycanında İrandan ayrılmaq və Azərbaycan Respublikasına birləşmək istiqamətində hələ zəif də olsa, təbliğat gedir. Azərbaycan Respublikası yaxın gələcəkdə İranda baş verəcək hadisələrə hazır olmalı, bu hadisələrdən öz maraqları xeyrinə istifadə etməlidir (147, v.18).

Aprel ayının 11-də yazdığı məktubunda A.Ziyadxan İrandakı vəziyyəti belə xarakterizə edir: İran sürünür; kütləvi rüşvətxorluq və vəzifələrə təyinat zamanı açıq alver; nəticədə xalqın insafsızcasına soyulması; məhkəmə və ədalət deyilən şey yoxdur; keçmiş əzəmətdən əsər-əlamət qalmayıb, yeni mədəniyyət və abadlıq görünmür; hər yanda yoxsulluq və natəmizlik... Farsların bizim respublikaya münasibəti o qədər də yaxşı deyil, əksinə-İran Azərbaycanı türklərinin münasibəti qardaşcasına, dostcasınadır. İran Azərbaycanı muxtariyyətə, müstəqilliyə və Farsistandan ayrılmağa can atır”(136, v.47-133, v.37).

A.Ziyadxanın aprelin 12-də xarici işlər nazirinə yazdığı məktub bu dövrdə Cənubi Azərbaycanda gedən siyasi proseslərə Azərbaycan nümayəndəliyinin böyük marağını göstərirdi. Azərbaycan səfiri yazırdı: İran azərbaycanlıları açıq deyirlər ki, Azərbaycan azərbaycanlılar üçündür və nə vaxta qədər Tehrandan göndərilən fars hakimlərini dolandıracağıq. Onların yeganə məqsədi bədbəxt Azərbaycan xalqının şirəsini sormaqdan, qarət olunmuş xalq pulları ilə Tehranda saraylar tikib, bağlar salmaqdan ibarətdir (136, v.50).

Azərbaycan Respublikasının səfirinin bu məktubları Təbrizdə başlamış hərəkatın müjdəçisi idi. Şeyx Məhəmməd Xiyabaninin başçılığı altında Təbriz artıq milli-demokratik qüvvələrin əlinə keçmişdi (hadisələrin sonrakı

inkişafı və Şimalla Cənub arasındakı münasibətləri haqqında baxın: 254, s.70-73). Lakin bundan sonra Cənubi Azərbaycanda hadisələrin sonrakı inkişafı və nümayəndəliyin fəaliyyəti barədə daha məlumat ala bilməyəcəyik, çünki Şimali Azərbaycanda iki həftədən sonra hadisələr artıq başqa axarda getməyə başladı.

* * *

Azərbaycan Respublikasının 1917-1920-ci illərdə xarici siyasətinin üstün istiqamətlərindən biri Qafqazda yaranmış yeni dövlətlər, eləcə də İranla normal qonşuluq münasibətlərinin qurulması və bölgədə əmin-amanlığın bərqərar edilməsi idi. Azərbaycan Respublikası bütün qonşuları ilə diplomatik münasibətlər qurdu, Qafqaz dövlətləri bir-birinin müstəqilliyini qarşılıqlı tanıdı. Azərbaycan qonşu ölkələrin hamısında diplomatik nümayəndəliklər (səfirliklər) yaratdı. Ermənistan istisna olmaqla digərləri ilə 1920-ci ilin əvvəllərinə doğru artıq mehriban qonşuluq münasibətləri yaranmışdı.

Gürcüstanla ərazi-sərhəd, bon, Qafqaz canişinliyinin əmlakının bölüşdürülməsi və b. məsələlərdə mübahisələrin yaranmasına baxmayaraq, bir çox məsələlər danışıqlar yolu ilə həll edildi, ərazi-sərhəd məsələsinin birdəfəlik həllinin isə beynəlxalq arbitraj missiyası daşıyacaq Paris sülh konfransına keçirilməsi haqqında razılıq əldə edildi. Azərbaycanla Gürcüstan arasında hərbi-müdafiə müqaviləsi iki ölkənin köklü məsələdə - müstəqilliyin qorunub saxlanmasında strateji maraqlarının üst-üstə düşməsinin göstəricisi idi. Azərbaycan hökumətinin təklif etdiyi Qafqaz (Zaqafqaziya) konfederasiyası region dövlətlərinin müstəqilliyinin qorunub saxlanması və burada əmin-amanlığın bərqərar olmasında səmərəli vasitə ola bilməsinə baxmayaraq, bilavasitə erməni təxribatları nəticəsində gerçəkləşə bilmədi.

Erməni elementi 1918-1920-ci illərdə Qafqazda başlıca qeyri-stabillik amili oldu. Ermənilər regionda özlərini, F. Kazımzadənin qeyd etdiyi kimi, böyük imperialist millət kimi apardı, Türkiyəyə qarşı ağlagəlməz tələblər irəli sürüb, Gürcüstan ilə müharibə apardı, Azərbaycanla isə parlament hərbi və siyasi-diplomatik konflikt halında oldu (460, s.215). Ermənilər Qafqaz birliyi qarşısında əsas maneə oldular, bir gözlərini Qafqazın şimalına (Denikinə, bolşevik Rusiyasına), digərini xristian qayğısı umduqları Qərb ölkələrinə dikdilər, Qafqazda, demək olar, təcrid olunmuş vəziyyətə düşdülər.

Bütün qonşuları ilə düşmənçilik edən ermənilərin yürütdüyü siyasət nəticəsində Cənubi Qafqazda yüzlərlə yaşayış məskəni dağıdıldı, minlərlə dinc sakin məhv edildi, on minlərlə evsiz-eşiksiz qaçqın yarandı. 1918-1920-ci illər

Azərbaycan-Ermənistan münasibətləri tarixinin bəlkə də ən ağır, qanlı dövrüdür. Bir qayda olaraq bu gərginliyin və iki ölkə arasında daimi müharibənin səbəbkarı erməni hökuməti idi. Sərhəd məsələlərinin yalnız Paris sülh konfransında həll ediləcəyi haqqında Müttəfiqlərin bəyanatları erməni tərəfini konfransın qərarınadək Qarabağ, Zəngəzur, Naxçıvan, Göyçə və b. bölgələrdə etnik təmizləmə həyata keçirməyə həvəsləndirirdi. Qeyd etmək lazımdır ki, Müttəfiqlərin Zaqafqaziya ölkələri arasında münasibətlərin yaranmasında və qanlı toqquşmaların yatırılmasında müsbət rollarına baxmayaraq, onların Qafqazı işğal etdikləri vaxt burada əmin-amanlığı bərpa edəcəkləri barədə verdikləri vədlər özünü doğrultmadı. Müttəfiqlərin missiyası bu sahədə uğursuz oldu.

Bütün cəhdlərinə və müvəqqəti uğurlarına baxmayaraq, ermənilər iddia etdikləri Qarabağ, Zəngəzur və Naxçıvanda möhkəmlənə bilmədilər. 1920-ci ilin aprel işğalı ərəfəsində bu torpaqlar Azərbaycan hökumətinin nəzarəti altında idi. Azərbaycan Demokratik Respublikasının ərazisi 97,3 min kv. kilometr idi. Şimalda sərhəd Samur çayı və Baş Qafqaz sıra dağları boyunca uzanırdı. Qərbdə Gürcüstanla sərhəd xətti bugünkü Şimali Azərbaycan sərhədlərinə uyğun gəlirdi. Yeganə uyarsızlıq Borçalı ilə Qazax mahalları arasındakı sərhəd xəttində idi - o, Poyludan keçirdi. Ermənistanla sərhəd sonra Göyçə gölünə qədər cənuba doğru uzanır, Göyçə gölünün ortasından keçir, Basarkeçər və Zəngəzuru da içinə alaraq, Baş Noraşenin qərbində Türkiyə sərhəddinə çıxırdı (əlavələr hissəsindəki xəritəyə baxmaq olar).

Borçalı, Qarayazı və Sıqnax mahallarının elliklə Azərbaycan türkləri yaşayan 8,7 min kv. kilometrlik ərazisi mübahisəli zona kimi qalırdı. Ermənistan Respublikasının tabeliyində olan İrəvan, Eçmiədzin, Sürməli, Yeni Bəyazid mahallarının müvafiq hissələri (7,9 min kv. kilometr) də Azərbaycan hökuməti tərəfindən mübahisəli ərazi hesab edilirdi. Mübahisəli ərazilərlə birlikdə Azərbaycan Respublikasının ümumi sahəsi 113.895,97 kv. kilometr qəbul edilirdi (7, s.50). Azərbaycanın Paris sülh konfransında iştirak edən nümayəndə heyəti yerli əhalinin milli tərkibi və təyini-müqəddərat hüququ əsasında bu torpaqlardan başqa Azərbaycana meyl edən Dağıstan, Qars, Axalsıx və Ərdəhanın da taleyinin ədalətli həllinə çalışırdı (əlavələr hissəsindəki xəritəyə baxmaq olar).

## DÖRDÜNCÜ FƏSİL

## AZƏRBAYCAN İSTİQLALININ TANINMASI VƏ İTİRİLMƏSİ

### AZƏRBAYCANLI NÜMAYƏNDƏ HEYƏTİNİN PARİS SÜLH KONFRANSINDA İŞTİRAKI

1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının xarici siyasətinin başlıca məqsədi Azərbaycanın müstəqilliyinin gerçəkləşməsindən ibarət idi. Qonşu ölkələrin Azərbaycan istiqlalını tanıması müstəqilliyin dönməzliyinin təmin edilməsi üçün kifayət deyildi. Hesab edilirdi ki, dünyanın o vaxtkı ən böyük dövlətləri tərəfindən Azərbaycanın müstəqilliyinin tanınması əski metropoliyanın (ağ və qırmızı Rusiyanın) iddiaları və birbaşa təcavüzü qarşısında önəmli rol oynaya bilər. Xarici siyasətin ana xəttini təşkil edən bu vəzifənin həyata keçməsində Azərbaycan istiqlalının tanınması və qorunub saxlanmasında Qərb ölkələrinin himayəsini əldə etmək işinə ölkənin ən nüfuzlu şəxsləri cəlb edilmiş, bu sahəyə birinci dərəcəli əhəmiyyət verilmişdi.

Yuxarıda deyildiyi kimi, hələ müharibə gedişində İstanbulda beynəlxalq konfransın çağırılması nəzərdə tutulurdu. Burada yeni yaranmış dövlətlərin taleyi məsələsinə də baxılacaqdı. Bu konfransda iştirak etmək, eləcə də Türkiyə ilə münasibətlərdə Azərbaycanı təmsil etmək üçün iyun ayında M.Ə.Rəsulzadənin başçılığı ilə İstanbula yeddi nəfərdən ibarət nümayəndə heyəti göndərildi.

Lakin İstanbul konfransının açılışının təxirə salınması və çox keçmədən onun baş tutması ehtimalının heçə enməsindən sonra nümayəndə heyəti geri döndü. Azərbaycan hökumətinin üzvü Ə.M.Topçubaşov (Topçubaşı) İstanbul, Vyana və Berlinə, eləcə də Ermənistan və Gürcüstanın mərkəzlərinə səlahiyyətli səfir təyin edildi. Azərbaycan hökumətinin Əli Mərdan bəyə verdiyi mandata görə o, Azərbaycanın maraqları ilə bağlı geniş səlahiyyətlərə malik idi.

1918-ci ilin sentyabr ayının sonlarında İstanbula gələn Topçubaşov müxtəlif ölkələrin burada olan rəsmi nümayəndələri ilə görüşmüş, müxtəlif siyasi məsələlər ətrafında onlarla fikir mübadiləsi etmiş, onlara Azərbaycan Respublikasının yaranması, hazırkı vəziyyəti və ölkələrilə diplomatik əlaqələr yaratması arzusu məzmununda rəsmi memorandum təqdim etmişdi (bu barədə geniş məlumat almaq üçün baxın: 22, s. 8-147;257, s. 120-149).

Memorandumda Qafqazın coğrafiyası, onun çar dövründə inzibati bölgüsü və regionun demoqrafik vəziyyəti haqqında rəsmi statistik məlumatlar verilirdi.

Topçubaşov göstərirdi ki, rus statistikası Qafqazdakı müsəlman əhalisinin sayını qəsdən azaltmasına baxmayaraq, burada onun hakim element olduğunu gizlədə bilməmişdir: Zaqafqaziyanın 7,6 milyon nəfərdən ibarət olan ümumi əhalisinin 3,3 milyonunu müsəlmanlar, 1,8 milyonunu ermənilər, 1,6 milyonunu gürcülər təşkil etmişdir. Müsəlman əhalisinin əksəriyyəti - 2,7 milyonu da Azərbaycan türklərindən (tatarlardan) ibarət idi. Dala sonra müəllif rus hakimiyyəti altında Qafqazda gedən proseslərin icmalını vermiş, ruslaşdırma siyasətinin ana xətlərini və nəticələrini göstərmiş, rus siyasətində erməni elementinə verilmiş roldan bəhs etmişdir. Çarizmin dağılmasından sonra Cənubi Qafqazla siyasi hadisələrin gedişini izah edən müəllif Azərbaycan Respublikasının yaranması şərtləri üzərində dayanır.

Topçubaşov göstərir ki, Qafqazda yaranmış dövlətlərin sərhədləri hələ mübahisəli məsələ olaraq qalır.

Azərbaycanın rəhbərliyi hesab edir ki, əhalinin etnik tərkibinə uyğun olaraq, Azərbaycan Respublikası ərazisi əski Bakı quberniyası ərazisinin hamısı, Yelizavetpol quberniyası (Qazax mahalının dağlıq hissəsi mübahisəli ərazi hesab edilməklə), əski İrəvan quberniyasının Naxçıvan mahalının beşdə biri, Yeni Bəyazid mahalının beşdə biri, Şərur-Dərələyəz mahalının yarısı, Tiflis quberniyasında Borçalı mahalı, Tiflis mahalının beşdə biri, Sığnax mahalının üçdə biri və Zaqatala dairəsindən ibarət olmalıdır.

Memorandumda göstərilirdi ki, İrəvan və Tiflis quberniyalarındakı mahalların bir hissəsi, eləcə də Zaqatala Azərbaycanın tərkib hissəsi hesab cdilməlidir, çülki əksəriyyəti müsəlmanlardan ibarət olan bu ərazilərin əhalisi Azərbaycan Respublikasının tərkibinə daxil olmaq üçün dəfələrlə açıq-aydın müraciətlər etmişdir; bu əhalinin arzu və iradəsini yoxlamaq və təsdiq etmək üçün ümumi və açıq səsvermə keçirmək olar. Azərbaycanın göstərilən ərazisi 96,5 min kv. km. olub, rəsmi rus statistikasına görə burada 2.353 min əhali yaşayır, onların da əksəriyyəti türk müsəlmanlardan; eləcə də nisbətən azsaylı başqa müsəlman xalqların nümayəndələrindən (ləzgilər, farslar və b.) və 300 min ermənidən ibarətdir (23, s. 20-21).

Memorandumda Azərbaycan Respublikasında mövcud vəziyyət, aparılan quruculuq işlərindən geniş bəhs edilir, burada erməni probleminin mahiyyəti, Mart hadisələri və Qarabağ məsələsi barədə məlumat verilirdi. Azərbaycan Respublikasının Qafqazda yaranmış yeni dövlətlərin konfederasiyanın tərəfdarı olduğu bəyan edilir, Azərbaycan Respublikasının müstəqil yaşamağa haqqı və qüdrəti olduğu əsaslandırılırdı (23, s. 20-21).

Osmanlı tərəfi M.Ə.Rəsulzadə kimi Ə.M.Topçubaşovu da səmimiyyətlə qəbul etmiş, Azərbaycana mümkün olan hər cür köməyə hazır olduğunu bildirmişdi. Əli Mərdan bəyin ilk rəsmi görüşü sədr-əzəm (baş nazir) Tələt paşa ilə oktyabrın 2-də olmuşdu. Tələt paşa son Berlin səfəri barədə Topçubaşova məlumat verərək göstərmişdi ki, o, Berlində eyni zamanda Azərbaycanın da maraqları istiqamətində işləmiş, lakin Avstriya, Macarıstan və Almaniya hələlik Azərbaycan dövlətinin müstəqilliyini qəbul etmək istəmirlər. Buna baxmayaraq Tələt paşa Qafqazda müstəqil Azərbaycan dövlətinin yaranması haqqında illərlə bəslədikləri arzunun gerçəkləşməsi istiqamətində çalışmağa hazır olduğunu bildirdi. Türkiyənin başqa rəsmi şəxsləri ilə Topçubaşovun sonrakı görüşləri də eyni ruhda keçmiş, onlar Azərbaycanı qonşuları ilə sərhəd məsələlərini tezliklə həll etməyə, Azərbaycan mövzusunu daha geniş təbliğ etməyə və gələcəyə inamla baxmağa çağırmışlar.

Osmanlı imperiyası rəhbərlərinin optimizminin əksinə, Türkiyənin özü fəlakətli günlərini yaşayırdı. Mudros müharibəsi ərəfəsində kabinet dəyişmiş, əski hökumət üzvlərinin əksəriyyəti ölkəni tərk etmək məcburiyyətində qalmışdı. Mudros fəlakətindən 4 gün sonra türk hökumətinin əhval-ruhiyyəsini və yeni hökumətin Azərbaycana münasibətinin dəyişmədiyinin göstəricisi kimi Əli Mərdan bəyin xarici işlər nazirinin müstəşarı (müavini) ilə görüşü səciyyəvidir. Azərbaycan Respublikasının səlahiyyətli səfiri Bakıya göndərdiyi məlumatında müstəşar Rəşad Hikmət bəyin sözlərini qeyd edir: “Siz düzgün hərəkət edirsiniz; müstəqilliyin tanınmasına nail olmaq lazımdır. Sizin bizə müraciətiniz bizi riqqətə gətirir, düşdüyünuz vəziyyətə baxmayaraq, biz sizə köməkdən imtina edə bilmərik (göz yaşları!) (495, v.5-6).

Lakin Mudros müahidəsindən sonra Osmanlı hökumətinin Azərbaycana köməyi artıq minimuma eşi-sultan Türkiyəsinin özü Müttəfiqlərdən tam asılı vəziyyətə düşdü. Müttəfiqlər Osmanlının Azərbaycana diplomatik nümayəndə təyin etməsinə pantürkizm meyli kimi baxmış, Osmanlı hökumətinə bunu qadağan etmişdi (Türkiyənin Ermənistan və Gürcüstana rəsmi nümayəndə təyin etməsi isə təbii hal sayılırdı). Əli Mərdan bəyin Bakıya rəsmi diplomatik nümayəndə göndərilməsi haqqında notasına cavab olaraq Osmanlı xarici işlər naziri göstərirdi ki, Azərbaycana diplomatik nümayəndənin təyin olunması məsələsi Müttəfiqlərin razılığı olmadan həll edilə bilməz və Azərbaycan Respublikasının istiqlaliyyətinin qəti tanınmasınadək buna ümid etmək olmaz (96, v.4).

Topçubaşov İstanbulda ikən Osmanlı hökumətinin üzvlərindən başqa, Ukrayna, İran, Rusiya, ABŞ, İtaliya, İsveç, Hollandiya və Ermənistanın rəsmi nümayəndələri ilə görüşmüş, beynəlxalq vəziyyət və sülh konfransı haqqında onlarla fikir mübadiləsi etmiş, Qərb ölkələrinin nümayəndələrinə Azərbaycan haqqında məlumatlar vermişdi. Bu

görüşlər arasında Azərbaycanın istiqlalı mövzusunda İran (bu barədə yuxarıda danışılmışdır), eləcə də Rusiya nümayəndələri ilə söhbətlər xüsusilə əhəmiyyətlidir.

1918-ci il dekabrın 7-də Topçubaşovla görüşdə Rusiya müvəqqəti hökumətinin əski xarici işlər naziri P.Milyukov Rusiyanın qeyri-rus millətlərinin taleyi barədə Azərbaycan nümayəndəsinin sualına birbaşa cavabdan qaçaraq, əsas problemin Rusiyanın bolşeviklərdən təmizlənməsi, bunun üçün Qərbdən hərbi yardım almaq olduğunu göstərmiş, bu problemlərin həll edilməsindən sonra Rusiyanın xilas olacağını iddia etmişdi. Əli Mərdan bəyin Zaqafqaziyadakı üç müstəqil dövlətin taleyinə münasibətiniz ?" sualının birbaşa cavabından yan keçməyə cəhd etməsinə baxmayaraq, əski xarici işlər naziri, hər halda, yeni respublikaların yaranmasında alman barmağının olduğu fikrini deməyi də unutmamışdı (95, v.33-34). Rusiyanın başqa bir keçmiş xarici işlər naziri S.Sazonovla Rusiya ucqarlarının taleyi ətrafında söhbətlər daha açıq xarakter almışdı. Denikinin səlahiyyətli nümayəndəsi kimi Parisə gedən Sazonov yeni yaranmış dövlətlər haqqında mənfi (gürcülərə münasibətdə hətta təhqiramiz) münasibətini gizlətmədi.

Azərbaycan istiqlalı məsələsinə gəldikdə, Sazonov hesab edirdi ki, Qafqaz müsəlmanları ruslara rəğbətlə yanaşırlar və Rusiyadan ayrılmaq istəmirlər. Onun fikrinə görə, Azərbaycanı Rusiyadan qopmağa məcbur edən bolşevizmdir və o, ləğv ediləndən sonra hər şey qaydasına düşəcək. Əli Mərdan bəyin rus itqalı dövründə Azərbaycanın ayrı-seçkiliyə və geriliyə məruz qalması fikrinə də şiddətli etiraz edən Sazonov bildirirdi: Ruslar sizi bədbəxt etdi deyəndə, siz ədalətsiz danışırsınız. Mən isə hesab edirəm ki, Rusiya ucqarlara çox şey verdi, mədəniyyət gətirdi...Polşa istisna olmaqla Rusiyanın başqa xalqların qarşısında bizim vicdanımız təmizdir. Bolşevizmdən azad olan kimi, biz Rusiyadan ayrılmaq istəyən xalqlara deyəcəyik: indi buyurun qayıdın geri. Topçubaşovun yüz il əvvəl olduğu kimi yenədəmi kazakları üstümüzə göndərəcəksiniz? sualının cavabında Sazonov bildirdi ki, "Qafqazın Rusiyadan qopmasına ilk növbədə Müttəfiqlər razı olmazlar", çünki Rusiyaya 65-68 milyard borc vermişlər və onu bir ölkədən almaq daha asandır. Əli Mərdan bəyin bütün əks-dəlillərinə baxmayaraq, Sazonov nə Rusiyanın, nə də Müttəfiqlərin Rusiyadan qopmuş yeni dövlətlərin istiqlallarını heç vəchlə tanımayacağı fikrini müdafiə etdi (95, v.39-44).

Maraqlıdır ki, bu zaman İstanbulda olan İngiltərə və ABŞ nümayəndələri də yeni yaranmış dövlətlərin özlərini ifadə və müdafiə etməyə qadir olduqları fikrinə şübhə ilə yanaşdıqlarını bildirirdilər (22, s.68-69, 98-99).

Dünya müharibəsinin qurtarmasından sonra qalib dövlətlər müharibədən sonrakı dünyanın vacib məsələlərini həll etmək, həmçinin məğlub dövlətlərlə haqq-hesabı çürütmək üçün Parisdə beynəlxalq sülh konfransının çağırılmasına qərar verdilər.* Dekabrın 7-də açılmış Azərbaycan parlamenti Paris (Versal) konfransında iştirak etmək üçün Fransanın paytaxtına tam səlahiyyətli və geniş hüquqa malik nümayəndə heyəti göndərmək haqqında qərar qəbul etdi. Nümayəndə heyətinin başçılığına parlamentin sədri (bəzi sənədlərdə onu Respublikanın prezidenti adlandırırdılar) Ə.M.Topçubaşov (Topçubaşı) təyin edildi.

Nümayəndə heyətinin üzvləri müxtəlif partiyaları təmsil edən M.H.Hacınski (Müsavat), Ə.Ağaoğlu (bitərəf demokrat), Ə.Şeyxülislamzadə (hümmət), müşavirlər M.Məhərrəmov (sosialist), M.Y.Mehdiyev (İttihad), Ç.Hacıbəyli (İttihad), əməkdaşları Ə.Hüseynzadə (bitərəf), V.Marçevski (bitərəf) idi. Onlardan başqa nümayəndə heyətinə katiblər (S.Məlikov, Ə.Topçubaşov), tərcüməçilər (A.Qafarov, Q.Qafarova, H.Məmmədova) və heyət sədrinin şəxsi katibi (R.Topçubaşov) daxil idi (91, v.17). Hələ yolda ikən Əhməd bəy Ağaoğlu "İttihad və tərəqqi" partiyasının rəhbərlərindən biri ittihamı ilə tutulub, Müttəfiqlər tərəfindən Malta adasına həbsə göndərildi. General Tomsonun Əhməd bəy Ağaoğluna verdiyi zəmanət məktublarının da köməyi olmadı.

Nümayəndə heyəti İstanbula gəldiyi 1919-cu ilin yanvarın 20-dən etibarən fransız nümayəndələrindən viza alıb, Parisə yola düşmək məsələləri ilə məşğul olmağa başladı. İlk əvvəllər bu bizə asan iş kimi görünürdü, Marsel vasitəsi ilə Parisə ara-bir gedən paraxodlara yer tapmaq kimi texniki xarakterli maneələrlə rastlaşa biləcəyimizi düşünürdük. - Bakıya məlumatında Əli Mərdan bəy yazırdı. - Lakin iki dəfə mənim ingilis və fransız nümayəndələri ilə görüş və danışıqlardan, bəzi heyət üzvlərinin ingilis qərargahına baş vurmaları, onların yanına heyətin tərcüməçilərinin dəfələrlə ezam edilməsi və nəhayət, ingilis qərargahına şəxsən özümün getməyim - bütün bunlar Parisə səfərin ləngiməsinin texniki çətinliklərdən əlavə, məhz siyasi xarakterli mülahizələrlə əlaqədar olduğunu sübut edirdi (427, s.25).

---

* Bu konfransı eyni zamanda Versal sülh konfransı - adlandırırlar. Bir sıra müəlliflərin fikrincə, sonuncu ad o qədər də düzgün deyil, çünki Versalda yalnız Almaniya ilə sülh müqaviləsinin imzalanması mərasimi olmuşdur. Konfransın qalan bütün işləri Parisə aparıldı (417, s.4).

Digər ölkələrdən olan nümayəndə heyətlərinin də fikri belə idi. Heyətlərin məktub, xahiş, dəlil və xatırlatmalarına bircə cavab verilirdi: Biz Parisə və Londona teleqraf göndərmişik, cavab gözləyirik. Ümid edirik, 3 günə müsbət cavab gələr və gedərsiniz. Cavab barədə sizə məlumat verərik. Lakin vaxt keçir, cavab gəlmirdi. Topçubaşov yazırdı ki, Ə. Ağaoğlu məsələsi və çoxsaylı texniki problemlərin hamısı bəhanə idi, əsas səbəb Müttəfiqlərin siyasətində idi. Müttəfiqlər konfransın ilk mərhələsində Rusiya haqqında yalnız bir ümumi məsələ qoyub, konfransın işinə yeni yaranmış dövlətlərin nümayəndələrini buraxmamağı qərara almışdılar. Ümumsülh məsələsini müzakirə etmək üçün isə Sazonov, Lvov, Maklakov və başqaları çoxdan Parisdə idilər (427, s.26-27).

Müttəfiqlərin siyasətinə uyğun olaraq 1919-cu ilin yanvar ayının sonlarında İstanbul yaxınlığındakı Prinkipo adasında xüsusi konfrans ideyası ortaya atıldı. Bu konfransda keçmiş Rusiyanın müxtəlif yerlərində yaranmış yeni dövlət qurumlarının nümayəndələrini, o cümlədən bolşevikləri çağırmaq nəzərdə tutulurdu. Rusiya konfransı üçün münasib bina tapmaq məqsədi ilə ingilis zabitləri adaya göndərildilər. Yeni yaranmış dövlətlərin nümayəndələri Rusiya konfransı ideyasına etirazlarını bildirdilər, Prinkipoda iştirak etməyi təmsil etdikləri dövlətlərin Rusiyanın tərkib hissəsi olduğunu təsdiq etmək kimi qiymətləndirdilər (460, s.273). Bu etirazlara baxmayaraq, ingilis və fransız nümayəndələri Prinkipo adasındakı konfrans məsələsinin həll edilməsini gözləməyi məsləhət görürdülər. Fevralın 13-də qəflətən gürcü nümayəndələrindən Çxeidze və Sereteliyə Parisə getmək üçün icazə verildi (ermənilər çoxdan Parisdə idilər).

Topçubaşovun müraciətinə cavab olaraq fransız nümayəndəsi bildirmişdi ki, hər nümayəndə heyətindən yalnız iki nəfər gedə bilər. Əli Mərdan bəyin 14 fevral məlumatından aydın olur ki, iki nəfər məsələsi tamamilə unudulub. Eyni zamanda Prinkipo adasında konfrans məsələsi də yaddan çıxmışdı. Mart ayının ikisində isə bolşeviklərdən bu konfransda iştirakları haqqında qənaətverici cavab alınmadığı üçün Prinkipo adasında konfrans məsələsi də ləğv edildi (427, s.28).

Azərbaycan nümayəndə heyətindən başqa Ukrayna, Don, Kuban və Şimali Qafqaz Dağlıları Respublikasının nümayəndələri də viza almaq ümidi ilə İstanbulda gözləyirdilər. Nümayəndə heyətlərinin ümumi yığıncağında qərara alındı ki, sülh konfransına kollektiv müraciət qəbul edilsin. Ə.M. Topçubaşov tərəfindən yazılmış memorandumda yeni yaradılmış dövlətlərin xalqlarının müstəqil yaşamaq arzuları və konfransın işində iştirak etmək istəkləri əks olunurdu (76, v.6). Don və Kuban nümayəndələri Rusiyadan ayrılmaq meylləri haqqındakı fikirlərə etiraz etdikləri üçün müraciət yeni redaksiyada Müttəfiqlərin nümayəndələrinə təqdim edildi. Əli Mərdan bəy yazırdı: Hesab etmək olar ki, gec-tez getməyə icazə alınacaq. Lakin hətta Parisdə belə vahid Rusiya zəminində möhkəm durmuş, Polşa və

Finlandiyadan başqa yeni yaranmış hökumətlərin müstəqilliyini tanımayan Müttəfiq dövlətləri fikrindən daşındırmaq çətin ki, mümkün olsun (427, s.29).

Bununla belə bəzi ümid işartıları da yaranmaqda idi. Məlum oldu ki, sülh konfransı bütün keçmiş Rusiyanın cənubunda siyasi-sosial və iqtisadi vəziyyəti düzəltmək üçün buraya heyət göndərir. Bu heyətə əsasən amerikalılardan ibarət olan 30 adam daxil idi. Heyət üç hissəyə bölünurdü. Birici xüsusi olaraq Qafqaz üçün müəyyən edilmişdi. Bu qrupun başçısı Mur Topçubaşov və M. H. Hacınski qarşısında aşağıdakı sualları qoydu: 1) Azərbaycan siyasi və iqtisadi baxımdan müstəqil yaşaya bilərmi, 2) bunun üçün sizin maddi və mənəvi gücünuz kifayət edəcəkmi, 3) Qafqazda, ya Zaqafqaziyada federasiya, ya konfederasiya yarana bilərmi, 4) Rusiya Federativ Respublikası yaransa, Azərbaycan onun tərkibinə daxil olmaq istərmi, 5) Siz başqa dövlətin nüfuzu imkanını düşünmüsünüzmü?

Azərbaycan nümayəndə heyətinin başçısı yazırdı ki, I və II suala müsbət cavab verdilər, federasiyanın yaranması məsələsinə isə hazırda şübhə ilə yanaşırlar, çünki - Müttəfiqlər ermənilərin ifrat tələblərinə güzəştə getmək istəyirlər, ona görə də Türkiyə və Azərbaycanın hesabına Böyük Ermənistan yaratmağa cəhd edən ermənilər bizim federasiyaya daxil olmaq istəmədilər. Rusiyanın tərkibinə daxil olmaq məsələsində Azərbaycan nümayəndə heyətinin munasibəti qəti mənfi idi. Beşinci sualın cavabında isə Topçubaşov və Hacınski Azərbaycanda xüsusi iqtisadi maraqları olmayan, mənəvi və ümumbəşəri xarakterli Vilson prinsiplərini rəhbər tutaraq bizi dəstəkləyə biləcək Amerikanı nişan verdilər (427,s.29).

Azərbaycanın nümayəndə heyətinin başçısı aprel ayının 7-də Nazirlər Şurasının sədri F. Xoyskiyə göndərdiyi teleqramda göstərirdi ki, Parisə getmək üçün Hacınski, Ceyhun bəy və Məhərrəmova icazə verilib. Mən burada qalmağa məcburam. Qalanları Londona getmək üçün çalışır. İstanbuldakı fransız və ingilis nümayəndələrinə dəfələrlə müraciət edilməsinə, sülh konfransında iştirak edən ABŞ, İngiltərə, Fransa və İtaliyanın dövlət və hökumət başçılarına göndərilən teleqramlara baxmayaraq, Parisə viza almaq Azərbaycan nümayəndəliyi üçün həlli müşkül problemə çevrilmişdi.

Topçubaşov fevral ayının 25-də (yeni stillə martın 5-də) Bakıya göndərdiyi məlumatda Müttəfiqlərin Azərbaycana yad münasibəti barədə kədər qarışıq qəzəblə yazırdı: Avropa, xüsusən Antanta ölkələri nümayəndələrinin etirafına görə müsəlman və türk mənşəli olduğumuzdan günaha (əgər bu günahdırsa!) batmışıq... Üzümüzə deməzlər, amma çox şeyləri, bəlkə də elə hamısını bu günahla izah etmək lazımdır (96, v.4). Vəziyyəti müzakirə edərək, heyət qərara alır ki, o, iki hissəyə bölünsün, 3 nəfərdən ibarət bir hissə (Hacınski, Məhərrəmov, Hacıbəyli) Parisə, digər hissə (Mehdiyev və Şeyxülislamzadə) Londona getsin, Topçubaşov isə hələlik İstanbulda qalsın. Parisə çatan nümayəndə

heyətinin üzvləri ilk növbədə qalanları üçün viza almaq məsələsi ilə məşğul olmalı idilər. 18 aprel tarixli məlumatında Topçubaşov yazırdı ki, qəflətən vəziyyət dəyişdi.

Londona getmək üçün hamıya viza verildi, Topçubaşov, Mehdiyev və Şeyxülislamzadə üçün Marsel və Parisdə bir neçə gün qalmaq şərti ilə Londona getmək icazəsi alındı. 1919-cu il aprelin 22-də nümayəndə heyətinin bütün üzvləri (Ə.Ağaoğludan başqa), nəhayət, Parisə yola düşdü. Heyətin nəzdindəki əməkdaşları və texniki işçiləri götürmək mümkün olmadı (77, v.2-3; 427, s.33-34).

Azərbaycan nümayəndə heyəti may ayının ortasında Parisə çatdı. Nümayəndə heyəti ondan asılı olmayan səbəblərə görə çox gecikmişdi. Artıq yanvarın 18-dən etibaren sülh konfransı öz işinə başlamışdı. Paris, sülh konfransının, havası ilə yaşayırdı, müxtəlif ölkələrdən gələn çoxsaylı nümayəndələr gərgin işləyirdilər. Ekspert və texniki personalla birlikdə sülh konfransının işində iki mindən çox adam iştirak edirdi, təkcə ABŞ-dan 400, İngiltərədən isə 200 adam gəlmişdi. Rəsmi nümayəndə heyətləri 4 dərəcəyə (kateqoriyaya) bölünür, məğlub dövlətlərin nümayəndələri konfransın işinə heç yaxın belə buraxılmırdılar. Yeni yaranmış dövlətlər neytral ölkələrlə birlikdə sonuncu dördüncü kateqoriyaya daxil edilmiş, məsələlərin müzakirəsində onların iştirakı beş əsas dövlətdən (birinci kateqoriya) birinin dəvəti ilə mümkün idi.

Konfransın gedişinə əvvəllər Onlar Şurası deyilən orqan rəhbərlik edirdi. Bu şura beş böyük dövlətin (ABŞ, İngiltərə, Fransa, İtaliya, Yaponiya) hərəsindən iki nümayəndədən - heyət başçıları və xarici işlər nazirlərindən ibarət idi. Onlar Şurasının iclaslarında xeyli ekspert də iştirak edirdi. Ona görə də konfransın işinin məxfiliyini təmin etmək mümkün olmurdu. Bu problemi aradan qaldırmaq üçün martın 25-dən Onlar Şurası iki hissəyə bölündü: Dördlər Şurası (nümayəndə heyətlərinin başçıları - Vilson, Lloyd Corc, Klemanso, Orlando) və Beşlər Şurası (böyük dövlətlərin xarici işlər nazirləri Lansinq, Balfur, Pişon, Sonnino və Makino). Bu şuralardan başqa, sayı 58-ə çatan müxtəlif komissiyalar yaradılmışdı. Beş ay yarım ərzində (18 yanvar-28 iyul) bu komissiyalar 1646 iclas keçirmişdi. Bundan başqa, vəziyyəti öyrənmək üçün yerlərə müxtəlif komissiyalar da göndərirdi (417, s.18-19).

Gözlənildiyi kimi, keçmiş Rusiya imperiyasının xarabalıqları üzərində yaranmış yeni dövlətlərin tanınması məsələsi ümumrus məsələsinin həllinə qədər təxirə salınırdı. Kolçak, Denikin və başqa çar generallarının sovet Rusiyasına qarşı uğurlu mübarizə apardığı bu dövrdə Avropa ölkələri (xüsusən Fransa və İtaliya), vahid və bölünməz Rusiya şüarını müdafiə edir, onlara hər cür yardım edilməsi lehinə çalışırdılar. Antantanın yeni dövlətlər məsələsinə soyuq münasibətindən gileylənən Ə.M.Topçubaşov yazırdı: Üstəlik, burada öncə ümumrus məsələsini, sonra isə keçmiş

Rusiyadan qopmuş yeni qurumların çoxsaylı tələblərini, saysız-hesabsız qarşılıqlı iddia və mübahisələrini həll etmək qərarı verilmişdir. Bu qərar, şübhəsiz, müxtəlif yollarla bolşeviklərdən qaçmış, statistik məlumatlara görə, sayı altmış minə çatan Parisdəki rus elementlərinə sərf edir. Bunların arasında hansı Rusiyanın, hansı hökumətin və kimin nümayəndəsi belə bəlli olmayan qruplar, hətta ayrı-ayrı şəxslər var...

Bununla belə, siyasi baxışlarına və istiqamətlərindəki fərqlərə baxmayaraq, rusların hamısı vahid, bölünməz Rusiya tərəfdarıdırlar. Onlar federativ demokratik
respublika və Müəssislər Məclisi şüarı altında gizlənərək, ayrı-ayrı ərazilərin gələcək Rusiya ilə münasibətlərini bu orqanların müəyyən edəcəyini bildirir, eyni zamanda Rusiyanı özünəlayiq yerini tutacaq böyük dövlət kimi təsəvvür edirlər. Rusiyanın burada toplanmış həqiqi və hər cür qəbildən olan oğulları köhnə duz-çörəyi unutmuş "inorodeslərin" acığına Rusiyanı beləcə bərpa etmək istəyirlər (427, s.37).

Antantanın vahid, bölünməz Rusiya ideyasına münasibəti tezliklə özünü büruzə verdi. Paris mətbuatı may ayında sülh konfransının Kolçak hökumətini keçmiş Rusiyanın bütün ərazisində yeganə hakimiyyət kimi tanıyacağı haqqında qərar qəbul ediləcəyi barədə xəbər yaydı. Bu xəbər yeni dövlətlərin nümayəndə heyətlərini hərəkətə gətirdi, bir-birinin ardınca konfransın rəhbərlərinə etiraz məktubları göndörildi. Azərbaycan nümayəndə heyətinin sedrinin imzası ilə sülh konfransının sədrinə göndərilən etiraz məktubunda məlum xəbərin qorxu və əndişə törətdiyi qeyd edilir, Azərbaycan Respublikasının yaranması, tökülən qanlar və gedən dövlət quruculuğu işləri barədə məlumat verilir və bildirilirdi:

Azərbaycanlıların bu qədər böyük insan və maddi sərvətlər qurban verməsi hesabına başa gələn bu mübarizəsi Zaqafqaziya Azərbaycanı əhalisini öz istiqlaliyyətini hər vasitə ilə müdafiə etmək zərurətinə və Azərbaycan ərazisində yalnız Azərbaycan Parlamenti və Azərbaycan hökumətinin vahid hakimiyyətini tanımaq fikrinə iman gətirməyə səbəb olmuş, tarix və təcrübə ilə yəqin etmişdir ki, təxminən yüzillik bir dövrdə olduğu kimi, başqa hakimiyyət onun üçün mənəvi baxımdan yad, törəniş baxımından süni, beləliklə, nəticə baxımından ziyanlı olacaq, ona görə də məqbul hesab edilə bilməz (81, v.69-70).

Yeni müstəqil dövlətlərin nümayəndələrinin ən çox ümid və istinad etdikləri Vilson prinsipləri idi. Bu prinsiplər sülh konfransının ideoloji örtüyünü təşkil edirdi. 1918-ci il yanvar ayının 8-də ABŞ prezidenti Vudro Vilsonun nitqində öz əksini tapmış məşhur prinsiplərdə Rusiyanın keçmiş müstəmləkələrinin nümayəndələrini cəlb edən müddəalar da var idi:

1.Açıq sülh müqavilələrinin açıq müzakirəsi, bundan sonra heç bir gizli beynəlxalq saziş olmayacaq, diplomatiya isə həmişə açıq-aydın və hamının gözü qarşısında fəaliyyət göstərəcək;

2.Ərazi suları xaricində həm sülh, həm də müharibə vaxtı gəmiçiliyin dənizlərdə mütləq sərbəstliyi;

3.Mümkün qədər bütün iqtisadi maneələrin ləğvi;

4.Dövlət təhlükəsizliyinə uyğun olaraq silahların mümkün qədər azaldılması üçün ədalətli zəmanətlər;

5.Müstəmləkələr üzərində suverenliklə bağlı bütün məsələlərin həllində əhalinin maraqlarının hökumətlərin ədalətli tələblərinə nisbətdə bərabər tutulması prinsipinə əsaslanaraq, bütün müstəmləkə mübahisələrinin sərbəst, səmimi və mütləq bitərəflik mövqeyindən həlli;

6.Bütün rus torpaqlarının azad edilməsi... Rusiya öz taleyini özü müəyyən etməli, istədiyi idarə formasını seçməli və Millətlər Liqasına qəbul edilməlidir;

7.Belçika... boşaldılmalı və bərpa edilməlidir;

8.Fransa boşaldılmalı; işğala məruz qalmış ərazilər bərpa edilməli; Elzas və Lotarinkiya Fransaya verilməlidir;

9.İtaliyanın sərhədləri aydın görünən milli sərhədlərə görə dəyişdirilməlidir;

10.Avstriya-Macarıstan xalqları... geniş muxtar inkişaf imkanları əldə etməlidirlər (sonralar muxtariyyət prinsipi tam müstəqilliklə əvəz edildi);

11.Rumıniya-Serbiya və Çernoqoriya boşaldılmalıdır;

Osmanlı imperiyasının türk hissəsi...təminatlı və möhkəm suverenlik almalıdır; tabe edilmiş millətlərə təhlükəsizlik nə muxtar inkişafın mütləq pozulmaz şərtləri təmin edilməlidir; boğazlardan sərbəst keçid təmin edilməlidir;

13.Müstəqil Polşa dövləti yaranmalıdır;

14.Xüsusi müqavilələr əsasında ümumi millətlər birliyi (Millətlər Liqası) yaradılmalıdır.

Sonralar, 1918-ci ilin fevralında Vilson 14 müddəaya daha 4 prinsip əlavə etdi. Onların qısa məzmunu belədir:

1.Sülh prossesi qeyd-şərtsiz ədalətə əsaslanmalıdır;

2.Xalqlar və vilayətlər dövlətlər arasında şahmat oyunundakı piyada kimi mübadilə vasitəsinə çevrilməməlidir;

3.Hər bir ərazi məsələsi aidiyyəti üzrə yerli əhalinin maraqlarına uyğun olaraq həll edilməlidir;

4.Öz taleyini qəti müəyyən etmiş bütün milli elementlərin tələbləri ödənilməlidir (417, s.50-51).

Prezident Vilson tərəfindən bəyan edilmiş prinsiplərdən yararlanmaq istəyən və istiqlalının tanınmasını tələb edən xalq aşağıdakı şərtlərə cavab verməli idi:

1.Hər bir millət xarakterindəki hansısa intellektual və mənəvi-dini xüsusiyyətlərinə görə seçilməlidir.

2.Hər bir millət öz taleyini müəyyən etməyə qadir olduğunu göstərməlidir.

3.O öz xərclərini ödəmək üçün iqtisadi, təbii və maliyyə vasitələrinə malik olmalıdır.

4.O, özunü xarici təcavüzdən qoruya bilməlidir.

5.O, tabe olduğu ölkənin hökumətinin zülmündən əziyyət çəkmiş olmalıdır (141, v. 136-137).

May ayının 28-də - İstiqlal günü prezident Vilson Azərbaycan nümayəndə heyətini qəbul etdi. Vilsona təqdim edilmiş memorondumda Azərbaycan Respublikasının yaranma tarixi, onun birillik inkişaf yolu və istiqlal yolunda verdiyi qurbanlardan danışılırdı. Göstərilirdi ki, bu yolda Azərbaycanın 2 şəhəri və 500 kəndi dağıdılmış, Azərbaycan xalqı 100 mindən 150 minə qədər qurban vermişdir. Daha sonra Vilsondan Azərbaycanın istiqlalının tanınması, Vilson prinsiplərinin Azərbaycana aid edilməsi, Azərbaycanın Millətlər Liqasına qəbul olunması, ABŞ-ın Azərbaycana hərbi ləvazimat sahəsində yardım etməsi, ABŞ-la Azərbaycan arasında diplomatik və iqtisadi əlaqələrin bərqərar edilməsi məsələlərində Azərbaycan nümayəndə heyətinə kömək göstərilməsi xahiş edilirdi. Bu da əlavə edilirdi ki, müstəqil Azərbaycan Respublikası çar Rusiyasının borclarından onun payına düşən hissəni ödəməyə qadirdir və yuxarıdakı şərtlər müqabilində buna hazırdır (81, v.66-67).

Prezident Vilson Azərbaycan nümayəndə heyətinə qəbulda ümidverici bir şey demədi. O, sülh konfransının dünyanı kiçik hissələrə parçalamaq niyyətində olmadığını vurğuladıqdan sonra Azərbaycan nümayəndələrinə federasiya (konfederasiya) ideyasını müdafiə etməyi məsləhət görmüş, Millətlər Liqasının mandatı ilə böyük dövlətlərdən birinin bu konfederasiya üzərində qəyyumluğunun real çıxış yolu olduğunu demişdi. Vilson onu da əlavə etməyi unutmamışdı ki, Azərbaycan məsələsi rus məsələsindən əvvəl həll edilə bilməz (427, v.39-40).

Konfederasiya məsələsi Azərbaycan, Gürcüstan və Dağlılar Respublikası nümayəndə heyətlərinin diqqət mərkəzində idi, əvvəllər başlanmış iş davam edirdi. Qafqazda siyasi-iqtisadi birliyin yaranması məsələləri üzrə qarışıq komissiya yaradıldı. Komissiya Qafqaz respublikaları arasında gömrük və hərbi-iqtisadi birliyin yaradılması haqqında sənəd hazırladı. Nümayəndə heyətləri konfransın rəhbərlərinə göndərdikləri bütün memorondumlarda Qafqazda konfederasiya ideyasına müsbət yanaşdıqlarını xüsusi vurğulayırdılar (141, v. 165-236). Lakin Dağlılar Respublikasının

Denikin tərəfindən ləğvi və Antantanın Denikin təcavüzünü təqdir etməsindən sonra konfederasiya məsələsinin həllində Dağlılar Respublikası nümayəndə heyətinin müsbət münasibətinə formal xarakter gətirdi.

Konfederasiya məsələsinin müsbət həllinə, ümumiyyətlə, Azərbaycan və qismən Gürcüstan nümayəndə heyətlərinin uğurlu işinə erməni nümayəndələrinin özfəaliyyəti ən böyük maneə idi. Onlar ərazi-sərhəd məsələsinə suverenliyin tanınması problemindən daha əhəmiyyət verir, konfederasiya ideyası əleyhinə geniş təbliğat aparır, Qafqazdakı real vəziyyət barədə Avropa və ABŞ ictimaiyyətində yanlış təsəvvür yaradırdılar.

Azərbaycan və Gürcüstan nümayəndələrinin kəskin etirazına səbəb olmuş memorondumda onlar Türkiyənin 7 şərq vilayəti (Van, Bitlis, Diyarbəkir, Xarput, Sivas, Ərzrum, Trabzon), Kilikiya, keçmiş İrəvan quberniyası Tiflis və Yelizavetpol quberniyalarının cənubunu və Qars torpaqlarını tələb edirdilər. Bundan əlavə ermənilər 19 milyard frank həcmində də müharibə təzminatı iddiasında idilər (baxın: 427, s.49-50; 460, s.253-260- 472,s.158-160; 475, s.157-171).

Erməni təbliğatının əsas hədəfi Türkiyə ilə yanaşı, həm də Azərbaycan idi. Əli Mərdan bəy yazırdı: ...Biz qonşularımızla birgə işə can atırıq, lakin qorxuruq ki, sonsuz iştaha malik, öz muradına başqaları, yəni bizim hesabımıza çatmaq istəyən ermənilərlə dil tapa bilməyək. Onlar bəlkə də bütün ölkələrin paytaxtlarında bizim əleyhimizə iş aparır, bizi dövlət həyatına, başqa xalqlarla yanaşı yaşamağa qadir olmayan millət kimi qələmə verirlər (94, v.4a).

Ermənistan üzərində mandata hazır olacaq ölkə, ermənilərin fikrincə, yuxarıda sadalanan erməni torpaqlarını türk, Azərbaycanlı və başqalarından təmizləməli idi. Azərbaycan nümayəndə heyəti müsəlman təcavüzünə məruz qalmış yazıq xristian ermənilərin azğın təbliğatına qarşı Avropa və Amerikanın özündə əks-təbliğat işini təşkil etməyə məcbur oldu. Böyük maddi-maliyyə çətinliyinə baxmayaraq, yerli amerikalıların iştirakı ilə xüsusi komitə yaradıldı, onun əsas vəzifəsi ermənilərlə polemikaya girmədən Azərbaycanı tanıtmaqdan ibarət idi (baxın: 143, v.56-59; 427, s.72, 77,96).

Yenə eyni məqsədlə az bir vaxtda nümayəndə heyəti Azərbaycanın tarixi, əhalisinin antropologiyası və etnik tərkibi, təsərrüfatı, Azərbaycan Respublikasının mövcud vəziyyəti haqqında ingilis və fransız dillərində bir neçə dolğun, məzmunlu (indi də elmi dəyərini itirməmiş) - kitabça hazırlayıb, çap etdirmiş, Avropada və Amerikada yayılmasını təşkil etmişdi. Bundan başqa nümayəndə heyəti fransız dilində informasiya bülleteni də nəşr etməyə başladı, yerli mətbuat orqanlarında Azərbaycana aid bir sıra materialların çapına nail oldu.

Nümayəndə heyətinin ən əhəmiyyətli əməli-təbliğat işlərindən biri "Paris sülh konfransına Qafqaz Azərbaycanı sülh nümayəndəliyinin tələbləri" adlı kitabçanın hazırlanması idi ( 25 ). Nisbətən böyük həcmdə olan bu sənəd böyük tirajla fransız və ingilis dillərində çap edilmiş, diplomatik nümayəndəliklər və əlaqədar adamlar arasında yayılmışdı. Sülh nümayəndəliyinin tələbləri Azərbaycanın mənşəyi barədə bölmə ilə başlanır, XVII-XVIII əsrlərdə müstəqil xanlıqlarda vəziyyət haqqında məlumat verilir, xanlıqların süqutu və çar Rusiyasının Azərbaycanın şimal hissəsini işğal etməsi izah edilir. Sənədin etnoqrafiya hissəsində Azərbaycanın türk yurdu olması göstərilir, etnik azlıqlar haqqında məlumat verilir. İkinci bölmə Azərbaycanın yerli əhalisinin keçmiş rus imperiyasına münasibəti və müstəmləkə rejiminin nəticələrinə həsr edilmişdir. Sonrakı bölmə Zaqafqaziya seymi, onun zəifləməsi və Azərbaycan Respublikasının yaranması haqqında tarixi icmaldır. Burada bolşeviklərin və ermənilərin təcavüzkar hərəkətləri haqqında dəyərli məlumatlar verilir.

Azərbaycan Respublikasının ərazisi bölməsində göstərilir ki, onun ərazisi xanlıqların ərazisini əhatə edir. Keçmiş inzibati bölgüyə uyğun olaraq Qafqaz Azərbaycanın ərazisi aşağıdakı inzibati-ərazi vahidlərindən ibarət hesab edilir:

Bakı quberniyası; Yelizavetpol (Gəncə) quberniyası (buraya Cavanşir, Nuxa, Ərəş, Şuşa, Cəbrayıl, Zəngəzur və Qazax qəzaları daxildir; Gəncə quberniyasının dağlıq hissəsi Azərbaycan və Ermənistan arasında mübahisə obyekti olaraq qalır); İrəvan quberniyası (Naxçıvan, Şərur-Dərələyəz, Sürməli qəzaları, habelə Yeni Bəyazid-Eçmiədzin və Aleksandropol qəzalarının bir hissəsi); Tiflis quberniyasında Borçalı, Tiflis və Sığnax qəzalarının mühüm bir hissəsi; Zaqatala qəzası; Dağıstan regionunda Kürə və Samur nahiyələrini əhatə edən ərazinin bir hissəsi, habelə Dərbənd şəhəri və onun ətrafı da daxil olmaqla Qaytaq-Tabasaran qəzasının bir hissəsi; yuxarıda adları çəkilən İrəvan və Tiflis quberniyalarında, habelə Zaqatala qəzasında mənsubiyyəti Azərbaycan, Ermənistan, Gürcüstan və Şimali Qafqaz respublikaları arasında iddialar doğuran sahədə çox kiçik ərazilər.

Dağıstan haqqında izahatda deyilir ki, buranın əhalisi Azərbaycanlılardan ibarət olan hissəsi həmişə Azərbaycana birləşmək meylində olmuşdur. Onun iqtisadi mənafeləri Quba və Bakı şəhərləri ilə o dərəcədə bağlıdır ki, Dağıstanı bu siyasi və iqtisadi əlaqələrdən kənarda təsəvvürə gətirmək qeyri-mümkündür. Yerli əhali Azərbaycan dövlətinə göndərdiyi petisiyalarda Sulak çayı boyunca bu ərazinin Azərbaycana birləşdirilməsini tələb edir.

Sənəddə göstərilir ki, adları çəkilən qəza və əyalətlərdən başqa Azərbaycan Respublikası Tiflis quberniyasındakı Axalsıx qəzasını; Batum, xüsusən də Qars əyalətlərini öz ərazisinə daxil etməyə xüsusi əhəmiyyət

verir. Xüsusən Qars ətrafının sakinləri Azərbaycanlılarla eyni etnik qrupa daxildirlər, onların dini, adət-ənənələri, vərdişləri, yaşayış tərzləri və məişətləri Azərbaycanın qalan hissələri ilə eyniyyət təşkil edir. Bütün bunlardan sonra həmin ərazidə yaşayan müsəlmanların dəfələrlə Azərbaycan hökumətinə Qars ətrafının respublikanın tərkibinə qatılması təklifi ilə müraciət etmələrini başa düşmək olar. Türk qoşunları ölkəni tərk etdikdən, yerli hökumət və parlament müttəfiq qoşunları komandanının nümayəndələri tərəfindən buraxıldıqdan, ərazi qonşu respublikalar - Ermənistan (Qars) və Gürcüstan (Ərdəhan) arasında bölüşdürüldükdən sonra həmin müraciətlər daha da güclənmişdir (6a, s.177).

Sənəddə Azərbaycan Respublikası hökumətinin nəzarəti altında olan ərazinin 94,1 min kv.km., hələlik Azərbaycan hakimiyyətinin yayılmadığı Azərbaycan ərazisi ilə birlikdə isə 150,2 min kv. km. olduğu göstərilir (6a, s.178) (əlavələrdəki xəritəyə baxmaq olar).

Azərbaycanın təbii sərvətləri bölməsində ölkənin neft, pambıq, ipəkçilik, balıqçılıq, üzümçülük və tərəvəzçilik, taxılçılıq, heyvandarlıq sahələri barədə faktlar verilir. Azərbaycanın 1919-cu il büdcəsi göstərilir.

Sonrakı bölmələrdə Azərbaycanın müstəqil siyasi mövcudluq hüquqları əsaslandırılır və bildirilir ki, Azərbaycan müstəqil yaşamağa qadir bir ölkədir. Burada konfederasiya məsələsi barədə deyilir: "Azərbaycan sülh nümayəndəliyi belə qənaətdədir ki, ittifaqın ən yaxşı forması Qafqaz respublikalarının - Azərbaycan, Ermənistan, Gürcüstan və Dağlıların konfederasiyası ola bilər. Qafqaz respublikalarının konfederativ ittifaqının tərəfdarları olan Azərbaycanlılar və Şimali Qafqaz dağlıları həmin ittifaqı milli və ərazi nifaqlarına son qoymaq üçün ən yaxşı forma hesab edirlər. Biz tam əminik ki, belə bir ittifaq şəraitində əvvəlki münaqişələr öz kəskinliyini itirəcək və ümumi mənafelərə doğru yönəldilmiş Qafqaz xalqlarının hamısının rifahını nəzərdə tutan düşüncə və hərəkət tərzi onlara birdəfəlik son qoyacaq (6a, s.186).

Azərbaycan diplomatiyasının şah əsəri sayıla biləcək bu mükəmməl sənəd Azərbaycan Respublikası nümayəndə heyətinin tələbələri ilə bitir: Sülh konfransı Qafqaz Azərbaycanın Rusiya imperiyasından ayrılmasını bəyənsin; Azərbaycan sərhədləri memoranduma əlavə olunan xəritədə göstərilən və Azərbaycan Demokratik Respublikası adı ilə tanınan tam müstəqil dövlət olacaq. 2. Azərbaycan Respublikasının sülh nümayəndəliyinin üzvləri sülh konfransının və onun komissiyalarının işinə cəlb olunurlar. 3. Azərbaycan Respublikası başqa dövlətlər kimi yüksək himayəsi altında olmaq istədiyi Millətlər Liqasının üzvlüyünə qəbul edilsin (6a, s.190).

Azərbaycan nümayəndə heyətinin Müttəfiq dövlətlərin Parisdəki nümayəndələri ilə Azərbaycanın müstəqilliyinin tanınması barədə dalbadal cavabsız müraciətlər etdiyi 1919-cu ilin payızında General Denikinin Azərbaycan üzərinə hücum təhlükəsi artırdı. Bakı bu təhlükə ilə bağlı gərəkli tədbirlər görürdü (III fəsildə nəzərdən keçirilib). Parisdəki heyət isə sülh konfransının sədrinə müraciət edərək, Denikinin təcavüzkar meyllərinə öz etirazını bildirirdi. Notada göstərilirdi ki, ingilis hərbi hissələrinin Azərbaycanı tərk etməsindən sonra Denikinin Azərbaycana münasibəti günbəgün pisləşmiş, Dərbənd yolunda Könüllü Ordu hissələrinin cəmləşməsi artmışdır. Denikinin Dağıstana münasibətdə müəyyən olunmuş demarkasiya xəttini keçməməsi, Dərbəndi boşaltması, Xəzər donanmasının Denikin tərəfindən zəbt edilmiş hissəsinin Azərbaycan hökumətinə verilməsi sahəsində müvafiq tədbirlərin görülməsi tələb edilirdi (141, v.80-84).

Qafqaz (ya Zaqafqaziya) konfederasiyası ideyasının gerçəkləşməsinin çətinliyi, Müttəfiq qoşunlarının Azərbaycandan çəkilməsi, milli münasibətlərin kəskin oldun Zaqafqaziya üzərində İtaliyanın müvəqqəti mandatlıq hüququndan imtina etməsi, Denikin təhlükəsinin Azərbaycanı təhdidində davam etməsi, yeni yaranmış dövlətlərin müstəqilliyinin tanınması sahəsindəki qeyri-müəyyənlik Azərbaycan nümayəndə heyətini ölkənin xaricdən təhlükəsizliyini təmin etmək məsələsində İran amilindən istifadəyə sövq edirdi. Yuxarıda da nəzərdən keçirdiyimiz Parisdəki Azərbaycan-İran danışıqları iki ölkə arasında sıx birliyə (konfederasiya formasında) səbəb ola biləcək müqavilənin meydana çıxmasına gətirib çıxartdı. Ə.M.Topçubaşov noyabr ayında yazırdı: Bizim vəziyyətimizdə faydalı ola biləcək hər cür imkandan istifadə etməliyik. Üstəlik, xüsusən indi siyasi vəziyyət başgicəlləndirici sürətlə elə dəyişir ki, hansısa müəyyən kombinasiyanın üstündə dayanmaq olduqca çətindir (427, s.89).

1919-cu ilin sonlarında beynəlxalq vəziyyətin dəyişməsi Azərbaycanın siyasi durumunda müvafiq dəyişikliklər yaratdı. Qızıl Ordunun ilk ciddi hərbi uğurlarından sonra Antantanın Kolçak, Denikin və başqa çar generallarına hərtərəfli yardım siyasəti sovet Rusiyası ilə dil tapmaq meyli ilə əvəz olundu. Əgər əvvəllər Antanta ölkələri böyük, vahid Rusiyanın bərpasına ümid edirdilərsə, artıq ağ generalların labüd uğursuzluğunu görüb, onlara hərbi-siyasi yardımı tədricən azaltdılar, daha sonra isə tamamilə kəsdilər. Noyabr ayından etibarən Avropa mətbuatında sovet Rusiyasının təklif etdiyi barışıq şərtləri müzakirə edilməyə başladı.

Azərbaycan nümayəndə heyəti keçmiş Rusiya imperiyasından qopmuş yeni dövlətlərin nümayəndələrindən ibarət xüsusi konfransın çağırılmasını təklif etdi.

Çar hökumətinin borclarının qaytarılması məsələsində ümumi məsuliyyətin olması prinsipini irəli sürürdülər. Digər tərəfdən, konfransın ali Şurası sovet Rusiyasının təklifinin yeni yaranmış dövlətlərin istiqlalının bolşevik hökuməti tərəfindən tanınması şərtilə qəbul edəcəyini bildirirdi (427, s.89). Əli Mərdan bəy bu dəyişikliyin böyük ümidlər verdiyini göstərirdi: hiss olunur ki, bizim azad və müstəqil yaşamaq haqqında ümidimizin möhkəmləndiyi və onun gerçək formaya çevrildiyi dövr başlanır. Biz heç vaxt keçmiş Rusiyanın bütün xalqları üçün ən əlverişsiz anlarda belə, hətta üzümüzə çəkdiyimiz əziyyətlərin nəticəsiz qalacağını dedikləri vaxtlar belə ümidimizi itirmirik. Məhz ona görə ümidimizi itirmirik ki, xalqımızın müstəqil yaşaya bilməsinə və hansı qurbanlar hesabına olursa-olsun, gec-tez öz istiqlaliyyətinə çatmasına inanırıq... Biz heç vaxt bu əvəzsiz neməti əldə etmək fikrindən əl çəkməyəcəyik. Və əvvəllər də yazdığım kimi verəcəyimiz hər hansı qurban qarşısında biz öz yolumuzdan dönməyəcəyik.

Əli Mərdan bəy Azərbaycan vətənpərvərliyi ruhunun ən gözəl nümunəsi olan bu məktubunda daha sonra yazırdı: Biz arzu edirik ki, hamı, bizim bütün xalqımız dərk etsin ki, bu aylarda, bu günlərdə biz azad siyasi-ictimai və iqtisadi həyata qadir olmağımızın sübutu yolunda imtahan vermək istəyirik (427, s.90).

Bu arada sovet Rusiyası Azərbaycan Respublikasına qarşı diplomatik təzyiqlərə başladı. 1920-ci ilin yanvarın 2-də RSFSR xalq xarici işlər Komissarı Çiçerin Azərbaycan hökumətinə verdiyi notada Azərbaycanı Denikinə qarşı müharibəyə təhrik etməyə çalışdı və bildirdi ki, Azərbaycan dövləti və onun əməkçi siniflərinin sosial-siyasi mənafeyinin düzgün başa düşülməsi Azərbaycanı razılıq verməyə məcbur edəcək (geniş şəkildə daha sonra). Çiçerinin notası Azərbaycanın istiqlalı məsələsinə Paris sülh konfransının öz münasibətini bildirməsini sürətləndirdi.

1920-ci il yanvarın 11-də, nəhayət, Lord Kerzonun təklifi ilə Paris konfransının ali Şurası Azərbaycan və Gürcüstanın istiqlalının de-fakto tanınması haqda yekdilliklə qərar qəbul etdi. Ə.M.Topçubaşovun başçılığı ilə Azərbaycan nümayəndə heyətinin çəkdiyi zəhmət hədər getmədi: Azərbaycan xalqı yaratdığı demokratik dövlətlə sübut etdi ki, o, müstəqil yaşamağa layiqdir. İstiqlalının tanınmasından 3 gün sonra bu tarixi xəbərin sədası çatmış Azərbaycan bayram edirdi. Yanvarın 14-də Azərbaycan parlamentinin təntənəli iclası oldu. Millət vəkilləri və parlamentin iclasında iştirak edən xarici ölkələrin diplomatik nümayəndələri istiqlal yolunda qurban getmiş Vətən oğullarının və Osmanlı əsgərlərinin xatirəsini yad etdilər. Bu tarixi hadisə münasibətilə ümumi əfv elan edildi. Daha sonra parlament üzvləri və qonaqlar hərbi paradda iştirak etdilər. Azərbaycanın başqa şəhərlərində də mərasimlər təşkil edildi (246, s.30-31).

Yanvarın 19-da Azərbaycan və Gürcüstanın rəsmi nümayəndələri Paris konfransı ali Şurasının iclasına dəvət edildilər. İclasda müzakirə olunan məsələlərin əksəriyyəti Cənubi Qafqazın müdafiəsi ilə bağlı idi. Cənubi Qafqazın yeni dövlətlərini tanımaqla Antanta müvafiq olaraq onların xarici təcavüzdən qorunması haqda da üzərinə təəhhüdlər götürür, yeni yaranmış dövlətlərin rəsmi nümayəndələrinə hərbi sahədə ehtiyaclarını bildirmələri təklif olunurdu.

Əli Mərdan bəy bu görüşün nəticələri haqqında Azərbaycan hökumətinə təcili məlumat verdi. Tezliklə xarici işlər nazirinin imzasıyla Azərbaycan hökumətinin rəsmi memorandumu konfransın ali Şurasına təqdim edildi. Memorandumda Azərbaycan Respublikasının istiqlaliyyətinin tanınmasını böyük tarixi əhəmiyyəti qeyd edilir. Azərbaycanın çox tezliklə Şimaldan gələn təhlükə ilə üz-üzə dayanacağı ehtimalı qarşısında ona müxtəlif sahələrdə əsaslı yardım edilməsi zərurəti əsaslandırılırdı. Azərbaycan istiqlalının qorunması məsələsində hərbi yardıma böyük ehtiyacı olduğu göstərilib, Azərbaycan hökumətinə hərtərəfli hərbi yardım göstərilməsi xahiş edilirdi (II bənd).

Ənənəvi iqtisadi əlaqələr pozulduqdan ölkədə yaranmış iqtisadi-maliyyə böhranını aradan qaldırmaq məqsədilə Avropa və Amerikanın Azərbaycana 40-50 milyon qızıl manat miqdarında borc verməsi arzu edilirdi. Daha sonra quraqlıq üzündən və aclıq çəkən Gürcüstana külli miqdarda taxıl yardımı göstərmiş Azərbaycanın özündə çörək qıtlığı təhlükəsi yarandığından ona 1,5-2 milyon pud buğda, 1 milyon pud şəkər, kənd təsərrüfatının intensiv inkişafı üçün əkinçilik alətləri, yüngül sənaye məhsulları, eləcə də dərman verilməsi xahiş edilirdi. Bütün bunları və dəmiryol təsərrüfatının bərpası üçün tələb olunan 100 paravoz, 2 min çən, 500 bağlı vaqon əvəzinə Azərbaycan hökuməti Bakıda yığılıb qalmış neft (200 milyon pud), ağ neft (20 milyon pud), eləcə də pambıq, yun, ipək, gön-dəri vəs. məhsullarla ödəməyi öhdəsinə götürürdü.

Memorandumun sonuncu (IV) bəndi Batum məsələsinə həsr edilmişdi. Gürcüstan və Ermənistan arasında kəskin mübahisə obyekti olan Batum və ətrafının siyasi statusunun müəyyən olunmasında özünü bitərəf sayan Azərbaycan hökuməti bununla belə Batum limanının Azərbaycan üçün gerçək əhəmiyyətini nəzərə alaraq ondan istifadə işinin beynəlxalq zəmanət altına alınması məsələsini irəli sürürdü (147, v.21-22).

Qərb ölkələrindən silah və hərbi sursat almaq məqsədilə bir neçə ay əvvəl general Usubovun başçılığı ilə hərbi heyət İtaliyaya göndərilmişdi. Yanvarın 11-nə qədərki dövrdə Azərbaycan hərbi heyəti ilə İtaliya hökuməti arasında danışıqlar qarşılıqlı anlaşma şəraitində keçsə də, hələ müqavilə ilə nəticələnməmişdi. Azərbaycan istiqlalının tanınmasından sonra bu danışıqlar daha intensiv və ümidverici xarakter aldı (246, s.32,67).

Lakin Batum şəhəri uğrunda yeni erməni-gürcü konfliktin yaranması və Qarabağda erməni fitnəkarlığı nəticəsində başlanmış müharibə (haqqında yuxarıda danışılıb) Qafqazda "millətlərin sülh şəraitində yaşamağa qadir olmasına" Qərb ölkələrində şübhə yaradır və hərbi yardım məsələsində onların soyuqqanlı hərəkətini şərtləndirirdi. Üstəlik, ermənilər və ermənipərəst mətbuat Azərbaycanlı Kamal Türkiyəsi arasında sıx əlaqələrin yaranması və bunun "Antantanın regiondakı mənafeyini təhlükəyə salması" haqqında Avropada güclü təbliğat kampaniyasına başlamışdı. Digər tərəfdən, Antanta ölkələrindəki bəzi dairələr 1914-cü il sərhədlərinin bərpasına mane olmamaq müqabilində sovet Rusiyasından bir sıra güzəştlər qoparmaq ümidində idilər (bu barədə bir qədər sonra).

Bütün bunlar Paris sülh konfransının ali şurasının fevral ayının sonlarında Londonda başlamış xüsusi sessiyasında bir daha üzə çıxdı. London konfransı fevralın 24-də "Rusiyada Müttəfiqlərin siyasəti" adlı memorandum qəbul etdi. Burada qeyd edilirdi ki, terrora son qoyulmayınca sovet hökuməti ilə diplomatik münasibətlərin yaradılması qeyri-mümkündür, lakin Rusiya ilə ticarət əlaqələri qurmaq mümkün hesab edilirdi. Millətlər Liqasına təklif edilirdi ki, Rusiyada həqiqi vəziyyəti öyrənmək üçün buraya xüsusi komissiya göndərsin. London konfransında müstəqilliyi Müttəfiqlər tərəfindən tanınmış yeni dövlətlərə tövsiyə edilirdi ki, sovet Rusiyası ilə dinc münasibətlər yaratsınlar, bununla belə bolşeviklər yeni dövlətlərin sərhədlərini pozduqları təqdirdə Antanta bütün vasitələrlə onlara yardım göstərəcəyini vəd edirdi.

Konfransda Batum məsələsi ciddi mübahisələrə səbəb oldu. Həm Müttəfiqlər, həm də Qafqaz dövlətlərinin hər birisi ayrı-ayrı layihələr irəli sürürdu. Gürcülərin layihəsinə görə, Batum Gürcüstana birləşdirilməli, Azərbaycan və Ermənistanın saziş əsasında bu limandan azad istifadə etmələri təmin edilməlidir. Müttəfiqlər təklif edirdilər ki, Batum 3 yerə parçalansın, vilayətin bir hissəsi Gürcüstana, digəri Ermənistana verilsin, Batum şəhərinin özü isə Millətlər Liqasının nəzarət altında mənafeyi olan bütün dövlətlərin istifadə edə biləcəyi azad şəhər olsun.

Konfrans gedişində Azərbaycan və Gürcüstan nümayəndləri arasında belə bir razılıq əldə edildi ki, hər iki dövlət Batum vilayətinin parçalanmasını məqsədəuyğun hesab etmir. Azərbaycan Batum vilayətinin şəhərlə birlikdə Gürcüstana birləşdirilməsinə etiraz etmir, Gürcüstan isə Azərbaycanın Batuma olan maraqlarını tam təmin edir. Lakin ermənilərin qeyri-konstruktiv mövqeyi London konfransının Batum barədə qəti qərar qəbul etməsinə mane oldu. Qafqazdakı yeni dövlətlərin sərhədləri məsələsi də növbəti danışıqlara qədər təxirə salındı (geniş məlumat üçün baxın: 247, s.337-345).

1920-ci ilin mart ayının 5-də hökumətin qərarı ilə Paris sülh konfransında öz missiyasını uğurla başa vurmuş Azərbaycan nümayəndə heyətinin ləğvi, aprel ayının 1-dən etibarən Fransa, Böyük Britaniya, İtaliya, Birləşmiş Ştatlar və Polşanın paytaxtlarında fəaliyyət göstərəcək Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin yaranması haqqında parlamentə qanun layihəsi təqdim edildi. Qanun layihəsinə əlavə olunmuş izahatda göstərilirdi ki, yuxarıda adı çəkilmiş diplomatik nümayəndəliklər Azərbaycanın xarici təcavüzdən müdafiəsinə yönəlmiş müqavilə şərtlərini hazırlamalı, Azərbaycanın suverenliyinin hüquqi cəhətdən (de-yure) tanınmasına nail olmalı, zərurət hiss olunan ölkələrdə daimi diplomatik nümayəndəliklərin yaradılmasına çalışmalı idilər.

Siyasi vəzifələrdən başqa bu nümayəndəliklər Azərbaycanın iqtisadi yüksəlişinə də kömək etməli, bu məqsədlə onlar xarici bazarlardakı vəziyyəti öyrənməli, əmtəə mübadiləsi haqqında müqavilələr imzalamalı, ölkə üçün lazım olan texniki material və maşınlar almalı idilər və s. Polşada yaradılacaq diplomatik nümayəndəlik eyni zamanda Latviya, Litva, Estoniya, Finlandiya və Ukrayna ilə də rəsmi əlaqələr yaratmalı, bu ölkələrin hökumətləri ilə diplomatik münasibətlərdə Azərbaycan hökumətini təmsil etməli idi (150, v.1-7;  104, v. 1-2).

Müstəqil Azərbaycan Respublikası hələ 1919-cu ilin sonlarında Gürcüstan (diplomatik nümayəndə M.Y.Cəfərov, sonra F.Vəkilov), Ermənistan (M.U.Təkinski, sonra Ə.Haqverdiyev), İran (A.Ziyadxan), Türkiyə (Y.V.Çəmənzəminli) ilə rəsmi diplomatik əlaqələr saxlayırdı. Bundan başqa, Azərbaycanın Təbriz, Xoy, Ənzəli, Rəşt, Əhər, Məşhəd, Batum, Kiyev, Krım, Aşqabad və başqa yerlərdə baş konsulluq, konsulluq və konsul agentlikləri var idi, ya yaradılmaq üzrə idi.

Bakıda isə aşağıdakı ölkələrin müxtəlif səviyyədə rəsmi nümayəndəlikləri yerləşirdi: Gürcüstan, Ermənistan, İran, Belçika, Hollandiya, Yunanıstan, Danimarka, İtaliya, Fransa, İsveçrə, İsveç. İngiltərə, ABŞ, Ukrayna, Litva, Polşa, Finlandiya. Fevral ayının 7-də general Denikin rəsmi olaraq Azərbaycanın istiqlalını tanıdı, elə həmin günlərdə Yaponiya hökuməti Azərbaycana diplomatik əlaqələr yaratmaq istədiyini bildirdi. Roma papası öz nümayəndəsini Bakıya göndərmişdi...

Avropa ölkələrinə hələ diplomatik heyətlər göndərilməmişdi. Ona görə də Ə.M.Topçubaşov başda olmaqla Azərbaycan heyəti London konfransından sonra Müttəfiqlərin yarımçıq qalmış məsələləri müzakirə etmək üçün aprel ayının 19-26-da İtaliyanın San-Remo şəhərində çağırdıqları konfransda iştirak etdi. Burada Azərbaycan nümayəndələrinin maraqlandıran bir sıra məsələlər - Batum məsələsi, neft məsələsi, Tyürkiyə ilə sülh müqaviləsinin

ilkin layihəsi və Türkiyə-Ermənistan sərhədləri, Qafqaz respublikalarının daxili sərhədləri, habelə rus məsələsi və Qafqaz dövlətlərinə yardım məsələsi müzakirə edilməli idi.

Konfrans ərəfəsində, aprelin 15-də Qafqazın üç qonşu ölkəsinin nümayəndələri birlikdə, ayın 16-da isə yenidən ingilis nümayəndəsinin iştirakı ilə Batum məsələsini müzakirə etdilər. İngilis nümayəndəsi Qafqaz respublikalarının nümayəndələrinə açıq şəkildə bildirdi ki, Qafqaz respublikaları arasında mübahisələrin həll edilməməsi Müttəfiqlərin ora silah göndərməsinə mane olan başlıca məsələdir. O dedi ki, Müttəfiqlər ehtiyat edirlər, sizə göndərilən silah qarşılıqlı çəkişmələrinizə xidmət etsin. San-Remo konfransı da sərhəd məsələlərini həll edə bilmədi, amma Batum məsələsi barədə çox əhəmiyyətli qərar qəbul etdi.

Konfransın qərarına görə, Müttəfiqlər Batumu azad şəhər elan etdilər. Lloyd Corcun xahişi ilə ora Millətlər Liqasının iradəsini yerinə yetirmək üçün bir fransız və bir italyan alayı göndərilməli idi. Azərbaycan, Gürcüstan və Ermənistana xaricdən hücum olacağı təqdirdə müdafiə qabiliyyətinin möhkəmləndirilməsi üçün yardım göstərilməsinə gəldikdə isə, konfransın axırıncı günü Müttəfiqlər bildirdilər ki, Qafqaza yalnız bu halda yardım göstərilə bilər ki, onların arasında möhkəm sülh və həmrəylik olsun. ( 25. s. 348 - 349, 353- 354).

İlk baxışda Azərbaycan Respublikasının müstəqilliyinin təmin edildiyi, Azərbaycanın, nəhayət, dünya millətlər birliyinin bərabərhüquqlu üzvünə çevrildiyi təsəvvürü yaranırdı. Azərbaycan parlamentinin sədri, böyük dövlət adamı olan Ə.M.Topçubaşov Parisdən Bakıya göndərdiyi məktublarda dəfələrlə eyforiyaya qapılmamağa, bütün gücü istiqlalın qorunub saxlanılmasının daxili şərtlərinin təmin edilməsinə yönəltməyi məsləhət görürdü. O, məktublarının birində, məsələn yazırdı: ...Azərbaycan, öz işlərini daxilən nizama saldığı şərtlərdə dövlət ola bilər, elə dövlət ki, heç kəsin onu tanımasına ehtiyacı olmayacaq, çünki sabit daxilən güclü Azərbaycan öz özümə gerçək fakt kimi, şübhə doğurmadan tanınmış hesab ediləcək. O, daxilən möhkəm dövlət olarsa, xaricdən olan istənilən qəsdə cavab vermək üçün özündə mənəvi və fiziki qüdrət tapacaq. Topçubaşovun əlimizdə olan sonuncu rəsmi məktubunun sonuncu cümləsi isə belə idi: "Vəziyyətimizin yaxşılaşdığı haqqında qənaətimizi bir daha təsdiq edərək, bu məlumatı Azərbaycanın daxili işlərinə xüsusi diqqət yetirin... çağırışı ilə bitirmək istəyirəm"(427, s.92-93, 101).

§ 2

## AZƏRBAYCAN – RUSİYA MÜNASİBƏTLƏRİ VƏ APREL İŞAĞLI

İstiqlal bəyannaməsində öz əksini tapmış qonşu ölkələrlə mehriban qonşuluq münasibətlərinin bərqərar olması prinsipi sovet Rusiyasına da şamil edilirdi. Bir sıra sənədlər göstərir ki, sovet Rusiyası ilə əlaqələrin yaradılmasını Azərbaycan Respublikası hökuməti zəruri hesab etmiş, bu yolda bəzi addımlar atmaq təşəbbüsündə bulunmuşdu.

1918-ci ilin yayında M.Ə.Rəsulzadə Azərbaycan hökumətinin sədri və xarici işlər nazirinə yazdığı məktubda İstanbul heyətindən soruşurdu: "Türkiyənin bizim müstəqillik haqqında teleqramlarımızı göstərdiyimiz ünvanlara göndərib-göndərməməsi haqqında məlumat vermənizi xahiş edirik. Heç cavab alınıbmı? Bizi Moskva, eləcə də İran maraqlandırır (113, v.42). Sentyabrın 13-də xarici işlər naziri Tiflisdəki diplomatik nümayəndəyə göndərdiyi şifrəli teleqramda göstərirdi ki, ...Moskvaya gəldikdə, biz Moskva ilə əlaqə yaratmaq istəyirik. Biz ümumiyyətlə, Rusiya, o cümlədən sovet hakimiyyəti ilə daimi dostluq şəraitində yaşamaq istəyirik (88, v.96).

Bu vaxt Bakıda ağalıq edən Bakı quberniyası (diqqət! - N.N.) Xalq Komissarları sovetinin timsalında sovet hakimiyyəti nəinki Azərbaycanın istiqlalının əleyhinə idi, hətta Azərbaycan adını və Azərbaycanın muxtariyyəti prinsipini belə yaxın qoymurdu. Bakı və bütün Qafqaz bolşeviklərinin başçısı (eləcə də sovet hökümətinin Qafqazda fövqəladə Komissarı) təyin edilmiş Şaumyanın vaxtilə Azərbaycanın muxtariyyətini istəyən müsavatçıları və başqa milli-demokratik qüvvələri Azərbaycanı xarabazara çevirməklə hədələməsi simvolik bir faktdır. Bakı kommunasının bütün fəaliyyəti sovet Rusiyasına xidmətdən, ilk növbədə onu neftlə təmin etməkdən ibarət idi.

RSFSR XKS-in qərarı ilə neft sənayesi milliləşdirildikdən sonra Bakıdan Həştərxana hər gün ən azı 1 milyon pud neft göndərilirdi. Bakını əlində saxlamaq üçün Moskva da öz yardımını (pul, hərbi qüvvə, kadr və s.) əsirgəmirdi (220, s.147; 419, s.353-354). Bakıda Şaumyan dəstəsinin hakimiyyətinin devrilməsindən sonra (iyulun sonu) belə, bolşevik Moskvası Bakını sovet Respublikasının ayrılmaz hissəsi sayırdı. Moskva sözdə, təbliğat üçün millətlərin öz müqəddəratını təyin etməsi hüququnu qəbul etsə də, işdə Almaniya ilə avqustun 26-da imzaladığı məşhur müqavilədə artıq ona məxsus olmayan Bakı neftinin dörddə birini almanlara (xidmətləri müqabilində) bağışlayırdı (birinci fəslə baxmaq olar).

Sovet Rusiyası hökuməti sentyabrın 15-də Bakının azad edilməsi və Azərbaycan hökumətinin paytaxta köçməsindən narahat olduğunu gizlətmirdi. RSFSR xarici işlər Komissarı Çiçerin setyabrın 21-də Almaniya baş konsuluna təqdim etdiyi notada Rusiya Respublikasının çox əhəmiyyətli şəhərlərindən birinin, yəni Bakının tutulmasına etirazını bildirib, bu işə, yəni Azərbaycan hökumətinin Azərbaycanın paytaxtına sahib olmasına müqavimət göstərmədiyi üçün müqavilə ilə sövdələşdikləri Almaniyanı məzəmmət edirdi (12, s.492- 493).

Bununla belə, Azərbaycan Respublikasının Gürcüstan hököməti yanındakı diplomatik nümayəndəsi M.Y.Cəfərov RSFSR xalq xarici işlər Komissarına 1918-ci il 6 oktyabr tarixli məktubunda Bakıda olan Moskva vilayəti ərzaq komitəsinin nümayəndəsi İ.P.Orlovun Azərbaycanla rəsmi iqtisadi əlaqələr yaratmaq sahəsində gördüyü işləri qeyd edərək, Bakıda və Moskvada rəsmi nümayəndənin təyin olunması, ticarət mübadiləsinin ümumi istiqamətlərini müəyyən etməyi təklif edirdi (59, v.Z).

Azərbaycan Respublikası rəhbərliyinin Rusiyaya münasibətini göstərmək baxımından M.Ə.Rəsulzadənin Azərbaycan parlamentinin açılışında (1918-ci ilin dekabrın 7-də) söylədiyi nitq səciyyəvidir. O, "inqilab naminə hökmfərma olan anarşi və millətlərin hüquqi elanından sonra yeridilən qatı mərkəziyyətçiliyin Zaqafqaziya millətlərini kəndi başlarının çarəsinə baxmağa sövq etdiyini qeyd edərək deyirdi: "Bilirsiniz ki, bizim Rusiya camaatına qarşı heç bir ədavət və nifrətimiz yoxdur. Rusiyaya nifrətimiz Rusiya istibdadı altında inləyən Rusiya camaatına nifrət demək deyildir. Bizcə, mənfur olan Rusiya, millətlərini əzən və hüquqlarını verməyən rəsmi Rusiyadır. Hər millət müstəqil və hürr olmalı, hürr olduğundan sonra digər millətlərlə ürəyi istədiyi kimi ittifaqa girməlidir... Biz Rusiya hökumətinin həqiqi rus demokratiyası əlinə keçməsi tərəfdarıyıq. Çünki Qafqaz dağlarının şimalında təşəkkül edən müstəbid və təcavüzkar bir hökumətə biz laqeyd qala bilərik. Biz Rusiyanın səadətini istəriz, Rusiya səadətini sevəriz. Fəqət öz istiqlalımızı da əziz tutarız. Səbr ilə qəbul edilən bir şeydə qətiyyən səadət olamaz, çünki səadət hürriyyət və istiqlaldadır" (30, 09.12.1918).

1919-cu ilin yazında Nazirlər Şurasının yeni sədri seçilmiş N.Yusifbəyli təşkil etdiyi hökumətin proqramında başqa vacib məsələlərlə yanaşı, sovet Rusiyası ilə iqtisadi-ticarət əlaqələrinin bərpası vəzifəsini də irəli sürürdü (30, 16.04.1919). Lakin Rusiyada vətəndaş müharibəsi və ingilislərin Həştərxana neft ixracına mane olmaları, üstəlik, Denikinin Azərbaycanı iqtisadi mühasirəyə alması ticarət əlaqələrini çətinləşdirirdi.

Bununla belə, sovet tarixşünaslığının qeyd etdiyi kimi, Azərbaycandakı kommunistlər "sovet Rusiyası ilə mal mübadiləsi uğrunda geniş mübarizə aparmaqla" bərabər, Qızıl Orduya çox lazım olan benzini gizli yolla Həştərxana çatdırmaq üçün böyük səy göstərirdilər. Bu məqsədlə bolşeviklər balıqçı qayıqlarında gizlicə neft məhsulları daşınmasını təşkil etmişdilər ki, buna da "dəniz ekspedisiyaları" adı verilmişdi. Bolşeviklərin səyi nəticəsində bir neçə ay ərzində Həştərxana 20 min puda qədər benzin və 3,5 min pud sürtgü yağları çatdırılmışdı (220, s.195).

1919-cu ilin yayında yerli əhalidən başqa xeyli rus kəndli köçkününün yaşadığı Lənkəran və Muğanda baş verən hadisələr Rusiyanın (həm Denikin, həm də Lenin Rusiyasının) bu bölgədə açıq təxribatı nəticəsində böhran səviyyəcinə çatdı. Hələ ilin əvvəlində rus kəndlilərinə arxalanan polkovnik İlyaşeviç burada "Lənkəran Diyar İdarəsi" deyilən qurum yaratmış, Azərbaycan hökumətini tanımadığını elan etmişdi. O, Muğanı Könüllü Yurdunun hərbi-strateji bazasına çevirib, bununla Denikinin Azərbaycanı işğal etməsinə əlverişli şərait yaratmaq istəyirdi: Lənkəran-Muğan bölgəsi bolşeviklərin də diqqətini cəlb edirdi, onlar da Qızıl Ordunun Bakıya gələcək hücumu üçün buradan strateji plasdarm kimi istifadə etmək istəyirdilər (374, s.142-143). Hər iki tərəf sürətlə rus əhalisini silahlandırır, onlardan hərbiləşmiş dəstələr təşkil edirdi.

Aprel ayında bolşeviklər yerli ağqvardiyaçılara qarşı hücuma başladılar, Diyar İdarəsini, ordu qərargahını, poçt, mayak, radiostansiya, dəniz limanını tutub, denikinçi zabitləri həbs etdilər. May ayının 15-də burada sovet respublikası elan edildi, yerli əhali üzərinə 8 mln. manat həcmində hərbi təzminat qoyuldu. Sovet hökuməti buradakı qiyamçılara dərhal böyük kömək göndərmək haqqında tapşırıq verdi. Həştərxandan Muğana hərbi mütəxəssis və siyasi işçi, silah, sursat göndərilməsini təşkil etmək üçün xüsusi hərbi Ekspedisiya deyilən birləşmə yaradıldı. Bu ekspedisiya vasitəsi ilə 1919-cu ilin may-iyulunda Lənkərana XI Ordudan 200 əsgər və zabit, 150 yeşik sursat və xeyli pul vəsaiti göndərildi. Cəmi Şimali Qafqazdan Tiflis vasitəsi ilə 2 min qırmızı qvardiyaçı və Bakıdan 1,5 min işsiz göndərmək nəzərdə tutulmuşdu. Mayın sonunda XI Ordunun hərbi-səhra tribunalının sədr müavini T.Ulyantsevin başçılığı ilə buraya Həştərxandan təcrubəli hərbi işçi qrupu göndərildi. Sovet hökumətinin verdiyi mandata əsasən, Ulyantsev Muğanın siyasi komissarı təyin edildi, ona geniş səlahiyyətlər verildi (374, s. 143-145).

Azərbaycan hökuməti Muğan-Lənkəranda genişlənən bu qiyamı yatırtmaq və artan anarxiyanın qarşısını almaq üçün buraya iyun ayında hərbi qüvvə göndərməyö məcbur oldu. Dörd min nəfərlik iki alaydan ibarət olan bu qüvvələrə general Səlimov başçılıq edirdi. Polkovnik İlyaşeviçin komandası altında olan hərbi dəstələr Biləsuvar yaxınlığındakı

kiçik döyüşdən sonra təslim olmaq qərarına gəldilər. Daha sonra - iyulun 25-də isə bolşeviklər döyüşlə dənizə tərəf sıxışdırırdılar, qiyamçılardan yalnız az bir hissə qaçıb canını qurtara bildi. Düşməndən qənimət kimi alınan bir təyyarə, 24 top və 60 pulemyot Azərbaycan Ordusunun ehtiyaclarına sərf edildi. Hərbi nazirin əmrində göstərildiyi kimi, "Muğan və Lənkəranın ana yurd Azərbaycana qaytarılması" ilə nəticələnən hərbi yürüşdən sonra buraya vali təyin edildi və Rusiyanın bu növbəti təxribatı da ləğv edilmiş oldu (246, s.64-65).

Bununla belə, sovet Rusiyası müxtəlif yollarla Azərbaycan Respublikasına qarşı təzyiqlərini davam etdirməkdə idi. Denikin təhlükəsinin real xarakter aldığı 1919-cu il avqustun sonlarında RSFSR xalq xarici işlər komissarı K.Çiçerin və komissarlığın Müsəlman Yaxın Şərq şöbəsinin müdiri N.Nərimanov Azərbaycan, Dağıstan və Gürcüstan fəhlə və kəndlilərinə müraciət edib, bu ölkələrin "öz təhlükəsizliyi üçün qorxan hakim dairələrinin Denikinlə sazişə gələcəklərini bildirirdilər. Müraciətdə daha sonra deyilirdi: Hakim siniflərinizin yenidən sizi aldatmaması üçün bir daha bütün dünya qarşısında bəyan etməyi sərvaxt iş hesab edirik: “Rusiya sosialist sovet Respublikası heç vaxt özgə torpaqlarını tutmaq, ya özgə torpağında silah gücünə hakimiyyətini bərpa etmək məqsədilə hərəkət etməmişdir... sovet Rusiyası öz hakimiyyətini bərpa etmək üçün əldə silah sizin respublikalarınız üzərinə əsla yürüş etmək fikrində deyildir. O öz müqəddəratını təyin etmək hüququnun möhkəm tərəfdarıdır... Əgər siz, Qafqaz müsəlmanları və gürcüləri, respublikalarındakı idarə üsulundan razısınızsa, sakitcə yaşayın, öz həyatınızı qurun və bizimlə mehriban qonşuluq münasibətlərini bərpa edin (9, s.259-260).

Azərbaycan zəhmətkeşlərinin təyini-müqəddərat hüququnu tanıdığını, lakin hakim siniflərinin onları aldadacağı haqqında xəbərdarlıq edən bu əcaib nota-müraciətindən sonra bir müddət rəsmi Moskva Azərbaycana təzyiqlərinə ara verdi. Denikinin Könüllülər Ordusunun tam ləğvi ərəfəsində Moskva yenidən diplomatik təzyiqlərə başladı. 1920-ci ilin yanvarın 2-də Çiçerin radioteleqrafla Azərbaycan xalqına və Azərbaycan hökumətinə müraciət etdi. Bu müraciət-nota da yuxarıdakı sənəd kimi daha çox təbliğat xarakteri daşıyırdı. Yudeniç və Kolçakı məhv etdikdən sonra Rusiyanın fəhlə-kəndli Qızıl Ordusunun General Denikinə qarşı uğurlu mübarizəsini qeyd edən Çiçerin Denikinlə müharibədə ittifaq yaradılmasını tələb edir, notanı (müraciəti) xəbərdarlıq notunda bitirirdi: “Biz Azərbaycanı və Azərbaycan xalqını nə qədər ki, gec deyil, Deninkinə qarşı mübarizəyə başlamağa çağırırıq. Azərbaycan dövlətinin maraqlarının və onun zəhmətkeş siniflərinin sosial-siyasi maraqlarının düzgün başa düşülməsi Azərbaycanı bizim təklifimizə razılıq verməyə məcbur etməlidir (9, s.367).

Rusiyanın Denikinə qarşı hərbi ittifaq yaratmaq haqqında müraciəti yanvarın 6-da Dövlət Müdafiə Komitəsində müzakirə edildi. Müdafiə Komitəsi bu təklif barədə Gürcüstanla (eyni məzmunlu nota-müraciət Gürcüstana da göndərilmişdi) ilkin məsləhətləşmədən sonra müstəqil dövlət kimi Azərbaycanın sovet Rusiyası ilə danışıqlara başlamağa hazır olduğunu bildirmək və Britaniya komandanlığının son günlərin hadisələrinə münasibətini, respublikanın mənafeyi üçün İngiltərənin nüfuzundan istifadə etmək imkanlarını öyrənmək haqqında xarici işlər nazirinə tapşırıq verdi (140, v.8). Xarici işlər naziri 8 yanvar tarixli teleqramla Azərbaycanın Tiflisdəki diplomatik nümayəndəsinə sorğu göndərdi: sizin 1 №-li teleqramınız və sovet Rusiyasının təklifi ilə bağlı xahiş edirəm, Gürcüstanın hansı tədbirlər görəcəyi və bu tədbirlərin kimə qarşı yönələcəyi barədə məlumat verin. Məlumat verin, Şimali Qafqaz barədə Gürcüstan nə qərara gəlib? Bizim hökumət çox əhəmiyyətli strateji məntəqə kimi Dağıstanın tutulmasını zəruri hesab edir (140, v.3).

Eyni zamanda sovet Rusiyasının notası barədə Paris sülh konfransına təcili məlumat verildi. Sülh konfransı Rusiyanın bu notasını ciddi təzyiq kimi qiymətləndirdi, Azərbaycan və Gürcüstanı müdafiə etmək məqsədi ilə onların tanınmasını sürətləndirdi. Azərbaycan və Gürcüstan 1920-ci il yanvarın 11-də de-fakto tanındı.

Azərbaycan hökuməti başa düşürdü ki, Çiçerinin notasındakı fəhlə-kəndlilərin öz həyatlarını istədikləri kimi qurmaq hüququnu tanıması sırf demaqoji-təbliğat missiyası daşıyır və sovet Rusiyası Azərbaycanın istiqlalını tanımamaq haqqında xəttini inadla davam etdirir, bununla yanaşı, sovet höküməti Azərbaycanı Denikinlə qeyri-bərabər mübarizəyə cəlb etməklə onu zəiflətmək (bölgə də Denikinin əli ilə onu məhv etmək), sonra isə Azərbaycan istiqlalının birdəfəlik axırına çıxmaq istəyir. Odur ki, xarici işlər naziri Fətəli xan Xoyski 14 yanvar tarixli cavab notasında göstərirdi ki, böyük tarixi hadisələr gedişində böyük qurbanlar və iztirablar hesabına azadlıq və istiqlaliyyət qazanmış Azərbaycan xalqı başqa xalqların daxili işinə qarışmır və ona görə də Azərbaycan hökuməti özünün daxili həyatını qurmaqda olan rus xalqının mübarizə sahəsinə müdaxiləni yolverilməz hesab edir. Bununla belə, Fətəli xan Azərbaycan Respublikası hökumətinin rus və Azərbaycan xalqları arasında hər iki dövlətin suverenliyi prinsipinə əsaslanan mehriban qonşuluq münasibətlərinin yaradılmasına hazır olduğunu bildirirdi (163, İ.41).

Çiçerinin ikinci notası (yanvarın 23-də) Azərbaycan istiqlaliyyətinin Avropa ölkələri tərəfindən tanınmasına sovet Rusiyasının çox da böyük əhəmiyyət vermədiyini göstərirdi. Çiçerin, Fətəli xanın cavabında öz əksini tapmış Rusiyada gedən mübarizəyə qarışmamaq prinsipini Denikinə qarşı mübarizədən imtina etmək kimi qiymətləndirir, hər hansı zəhmətkeş xalqın zəhmətkeş kütlələrinin (diqqət!- N.N.) milli müqəddəratını təyin etmək hüququna malik

olduğunu və Denikinə qarşı birgə mübarizə təklifinin qüvvədə qaldığını göstərirdi. Fətəli xan cavab notasında Azərbaycanın Denikinə qarşı mübarizəsini xatırladıb, sovet Rusiyası tərəfindən Azərbaycan Respublikasının qeyd-şərtsiz tanınması barədə Çiçerinin açıq və qatı fikir demədiyinə diqqəti cəlb edirdi (85, v.9-10).

Qızıl Ordu hissələri Dağıstan sərhədlərində ikən Çiçerin fevral ayının 20-də üçüncü notasını göndərdi. Bu nota əvvəlkilərdən o qədər də fərqlənmirdi (...Azərbaycan istiqlalının tanınması sovet Rusiyası və Azərbaycan arasında qarşılıqlı münasibətlər ətrafında müxtəlif məsələlərlə bağlı mürəkkəb danışıqların nəticəsində mümkün ola bilər) (146, n.53), lakin Qızıl Ordunun durmadan Cənuba doğru irəliləməsi Azərbaycan hökuməti daxilində təşvişi artırdı. Digər tərəfdən, Azərbaycan hökumətinin ümid etdiyi Qərbin hərbi yardımı da gəlib çıxmırdı. Daxili işlər naziri Hacınski (o, Parisdən dekabrda qayıtmışdı) başda olmaqla bir qrup belə hesab edirdi ki, sovet Rusiyasına geniş güzəştlər verməklə Azərbaycanın istiqlaliyyətini tanıtdırmaq mümkün olar, başqa sözlə, o, xarici oriyentasiyanı Rusiya istiqamətinə dəyişdirməyi təklif edirdi.

Bu qrupdan fərqli olaraq, Fətəli xan Xoyski və məsləkdaşları çıxış yolunu ölkədə güclü rejim yaratmaq və təcavüzə qarşı əldə silah müqavimətdə görürdü. Bu məqsədlə o, öz tərəfdarlarını evində toplayıb, çıxış yolunun konkret proqramını təklif etdi. I) Hacınskini tutduğu daxili işlər naziri vəzifəsindən götürüb, onun yerinə kommunizmlə mübarizəyə hazır olan adam təyin etməli; 2) sosialistlər hökumətdən çıxdıqda, onları başqaları ilə əvəz etməli; 3) parlamenti buraxmalı və ölkəni müdafiə məqsədilə hökumətə - fövqəladə hüquqlar verməli; 4) Azərbaycan Müəssislər Məclisinə yaxın altı ayda seçkilər keçirməli (431, s.8; 339; 82, v.18-19; 460, s.277-278).

Xoyski qrupunun fəaliyyəti nəticəsində Hacınski öz vəzifəsindən götürüldü, lakin o, hökumətin tərkibində ticarət və sənaye naziri kimi qala bildi. Hacınski qrupu bu uğursuzluğa baxmayaraq, öz fikirlərini təbliğ edir, geniş fəaliyyət göstərirdi. Bunun nəticəsi olaraq, mart ayında olan, bir neçə partiyanın nümayəndələrindən ibarət konfransda Hacınskinin platforması qəbul edildi (460, s.278, 281; 472, s.176).

Mart ayının 6-da Azərbaycan nümayəndə heyəti gürcü nümayəndələri ilə birlikdə Böyük Britaniyanın baş naziri Lloyd Corca nota ilə müraciət etdi. Birgə notada deyilirdi ki, “Rusiya tərəfindən bizim respublikaların istiqlalının tanınması və bizim ərazimizin şimaldan gözlənilən hər hansı hücumdan qorunması siyasi fəaliyyətimizin əsas qayəsidir. Daha sonra onlar Britaniya baş nazirindən Azərbaycan və Gürcüstanın tam istiqlalının Moskva hökuməti tərəfindən tanınmasına yardım etmək və bir tərəfdən Azərbaycan və Gürcüstan, digər tərəfdən sovet Rusiyası arasında danışıqlar təşəbbüsünü öz üzərinə götürməyi xahiş edirdilər (369, s.80). Azərbaycan diplomatiyasının bu addımı sovet Rusiyası ilə

Britaniya arasında bu zaman intensiv şəkildə davam edən danışıqlarla bağlı idi. Azərbaycan hökuməti və sülh heyətinin bu danışıqlardan xəbəri var idi (427, s.89,95), aydın idi ki, burada yeni müstəqil dövlətlər məsələsi də müzakirə edilir. Britaniya baş nazirinə sonuncu müraciət onu sovet Rusiyasının iddiaları qarşısında Azərbaycanı müdafiə etmək fikrinə yönəltmək cəhdi idi. Lakin 1920-ci ilin başlarından etibarən Britaniyanın sovetlərə münasibətdə yeritdiyi siyasətdə artıq bəzi dəyişikliklər baş vermişdi. Moskva ilə danışıqlarda London mümkün qədər çox güzəşt əldə etmək istəyirdi. Sovet təcavüzünün qarşısını ala biləcək Britaniya (ya Müttəfiq) qoşunlarının Qafqaza göndərilməsi ideyası isə çox bahalı və az effektli hesab edilirdi (454, s. 106-107).

Sovet Rusiyasının Azərbaycan Respublikasına təzyiqlərində, daha sonra isə yeni yaranmış bu dövlətə münasibətdə iddialarının gerçəkləşməsində Azərbaycandakı qüvvələrin, ilk növbədə burada kommunist hərəkatının dəstəklənməsi və genişləndirilməsinə böyük əhəmiyyət verilirdi.

Bakı azad edildikdən sonra (1918-ci ilin sentyabrı) kommunistlər özünə gələ bilməmiş, Azərbaycan milli demokratiyasının istiqlal, demokratiya, milli birlik və tərəqqi kimi şüarlarına qarşı heç bir şüar qoya bilməmişdilər. Azərbaycanlılar arasında bolşeviklərin nüfuzu heçə enmişdi. Ə.Qarayev etiraf edirdi ki, “dükançı” və obıvatellər “bolşevik” sözünü nifrətlə dilə gətirirdilər. Bolşeviklər türk xalqının dönükləri və düşmənləri hesab edilirdi (391, s.P). Ruslar və ermənilər arasında belə diqqəti cəlb edə biləcək gücə malik deyildilər. Bunu 1919-cu ilin martından Azərbaycan bolşeviklərinə başçılıq etməyə başlayan Anastas Mikoyan da boynuna alırdı (409, s.335; 395, s.144).

1919-cu ilin may tətili zamanı bu gücsüzlük özünü açıq göstərdi: Tətilin Azərbaycan istiqlalına qarşı yönəldiyini anlayan Azərbaycanlı fəhlələr hökumətin, xüsusən əmək nazirinin (sosialist) çağırışına cavab olaraq tətili dayandırdılar. Tətilin əsas şüarı dünya sosialist inqilabı ilə yanaşı, “Yaşasın sovet Rusiyası!” şüarı idi. Əsas tələblərdən biri də sovet Rusiyasına neft vermək tələbi idi. Yenə may ayında RK(b)P Qafqaz Diyar Komitəsi və onun Bakı təşkilatı Rusiyadan aldıqları silah gücünə Muğanda yerli rusların qiyamını təşkil etdi (Muğan sovet Respublikası). Yuxarıda göstərildiyi kimi, tezliklə bu qiyam yatırıldı.

Bu uğursuzluqlardan sonra yeni təlimat, pul, silah, siyasi ədəbiyyat və başqa ehtiyacları üçün Moskvaya tələsən Mikoyan mərkəzə hesabat verirdi: ...partiyamızda müsəlmanların, ziyalı, əqidəli və fəal işçilərin son dərəcə az olması millətçi müsəlman sosialistlərin sağ qanadına müsəlman fəhlələrin bir hissəsini öz arxasınca aparmaq imkanı verir. Ona görə də onun fikrincə, gələcək sovet hakimiyyətinin yad, rus hakimiyyəti olacağından qorxan kütlələr arasında uğurlu iş aparmaq üçün müstəqil sovet Azərbaycanı şüarına böyük ehtiyac var imiş (9, s.y38).

Azərbaycanda "beşinci kolon"un gücləndirilməsi planı işlənib hazırlandı. Plana uyğun olaraq hümməti iki yerə parçaladılar; sosial-demokrat fəhlə partiyası hümmət istiqlal prinsipini qəbul edərək, açıq fəaliyyət göstərməkdə davam edir, onun nümayəndələri parlamentin işində iştirak edir, hətta hökumətdə nazir vəzifəsi belə tuturdular; ikinci qrup-bolşevik Hümmət isə silahlı üsyan yolu seçdi. Yerli bolşeviklər Həştərxanda (sonra isə Moskvada) olan Azərbaycan kommunist mühacirəti ilə sıx əlaqə saxlayır, onların yardımı ilə asılı olduqları Rusiya Kommunist (bolşeviklər; Partiyası ilə münasibətləri nizamlamağa çalışırdılar. Moskvada və Bakıda olan bolşeviklərin səyi ilə RK(b)P siyasi Bürosu 1919-cu il iyulun 19-da Hümmət partiyasının vilayət komitəsi hüququnda (diqqət! - N.N.) muxtar kommunist partiyası və Azərbaycanın müstəqil sovet Respublikası kimi tanınması haqqında müəmmalı qərar qəbul etdi (370, s.284).

Hümmətçi bolşeviklər, beləliklə, partiyalarının "müstəqil" olduğunu bayram edə bilərdilər-partiyalarının adında "Azərbaycan" sözünü yazmağa müəyyən şərtlərlə (RK(b)P Qafqaz Komitəsinin və Stalin yoldaşın razılıq verməsi şərti ilə) icazə almışdılar. Azərbaycana isə sovet Ukraynası və sovet Belorusiyası tipli "müstəqillik" verilmişdi. Lakin Qafqaz Komitəsi Hümmətin partiya adlandırılmasına razılığını vermədi.

Tiflisdəki müzakirələrdə iştirak etmiş Mirzə Davud Hüseynov xatırlayır: "Biz deyirdik ki, keçmiş Hümməti biz Rusiya Kommunist Partiyasının təşkilatı adlandırcaq, bununla biz tək müsavatçılar deyil, həm də hümmətin kənara atdığımız sağ cinahının əlinə böyük təxribat silahı vermiş olarıq, bizim Azərbaycan kəndliləri və fəhlələri arasındakı işimiz çox çətinləşir. Biz göstərirdik ki, müsavatçılar elə indi də bizi xalqı satmaqda, Rusiyanın casusları olmaqda ittiham edirlər; onlar deyirlər ki, biz, hümmətçilər ruslara satılmışıq, yenidən rusları gətirmək üçün öz milli hakimiyyətimizi devirmək istəyirik... Qeyd etmək lazımdır ki, lap əvvəldən, AKP haqqında ideyanın meydana çıxmasından başlayaraq, hümmətçilər və bizə qoşulmuş eserlər belə bir fikirdə idilər ki, söhbət yalnız formal partiyadan gedir, faktiki olaraq bu, RKP-nin təşkilatı olacaq və həm RKP MK-nın, həm də Qafqaz Diyar Komitəsinin bütün direktivlərini yerinə yetirəcək. Lakin Tiflis bürosundan olan yoldaşlar heç eşitmək belə istəmirdilər (391,-s.54).

Üstəlik, RK(b)P-nin Bakı Komitəsi azsaylı, dağınıq "Hümmət" və iranlı fəhlələrdən ibarət "Ədalət" qruplarını özündə birləşdirməyə başladı. Moskvadan son qərar 1919-cu ilin axırlarında gəldi: 2-9 dekabr 1919-cu il tarixində olmuş VIII Ümumrusiya konfransının qərarına əsasən milli təşkilatlar buraxılmalı, RK(b)P-nin yerli təşkilatları ilə ərazi şöbələri hüququnda bir təşkilat şəklində birləşməli idilər. Azərbaycanlı kommunistlərin bir hissəsinin təşkilatlarının adında "türk", ya "müsəlman" sözləri ilə ona milli xarakter vermək cəhdləri boşa çıxdı, yalnız ərazi mənasında

Azərbaycan sözündən istifadə etmək olardı. “Hümmət” və “Ədalət”in işini paralel olaraq Bakıda fəaliyyət göstərən RK(b)P-nin Bakı Komitəsi maliyyələşdirir və təbii ki, onlara rəhbərlik edirdi. Yuxarıda dediyimiz kimi, Bakı Komitəsinin və onun başçısı Anastas Mikoyanın təşəbbüsü ilə (bəzən bunu Nərimanovun adına çıxırlar) təbliğat işini yoluna qoymaq məqsədi ilə 1919-cu ilin mayında sovet Azərbaycanı uğrunda (bəzi sənədlərdə Müstəqil sovet Azərbaycanı) şüarı irəli sürüldü. Mikoyanın xatırladığı kimi, bu şüar mübarizə yoldaşları Qarayev, M.D.Hüseynov və Ağayev kimi yerli bolşeviklər və Moskvadakı azərbaycanlılar tərəfindən məmnuniyyətlə qəbul edildi. Lakin Qafqaz Komitəsi adı çəkilən şüarın təbliğati əhəmiyyətini yetərincə dəyərləndirə bilmədi.

Mübahisələrə müdaxilə etmək məcburiyyətində qalan Kirov bu məsələdə Moskvanın fikrini öyrənmək üçün Kolomiysevi mərkəzə göndərdi. Kolomiysev Mikoyana 9 iyun 1919-cu il tarixli məktubunda göstərirdi ki, sovet Azərbaycanı şüarının tanınması məqsədi ilə Moskvaya gedir və əlavə edirdi: hər halda məndə belə bir ümid yaranmışdır ki, Azərbaycan məsələsi Tiflisin rəyinə baxmayaraq, sizin həll etdiyiniz şəkildə həll ediləcəkdir (369, s.78). Elə də oldu - Azərbaycan məsələsi Mikoyanın həll etdiyi kimi həll edildi”.

RK(b)P Qafqaz Diyar Komitəsinin 2-ci plenumunda qərara alındı ki, Azərbaycan, Gürcüstan və Ermənistanda sovet respublikaları yaradılacaq, onlar əvvəl Qafqaz federasiyasında birləşəcək, daha sonra Ümumrusiya federasiyasına daxil olacaqlar. Bolşevik mətbuatı bir qədər sonra yazırdı ki, Azərbaycan sovet Respublikası şüarı Lenin tərəfindən də qəbul edilmişdir (419, s.409).

Beləliklə, Moskva Azərbaycanın gələcəyi barədə Azərbaycan kommunistlərinin təkliflərinə müsbət cavab verdi: sözdə müstəqil sayılacaq Azərbaycan, Rusiyaya bağlı sovet Respublikasına çevrilməli, Azərbaycan kommunist təşkilatı da RK(b)P-nin yerli təşkilatı statusuna malik olmalı idi. Bu, dövrün əsas şüarı olan dünya sosialist inqilabı şüarının tələblərindən doğur, dağılmış Rusiya imperiyasının keçmiş müstəmləkələrinin yenidən Rusiya tərkibinə qatılması məqsədinə uyğun gəlirdi. Azərbaycanda, xüsusən Azərbaycandan kənarda olan yerli bolşeviklər nəinki Azərbaycanın, hətta bütün Şərqin bolşevikləşməsini özlərinin amalı hesab edirdilər. Bu amalda Azərbaycan istiqlalına yer yox idi. Bütün fəaliyyətləri Azərbaycanın sovetləşməsinə yönəlmişdi.

Azərbaycan bolşeviklərinin Moskvadakı başçısı və sovet Rusiyasının yüksək rütbəli məmuru (Xarici İşlər Komissarlığı Müsəlman Yaxın Şərq şöbəsinin müdiri, daha sonra, eyni zamanda millətlər Komissarı Stalinin müavini) olan Nərimanovun bu dövrkü yazılarında və Azərbaycana müraciətlərində bu məqsəd aydınlığı ilə ortaya çıxır. O,

məsələn, yazırdı: “Petrovski tutandan sonra biz gərək Dağıstan Sovet Respublikasını, Bakını tutduqdan sonra isə Azərbaycan sovet Respublikasını elan edək... Biz rus yoldaşlardan kömək gözləyəcəyik (415, s.190).

“Rus yoldaşlardan gözlənilən kömək” qırmızı ordunun Denikini cənuba doğru qovması ilə reallaşırdı. Buna müvafiq olaraq, bolşeviklərin Azərbaycan Hökumətinə təzyiqi də artırdı. Nərimanov 1919-cu ilin iyulunda Azərbaycan Respublikası Nazirlər Şurasının sədri N.Yusifbəyliyə yazdığı məlum məktubda göstərirdi: Kolçak darmadağın edildi. Tezliklə Denikinin də axırına çıxacaqlar. Sovet Rusiyasının qüdrətli qəddarı tamamilə açılacaqdır. Əgər siz əvvəlki kimi kar və korsunuzsa, əgər indi, xüsusən Versal sülhündən sonra dünya miqyasında nələr olduğunu görmür və eşitmirsinizsə, onda sovetlər Rusiyası cizin üçün bir o qədər qorxulu deyildir... Bütün siyasətiniz üçün Zaqafqaziya müsəlman fəhlə və kəndlilərinin məhkəməsi qarşısında cavab verməli olacağınız müdhiş saat yaxınlaşır... Onda sizdən soruşacaqlar: bəs bilmirdinizmi ki, Azərbaycan və Bakı şəhəri sovet Rusiyası barəsində xüsusi mövqe tuturdu? sovet Rusiyasının Ermənistan və Gürcüstan ilə əlaqəsi xüsusi rol oynamır, amma Bakı, sovet Rusiyasının həyatıdır. Siz qabaqcıl müsəlmanlar isə daim bu ciddi məsələ ilə oynayaraq rus fəhlələrinə və kəndçilərinə son dərəcə nankorluq etdiniz...

Bu səpgili təhqir və təhdidlərdən sonra Nərimanov müstəqil və demokratik Azərbaycanın rəhbərlərindən meydandan uzaqlaşmağı tələb edirdi: Mərd-mərdanə deyin: “biz Rusiya inqilabının xarakterini anlamamışıq, biz dağıdıcı imperialist müharibəsinin bütün nəticələrini nəzərə ala bilməmişik. Biz meydandan çəkilirik, Azərbaycanda qoy sovet hakimiyyəti olsun! Mən əminəm ki, bununla siz rus proletariatı qarşısında təqsirinizi (? - N.N.) yüngülləşdirmiş olarsınız (245, s.218-219).

Fətəli xan Xoyskinin Azərbaycan Respublikası hökumətinin rus və Azərbaycan xalqları arasında hər iki dövlətin suverenliyi prinsipinə əsaslanan mehriban qonşuluq münasibətlərinin yaradılmasına hazır olduğunu bildirən cavab notasını almış RSFSR Xalq Xarici İşlər Komissarılığı Azərbaycan hökumətinin tanınması məsələsinə münasibət barədə RK(b)P Qafqaz Diyar Komitəsi və RK(b)P Bakı Komitəsinin fikrini öyrənmək üçün sorğu göndərdi. Qafqaz Diyar Komitəsi Komissarılığın sorğusuna müsbət cavab verdi, yəni Azərbaycan hökumətini tanımağı məqsədəuyğun hesab etdiyini bildirdi.

1920-ci il fevralın 11-də Kirov teleqramında göstərirdi: Məlumat verirəm ki, Zaqafqaziya Diyar Komitəsi Azərbaycanın müstəqilliyini tanımağı zəruri hesab edir (369, s.81).

Elə həmin gün Bakıda Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının birinci qurultayı işə başladı. Qurultayın təşkili üçün RK(b)P külli miqdarda vəsait sərf etdi, təkcə fevralın 7-ci - 10-u arasında Qafqaz Komitəsi bu işə xüsusi smetaya əsasən 200 min manat buraxmışdı. Qurultay RK(b)P Bakı Komitəsi, bolşevik “Hümmət” və iranlı fəhlələrin kommunist təşkilatı “Ədalətin” vahid təşkilat şəklində birləşməsi haqqında qərar qəbul etdi: “Kommunizm uğrunda mübarizənin birliyi xatirinə və yerli şəraiti nəzərə alaraq, qurultay taktiki mülahizələri rəhbər tutub, bütün kommunist partiyalarının Azərbaycan Kommunist (bolşeviklər) Partiyası adı altında birləşməsini zəruri hesab edir, partiyanın başında növbəti qurultaylarda seçilən Mərkəzi Komitə durur. Qafqazda mövcud olan kommunist partiyaları ilə işi əlaqələndirmək zərurəti ilə bağlı olaraq qurultay Azərbaycan Kommunist Partiyasının Ümumqafqaz diyar kommunist təşkilatının bir hissəsi olduğunu və kommunistlərin Qafqaz Diyar Komitəsini özünün ali rəhbər orqanı hesab etdiyini bildirir”(17,s.11).

Qurultay Bakıda dövlət çevrilişinə hazırlıq xətti götürdü. Bu xəttə uyğun olaraq fevralın 17-də yenicə yaranmış AK(b)P MK Çiçerinin təkrar sorğusunu müzakirə edərək, Azərbaycanın müstəqilliyinin tanınmasına heç bir ehtiyac olmadığı haqda qərar verdi. Bu qərar onunla əsaslandırılırdı ki, “Azərbaycanın fəhlə-kəndli kütlələri tanınmanın əleyhinədirlər”(369, s.81).

Bu zaman Moskvada Azərbaycanın müstəqilliyi məsələsinə münasibətdə kəskin mübarizə gedirdi. Bir tərəfdən, Xundadzenin başçılığı ilə gürcü menşevik diplomatik heyəti Lenin və sovet hökumətinə təsir edərək, onları Gürcüstan və Azərbaycanın müstəqilliyini tanımağa sövq etməyə çalışır, digər tərəfdən Qafqaz bolşevikləri, xüsusən Moskvada olan hümmətçilər Azərbaycan və Gürcüstanın müstəqilliyinin tanınmasına qarşı kəskin mübarizə aparırdılar. Bu mübarizə son nəticədə ikincilərin qələbəsi ilə bitdi: sovet hökuməti Azərbaycan höküməti ilə müzakirələrə başlamaqdan və Azərbaycanın müstəqilliyini tanımaqdan imtina etdi (369, s.81-82). Azərbaycanı sovetləşdirmək üçün həm Azərbaycanda, həm də ondan kənarda hazırlıq işləri genişləndi. AK(b)P-yə bu sahədə böyük ümid bəslənilirdi. Onun ixtiyarına istənilən qədər pul və silah göndərilirdi.

Ən təcrübəli kadrlar, ilk növbədə məşhur Mikoyan bu işə cəlb edildi. Mart ayında yerli və gəlmə kommunistlər Bakıda dövlət çevrilişi təşkil etmək istədilər (90, v.1-6; 98, v.1-1a; 37, 30.03.1920). Lakin müvəffəq olmadılar. Neft qıtlığı üzündən Rusiya təsərrüfatının iflic vəziyyətə düşdüyü martın 17-də Lenin Bakının işğalı haqqında Azərbaycan kommunistlərinin çoxdan gözlədikləri əmri verdi. O, Qafqaz cəbhəsi hərbi inqilab Şurası, Smilqa və Orconikidzeyə yazırdı: Bakını tutmaq bizə son dərəcə və son dərəcə zəruridir. Bütün səyinizi buna verin (15, s.17). Aprel ayının 17-də

isə Lenin hələ olmayan Bakı Neft Komitəsinin sədrliyinə A.Serebrovski adlı birisini təyin etdi və ona neftin Rusiyaya daşınması sahəsində fövqəladə səlahiyyətlər verdi (161, v.14).

Xaricdən və daxildən təzyiqlərin artdığı şəraitdə Bakıda hökumət böhranı baş verdi. Mart ayında olmuş konfransda Xoyski və tərəfdarlarının müxalifətinə baxmayaraq, Hacınski qrupunun siyasi xətti, yəni Rusiyaya oriyentasiya cəhdi, deyildiyi kimi, qalib gəldi. Konfransın qərarları ilə razı olmayan N.Yusifbəyli istefa verdi, yeni hökumətin təşkili isə Hacınskiyə tapşırıldı. Lakin o, aprel ayının əvvəlindən yeni hökumətin təşkilini süni olaraq ləngitdi. Hacınski bolşeviklərlə danışığa girib, onları öz hökumətində iştiraka dəvət etdi, bolşeviklər isə Hacınski hökumətinə daxil olmaqdan imtina etdikdə Hacınski özü Kommunist Partiyasına daxil oldu. Mövcud hakimiyyətə daimi müxalifətdə olan İttihad və Əhrar partiyaları, sosialistlər sovet Rusiyası ilə hərbi və siyasi ittifaq yaradılmasını təbliğ edirdilər, əslində Azərbaycanın dövlət və milli müstəqilliyini sonuna qədər müdafiə etmək xəttinə sadiq qalanlar Müsavatdan və bitərəf demokratlardan məhdud sayda nazir və millət vəkilləri idilər (339; 317, s.190).

Həqiqət naminə onu da qeyd edək ki, Azərbaycan hökuməti Anadolu milli müqavimət hərəkatına mümkün olan maddi yardımı göndərmiş, əlavə yardım barədə danışıqlar aparmaq üçün qərargah rəisi Rauf bəyi Bakıya dəvət etmişdi (baxın: 269, s.300; 268, s.487-488; 292, s.547, 638, 671-672; 294, s.20-22; 280, s.69-91; 323, s.33-36; 290, s.16-17).

Azərbaycan Respublikası ilə Kamal Türkiyəsi arasında əlaqələrin yaranmasından qorxuya düşən Lord Kerzon, bəzi mənbələrə görə, bu zaman deyibmiş ki, Azərbaycan hökuməti türk millətçiləri ilə əlaqəyə girmişdir. Azərbaycana silah verməyəcəyik.

Sovet Rusiyasının planlaşdırdığı təcavüzdə on həssas amil, bizim fikrimizcə, Ermənistanın Azərbaycana qarşı patoloji düşmənçiliyindən istifadə oldu. 1920-ci ilin əvvəllərində erməni nümayəndələri Pirumov və Zaxaryan Moskvaya gedib, ərazi güzəştləri müqabilində Azərbaycan Respublikası hökumətini devirmək işində öz hökümətlərinin təklifini bildirdilər (324, s.107). Qarabağda erməni əhalisinin qiyamı və Ermənistanla Azərbaycan arasında müharibə planlaşdırıldı. 72 minlik Qızıl Ordu hissələri Samur çayı kənarında cəmləşdiyi vaxt Qarabağda qiyam başladı. Yuxarıda da deyildiyi kimi, Azərbaycan Ordusu hissələrinin təxminən hamısı ölkənin qərbinə yeridildi, şimal sərhədi isə təcavüzə açıq qaldı...

Maraqlıdır ki, bu arada sovet Rusiyası ilə ticarət sahəsində danışıqlar davam edirdi. Martın 30-da sovet Rusiyası-Azərbaycan birgə Komissiyasının iclasında ticarət müqaviləsi imzalandı. Sentrosoyuzun Bakıdakı nümayəndəsi S.İ. Selavri Moskvaya göndərdiyi teleqramda bu müqavilə barədə məlumat verir, gələcək işləri üçün təlimat

göndərmələrini xahiş edirdi. Aprelin 17-də Rusiya xarici işlər Komissarının müavini Qaraxan Azərbaycanla ticarət-iqtisadi əlaqələrin yaranmasına prinsipial razı olduğunu bildirən teleqram göndərdi. Aprel ayında ticarət əlaqələrinin genişləndirilməsi sahəsində danışıqlar davam edirdi (neftin qiyməti barədə danışıqlar aprelin 27-dək çəkdi) (151, v.2-5,7).

Belə bir şəraitdə F.Xoyski aprelin 15-də növbəti (və sonuncu) nota ilə Çiçerinə müraciət etdi. "Dağıstan ərazisinin Denikin qüvvələrindən –təmizlənməsindən sonra Azərbaycan xalqı şimal tərəfdən qorxu çəkmədən sakit yaşayacağını ümid edirdi sözləri ilə başlanan notasında Fətəli xan külli miqdarda sovet ordu hissələrinin Dərbənd rayonunda cəmləşməsi səbəbini soruşur, rus və Azərbaycan xalqları arasında mehriban qonşuluq münasibətlərinin yaranması üçün danışıqlara başlamağa təkid edib, bu təklifin qəbul edildiyi təqdirdə danışıqların başlanması vaxtını və yerini təyin etməsini xahiş edirdi (93, v.73). Lakin bu nota cavabsız qaldı...

Y.Kvantalianinin başçılığı ilə AK(b)P nümayəndələri aprel ayında Petrovsk şəhərinə gedərək gələcək silahlı üsyanla XI Ordunun hərəkətini uyğunlaşdırmaq barədə Orconikidze ilə danışmış, silahlı üsyanın başlanmasından 24 saat sonra XI Ordunun Azərbaycan sərhədini keçməsi qərarlaşdırılmışdı (472, s.179). Lakin bu razılaşma şərtləri də pozularaq aprelin 26-dan 27-nə keçən gecə, Mikoyanın xatırladığı kimi, birə beş-on dəqiqə işləmiş başda "III İnternasional" olmaqla zirehli qatarlar qrupu Samur çayı üzərindəki sərhəd körpüsünü keçib, surətlə cənuba doğru irəliləməyə başladı (409, s.566). Sərhəd qüvvələrindən ibarət Azərbaycan Ordusu hissələri ciddi müqavimət göstərə bilmədi. Hərbi nazirin müavini General Şıxlinski isə dəmiryol körpülərinin partladılması əmrini ləğv etmişdi. Bakıdakı parlament və digər mühüm dövlət orqanlarını qorumalı olan Yardım Alayı da türkiyəli komandirlərin təhriki ilə bolşeviklər tərəfə keçdi. Hərbi gəmilərin topları parlamentin binasına tuşlanmışdı.

Saat 4-də Azərbaycan K(b)P MK, RK(b)P Qafqaz diyar Komitəsinin Bakı bürosu və Fəhlə konfransı adından Azərbaycan parlamentinə hakimiyyətin təhvili haqqında ultimatum verildi (geniş məlumat üçün, məsələn, baxış: 324, s.108-132; 317, s.182-202; 339; 472, s.180-184; 359, s.78-80. Sovet tarixçiliyinin məsələyə münasibəti barədə, məsələn, baxın: 220, s.230-246; 419, s.424-442; 15, s.12-36; 390, s.247-261; 374, s. 139-163). Bu tarixi iclasda iştirak etmiş M.Ə.Rəsulzadənin yazdığına görə, hakimiyyəti ələ alacaq bolşeviklər aşağıdakı şərtlərə riayət edəcəklərini bildirdilər: "1. Rus Ordusu Bakıya girmədən dəmiryolu ilə birbaşa Anadolunun imdadına gedəcək; 2. Azərbaycan istiqlalı və ərazi bütövlüyü hər cür təcavüz və quyuddan (məhdudiyyətdən, ilhaqdan, köləlikdən - N.N.) qorunacaq; 3. Azərbaycan Ordusu olduğu kimi qalıb buraxılmayacaq; 4. Azərbaycan siyasi partiyaları hürriyyət və

sərbəstliyini mühafizə edəcək; 5. Keçmiş dövlət xadimləri, hökumət üzvləri və millət vəkillərindən heç bir kəs siyasi cinayətdə ittiham edilməyəcək; 6. Azad şəkildə toplanacaq Azərbaycan şuraları hökümətin idarə şəklini təyin edəcək (324, s.109).*

1920-ci il aprel ayının 27-ci axşam saat 11-də Azərbaycan parlamenti hakimiyyətin təhvil verilməsi haqqında qərar qəbul etdi. Bu, Azərbaycan Demokratik Respublikasının sonu, Azərbaycan istiqlalının yenidən itirilməsi, Azərbaycanın yenidən müstəmləkəyə çevrilməsi demək idi...

* * *

Hakimiyyətin təhvilindən keçən az vaxtda aydın oldu ki, bolşeviklər verdikləri vədlərin heç birinə əməl etmək fikrində deyillər. “Aprel inqilabının elə səhəri günü təşkil edilmiş mitinqdə şüarın müəllifi Anastas Mikoyan Müstəqil sovet Azərbaycanı şüarının köhnəldiyini bildirdi. Bakıda talan həftəsi (“qrabnedelya”) başladı, qırmızı ordu Azərbaycanın şəhər və kəndlərini bir-birinin ardınca işğal etdi. İşğaldan on gün qabaq RSFSR fəhlə-kəndli müdafiə Şurasının Bakı Neft Komitəsinin sədri təyin olunmuş Serebrovski öz işinə başladı; aprel ayının 30-dan may ayının 16-a qədər Bakıdan Həştərxana 3,8 min pul mazut, 119.8 min pud neft, 260,4 min pud kerosin, 52,8 min pud maşın yağı, Letrovska 67,5 min pud mazut, 112,8 min pud neft, 283,6 min pud kerosin, 31,6 min pud maşın yağı, 3,3 min

---

* 1920-ci ilin 6 may tarixli Kommunist (rusca) qəzetində verilmiş şərtlər xeyli fərqlidir: “1. sovet hakimiyyəti tərəfindən idarə edilən Azarbaycan özünün tam müstəqilliyini saxlayır; 2. Azərbaycan Kommunist partiyasının yaranan yeni hökuməti müvəqqəti orqan olacaq; 3. Azərbaycanın nəhayi idarəçilik forması hər cür təzyiqdən azad olan Azərbaycan fəhlə, kəndli və əsgər deputatları sovetinin şəxsində Azərbaycanın ali qanunverici müəssisəsi tərəfindən müəyyən ediləcək; 4. hökumət idarələrinin bütün qulluqçuları yerlərində qalacaqlar, yalnız məsul vəzifə daşıyanlar dəyişdiriləcəklər; 5. yeni yaranan müvəqqəti kommunist hökuməti, hökumət və parlament üzvlərinin həyat və əmlaklarının toxunulmazlığına zəmanət verir; 6. Qızıl Ordunun Bakı şəhərinə döyüşlə daxil olmasına yol verməmək üçün tədbirlər görəcək; 7. Yeni hökumət qətiyyətli tədbirlərlə və ixtiyarında olan bütün vasitələrlə Azərbaycanın müstəqilliyinə qarşı azan bütün qüvvələrlə mübarizə aparacaq.

pud silindr yağ göndərdi (10, s.437). Lenin bütün bunları layiqincə qiymətləndirdi: Biz hamımız bilirik ki, sənayemiz yanacağın olmamasından dayanmışdı, lakin indi Bakı proletariatı hakimiyyəti öz əlinə almış və Azərbaycan hökümətini devirmişdir. Bu o deməkdir ki, biz indi sənayemizə həyat verə biləcək bir iqtisadi əsasa malik olduq" (402, s.332).

Bakıya çatar-çatmaz (mayın 16-da) Azərbaycan bolşeviklərinin yeni başçısı Nərimanov dahi rəhbəri Leninə hesabat verirdi ki, Qızıl Ordu özünü gözəl ("velikolepno") apardı (15, s.48-49). Səhərisi gün mitinqdə çıxış edərək o, sonrakı onillər belə dəyişməyəcək Azərbaycan bolşevizminin şüarını beyan etdi: Azərbaycan respublikasının əbədi xoşbəxtliyi Rusiya ilə bağlıdır. Sovet işğalına qarşı yönəlmiş Gəncə üsyanından sonra o yazırdı: Gəncədəki əksinqilabi qiyam nəyin bahasına olursa-olsun yatırılmalı idi və fəhlə-kəndli hökumətinin əmrini yerinə yetirərək Qızıl Ordu əksinqilabı məhv etdi. Xainlər, quldurlar, Azərbaycan fəhlə və kəndlilərinin düşmənləri layiqincə cəzalandırıldılar. İyunun 20-də Gəncə və Qarabağ üsyanlarını qan içində boğmuş Levandovskiyə Qırmızı bayraq təqdim edərkən Azərbaycanın Lenini təbrik nitqində fəxrlə deyirdi ki, Qızıl Ordu və Azərbaycanın sovet hakimiyyəti zarafat sevmədiyini əyani sübut etmək üçün hər şeyi məhv etməyə hazırdır (15, s.80-81).

Azərbaycan tam sovetləşdirildikdən az sonra qonşu ölkələrə təzyiq vasitəsi kimi Moskva, sovet Azərbaycanından fəal istifadə etməyə başladı. Dünya inqilabı doktrinasına (həqiqətdə sovet imperializminin məqsədlərinə) uyğun olaraq demokratik Gürcüstanla sovet Azərbaycanı arasında müharibə başladı, yenə sovet Azərbaycanı adı ilə İranın şimalına qoşun göndərildi. M.Ə.Rəsulzadə yazırdı (azca sadələşdirilmişdir): "Az-çox pozulmamış Azərbaycan əsgəri də dağıdılırdı. Bəzi hissələri əksinqilabçı deyə dağıtmış, geridə qalan mövcudunu da Azərbaycan üsyanından sonra bolşeviklər tərəfindən İran üzərinə yapılan təcavüz səfərinə göndərmişdir. Bu surətdə bolşeviklər həm Azərbaycan Ordusunun axırına çıxır, həm də Rəşt və Ənzəlidə törətdikləri işləri azərbaycanlı əlilə icra etmək surətilə bu iki dindaş millət arasında əbədi bir nifaq və uçurum açmaq istəyirdi (324, s. 124-125).

1920-ci il sentyabrın 30-da RSFSR-lə Azərbaycan SSR arasında hərbi-siyasi ittifaq haqqında müqavilə bağlandı. Bu müqaviləyə əsasən RSFSR-lə Azərbaycan SSR-in hərbi təşkilat və hərbi komandanlığı, su nəqliyyatı və poçt-teleqrafı, maliyyə işləri birləşdirilirdi. Müqavilənin 4-cü bəndinə əsasən onun ratifikasiyasına ehtiyac görülmürdü və imzalandığı gündən qanuni qüvvəyə minirdi (15, s. 118-119).

Bu "birləşmənin" nə olduğunu göstərmək üçün xarakterik bir misal gətirək. Müstəqil Azərbaycan SSR hökümətinin xarici ölkə nümayəndələri ilə danışıqlara başladığı haqda məlumat alan Lenin 1921-ci il sentyabrın 26-da

Nərimanova acıqlı bir teleqram göndərir: “Oblvneştorqun razılığı və RKP MK-nın icazəsi olmadan almanlarla, ya başqaları ilə xarici ticarət barədə heç bir müqavilə imzalamayın. Çatması və icrası haqqında teleqrafla, sonra isə təfərrüatı barədə məktubla geniş cavab verin “(415, s.22).

1921-ci il noyabrın 3-də RK(b)P MK Qafqaz Bürosunun plenumu Azərbaycan, Ermənistan və Gürcüstan SSR-in federativ ittifaqının yaranması haqqında qərar qəbul etdi. Lenin isə onlar üçün Zaqafqaziya respublikalarının yaranması haqqında təklif layihəsini hazırladı və burada federasiyanın yaranmasını tamamilə düzgün və hökmən yaradılmalı bir iş hesab etdi (220, s.309). Noyabrın 29-da Ümumrusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin siyasi bürosu Zaqafqaziyanın təşkili haqqında qətnamə verdi və 1922-ci ilin martında Zaqafqaziya sovet sosialist Respublikalarının Federativ İttifaqı yarandı. Həmin ilin sonunda isə sovet sosialist Respublikaları İttifaqı meydana çıxdı və bu, unitar sovet imperiyasının formalaşmasını hüquqi cəhətdən təsbit etdi.

## Nəticə

1918-ci ilin 28 May tarixli İstiqlal bəyannaməsi Azərbaycan Demokratik respublikasının müvəqqti konstitusiyası rolunu oynadı. Bu tarixi sənəddə istiqlal, mühriban qonşuluq münasibətləri, demokratik idarəçilik, milli-etnik azlıqların hüquqlarına hörmət prinsipləri öz əksini tapmışdı.

Milli-demokratik qüvvələrin təmsilçisi olan Azərbaycan Milli Şurası yaranmış şəraitdə Azərbaycan üçün mövcud olan yeganə müsbət amildən istifadə etməyə məcbur idi. Etnik-tarixi bağlarla yaxın olduğu və zamanla uzaq düşdüyü Osmanlı dövlətindən kömək xahişi çox cürətli, amma yeganə düzgün addım idi. Geostrateji baxımdan da Osmanlı ilə Azərbaycanın maraqları üst-üstə düşürdü: Qafqazdakı müstəqil dövlətlər son əsrlərdə daimi müharibə vəziyyətində olan Rusiya ilə Osmanlı arasında bufer zona yaradırdı. 17 iyun siyasi böhranına, Osmanlı nümayəndələri ilə bir sıra başqa anlaşmazlıqlara baxmayaraq, tarixi təcrübə Osmanlı yardımına müraciətin düzgün addım olduğunu göstərdi. Milli təhlükəsizliyin on vacib amili - Osmanlı himayəsindən istifadə edərək, ölkənin paytaxtının azad olunmasından sonra dövlət quruculuğu prossesi başladı. Ən əhəmiyyətlisi isə Azərbaycan adı və varlığı Qafqazda qorunmuş oldu.

Osmanlı imperiyasının dünya müharibəsində məğlub olması Azərbaycanın milli təhlükəsizliyi üçün ən vacib amildən məhrum olması demək idi, üstəlik iştirak etmədiyi müharibədə Azərbaycan faktiki olaraq məğlub tərəf hesab

edilirdi. Bu dəfə Azərbaycan, milli təhlükəsizliyi üçün yeni təsirli amil (amillər) əldə etməli, çevik tərpənib, xarici oriyentasiyasını dəyişməli idi. Yaranmış vəziyyətdə Azərbaycanın varlığını təhdid edən amillər (Azərbaycana qənim kəsilmiş rus-erməni qüvvələri) yenidən aktuallaşdı. Azərbaycan Milli Şurasının qalib Antanta və onun Qafqazdakı nümayəndələri ilə dil tapması onun böyük diplomatik qələbəsi hesab edilməlidir. Yaranmış şəraitdə İngiltərəyə oriyentasiya düzgün addım idi. Bu özünün nəticəsini az sonra göstərdi: Bakıda ingilis işğal rejimi zəiflədi və 1919-cu ilin avqustunda ingilislər Azərbaycanı tamamilə tərk etdilər.

İngilis qoşunlarının Qafqazda sülhyaratma missiyası bir neçə hal (xüsusən Ermənistanla Gürcüstan arasında Borçalı müharibəsinin dayandırılmasında) istisna edilməklə ümumiyyətlə ardıcıl olmaması üzündən uğursuzluqla nəticələndi. 1918-ci ilin sonlarından ingilislər kəskin ərazi-qormaq problemlərinin həllində əski quberniya sərhədlərini əsas olaraq götürməyi təklif etdilər. Lakin yeni yaranmış dövlətlər arasındakı münaqişələrin yatırılmasında həlledici rola malik olmadıqda, fakt qarşısında qalıb, bu prinsipdən dəfələrlə geri çəkilməli oldu (məsələn, Borçalı, Naxçıvan, Denikinin Dağıstanı işğal məsələlərində). Sərhəd məsələlərinin Paris sülh konfransında həll ediləcəyi və yerlərdə aparılan fəaliyyətin (bəzi hallarda hərbi əməliyyatların) konfransın qərarına təsir etməyəcəyi haqqında ingilislərin iddiaları da erməni təxribat və təcavüzlərinin qarşısını ala bilmədi. Yeni yaranmış dövlətlərin istiqlallarının Antanta tərəfindən tanınmasının 1920-ci ilin əvvəllərinə qədər yubadılması, eləcə də kəskin sərhəd məsələlərinin burada arbitraj təriqi ilə müzakirə edilməməsi Qafqazda sülhün və təhlükəsizliyin yaranmasına mənfi təsir etmiş oldu.

1918-1920-ci illərdə Qafqazda altı yeni dövlət yarandı: Azərbaycan, Gürcüstan, Ermənistan, Şimali Qafqaz Dağlıları (Dağıstan), Araz Türk Respublikası və Cənub-Qərbi Qafqaz Respublikası. Bu dövlət qurumlarının hər birinə münasibətdə xüsusi yanaşma tərzi (modus vivendi) tələb edilirdi. Bu fərqə baxmayaraq Azərbaycan hökuməti həmin dövlətlərlə mehriban qonşuluq münasibətlərinin yaranması və mübahisəli məsələlərin danışıqlar yolu ilə həll edilməsi tərəfdarı olduğunu sübut etdi, Naxçıvan və Cənub-Qərbi Qafqaz Respublikasına isə hər sahədə kömək göstərməyə çalışdı.

Geostrateji mənafələri üst-üstə düşdüyündən Azərbaycanla Gürcüstan arasında münasibətlər normal inkişaf istiqamətində idi. Şimal təhlükəsinə qarşı iki ölkə arasında hərbi-müdafiə paktının imzalanması və bir sıra sahələrdə (iqtisadi, siyasi, hərbi) əməkdaşlıq Cənubi Qafqazda sülhün və təhlükəsizliyin yaranması üçün yaxşı əsas ola bilərdi. Ərazi-sərhəd və digər problemlərin həlli Paris sülh konfransına həvalə edildi. Bununla belə Borçalının bir hissəsi Azərbaycan tərəfindən mübahisəli ərazi sayılmaqda idi.

Gürcüstandan fərqli olaraq Ermənistanla münasibətlər çox çətin qurulur, normal qonşuluq münasibətlərinin yaranmasına yaxın keçmişin düşmənçilik mirası, ermənilərin mümkün qədər çox torpaq əldə etmək hərisliyi, daha önəmlisi isə xarici oriyentasiyadakı kəskin ziddiyyətlər mane olurdu. İki il iki yeni dövlət arasında permanent mübahisə və müharibə şəraitində keçdi, iki qonşu xalq arasında yeni düşmənçilik layının əlavə edilməsinə səbəb oldu. Bilavasitə ermənilərin təxribatı nəticəsində Qafqaz konfederasiyası məsələsi gerçəkləşə bilmədi, Cənubi Qafqazın yenidən rus nüfuz dairəsinə düşməsinə gətirib çıxardı. Yenə də bir qayda olaraq ermənilərin səyləri nəticəsində yüzminlərlə insan qaçqın vəziyyətinə düşdü, minlərlə dinc sakin məhv edildi. 1918-1920-ci illər Azərbaycan - Ermənistan münasibətləri tarixində ən gərgin dövrlərdən biridir.

Azərbaycan Respublikasının strateji məqsədlərindən biri Qara dənizə çıxış yolu əldə etmək idi. Bu məqsədlə Batuma iki istiqamətdə (Borçalı-Batum və Culfa-Qars - Batum) dəmiryol xətti layihəsi hazırlanırdı. Lakin tədqiq edilən dövrdə Azərbaycanın potensialının məhdud olması bu strateji məqsədin reallaşmasına mane oldu. Bununla belə Azərbaycanın iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün Batum şəhərinə beynəlxalq statusun verilməsi Azərbaycan diplomatiyasının tarixi qələbəsi hesab edilməlidir.

Azərbaycan Respublikasının potensialının məhdudluğu digər bir strateji marağın - Rusiya ilə Azərbaycan arasında bufer dövlətin (Dağlılar Respublikası) müstəqilliyinin tanınmasına da imkan vermədi. Buna baxmayaraq bu dövrdə Azərbaycan - Şimali Qafqaz münasibətləri tarixi təcrübə baxımından maraqlı materiallar verir. Bizim fikrimizcə, Qacar İranı ilə demokratik Azərbaycan arasında konfederasiya layihəsinə də məhz bu baxımdan yanaşmaq lazımdır.

Azərbaycan hökumətinin 1918-1920-ci illərdə ən böyük diplomatik uğuru, şübhəsiz, Azərbaycanın müstəqilliyinin de-fakto tanınması və Azərbaycanın beynəlxalq münasibətlərin subyektinə çevrilməsi idi. Azərbaycan məsələsi ilk dəfə olaraq, Rusiyanın daxili problemləri çərçivəsindən çıxdı. Bu, tarixi qələbə idi.

Azərbaycan hökuməti ölkənin milli təhlükəsizliyini, ilk növbədə onun istiqlalını qorumaq üçün mümkün olan bütün xarici amillərə - Osmanlı və Antantanın Himayəsi və Avropa ölkələri tərəfindən tanınma, Qafqaz dövlətlərinin konfederasiyası, İranla konfederasiya, bufer zona kimi Dağıstana yardıma-müraciət etdi. Yenə də təhlükəsizliyini təmin etmək üçün hətta xarici oriyentasiyasını Rusiya istiqamətinə dəyişdirməyi (M.H.Hacınski xətti) təcrübədən keçirdi. Lakin bütün bu cəhdlər nəticə vermədi - Azərbaycan ikinci dəfə Rusiyanın işğalına məruz qaldı.

Monoqrafiyada verilmiş materiallar, bizim fikrimizcə, əsas verir deyək ki, 1918-1920-ci illərdə Azərbaycan Respublikasının xarici siyasətinin üstün istiqamətləri düzgün müəyyən edildi, xarici siyasət qarşısında qoyulan vəzifələr

- ölkənin istiqlalı, suverenliyi, ərazi bütovlüyünün təmin edilməsi sahəsində çox böyük İşlər görüldü. Başqa sözlə, milli təhlükəsizliyin diplomatik təminatı problemi məqbul səviyyədə həll edildi.

Bəs təhlükəsizliyin daxili amillərinin təmini sahəsində vəziyyət necə idi?

Daxili amillər arasında ilk növbədə milli və istiqlal şüurunun yayqınlıq səviyyəsini araşdırmaq lazımdır, çünki milli və istiqlal şüuru milli təhlükəsizliyin ən əhəmiyyətli amillərindən biri sayılır. 1925-ci ildə M.Ə.Rəsulzadə bu problemə xüsusi əsər (İstiqlal məfkurəsi və gənclik) həsr etmişdir. Milli azadlıq hərəkatının böyük xadiminin qeyd etdiyi kimi, Azərbaycanımızda milli fikrin həyatı nisbətən əski olsa da, sözün aydın mənası ilə istiqlalçılıq fikri çox yenidir. M.Ə.Rəsulzadə daha sonra, 1918-ci ildə Azərbaycan siyasi fikrinin küll halında (Müsavat partiyası istisnadır) müstəqil dövlət həyatına hazır olmadığını yazır. O qeyd edir ki, milli hərəkatın yaşlı nəsli belə 1918-ci ildə elan olunan Azərbaycan istiqlalını özlərinin gözlədikləri xoşbəxt bir hadisə, xəyallarında həsrət çəkdikləri bir fikrin nəhayət gerçəkləşmiş bir məhsulu deyil, gözlənilməyən bir hadisə kimi qiymətləndirmişlər. Başa gələn hadisə qəbul etmək zərurətində qalmışlar. Etiraf etməliyiz ki, müstəqil Azərbaycan hökumətini idarə edən ziyalılarımızdan bir çoxu bir gün gəlib də milli bir hökumət başında duracaqlarını düşünmüş deyillərdi (328, s.5).

Əsrlik rus müstəmləkəçiliyi nəinki Azərbaycan dövlətçiliyinin dibinə balta vurmuş, dövlət idarəçiliyinə yerli əhalini yaxın buraxmamış, hərbi iş və silahdan onu yadırğatmış, hətta ölkənin və millətin adı sahəsində də fikir ayrılıqları yaratmışdı. Ona görə də 1918-ci ilin mayında Qafqazın cənub-şərqində yaranmış dövlətin adı tək İran hökumətinin etirazlarına səbəb olmadı, yerli xadimlərdən belə buna etiraz edənlər tapıldı. Əhalinin böyük əksəriyyətinin adı (etnonim) məsələsi (türk, tatar, yoxsa müsəlman) də fikir ayrılıqlarına səbəb olurdu. 1925-ci ildə Rəsulzadə qeyd edirdi: Rusiya idarəsindəki müsəlmanlara türk dedirtmək indi artıq qazanılmış bir davadır. Yalnız türk kəlməsi deyil, Azərbaycan adı da qazanılmışdır (328, s.6).

Rus müstəmləkəçiliyinin əhalinin milli və istiqlal şüurunda yaratdığı bu naqislik öz mənfi təsirini 1918-1920-ci illərdə göstərmiş, dövlət, eləcə də ordu quruculuğu işindəki naqisliyi şöhrətləndirmişdir. Rəsulzadə siyasi fikirdəki bu naqisliyin əksi kimi İstiqlal bəyannaməsinin preambula hissəsindəki yanlış fikirlərə diqqəti cəlb edir. Gürcüstanın İstiqlal bəyannaməsində olduğu kimi, Azərbaycan İstiqlal bəyannaməsində də rus Ordusunun Zaqafqaziyanı tərk etməsindən sonra yaranmış vəziyyətdən çıxış yolu olaraq Azərbaycanın öz müstəqilliyini elan etmək məcburiyyətində qaldığı fikri öz əksini tapmışdır. Rəsulzadə bu ovqata aşağıdakı kimi qiymət verir: Bu bəyannamədən aşkar görülür ki, Azərbaycan istiqlalı təəssüflə “ona tərk olunan və anarşiyə qərq olan” milləti həlak olmaq təhlükəsindən qurtarmaq

üçün əl atılmış bir növ “çarə”dir. “Dövlət” (Rusiya nəzərdə tutulur - N.N.) parçalanmış, kədərli bir vəziyyət hasil olmuş, gürcülər də getmiş, biz də istər-istəməz özümüzü idarəyə başlamışız, nə edək, müstəqil olmuşuz. Etiraf etməliyiz ki, bu, istiqlalı üçün mübarizə etmiş, azadlığına susamış bir millətin siyasətçiləri və inqilabçıları deyil, çökən əzəmət və səltənətin dəhşəti və gözlənilməz hadisələrin təsiri ilə sabahkı məsuliyyəti düşünən və təsəvvür edən, bəraət üçün indidən yüngülləşdirici səbəblər təmin edən uzaqgörənlər tərəfindən yazılmışdır...*

Gürcüstan bəyannaməsi də eyni qüsuru işləmişdir. Yaxud ki, doğrusu da budur: Azərbaycan İstiqlal bəyannaməsinin müəllifləri bu zəifliklərində gürcüləri təqlid etmişlərdir. Əvət, Gürcüstan bəyannaməsi də istiqlalını əmri-vağe olaraq qəbul etmişlər. O da Rusiyanın çəkilməsi, Mavərayi-Qafqasya istiqlalının soyuq zərurətlə elan edildiyi, sonra xüsusilə müsəlmanların separatçılığı üzündən Gürcüstanın istər-istəməz müstəqil olmaq çarəsizliyində qaldığı fikrini təsbit eyləmiş; o da gələcək prokurorun ittihamlarına qarşı indidən yüngülləşdirici səbəblər hazırlamışdır (328, s.6).

Milli və istiqlal şüurunun ekstremal şəraitdə tələb olunan səviyyədə olmaması siyasi həyatda yerliçiliyin baş qaldırmasına səbəb oldu. İstiqlal ideyası ətrafında milli birliyə nail olmaq sahəsində əsaslı irəliləyiş əldə edilmədi. Azərbaycan hökümətinin məmləkətə milliyyət hissini soxmaması haqqında yuxarıda adı çəkilmiş M.Ş.Əfəndizadənin iradı ilə razılaşmağa məcburuq.

M.Ş.Əfəndizadənin digər bir önəmli fikri ilə də razılaşmaq gərəkdir. “Rus idarəsi altında bütün siyasi varlığını itirmiş” azərbaycanlılar, onun sözlərinə görə, “kəndi-kəndilərini idarəyə alışmamış olduğundan pək çox xətalarda bulundular” (280, s.73, 90). Bu sahədə ən böyük xəta da gənc Azərbaycan demokratiyasının demokratik azadlıqlara aludəçiliyində, hakimiyyətin verdiyi səlahiyyətlərdən kifayət qədər istifadə etməməkdə özünü göstərirdi. Bu qəbil xətaların mövzu ilə əlaqəli tərəflərini vaxtilə M.Ə.Rəsulzadə də qeyd edirdi. O yazırdı ki, Azərbaycanda misli Avropada tətbiq olunmayan həqiqi bir xalq cümhuriyyəti qurulmuşdu (326, s.45). Lakin ölkənin milli təhlükəsizliyi bir sıra qəti addımlar atmağı, ilk növbədə ölkə idarəçiliyində fövqəladə qəti tədbirlər (F. Xoyski xətti) görməyi tələb edirdi. M.Ə.Rəsulzadə sonralar yazırdı:

---

* Azərbaycan Milli Şurasının İstiqlal bəyannaməsini hazırladığı və elan etdiyi tarixi günlərdə Şuranın sədri M.Ə.Rəsulzadə Tiflisdə deyildi. Bu zaman o, Batumda Osmanlı nümayəndələri ilə danışıqlarda iştirak edirdi.

“Hadisələrin də göstərdiyi vəchlə bu qədər liberal bir şəkildə qurulmuş bulunan parlaman üsulunun başlıca iki zəif tərəfi vardı: bunlardan biri şəklə, o biri də mənaya aiddi. Şəklə aid olan səhv, digər Qafqasiya cümhuriyyətlərində də olduğu kimi böhran günlərində parlamanı dağıdaraq bilavasitə xalqa müraciət etmək səlahiyyətini haiz icra məqamının (rəisi-cümhür) yoxluğundan ibarət idi... Zaman vardı ki, vəziyyəti qurtarmaq üçün hakim firqə parlamanı dağıdacaqdı. Fəqət olmadı (32a, 28.05.1933).

Azərbaycanın müstəqilliyinin qorunub saxlanması probleminin həllini çətinləşdirən digər maneələrin də olduğunu qeyd etməliyik. Belə ki, davam edən müharibə nəticəsində iqtisadi böhran şəraitində hakimiyyət məsuliyyətini öz üzərinə götürmüş Azərbaycan hökuməti ölkəni böhrandan çıxara bilmədi. Bir səbəb əsas neft bazarı olan Rusiya ilə əlaqələrin kəsilməsi idisə, digər səbəbi də müharibədən sonra dünya bazarında neftə olan ehtiyacın aşağı düşməsi oldu . Bu şərtlərdə milli təhlükəsizliyin digər mühüm amilinə - ölkənin iqtisadi qüdrətinə nail olmaq mümkün olmadı.

Tədqiq olunan dövrdə beynəlxalq siyasət də yeni müstəqil dövlətlərin yaşaması, yeni Rusiyanın əski iddialarından onların qorunması üçün əlverişli deyildi. Azərbaycan hökumətinin iradəsindən asılı olmayan mürəkkəb obyektiv şərait müstəqilliyini elan etdiyi başlanğıc nöqtəsində Azərbaycanın hərbi, iqtisadi, siyasi və mənəvi gücünün zəif olması, əlverişsiz beynəlxalq siyasi və iqtisadi konyuktur, qonşu ermənilərin təxribatları, eləcə də Rusiyanın dəyişməyən imperialist meylləri və Azərbaycana hərtərəfli təzyiqləri 1920-ci ilin aprelində siyasi böhranın yaranmasına gətirib çıxartdı.

Aprel siyasi böhranının Aprel işğalına çevrilməsinin digər səbəblərini də göstərək.

Hər şeydən əvvəl Rusiyanın hərbi müdaxiləsi göstərilməlidir - digər şərtlər olmasa idi belə nəhəng rus hərb maşını qarşısında Azərbaycanın tab gətirməsi problematik məsələ olardı (Azərbaycanın sovetləşməsi təcrübəsindən dərc almış gürcü hökuməti bütün hazırlıq tədbirlərinə baxmayaraq, Rusiyanın hərbi müdaxiləsi qarşısında davam gətirə bilmədi). Bununla belə işğalın asanlığını şərtləndirən başqa subyektlər də çox fəal şəkildə ölkəni fəlakətə sürüklədilər.

Azərbaycan kommunistləri (rəhbərləri əsasən qeyri-türklərdən ibarət idi) müstəqilliyin elan edilməsinin ilk günündən Azərbaycan istiqlalı prinsipinin qəti əleyhinə olmuş, bütün vasitələrlə ölkənin yenidən Rusiyanın təsir dairəsinə düşməsinə çalışmışlar. Müstəqil sovet Azərbaycanı şüarı Azərbaycan KP-nin yalnız taktiki-təbliğat addımı idi. Azərbaycan hökumətinin Rusiyanı dəstəkləyən yerli qüvvələrin fəaliyyətinə liberal münasibəti onların təxribatları üçün əlverişli şərait yaradırdı.Faktlar göstərir ki, Qafqazdakı yeni müstəqil dövlətlər arasında kommunistlərin pozucu

fəaliyyətləri üçün ən münasib şərait məhz Azərbaycanda yaranmışdı, sovet Rusiyasına ən loyal ölkə də məhz Azərbaycan idi. Aprel işğalından az sonra Azərbaycan hökuməti və onun devrilməsinin səbəblərini araşdıran naməlum müəllif ölkədə olan mətbuat və söz azadlığına nümunə olaraq Ə.H.Qarayevin Bakıda mitinqdəki nitqini misal gətirir: Denikini əzmək üçün Rusiya fəhlələri ilə Azərbaycan fəhlələri əl-ələ verərək, lazım gəlsə lap Azərbaycanın meyidinin üzərindən keçib Moskvalı yoldaşlarına kömək edəcəklər (41, 09.01.1920 - sitat 222-dən götürülmüşdür).

Azərbaycanda olan türkiyəli kommunistlər təxribat işlərində yerli kommunistlərdən geri qalmırdılar. Başda Xəlil paşa olmaqla əski ittihadçılar da rus təbliğatına uyub, Azərbaycan istiqlalına qənim kəsilmişdilər. Türkiyədə Milli Mücadilə Hərəkatının rəhbərləri, ilk növbədə K.Qarabəkir paşa da sənədlərin sübut etdiyi kimi, həqiqətən rus Ordusunun Anadoluya köməyə gedəcəyini düşünürdü. Bir sözlə, 1920-ci ildə ümumtürk tarixinin on faciəli hadisəsi yaşanmış oldu: müstəqil Azərbaycanın varlığı və Azərbaycan dövlətinin qurulması naminə verdiyi şəhidlərə rəğmən, iki il sonra Anadolu nümayəndələri Azərbaycanın öz istiqlalını itirməsində on məşum rol oynamış oldular.

1920-ci ilin Aprel hadisələri, xüsusilə Azərbaycan parlamentinin son iclasının materialları sübut edir ki, o zaman Azərbaycan istiqlalının yeganə ardıcıl müdafiəçisi Müsavat partiyası olmuşdur. Qalan az-çox mütəşəkkil siyasi qüvvələrin hamısı - İttihad, Əhrar, sosialist və başqa partiyalar - bəziləri bilərəkdən, digərləri siyasi sadəlövlüyü üzündən Azərbaycanın istiqlalının itirilməsində ölkənin gələcəyi və gələcək nəsilləri qarşısında tarixi məsuliyyət daşıyırlar. Azərbaycan parlamentinin son tarixi 27 aprel iclasında kommunistlərin şəxsində sovet Rusiyasının ultimatumuna qarşı yalnız Müsavat fraksiyası müqavimət göstərmişdi.

Fraksiyanın sədri M.Ə.Rəsulzadə demişdi: “Bizim fraksiyamız təslim olmağın əleyhinədir. Fəqət firqələrin əksəriyyətinin tələbinə görə və camaatımızın arasında daxili müharibə salmamaq üçün və əlavə bugünkü kommunist firqəsinin müstəqilliyimizi müdafiə edəcəklərini nəzərə alaraq, bütün ixtiyarın onlara verilməsinin tərəfdarıyam, bir şərtlə ki, kommunistlər istiqlaliyyət, millət və məmləkətimizi layiqincə müdafiə etsinlər. Yox, əgər bunlara əməl olunmazsa, ixtiyarımızı geri alaraq haqqımızı özümüzdə saxlayacağıq (31, 11.05. 1991).

Beləliklə, Azərbaycan istiqlalçılarının bütün cəhdlərinə baxmayaraq, ölkənin müstəqilliyi və suverenliyini qorumaq mümkün olmadı. Lakin 1918-1920-ci illər təcrübəsi gələcək nəsillər üçün əvəzsiz siyasi-mənəvi sərvət yaratdı. Bu illərin təcrübəsi göstərir ki:

- Şimali Azərbaycan çox mürəkkəb geopolitik duruma malikdir, onun müstəqillik və suverenliyini qoruyub saxlaması üçün bütün daxili potensialını toplaması tələb olunur;

- İstiqlalın qorunub-saxlanması yalnız millətin müstəqil yaşamaq istəyinin səviyyəsindən və qüdrətindən asılıdır; bir gün bağışlanan azadlıq, başqa bir gün geri alına bilər, ya azadlıq üçün fədakarlıq tələb edildikdə, ideoloji ab-havadan, ya istəkdən asılı olmayaraq dövlət marağına uyğun olaraq başqa dövlət, hətta qardaş məmləkət dəstəyini çəkə bilər;

Azərbaycan xalqı müstəqil dövlət həyatına layiqdir; xarici müdaxilə problemini həll etdiyi təqdirdə, demokratik dövlət qurmaq üçün o, kifayət qədər daxili potensiala malikdir.

# BİBLİOQRAFİYA

## I.SƏNƏDLƏR VƏ MATERİALLAR

A) Azərbaycan türkcəsində

1- Azərbaycan arxivi, №1-2, 1988.

2-Azərbaycan SSR EA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası. № № 2,3,4, 1989; № 2, 1990.

3 - Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. B.,1990.

4- Azərbaycan Cümhuriyyəti hökumətinin qanun və binagüzarlıq məcmui. №1-2, B., 1919.

5- V.İ.Lenin Azərbaycan haqqında. B., 1970.

6- 28 May 1919-cu il. Azərbaycan Cümhuriyyəti istiqlalının birinci səneyi-dövriyyəsi. B., 1919.

6a- Parisdəki sülh konfransına Qafqaz Azərbaycanı sülh nümayəndəliyinin tələbləri. -Azərbaycan Demokratik Respublikası. Tarix, ictimai-siyasi və ədəbi-mədəni həyat. B., 1992.

7 - Адрес календарь Азербайджанской Республики на 1920-й год, ч.2. Под ред. А.М. Ставровского. Б., 1920.

8 - Боевые подвиги частей Красной Армии (1918-1922 гг.). Сборник документов. М., 1957.

9- Борьба за победу Советской власти в Азербайджане. 1918-1920 гг. Документы и материалы. Б., 1967.

10 - Братья навеки. Документы и материалы об исторической дружбе русского и азербайджанского народов, т.1, Б., 1987.

11 - Больşевики в борьбе за победу социалистической революции в Азербайджане. Документы и материалы. 1917-1918 гг. Б., 1957.

12 - Документы внеşней политики СССР, т.1. М., 1957.

13 - Документы и материалы по внеşней политике Закавказья и Грузии. Тифлис, 1919.

14 - Из проşлого. Сборник материалов по истории Бакинской больşевистской организации и Октябрьской революции в Азербайджане. Б., 1924.

15 - Интернациональная помощь XI Армии в борьбе за победу Советской власти в Азербайджане. Документы и материалы. 1920-1921 гг. Б., 1989.

16 - Кавказский календарь на 1917 г. Тифлис, 1916.

17 - Коммунистическая Партия Азербайджана в резолюциях и реşениях съездов, конференций и пленумов ЦК, т.1. Б., 1986.
18 - Нагорный Карабах: разум победит. Документы и материаль. Б., 1089.
19 - О захватнических планах Американского империализма в отноşении Азербайджана - Труды Института истории АН Ачерб. ССР. Б., 1958.
19а - Программные документы мусульманских политических партий 1917-1920 гг. Оксфорд, 1985.
20 - Раевский А. Мусаватское правительство на Версальской конференции. Донесения председателя азербайджанской мусаватской делегации. Б., 1958.
21 - Революция и национальный вопрос, т.З. М., 1930.
22 - Топчибаşев А.М. Дипломатические беседы в Стамбуле (1918-1919 гг.). Б., 1994.
23 - Топчибаşев А.М. Меморандум. Б., 1993.
v) Qərbi Avropa dillərində
24 - Bulletin d'information de Q Azerbaïdjan. Paris, 1919-1920.
25 - Claims of the Peace Delegation of the Republic of Caucasian Azerbaijan presented to the Peace Sonference in Paris. Paris, 1919.
26 - Composition antropologiquc et ethnique de la population de Q Azerbaïdjan du Caucase. Paris, 1919.
27 - Esonomie and Financial Situation of Caucasian Azerbaijan. Paris, 1919.
28 - La Republique de Q Azerbaïdjan du Caucase. Paris, 1919.
29 - V Azerbaïdjan en chiffres. [Paris], 1919.

## II. DÖVRİ MƏTBUAT

### a) Qəzetlər

30 - Azərbaycan (Bakı)
31- Elm (Bakı)
32- İstiqlal (Bakı) 32a - İstiqlal (Berlin)
33 - Novruz (Bakı)
34 - Odlar yurdu (Bakı) 34a- Respublika (Bakı)
35 - Tarix (Bakı)
36 - Həyat (Bakı)
37- Азербаиджан (Baky)
38 – Бакинский рабочий (Baky)
39 – Жизнь национальностей (Москва)
40 – Заря Восток (Тифлис)
41 - Коммунист (Baky)
42 - Касрий (Baky)
43 - Haş путь (Baky)
44 - Русская мысль (Берлин)

### b) Jurnallar

45- Azərbaycan (Bakı)
45a - Azərbaycan (Ankara)
46 - Azərbaycan (Münhen)
47 - Azeri Türk (İstanbul)
48 - Yeni Qafqasya (İstanbul, ərəb qrafikasında)

49 - Кавказ (Париж)
50 - Kafkasya (Münhen)
51 - Müsavat bülteni (İstanbul)
52 - Пролетарская революция (Москва)
53 - Ulduz (Bakı)
54 - Xəzər (Bakı)
55 - Хазар (Baky)

**III. ARXİV MATERİALLARI**

56 - Azərbaycan Respublikasının Dövlət Arxivi (ARDA), fond 27, Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığı, siyahı 4,. iş 5.
56a - ARDA, fond 28 - Azərbaycan SSR Xalq Xarici İşlər Komissarılığı, siyahı 1, iş 33.
57 - ARDA, fond 28 - Azərbaycan SSR Xalq Xarici İşlər Komissarılığı, siyahı 1, iş 42.
58 - ARDA, fond 28 - Azərbaycan SSR Xalq Xarici İşlər Komissarılığı, siyahı 1, iş 146.
59 - ARDA, fond 85 - Azərbaycan SSR Xalq Maliyyə Komissarılığı, siyahı 8, iş 77.
59a - ARDA, fond 85 - Azərbaycan SSR Xalq Maliyyə Komissarılığı, siyahı 8, iş 13.
60 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 1, iş 31.
61 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 1, iş 43.
62 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 1, iş 115.
63 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 2, iş 39.
64 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 4, iş
65 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 4, iş 15.
66 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 4, iş 65.
67 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 7, iş 8.
68 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 10.
69 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 13.

70 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 31.
71 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 38.
72 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 40.
73 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 45.
73a- ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 47.
74 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 58.
74 a- ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 60.
75 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 62.
76 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 64.
77 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 66.
78 - ARDA, fond 894 - Azərbaycan Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 76.
79 - ARDA, fond 894 - Azərbaycan Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 80.
80 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 86.
81 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 94.
82 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 98.
83 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 99.
84 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 103.
85 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 106.
86 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 112.
87 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 115.
88 -ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 123.
89 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 135.
90 -ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 139.
91 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 141.
92 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 145.
93 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 147.
93a - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı10, iş 149.

94 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 150.
95 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 151.
96 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 152.
97 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 153.
98 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 188.
98a - RDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 192.
99 - ARDA, fond 894 - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 193.
100 - ARDA, fond 895 - Azərbaycan Respublikasının parlamenta, siyahı 1, iş 1.
101 - ARDA, fond 895 - Azərbaycan Respublikasının parlamenta, siyahı 1, iş 67.
102 - ARDA, fond 895 - Azərbaycan Respublikasının parlamenta, siyahı 1, iş 206.
103- ARDA, fond 895 - Azərbaycan Respublikasının parlamenta, siyahı 1, iş 217.
104 - ARDA, fond 895 - Azərbaycan Respublikasının parlamenta, siyahı 3, iş 314.
105 - ARDA, fond 896 - Azərbaycan Respublikası hökumətinin dəftərxanası, siyahı 1, iş 5.
106 - ARDA, fond 897 - Azərbaycan Respublikasının Gürcüstandakı diplomatik nümayəndəliyi, siyahı 1, iş 3.
107 - ARDA, fond 897 - Azərbaycan Respublikasının Gürcüctandakı diplomatik nümayəndəliyi, siyahı 1, iş 13.
108 - ARDA, fond 897 - Azərbaycan Respublikasının Gürcüstandakı diplomatik nümayəndəliyi, siyahı 1, iş 47.
109 - ARDA, fond 897 - Azərbaycan Respublikasının Gürcüstandakı diplomatik nümayəndəliyi, siyahı, 1, iş 112.
110 - ARDA, fond 897 - Azərbaycan Respublikasının Gürcüstandakı diplomatik nümayəndəliyi, siyahı 1, iş 114.
110a- ARDA, fond 897 - Azərbaycan Respublikasının Gürcüstandakı diplomatik nümayəndəliyi, siyahı 7, iş 26.
110b - ARDA,fond 897 - Azərbaycan Respublikasının Gürcüstandakı diplomatik nümayəndəliyi, siyahı 7, iş 29.
111 - ARDL, fond 970 Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, siyahı I, iş I.
112 - ARDA, fond 970 - Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, siyahı 1, iş 3.
113 - ARDA, fond 970 - Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, siyahı 1, iş 6.
114 - ARDA, fond 970 - Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, siyahı 1, iş 7.
115 - ARDA, fond 970, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, siyahı 1, iş 9.
116 - ARDA, fond 970 - Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, siyahı 1, iş 13.
117 - ARDA, fond 9/0 - Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, siyahı 1, iş 13.

118 - ARDA, fond 970 - Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, siyahı 1, iş 18.
119 - ARDA, fond 970 - Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, siyahı 1, iş 20.
120 - ARDA, fond 970 - Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, siyahı 1, iş 22.
121 - ARDA, fond 970 - Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, siyahı 1, iş 24.
122 - ARDA, fond 970 - Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, siyahı 1, iş 27.
123 - ARDA, fond 970 - Azərbdycan Respublikasının Xarici İşlər Nazirliyi, siyahı 1, iş 34.
124 - ARDA, fond 970 - Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, siyahı 1, iş 42.
125 - ARDA, fond 970 - Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, siyahı I, iş 50.
126 - ARDA, fond 970 - Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, siyahı 1, iş 56.
127 - ARDA, fond 970 - Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, siyahı 1, iş 57.
128 - ARDA, fond 970 - Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, siyahı 1, iş 65.
129 - ARDA, fond 970 - Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, siyahı 1, iş 67.

## IV. ƏDƏBİYYAT

**a) Azərbaycan türkcəsində**

220 - Azərbaycan tarixi, s. 3 I hissə, B., 1963
221 –Azərbaycan tarixi. Ən qədim dövrlədən XX əsrin əvvəllərinə qədər. B., 1993
222 - Azərbaycan höküməti və onun devrilməsi səbəbləri. – “Elm” , 25.05.1991
223 - Bünyadov Z. Azərbaycan parlamentinin son saatları “Elm” , 11.05.1991
224 - Vəkilov R. Azərbaycan Respublikasının yaranma tarixindən. “Azərbaycan”, 28. 05. 1919.
225 – Qarayev Y. Azərbaycan Respublikası. – Azərbaycan Demokratik Respublikası. Tarix, ictimai-siyasi və ədəbi-mədəni həyat. B.,1992, s. 6-18.
226 – Quliyev V. Azərbaycan Demokratik Respublikası xarici mənbələrdə. - Azərbaycan Demokratik Respublikası. Tarix, ictimai-siyasi və ədəbi-mədəni həyat. B.,1992, s. 47-62.

227 - Quliyev S. B. V.İ.Lenin və Azərbaycan Sovet hakimiyyətinin qələbəsi və möhkəmləndirilməsi uğrunda mübarizə. B., 1957
228 - Eloğlu S.Zəngəzur hadisələri. B., 1993.
229 - Ə.M.Topçubaşov. Azərbaycanın təşəkkülü. İstanbul, 1918. (Azərbaycan EA Xəbərləri, Tarix, fəlsəfə və hüquq seriyası. №3, 1990-da kirillə yenidən çap edilmişdir).
230 - Əbdülrəhmanlı N. Bakının qurtuluşu. - "Hərbi bilik", №5, 1995.
231 - Əzizbəyova P.Ə. Azərbaycanda sovet hakimiyyətinin qələbəsində böyük rus xalqının qardaşlıq köməyi. B., 1954.
232 - Əliyev M. Əli bəy Hüseynzadə - "Ədəbiyyat və incəsənət", 04.03.1988.
233 - Əliyev M. Məmməd Əmin Rəsulzadə. - "Elm" 07.10.1988.
234 - Əliyev M. Azərbaycan ruhu. - "Azərbaycan", Bakı, № 4, 1989.
235 - Əliyev M. Əbdül Vahab Məmmədzadə. - "Novruz", 20.02.1991.
236 - Əliyev M.B. Qanlı günlərimiz (1918-1920, Naxçıvan). B., 1993.
237 - Ziyadxan A. Azərbaycan. B., 1919 ("Ədəbiyyat",15.11. 1991).
238 - İbrahimov Z.İ. İngilis-amerikan müdaxiləçilərinə qarşı Azərbaycan xalqının mübarizəsi. B., 1950.
239 - İbrahimov Z.İ. sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi. B., 1957.
240 - Yaqublu N. Məmməd Əmin Rəsulzadə. B., 1991.
241 - Mədətov Q. Naxçıvanda sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili. B., 1958.
242 – Məmmədli E.Naxçıvan Araz türk respublikası (1918-1920) 02.07.1992; 09.07.1992.
243 – Məmmədli Ş. Parçalanmış Borçalı və ya 1918- ci il Ermənistan – Gürcüstan müharibəsinin acı nəticələri. B., 1991
244 – Mehdizadə M.Y. Beynəlmiləl siyasətdə petrol. B., 1994.
245 - Nərimanov N. Məqalələr, nitqlər, 4.1. B., 1971.
246 - Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Məqalələr və sənədlər. B., 1990.
247 - Nəsibzadə N. İnqilab, yoxsa işğal? – "Tarix, № № 3,4, 1990.
248 - Nəsibzadə N. AKP və istiqlal problemimiz.-Azadlıq, 14, 21, 28.03.1991.
249 - Nəsibzadə N. AKTT və Vətənin bütövlüyü problemi. - Azadlıq, 09.08.1991.

250 - Nəcəfov B. Azərbaycan Demokratik Respublikası (daxili və xarici siyasəti). B., 1992.
251 - Ratqauzer Y. Şura Azərbaycanı uğrunda mübarizə. B., 1929.
252 - Rəsulzadə M.Ə. Azərbaycanın təşkilində Müsavat. B., 1919. (Elm qəzetinin 18.01 və 25.01.1992-ci il tarixli saylarında yenidən çap edilmişdir).
253 - Rəsulzadə M.Ə. Panturanizm haqqında (Qafqaz problemi ilə əlaqədar). - Azərbaycan (Bakı), № 6, 1991.
254 - Tağıyeva Ş, Nəsibzadə N. 1918-1920-ci illərdə Azərbaycan - İran münasibətləri və Azadistan məsələsi. - Azərbaycan Demokratik Respublikası. Tarix. İctimai-siyasi və ədəbi-mədəni həyat. B., 1992.
255 - Hacıyev A. Qars və Araz Türk Respublikalarının tarixindən. B., 1994.
256 - Həsənov S. "Ağ ləkə"lərin qara kölgəsi"B., 1991.
257 - Həsənov S. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920). B., 1993.
258 - Həsənov S. 1918-ci ilin martı: Vətəndaş müharibəsi, yoxsa türk-müsəlman soyqırımı? – "Azadlıq" 27.03, 31. 03. 1995
259 - Həsənov S. 1920-ci ilin rus işğalı ərəfəsində Britaniyanını Azrbaycandan təcrid edilməsi. "Xudafərin" (Lukov Polşa), 1995.
260 - Çəmənzəminli Y.V. Xarici siyasətimiz. B.,1993.
261 – Şahgəldiyev K. Azərbaycanda sovet hakimiyyətinin qələbəsində rus xalqının köməyi. B., 1960.

**b) Türkiyə türkcəsində**
262 - Azeri. Mart faciesi. - Yeni Kafkasya, №13, 1341.
263 - Ahmet Seit Cefer. 27 Nisan. - Odlu yurt, №2 (27), 1931.
263a- Aliyarlı S. Milli harekatin ilkin dönemleri. - Yeni Forum, Ankara, № 271, 1991.
264 - Aydemir Ş.S. Makedonyadan Ortaasyaya Enver Paşa, s .3. İst., 1978.
265 - Baykara H. Birinci dünya savaşında Osmanlı ordusunda, istiklal savaşında Türkiye Ordusunda Azərbaycan asgeri kit'alari.- Türk kulturu, №22, 1964.
266 - Baykara H. Kafkasyada ermenilerin durumu ve Ermenistana sessizce ilhak edilen Azərbaycan toprakları. – "Türk kültürü", №84, 1969.
267 - Baykara H. Azərbaycanda ermeni baskısı ve Nahçıvan meselesi. - Türk kültürü, № 92, 1970.

268 - Baykara H. Azərbaycan istiklal dramı. – “Türk kültürü”. №79, 1969.
269 - Baykara H. Azərbaycan istiklal mücadelesi tarihi. İst., 1975.
270 - Baykos H. Büyük harpta Kafkas ve İrak cephesinde Beçinci kuveyi seferiye. – “Askeri mecmua”, № 60, 1942.
271 - Baytın A. İlk dünya harbinde Kafkas cephesi. İst., 1946.
272 - Berkuk S.Büyük harpda Şimali Kafkasyadakı faaliyetlerimiz ve 15.firkanın hareketi ve müharebeleri. – “Askeri mecmua”, № 35, 1934.
273 - Belgelerle ermeni sorunu (hazırlayan İ. Sakarya). Ank., 1984.
292a- Kars Milli-islam Şurası ve Cenubi-garbi Kafkas hökumeti muvakkata'i milliyesi. Belgeler, fotograflar. Hazırlayan S. Arslanoğlu. Ankara,1986.
293 - Keykurun N. Azərbaycan istiklal mücadelesi hatıraları. İst, 1964.
294 - Keskin M. Milli Mücadelede Azərbaycan Cumhuriyyetinin kuvayi milliye için nakdi yardım göndermesi. - Türk yurdu, №22, 1988.
295 - Kırzıoğlu F. Milli Mücadelede Kars, s.l. İst, 1960.
296- Kırzıoölu F. Kars tarihi, s.l, İst., 1953.
297 - Kotsef R. Kafkasya vahdeti. - Azüri türk, № 6-7 (28-29), 1929.
298 - Kurat A.N. Türkiye ve Rusya. Ank., 1990.
299- Kurtulan E. Türk ordusunun Azərbaycanda kalması meselesi. - Azərbaycan (Ankara), № 4-5-6, 1964.
300 - Kurtulan E. Askeran muharibesi ve Zengezur bölgesinin kurtuluşu.- Azərbaycan (Ankara), №10-11-12,1964.
301 - Mirza Bala. Ne ile oyunürler? (27 nisanın yalançı “tarih – silerinə”), - Kurtuluş, № 32, 1937.
302 - Mirza Bala. Azərbaycan - İran konferansı. - Azerbaycan (Ankara), №30-31, 1954.
303 - Mirza Bala. İstiklalımızın diplomatik cebhesi. -Azerbaycan (Ankara), №2-3, 1954.
304 - Mirza. Deli Petronun yolu ile (27 Nisan istilası münasibetile). - Kurtuluş, № 29-30, 1937.
305 - Mirza Bala. Milletlerarası münasibetlerde Azərbaycan. - Kurtuluş, № 43, 1938.
306 - M.B. Bakü katliaminin 20-ci yıldönümü. -Kurtuluş, № 41, 1938.
307 - Mehmetzade M.B. Bakünün Kurtuluş müharebesi. – Yeni Kafkasya, № 24, 1927.
308 - Mehmetzade M.B. Müstekil Sovet Azərbaycanı. – Yeni Kafkasya, № 12, 1926.
309 - Mirza. Azərbaycan ve Oktobr inkilabı. - Kurtuluş, № 13-14, 1935.

310 - Mirza. Komintern ve Azərbaycan. - Kurtuluş, № 15, 1935.
311 - Mehmetzade M.B. İstiklalımızın tanınması. - Azerbaycan (Ankara), N 10-11, 1955.
312 - Mehmetzade M. B. Tarihde Azərbaycan - Türkiye münasibetleri. - Yeni Kafkasya, № 17, 1341.
313 - Mehmetzade M.B. Türk Ordusunun Azərbaycanda kalması meselesi. - Kurtuluş, № 43, 1938.
314 - Mehmetzade M.B. Leninin 7.7.1918 tarihli telyazısı münasibetile. - Kurtuluş, № 19, 1936.
315 - Münşi H. 31 Mart. - Kurtuluş, № 5, 1935.
316 - Mir Yakub. Beynelmilel siyasetde petrol, İst., 1928.
317 - Mehmetzade M.B. Milli Azərbaycan hareketi. Milli Azerbaycan Müsavat Halk Firkası tarihi. [Varşava], 1938 (Ankara, 1991; Bakı, 1992).
318 - Mehmetzade M.B. Azərbaycan misaki-millisi. İst., 1927.
319 - Mehmetzade M.B. Milli hars hakkında. - Azeri Türk, № 34 1928.
320 - Mühlen, Patrik voən zur. Gamalihaç ile Kızılyıldız arasında. Ank., 1984.
321 - Nasıl oldu? - Yeni Kafkasya, № 15, 1341.
322 - Nesipzade N. Bağımsızlık sorunu.. - Yeni Forum, № № 278, 279, 1992.
323 - Nesipzade N. 1918-1920 yillarında Azərbaycan ve Terkiye arasında siyasi ilişkiler. - Azərbaycan (Ankara), № 275,1990.
324 - Resulzade M.E. Azərbaycan Cumhuriyyeti: keyfiyeti - teşekkülü ve şimdiki veziyyeti. İst., 1339-1341 (İstanbul, 1990, Bakı, 1990).
325 - Resulzade M.E. Azərbaycan Cumhuriyyetinin büyük devletler tarafından tanınması. - Azərbaycan (Ankara), № 10-11, 1955.
326 - Resulzade M.E. Asrımızın Siyavuşu. ist., 1923 (İstanbul, 1989; Bakı, 1991).
327 - Resulzade M.E. Çağdaş Azərbaycan tarihi. ist., 1951 (Bakı, 1991).
328 - Resulzade M.E. İstiklal mefkuresi ve genclik. ist., 1341, (Bakı, 1991). 147
329 - Resulzade M.E. Kafkasya Türkleri. – "Türk yılı", İstanbul, 48 1928. 280
330 - Resulzade M.E. Sovet istilası altında Azerbaycan,- Milliyyet ve bolşevizm. Mekaleler mecmuesi İst., 1928
331 - Resulzade M.E. Büyük facie. - Yeni Kafkasya, № 15, 1927.
332 - Resulzade M.E. Kara yildönümünde. - Kurtuluş, № 6, 1935.

333 - Resulzade M.E. Kara gun münasibetile. - Kurtuluş, № 18, 1936.
334 - Resulzade M.E.  Kafkasya  meselesi.- Azərbaycan (Münhen), № 11-12, 1952.
335 - Resulzade M.E. Milli Azərbaycan faciesi. - Kurtuluş, № 29, 30, 1937.
336 - Resulzade M.E. Mühittin Birgen'e göre Azərbaycan-Türkiye münasibetleri. - Kurtuluş, № 36, 1937.
337 - Resulzade M.E. Azərbaycan cumhuriyyetinin büyük dövletler terefinden tanınması. - Azərbaycan (Ankara), № 10-11, 1955.
338- Resulzade M.E. Azərbaycan davası. - Azərbaycan (Ankara), № 2-3, 1954.
338a - Resuloğlu M.A. Müsavat partisinin kuruluşu. - Müsavat bülteni, № 4, 1962.
339 - Rustambeyli §. 27 Nisan 1920 Hatirasi.  Azərbaycan Yurt Bilgisi, № 16, 1933.
340 - Rüştü E. Büyük harpda Bakü yollarında. – “Askeri mecmua” 34, 1934.
341 - Sadik Mehmet. Kafkasya meselesi. - Azeri türk, № 2 (24), 1929.
342 - Saray M. Azərbaycan türkleri tarihi. İst.,   1993.
343 - Sünbül T. Azərbaycan dosyası. Ank., 1990.
344 - Tansel S. Mondros'dan Mudanya'ya kadar, s.3. Ank., 1978.
345 -Tevetoğlu F. Milli Mücadelede Mustafa Kemal Raca - general Harbart görüşmesi. - Türk kültürü, № 76, 1969.
346 - Türkoğlu H.K. Osmanlı ve sovyet belgeleriyle ermeni məzalimi. Ank., 1982.
347 - Uras E. Tarihde ermeniler ve ermeni meselesi. İst., 1987.
348 - Ünal S. Türk ve islam aleminde Azərbaycanın yeri. Ank., 1987.
349 -Ünüvar V. İstaklal harbinde bolşeviklerle sekizay. İst., 1948.
350 -Yıldırım H. Rus-türk-ermeni münasibetleri (1914-1918). Ank., 1990.
351 - Zeyneloğlu S. Mühteser Azərbaycan tarihi. tst., 1924  (Bakı, 1992)

**b) rus dilində**

352 - Авалишвили 3. Независимость Грузии в международной политике. 1918-1921 гг. Воспоминание. Тифлис, 1925.

352a - Агамалиева Н, Худиев Р. Азербайджанская республика. Страницы политической истории 1918-1920 гг. Б., 1994.
353 - Азимов Г.С. Бакинская коммуна. Б., 1982.
354- Алиев Г.З. Турция в период правления младотурок (1908-1918). М., 1972.
354a - Алияров С. Нефтяные монополии в Азербайджане в период первой мировой войны (1914-1917). Б, 1974.
355 - Алдерванди - Марескоти Л. Дипломатическая война. Воспоминания и отрывки из дневника (1914-1919). М., 1947.
356 - Аркомед С.Т. Материалы по истории отпадения Закавказья от России. Тифлис, 1923.
357 - Арский Р. Кавказ и его значение для Советской России. Петроград, 1921.
358 - Аршаруни А.И; Очерки панисламизма и пантюркизма в России. М., 1931.
359 - Аскеров-Кенгерлинский А. Трагедия Азербайджана. - "Хазар", № 3, 1990.
360 - Базиянц А.Н. К вопросу о захватнической политике США в Азербайджане (1919-1920). - Ученые записки Института востоковедения, т.XIX, М., 1958.
361 - Бадаев А.Азербайджанское национальное-демократическое движение. 1917-1920. Б., 1990.
362 - Березкин А. США - активный организатор и участник военной интервенции против Советской России (1918-1920). М., 1952.
363 - Большая Советская Энциклопедия, т.8. М., 1972.
364 - Вельский С. и Манвелов А. Революция 1917 года в Азербайджане. Б., 1927.
365 - Бунinfoятов З. Азербайджанская Демократическая Республика. -"Azərbaycan", 20.04.1990.
365а. Век[илов] Р. История возникновения Азербайджанской Республики. - "Азербайджан", 28.05.1919.
366 - Гулиев М. Враги Октября в Азербайджане. Б., 1927.
367 - Гусейнов М.Д. Тюркская демократическая партия федералистов "Мусават" в прошлом и настоящем. Б., 1927.
368 - Гусейнов И.А. Победа Советской власти в Азербайджане в 1920 г. и помощь XI Красной Армии. - Труда Азерб. филиала ИМЭЛ при ЦК ВКП(б), т. XVIII, Б., 1952.
369 - Гусейнов И.А. Историческое значение большевистского лозунга "Независимый Советский Азербайджан".-Ученые записки АГУ им. С.ДО.Кирова, №10, 1957.

370 - Гулиев Дж.Б. Борьба Коммунистической Партии за осуществление ленинской национальной политики в Азербайджане. Б., 1970.
371 - Гусейнов М.Д. Из недавнего прошлого Закавказья (К нашим переговорам с Англией). - "Бакинский рабочий", 19, 23, 24, 07. 1924.
372 - Гусейнов М.Д. Идея о независимости Азербайджана и партия "Мусават". - "Заря Востока", 28.04.1925.
373 - Гусейнов И.А. Борьба трудящихся Азербайджана против деникинщины в 1919-1920 гг. - Труды Азерб. филиала ИМЭЛ при ЦК ВКП(б), т.IX, Б., 1948.
373а - Гусейнов Т. Октябрь в Азербайджане. Б., 1927.
374 - Дарабади П. Военные проблемы политической истории Азербайджана начала XX века. Б., 1991.
375 - "Демократическое"правительство Грузии и английское командование. - "Красный архив", т.6 (25), М., 1927.
376 - Джемаль-паша. Записки 1913—1919 гг. Тифлис, 1923.
377 - Дебидур А. Дипломатическая история Европы, т.2. М., 1947.
378 - Драбкина Е.А. Грузинская контрреволюция. Л., 1928.
379 - Джабиев Г. В 23 час от Яламы до Баку (из личных воспоминаний). - "Коммунист", 28.04.1921.
380 - Деникин А.И. Очерки русской смуты, тт. 1-2, Париж, тт. 3-5, Берлин, 1924-1926 (М, 1991).
381 - Денстервиль Л.Британский империализм в Баку и Персии в 1917-1918 г. Тифлис, 1925.
382 - Егоров В. Вторая годовщина советского переворота в Азербайджане. - "Правда", 27.04.1922.
383 - Енукидзе Д.Е. Разгром и изгнание интервентов из Закавказья. Тбилиси, 1960.
384 - Ефремов М.Взятие Баку, - "Военный вестник", №7, 1922.
385- Ефремов М.Г. Как мы разгромили мусаватистов и интервентов (15-летие со дня освобождения Баку). - "Красная звезда", 27.04,1935.
386 - Жвания Г.К. Великий Октябрь и борьба большевиков Закавказья за Советскую власть. Тбилиси, 1967.
387 - Искендеров М.С. Из истории борьбы Коммунистической Партии Азербайджана за победу Советской власти. Б., 1958.
388 - История дипломатии, т.2. М., 1945.
389 - История Коммунистической Партии Азербайджана Б., 1963.

390 - Кадишев А.Б. Интервенция и гражданская война Закавказье. М., 1960
391 - Караев А.Г. Из недавнего прошлого. Б., 1923.
392 - Каринян А.Шаумян и националистические течения на Кавказе. Б., 1928.
392а- Кариби. Красная книга. Тифлис, 1920.
393 - Карр Э. Большевистская революция 1917-1923. М, 1990.
394 - Кемаль М. Воспоминания президента Турецкой публики. М.,1924.
395 - Киров С.М. Статьи, речи, документы, т.1, М., 1936
396 - Корнштейн Е.Н. Провал немецко-турецкой оккупации в Закавказье в 1918 г. Тбилиси, 1952.
397 - Корсун Н.Г. Первая мировая война на Кавказское фронте. М.,1951.
398 - Кузнецова С. Крах турецкой интервенции в Закавказье. - "Вопросы истории", №9, 1951.
399 - Клесникова Н.Н. По дорогам подполья (Из воспоминаний). Б., 1966.
400 - Кочарли Т.К. Исторический поворот в судьбах азербайджанского народа. Б., 1980.
401 - Кулиев М. Наследие проклятого прошлого (По материалам мусаватистского архива). - "Бакинский рабочий", 25.07.1927.
402- Ленин В.И. Полное собрание сочинений. Т.40.
403 - Лорд Берти. За кулисами Антанты. - Дневник Британского посла в России. 1914-1919. М.-Л., 1927.
404 - Ллойд Джордж Д. Военные мемуары, тт. 1-6, М., 1934-1938.
405- Люденд орф Э. Мои воспоминания о войне 1914-1918 гг, т.2, М., 1924.
406 - Макарова Г.П. Осуществление ленинской национальной политики в первые годы Советской власти (1917-1920 гг.). М, 1969.
407 -Мансуров А. Белые пятна истории и перестройка. Б., 1990.
408 - Марунов Ю.В. Пантюркизм и панисламизм младотурок (1908-1918). - "Краткие сообщения Института народов Азии АН СССР", Вып. 45, М., 1961.
409- Микоян А.И. Дорогой борьбы. М., 1971.
410- Мирошников Л.И. Англо-индийские войска в Иране, Закавказье и Туркестане в 1914 - 1920 гг. - Краткие сообщения Института востоковедения АН СССР, Вып. 35, М., 1959.
411- Мосесов П.Б. Советская власть на Мутани (апрель-июль 1919 г.). - Известия АН Азерб. ССР, № 12, 1947,

412- Мусабеков Г. Два пути. Б., 1930.
413- Мусабеков Г. Октябрьская революция и основные достижения Советской власти в Азербайджане. Б., 1927.
414- Наджафов Б. Лицо врага. История армянского национализма в Закавказье в конце XIX - начале XX века, 4.2, Б., 1994
415 - Нариманов Н. Избранные произведения, т.2, Б., 1989.
416 - Найдель М.И. и Согомонов Ю.В. К истории интервенции США в Закавказье в 1917-1921 гг. - "История СССР", №3, 1961.
417 - Нихольсон Г. Как делался мир в 1919 г. М., 1945.
418 - Нитти Ф. Вырождение Европы. М., 1923.
419 - Очерки истории Коммунистической Партии, т.1, Б.,1985.
420 - Осипов М.К. К вопросу об английской интервенции
в Азербайджане в 1918-1919 тт. - Труды Азерб. филиала ИМЭЛ при ЦК ВКП (б), т.ХП, Б., 1948.
421 - Пипия Г.В. Германский империализм в Закавказье в 1910-1918 тт. М., 1978.
422 - Пионтковский С. Гражданская война в России. 1918-1920. Хрестоматия. М., 1925.
423 - Против буржуазной фальцификации истории советского общества. М., 1960.
424 - Пуанкаре Р. Происхождение мировой войны. М, 1924.
425 - Раевский А. Английская интервенция и мусаватское правительство. К истории интервенции и контре-волюции в Закавказье. Б., 1927.
426 - Раевский А. Английские "друзья" и мусаватские "патриоты". Б., 1927.
427 - Раевский А. Мусаватское правительство на Версальской конференции. Донесения председателя азер-байджанской мусаватской делегации. Б., 1931.
428 - Ратгаузер Я. Борьба за Советский Азербайджан. Б., 1928.
429 - Ратгаузер Я. А. Революция и гражданская война в Баку, ч.1. 1917-1918. Б., 1927.
430 - Расулзаде М.Э. О пантуранизме (В связи с Кавказской проблемой). Париж, 1930.
431 - Рустамбейли Ш. Из печального прошлого. - "Кавказ", № 7-8, 1935.
432 - Сеф С. К вопросу о социальной сущности "Мусавата". - "Большевики Закавказья", № 5-6, 1928.
433 - Стеклов Л. Армия Мусаватского Азербайджана. Б., 1928.

434 - Сумбатзаде А.С. Социально-экономические предпосылки победы Советской власти в Азербайджане. Б., 1972.
435- Салех бей. Армянство. Б., 1994.
436- Саркис. Борьба за власть (Опыт истории Бакинской организации АКП (б) за 1918-1920 годы). Б., 1930.
437 - СССР и Турция. 1917-1979. Под ред. М.А. Гасратяна и П.П.Моисеева. М., 1981.
438 - Ставровский А. Американец в Закавказье 1919 г. «Новыи Восток»- №1(7), 1925.
439 - Султанов Г. 28 Апреля. - "Бакинский рабочий", 28.04.1924.
440 - Токаржевский Е.А. Бакинские большевики - организаторы борьбы против германо-турецких интервентов в Азербайджане в 1918 году. - Труды Азерб. филиала ИМЭЛ при ЦК ВКП(б), т.VI, Б., 1947.
441 - Токаржевский Е.А. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. Б., 1957.
442 - Фаталибей А. Кавказ. - "АхегЬаусап" (Мштеп), № 2, 1952.
443 - Хейфец А.Н. Советская Россия и сопредельные страны Востока в годы гражданской войны (1918-1920). М., 1964.
444 - Хачапуридзе Г. Большевики Грузии в боях за победу Советской власти. М., 1951.
445- Черчиль У. Мировой кризис. М., 1932.
446 - Чичерин Г.В. Историческое значение советизации Азербайджана. - "Бакинский рабочий", 14.05.1924.
447- Шаумян С. Бакинская коммуна 1918 года. - "Пролетарская революция", № 12 (59), 1926.
448 - Штейн Б.Е. Русский вопрос на Парижской мирной конференции (1919-1920 гг.). М., 1949.
449 - Эмиров Н. Установление Советской власти в Дагестане и борьба с германо-турецкими интервентами (1917-1919). М,, 1949
450 - Эфендиев СМ. Конец английской оккупации Закавказья. - "Жизнь национальностей", 23.09.1919.
451 - Эфендиев СМ. Условия апрельского переворота. - "Бакинский рабочий", 06.05.1930.
452 - Якубов С. Освободитель Азербайджана. (Серго Орджоникидзе и установление Советской власти в Азербайджане). - "Комсомольская правда", 18.02.1938.

**q) Qərbi Avropa dillərində**


453- Allen W.E.D. and Muratoff P. Caucasian Battlefilds: A History of the Wars and Turco-Caucasian Border (1828-1921). Cambrige, 1953.
454 - Altstadt Audrey L. The Azerbaijani Türks: Power and Identity under Russian Rule. Stanford, 1992.
455 - Bradley Y. Allied Intervention in Russia. 1917-1920. London, 1968.
456 - Gurun K. The Armenian File. The Myth of Innosensc Expossed. London-Nisəsia-lstanbul, 1985.
457 - Hovannisian R.G. Historical Memory and Foreign Relations; The Armenian Perspective. - The Legasy of Rus¬sia and the New States of Eurasia, ed. by S.F. Stan. N.-Y.-London, 1994.
458 - Hovannisian R.G. The Republic of Armenia. 1918-19. Berkley, 1972.
459- Hostler Ch.W. Türkism and the Soviets. London, 1957.
460- Kazemzadeh F. The Struggle for Transcaucasia (1917-1921). N.-Y., 1951.
461 - Kolarz V. Russia and her Colonies. London, 1953.
462 - Lenszowski G. Russia and the West in Iran. 1918-1948. N.-Y., 1952.
463 - Mir-Yacub. Le Problème du Caucase. Paris, 1933.
464 - Munşi Hilal. Die Republik Azerbeidschan. Berlin, 1930.
465 - Öke M.K. The Armenian Question. London-İstanbul, 1988.
466 - Pipes R. The Formation of the Soviet Union. Communism and Nationalism. 1917-1923. Camb., 1964.
467 - Rasulzade M.E. Azerbeidjan. Paris, 1936.

# Əlavələr

**Cədvəl 1**

**QAFQAZDA ƏHALİNİN MİLLİ VƏ DİNİ TƏRKİBİ**
(1916-cı il yanvarın 1-i üçün)

| | |
|---|---|
| 1. Türklər | 2.455.315 |
| O cümlədən | |
| Şiə türklər | 1.510.847 |
| Sünni türklər | 944.468 |
| 2.Kürdlər | 142.302 |
| 3.Dağlı xalqlar | 1.352.078 |
| 4. Gürcü müsəlmanları | 139.606 |
| **Müsəlmanlar cəmi:** | **4. 089. 301** |

| | |
|---|---|
| 5. Gürcülər | 1.652.094 |
| 6. Ermənilər | 1.859.653 |
| 7. Ruslar | 4.023.141 |
| O cümlədən | |
| Cənubi Qafqaz rusları | 462.489 |
| Şimali Qafqaz rusları | 3.560.652 |
| **Xristianlar cəmi:** | **7. 534.888** |

Mənbə: Kavkazskiy kalendar ha 1917-i qod. Tiflis. 1916, s. 234-237; Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 28, siyahı 1. İş 42, v. 5.

## CƏNUBİ QAFQAZ ƏHALİSİNİN MİLLİ TƏRKİBİ *
## (1916-cı il yanvarın 1-i üçün)

**Cədvəl 2**

| | Müsəlmanlar | | Ermənilər | | Gürcülər | | Ruslar | | Digərləri | | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Sayı | % | Sayı | % | Sayı | % | Sayı | % | Sayı | % | |
| 1.Dağıstan vil.** | 653.384 | 91,4 | 4.752 | 0,7 | - | - | 36.123 | 5,0 | 20.600 | 2.9 | 714.859 |
| 2.Bakı qub. | 939.648 | 73,5 | 120087 | 9,3 | 3.372 | 0,3 | 177.234 | 13,8 | 41.234 | 3.1 | 1.281.575 |
| 3. Gəncə qub. | 797.880 | 62,5 | 418.859 | 32,9 | 1.030 | 0,1 | 36.777 | 2.3 | 20.585 | 1.6 | 1.275-131 |
| 4.Zaqatala vil. | 85.136 | 91,9 | 2.530 | 2,7 | 4.664 | 5,0 | 326 | 0,4 | 42 | - | 92.698 |
| 5.Tiflis qub. | 182.938 | 12,4 | 415.123, | 28,1 | 580.957 | 39,5 | 152.809 | 10,3 | 141.581 | 9.7 | 1.473.308 |
| 6. Kutais qub. | 762 | 0,1 | 4.605 | 0,6 | 992.931 | 95,9 | 15.885 | 1,5 | 20.228 | 1.9 | 1.034.411 |
| 7.İrəvan qub. | 422.773 | 37,7 | 669.871 | 59,7 | 374 | 0,3 | 16.103 | 1,4 | 11.121 | 0.9 | 1.120.242 |
| 8. Qars vil. | 171.104 | 46,9 | 118.213 | 32,4 | 131 | 0.4 | 18.997 | 5,1 | 55.769 | 15,2 | 364.214 |
| 9. Batum vil | 86.320 | 71,0 | 15.182 | 12,2 | 8-598 | 6,9 | 8.545 | 6.9 | 4.176 | 3,0 | 122.821 |
| **Cəmi:** | 3-339.945 | 44.7 | 1.769.122 | 23,6 | 1.592.056 | 21,3 | 462.799 | 6,2 | 315,336 | 4,2 | 7.479.259 |

* Cədvəldəki bəzi qeyri-dəqiqlikləri rəsmi statistik qaynaqdakı uyğunsuzluqla bağlıdır.

** Dövrün rus statistikası Dağıstanı Cənubi Qafqaza aid edir.

Mənbə: Kavkazskiy kalendar na 1917-i qod. Tiflis, 1916. S. 178-221; Azərbaycan Respublikasının Dövlət Arxivi, fond, 28, siyahı 1, iş 42, v. 4.

**BAKI QUBERNİYASI ƏHALİSİNİN MİLLİ TƏRKİBİ**
**(1916-cı il yanvarın I-i üçün)**

**Cədvəl №3.**

| Qəzalar | Ermənilər | | Müsəlmanlar | | Digərləri | | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| | Sayı | % | Sayı | % | Sayı | % | |
| Quba şəh. | 579 | 2,1 | 11.465 | 42,5 | 14.912 | 55,3 | 26.956 |
| Lənkəran şəh. | 550 | 3,1 | 15.229 | 85,5 | 2.022 | 11,4 | 17-801 |
| Şamaxı şəh. | 4.534 | 16,3 | 21.17 | 76,3 | 2.046 | 7,4 | 27.752 |
| Şəhərlərdə cəmi: | 5.663 | 7,8 | 47.866 | 66,2 | 18.980 | 26 | 72509 |
| Bakı qəzası | 32 | 0,3 | | 97,3 | 397 | 2,4 | 16.263 |
| Göyçay | 17.207 | 12,7 | 112.73 | 84,2 | 4.159 | 3,1 | 134.098 |
| Cavad | 984 | 0,6 | 134.52 | 83,2 | 26.793 | 16,2 | 162.305 |
| Quba | 933 | 0,4 | 164.78 | 96.5 | 5.528 | 3,1 | 171.248 |
| Lənkəran | 286 | 0,2 | 168.90 | 91 | 167331 | 8,8 | 185.578 |
| Şamaxı | 17.816 | 13,3 | 96.604 | 72,2 | 19.380 | 14,5 | 133.800 |
| Qəzalarda cəmi: | 37.258 | 4,6 | 603.39 | 86,4 | 72.588 | 9 | 803.237 |
| Quberniyada (Bakısız) cəmi | 42.921 | 4,9 | 741.25 7 | 85 | 91468 | 10,1 | 875.746 |
| Bakı şəhəri | 77.166 | 19,0 | 198.39 | 48,7 | 130.272 | 32,3 | 405.829 |
| | | | | | | | |

* O cümlədən cəmi 501 kürd.

Mənbə: Kavkazskiy kalendar na 1917-i qod. Tiflis, 1916. S. 178-221; Azərbaycan Respublikasının Dövlət Arxivi, fond, 28, siyahı 1, iş 42, v. 8.

## GƏNCƏ (YELİZAVETPOL) QUBERNİYASI ƏHALİSİNİN MİLLİ TƏRKİBİ
## (1916-ci il yanvarın 1-i üçün)

**Cədvəl № 4**

| Qəzalar | Ermənilər | | Müsəlmanlar | | Digərləri | | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| | Sayı | % | Sayı | % | Sayı | % | |
| Gorus şəhəri | 1.724 | 78,3 | 247 | 11,2 | 230 | 10,5 | 2.201 |
| Yelizavetpol şəh. | 12.125 | 21,0 | 38.331 | 66,4 | 7.275 | 12,6 | 57.731 |
| Nuxa şəhəri | 8009 | 15,3 | 43,565 | 83,4 | 669 | 1,3 | 52,243 |
| Şuşa şəhəri | 23.396 | 53,3 | 18.762 | 42,8 | 1.711 | 3,9 | 43.869 |
| Əreş mahalı | 19.161 | 19,3 | 79.090 | 79,6 | 1.149 | 1,1 | 99.400 |
| Cavanşir mah. | 22.008 | 29.0 | 52.998 | 69,9 | 724 | 0,1 | 75.730 |
| Yelizavetpol m. | 56.589 | 26,4 | 139.328 | 64,9 | 18.829 | 8,7 | 214.746 |
| Zəngəzur mahalı | 99.331 | 44,3 | 123.148 | 54,9 | 1.718 | 0,8 | 224.197 |
| Qazax mahalı | 61.597 | 44,9 | 68.216 | 49,8 | 7.236 | 5,3 | 137.049 |
| Qaryagin mahalı | 21.755 | 24,3 | 65.641 | 73,3 | 2.188 | 2,4 | 89.584 |
| Nuxa mahalı | 17.751 | 13,3 | 101.574 | 76,1 | 14.180 | 10,6 | 133.505 |
| Şuşa mahalı | 75.413 | 52,1 | 66.525 | 45,9 | 2.938 | 2,0 | 144.876 |
| **Şəhərlərdə cəmi:** | 45.254 | 29,0 | 100.905 | 64,7 | 9.885 | 6.3 | 156.044 |
| **Mahallarda cəmi:** | 373.605 | 33,4 | 696.520 | 62,2 | 48.962 | 4,4 | 1.119.087 |
| **Quberniyada cəmi:** | 418.859 | 32,9 | 797.425* | 62,5 | . | 4,6 | 1.275.131 |

* O cümlədən 3802 kürd.

## İRƏVAN QUBERNİYASININ QƏZALAR ÜZRƏ ƏHALİSİNİN TƏRKİBİ

**(1916-cı il yanvarın 1-i üçün)**

**Cədvəl №5**

| Qəzalar | Müsəlmanlar | | Ermənilər | | Digərləri | | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| | Sayı | % | Sayı | % | Sayı | % | |
| Şərur-Dərələyəz | 60.183 | 66,7 | 29.165 | 32,3 | 902 | 1.0 | 90.250 |
| Sürməli | 66.370 | 63.6 | 32.686 | 31,2 | 5.735 | 5,2 | 104.791 |
| Naxçıvan | 81.708 | 59,0 | 54.209 | 40,0 | 942 | 1.0 | 136.859 |
| Müsəlmanların çoxluqda olduqları qəzalarda cəmi | 208.261 | 62,74 | 116.060 | 34,96 | 7.579 | 2,28 | 331.900 |
| İrəvan (qarışıq) | 93.544 | 45,5 | 106.933 | 52,0 | 5.140 | 2,5 | 205.617 |
| Yeni Bərazid (qarışıq) | 54.085 | 28,7 | 129.347 | 68,5 | 5.427 | 2,8 | 188.859 |
| Eçmiədzin (erməni) | 52.081 | 31.0 | 115.026 | 68,6 | 679 | 0. 4 | 167.786 |
| 4 Aleksandropol( erm.) | 15.152 | 6,7 | 202.505 | 90,0 | 8.423 | 3,3 | 226.080 |
| Ermənilərin çoxluqda olduqları qəzalarda cəmi: | 214.862 | 27,15 | 553.811 | 70,25 | 19.669 | 2,60 | 788.342 |
| Irəvan quberniyası cəmi: | 423.123* | 37,77 | 669 871 | 59,79 | 27.248** | 2.44 | 1.120.242 |

***** O cümlədən 36.500 müsəlman kürd.

****** O cümlədən 12.624 yezdi kürd

Mənbə: Kavkazskiy kalendar na 1917-i qod. Tiflis, 1916, s.216-218; Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 28, siyahı 1, iş 42, v. 11

## BORÇALI MAHALI ƏHALİSİNİN MİLLİ TƏRKİBİ
## (1886 və 1909-cu illərdə)

| Polis məntəqəsi | | | O cümlədən | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Türklər | | Ermənilər | | Gürcülər | | Digərləri | |
| | 1886 | 1909 | 1886 | 1909 | 1886 | 1909 | 1886 | 1909 | 1886 | 1909 |
| Borçalı | 19.109 | 34.107 | 12.384 | 15.884 | 6.724 | 15.615 | 1 | 420 | 36 | 1.188 |
| Yekaterinfeld | 13.937 | 20.693 | 10.028 | 15.342 | 1.436 | 1.103 | 543 | 1.862 | 1.966 | 2.382 |
| Trialet | 35.989 | 48.950 | 8.974 | 8.821 | 6.333 | 9.541 | 3.578 | 6.090 | 17.104 | 24.498 |
| Loru (Lori) | 32.776 | 54.406 | 1.657 | 4.446 | 23.339 | 39.518 | 27 | - | 7.753 | 10.442 |
| Mahal üzrə cəmi: | 101.811 | 158.152 | 33.043 | 45.493 | 37.832 | 65.777 | 4.149 | 8.372 | 26.787 | 34.510 |

Mənbə: Kavkazskiy kalendar na 1917-i qod. Tiflis, 1916, s. 191-195

**BORÇALI MAHALI ƏHALİSİNİN MİLLİ TƏRKİBİ**
**(1916-cı il yanvarın 1-i üçün)**

**Cədvəl № 7,**

| | Sayları | % |
|---|---|---|
| Ruslar o cümlədən | 8.772<br>3.727 | 5.2<br>- |
| Gürcülər | 10.419 | 6.2 |
| Ermənilər | 57.391 | 33.8 |
| Türklər o cümlədən şiələr və sünnilər | 51.230<br>17.910<br>33.320 | 30.3<br>-<br>- |
| Digərləri | 41.539 | 24.5 |
| Cəmi | 169.351 | 100 |

*Mənbə: Kavkazskiy kalendar na 1917-i qod. Tiflis, 1916, s. 210-213

## GÜRCÜSTANIN İDDİA ETDİYİ ƏRAZİLƏR

**Cədvəl №9**

| | Cəmi əhalinin sayı | O cümlədən | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Müsəlmanlar (türklər, ingiloylar, kürdlər və b.) | | Gürcülər | | Digərləri | |
| | | Sayı | % | Sayı | 7o | Sayı | % |
| Zaqatala | 92.698 | 85.136 | 91,94 | 4464 | 5,0 | 2.898 | 3,1 |
| Sıtax qəzasının cənub-qərb hissəsi | | 6.728 | 100 | - | - | - | - |
| Qarayazı | 8.356 | 7.419 | 88,8 | - | - | 937 | 14,2 |
| Borçalının türk zonası | 39.580 | 36.615 | 93,0 | 1.862 | 4,5 | 1.103 | 2,5 |
| Sürməli | 147.362 | 135.898 | 92,3 | 6.526 | 4,4 | 4.938 | 33 |

Mənbə: Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 970, siyahı 1, iş 227. V. 1-20. Azərbaycan Respublikasının Dövlət Arxivi fond 28, siyası 1, iş 42, v. 1-5; Azərabycan SSR EA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, №2, 1990, s. 47

## ERMƏNİSTANIN İDDİA ETDİYİ ƏRAZİLƏR

**Cədvəl №9.**

| | Cəmi əhalinin sayı | O cümlədən | | | |
|---|---|---|---|---|---|
| | | Müsəlmanlar (türklər, gürcülər və b.) | | Ermənilər və başqaları | |
| | | Sayı | 7. | Sayı | % |
| Göyçə (Dəvəli, Mərzə və Yeni Bəyazid qəzasının Qızıldərə polis məntəqəsi) | 85.718 | 66.653 | 74,3 | 22.065 | 25,7 |
| Naxçıvan (Naxçıvan, Şərur-Dərələyəz qəzaları, irəvan qəzası, 1-ci və 1-ci polis məntəqələri, 6-cı polis məntəqəsinin bir hissəsi) | 393.747 | 238.169 | 60,5 | 155.578 | 39,5 |
| Sürməli | 104.791 | 66.370 | 63,6 | 38.421 | 36,4 |
| **Cəmi:** | 584 265 | 368.192 | 63 | 216.064 | 37 |

*Mənbə: А.Шепотие. Доклад о спорных Кавказских территориах, на которые имует права самоопределившиесиа Азербаиджанские турки. Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 970, siyahı 1, iş 227. V. 1-20Azərbaycan Respublikasının Dövlət Arxivi fond 28, siyası 1, iş 42, v. 1-5; Azərabycan SSR EA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, №2, 1990, s. 53